# İMAN QADAĞAN OLUNANDA

## 40 GÜN TƏQİB OLUNAN MƏSİHÇİLƏRLƏ BİRGƏ

Tod Netlton

# *"İman qadağan olunanda"* **kitabı üçün rəylər**

"Məsihçilərin təqiblərə sədaqətlə dözməsi mənim üçün bir nümunə idi. Bu, Türkiyədə həbsdə olduğum iki il ərzində məni ruhlandırdı. İsa Məsih üçün əziyyət çəkən insanların uzun bir siyahısı var. Bəziləri digərlərinə nisbətən daha çox mübarizə aparmışdı. Mən də mübarizə apardım, amma əsas axıra qədər imanda möhkəm qalmağım idi. Əgər Məsih uğrunda əzab çəkənlər siyahısında olmağa çağırılmışıqsa, onda Todun bu kitabda topladığı hekayələr bizi təqiblərə hazırlamaqda böyük əhəmiyyət kəsb edir. Bu, iman uğrunda mübarizədə, həqiqətən, çox vacib məsələdir."

**PASTOR ANDREY BRANSON** | Türkiyədə Məsih uğrunda keçmiş məhbus

"Mən «İman qadağan olunanda» kitabını böyük maraqla oxudum və bu məni məyus etmədi. Kitab təqib olunan imanlılardan uzaqda rahat yaşayan oxucunu müşahidəçidən onların iztirablarının müşahidəçisinə çevirir. Bu kitab bizi iman yolunda əzab çəkənlərin halına acımaqdan onlarla həqiqi tərəfdaşlıq mövqeyinə aparır. Tod oxucunu məsihçilərin hekayəsini oxumağa dəvət edir və təqibləri adi hal hesab edən imanlıların həyatından danışır. Şəxsi hekayələrlə əlaqəli qeydə alınmış dualar bizə düşünmək və ruhani inkişaf etmək üçün imkanlar təklif edir. Onun yazdığı dualar oxucunun düşünməsi və inkişaf etməsi üçün imkanlar yaradır. Təqib olunan məsihçilərin hekayələrini oxuduqda biz onların iman həyatlarına nəzər salaraq görürük ki, şahidlik və təqib bir-birinə oxşardır. Dua edirəm ki, oxucular bu kitabdan Rəbbə öz xidmətlərini təkmilləşdirmək üçün istifadə etsinlər. «İman qadağan olunanda» kitabı ailəvi ibadət vaxtlarını zənginləşdirmək üçün vəsait axtaran ailələrə Allahın hədiyyəsidir."

**NİK RİPKEN** | 35 illik təcrübəyə malik missiya veteranı; "Tanrının qeyri-adiliyi" kitabının müəllifi

"Biz qərbdəki imanlılar «Mən İsanın ardınca getməyə qərar verdim» mahnısını oxuyanda bunun əsl mənasını nadir hallarda düşünürük. Lakin bütün dünyada Məsihin davamçılarının çoxu üçün bu qərar onların həyatları bahasına başa gələ bilər. Təqib olunan kilsənin hekayələrini eşitməyimiz vacibdir. Bu, bizə bacı-qardaşlarımız üçün dua etmək kimi dəyərli bir imtiyaz verir və qərbdə olan kilsələrdəki rahatlıq hörümçək torunu süpürüb aparır. Pasportunuzu götürün, təhlükəsizlik kəmərlərinizi bağlayın və İsanın ardınca getməyin nə demək olduğuna dair ümumi təsəvvür əldə etmək üçün Tod ilə səyahət edin. Sizin imanınız bir daha əvvəlki kimi olmayacaq."

**CANET PARŞALL** | Müəllif və tok-şou aparıcısı

"Yaxın şərqdə bir kilsə rəhbəri olaraq mən Todun təqib olunma barədə hadisələri necə qəbul etdiyini, onları sadələşdirib daha geniş auditoriya üçün başa düşülən dildə hazırladığının şahidi olmuşam. Mən onu on ildən çoxdur ki, şəxsən tanıyıram və bu müddət ərzində o bizim şəhadətlərimizi qeydə alıb, hətta bəzilərindən bu kitabda istifadə edib. Mən hər dəfə Todun qələmə aldığı imanlıların hekayələrini oxuyanda təqib olunan dünyada Məsih uğrunda əzab çəkmək istəyimi daha da alovlandırır. Həyatını belə hadisələri sənədləşdirməyə həsr etdiyinə görə ona minnətdaram, çünki onlar təkcə sizə toxunmayacaq, həm

də Müqəddəs Ruhun həyatınızda gözəl bir işə başlamasına imkan verəcək. Bu yuxulayan dünyanın rahatlığında siz öz imanınızı necə alovlandıra bilərsiniz? Apatiya ruhuna necə qalib gələ bilərsiniz? İnanıram ki, bu kitab Rəbbin həyatınızdakı çağırışını yerinə yetirmək üçün sizə ümid və həvəs bəxş edəcək."

**YAXIN ŞƏRQDƏ ANONİM KİLSƏ RƏHBƏRİ**

"Todun «İman qadağan olunanda» adlı son kitabı oxucunu həqiqətən də ruhlandırır və daxilən dəyişdirir. Təxminən iyirmi il ərzində Məsihin təqib olunan cəmiyyətində xidmət edən Tod bu insanların arasında və bəzən onların vasitəsilə yaşayıb. Onun qeyd etdiyi şəhadətlər sadəcə hekayələr deyil. Burada yazılan hadisələr göstərir ki, təqib olunan sadiq məsihçilər bu dünya ilə uyğunlaşmadıqları üçün əziyyət çəkəndə belə, Allah onlara həyat, təbəssüm və sevinc bəxş edir. İsa Məsihdə saleh həyat yaşamaq istəyən hər bir məsihçi bu kitabı oxumalıdır."

**BOB FU** | "Çinə Yardım Assosiasiyası"nın təsisçisi, prezidenti və Məsih uğrunda keçmiş məhbus

"Mən Tod Netltonu uzun illərdir tanıyıram. O, gözəl hekayə danışa bilər! Dövrümüzdə iman uğrunda əzablardan qalib çıxmış müqəddəslərin şəhadətlərindən daha yaxşı hansı hekayələr ola bilər?! Todun sayəsində bu «qələbə hekayələri» barədə eşidirik. Onlar gözəl hekayələrdir! Bunlar məni dua etməyə həvəsləndirir!"

**QRASİA BORNHAM** | Müjdəçi, "Etnos360" təşkilatının əməkdaşı, "Düşmənlərimin hüzurunda" kitabının müəllifi

"«İman qadağan olunanda» kitabını oxuyanda mənə elə gəldi ki, müqəddəs torpaqda gəzirəm. Bu kitabdakı maraqlı hekayələr sizi məsihçilər üçün dünyanın ən təhlükəli ölkələrinə aparacaq. Bununla belə, Tod Netltonun yazdığı qaliblər təkcə təqiblərdən sağ çıxmırlar, onlar həm də imanda inkişaf edirlər! Məsih onlara o qədər iman verdi ki, onlar Allahın Padşahlığında qarşısıalınmaz bir qüvvəyə çevrildilər. Bizi qırx günlük maraqlı səyahətə çıxardığı üçün Toda təşəkkür edirik! Mən bu kitabı sevirəm və onu başqalarına da tövsiyə edirəm. İsa üçün əzab çəkməyə, hətta həyatlarını belə, qurban verməyə hazır olan bu bacı-qardaşlarla görüşməkdən necə də ilham aldım. Xilaskarımız heyrətamizdir, nəyin bahasına olursa olsun, Rəbbin ardınca gedən bu müqəddəslər də heyrətamizdir!"

**TOM DOYL** | "Uncharted Ministries" şirkətinin baş direktoru və "Risk edən qadınlar, müsəlman dünyasında İsanın gizli nümayəndələri" kitabının həmmüəllifi Coan Doyl

"Mən inanıram ki, Toda bu kitabı yazmaq üçün özünəməxsus fürsət verən və ona bu işi tapşıran Tanrıdır. Müqəddəs Kitab bizə deyir ki, axır zaman yaxınlaşdıqca, hətta ABŞ kimi qərb ölkələrində də təqiblər artacaq. Əslində bu dövr artıq başlayıb. Beləliklə, bu kitabda toplanmış həqiqi hekayələr təkcə qərbdə yaşayanların imanını gücləndirib bizə Rəbbə yaxınlaşmağa kömək etmir, o həm də bəzilərinin bu gün üzləşdiyi təqiblərə layiqincə cavab vermək (2 Timoteyə 3:12) və sabahkı gün üzləşəcəyimiz hər şey üçün bizi hazırlayır (Matta 24:9)."

**HÖRMÜZ ŞƏRİƏT** | İranAlive.org

“Mövcud olan hadisələri, adsız və simasız insanları təsəvvür etmək asan deyil. Hətta biz təqib edilən kilsə haqqında hadisələr eşitsək də, əzablara rəğbət bəsləsək də, onlar bizə yaxınlaşmırlar. İbadət zamanı biz vaxtaşırı «Qəlbimi sevgi ilə doldur» ilahisini oxuyuruq, amma bunun əsl mənasını anlayırıqmı? «İman qadağan olunanda» kitabını oxumaq sizə bu işdə kömək edəcək. Orada yazılan şəhadətlər Allahın kim olduğunu və bu dünyanın xaosunda bizə necə təsir göstərdiyini anladacaq. Bu hekayələr bizə Məsihin Bədəninin vəziyyətini xatırladacaq və eyni zamanda həyatlarımızda Allahın əl izlərini aşkar edəcəyik. Siz bu şəhadətlərdən ilham alın, çünki onlar dünyanın hər yerinə dəyişiklik gətirdiyini göstərir. Sizi dua etməyə həvəsləndirən təkcə Tod Netltonun qələmə aldığı bu hekayələr və düşüncələr deyil, həm də öz yazılarınız olacaq. Bu layihəni «İman Çağırışı» adlandırmaq olar. Qırx günlük səyahətdən ibarət olan bu kitabı oxuduqdan sonra inanıram ki, siz əvvəlki kimi olmayacaqsınız.”

**RUT KRAMER** | İcraçı prodüser və “Missiya Şəbəkə Xəbərləri”nin aparıcısı

“İsa və həvarilər üçün, zəfər çalan və dincələn kilsə üçün, döyüşçü və müjdəçi kilsə üçün, dünyadakı bacı-qardaşlarımız üçün... əzablar həmişə izzətdən əvvəl gəlir. Qərbdə son üç yüz ildə yaşadığımız çarmıxsız və ağrısız məsihçilik uzun sürən bir çaşqınlıqdır və tezliklə bu sona çatacaq. «İman qadağan olunanda» kitabı bizə sağlam məsihçiliyin nə olduğunu və Rəbbimiz İsanın qayıdışından əvvəl bu son günlərdə gələcəyimizin necə görünəcəyini xatırladır.”

**DİK BROQDEN** | “Live Dead” hərəkatının həmtəsisçisi, Ciddə, Səudiyyə Ərəbistanı

“Biz bir ailə olaraq duada təqib edilənləri mümkün qədər tez-tez xatırlayırıq, bədənin bir hissəsi əziyyət çəkəndə onlarla birlikdə əzab çəkməyə çağırıldığımız Müqəddəs Kitabın həqiqətini dərk edirik. Bu kitab sayəsində onları başa düşmək üçün özünəməxsus imkanımız var! Siz bu kitab vasitəsilə Todla birgə Çinə, Yaxın Şərqə, Afrikaya və başqa yerlərə səyahət edin və Məsihin ardınca getmək üçün hər şeyi məmnuniyyətlə qurban verən məsihçilərlə tanış olun. Onların iman hekayələri sizin imanınızı artıracaq. Ruhani ailəmizin təqib olunan üzvləri ilə tanış olmaq və onlardan ilham almaq üçün bu qırx günlük səyahətə çıxın.”

**BENYAMİN UATSON** | Müəllif, aktivist, keçmiş “NFL” üzvü

# İMAN QADAĞAN OLUNANDA

## 40 GÜN TƏQİB OLUNAN MƏSİHÇİLƏRLƏ BİRGƏ

Tod Netlton

Originally published in English under the title
*When Faith is Forbidden* by Voice of the Martyrs with Todd Nettleton
Copyright © 2021 by Voice of the Martyrs, Inc.

© 2022 by Voice of the Martyrs, Inc. for the Azerbaijani edition.
Translated by permission. All rights reserved.
ISBN: 978-617-503-251-0

eBooks for download:
*https://www.vom-ru.org*
*https://www.vm1.tv/ru/*
*https://library.mediaworks.global*

© 2021 Şəhidlərin səsi
Müəllif hüquqları qorunur. Tənqidi və rəy məqalələrində qısa sitatlar istisna olmaqla, nəşriyyatın yazılı icazəsi olmadan nəşr materiallarının istifadəsi və təkrar istehsalı qadağandır.
Şəkillər: müəllif hüququ © 2011 FreeTransform/iStock (115905400)
© 2016 by gurkoao/iStock (504182338)
© 2019 by Fourleaflover/iStock (1165723077)
© 2019 LifeofRileyDesign/iStock (1185821355)
© 2012 crossbrain66/iStock (171580669)
© 2016 lukbar/iStock (599273638)
Fotoşəkillər üçün bütün hüquqlar qorunur
Foto krediti: Korey Lak

Bu kitabın mətni ilkin olaraq "Şəhidlərin səsi" təşkilatı tərəfindən ingilis dilli aylıq bülletenində və təşkilatın saytında dərc edilmiş orijinala uyğunlaşdırılıb.

Kitabda təsvir edilən bütün hadisələr dəqiqdir, lakin təhlükəsizlik məqsədilə bəzi şəxslərin adları və müəyyənedici detalları dəyişdirilib.

Müqəddəs Kitab sitatları Müqəddəs Kitabın Azərbaycan dilindəki tərcüməsindən götürülüb.

Kitab satış üçün nəzərdə tutulmayıb. Əgər satıldığını görsəniz aşağıdakı ünvana satış barədə məlumat verməyinizi xahiş edirik.

"Şəhidlərin səsi" qeyri-kommersiya, təriqətlərarası məsihçi missioner təşkilatıdır, praktiki və ruhani yardım göstərməklə Məsihin Bədəninin üzvlərini azad dünyada təqib olunan imanlılarla ünsiyyətdə olmağa və onlar üçün dua etməyə cəlb edir və bütün dünyada təqib olunan ailəmizə xidmət etmək məqsədi daşıyır.

Bizim materiallarımızı əldə etmək üçün bu ünvana abunə ola bilərsiniz:
PO Box 6, 33024, Rivne, Ukrayna və ya *info@vom-ru.org*
Rus dilində www.vom-ru.org internet saytımıza daxil ola bilərsiniz

Şarlottaya həsr olunur

Bu kitabda yazılan hər bir hekayədə deyildiyi kimi mənim Banqalora, Pekinə və Bakıya səfərlərim zamanı sən günlərini və gecələrini yalnızlıqda keçirən tənha valideyn olmusan. Bununla belə, sən hər dəfə məni yola salanda Allahın himayəsinə etibar etdin, Rəbbin işinə xidmət etmək üçün göndərdin və mənim üçün dua etdin. Bunu çox dəyərləndirirəm. Səmavi Atamız da bunu görür. Bu hekayələr bizim birgə xidmətimizin bəhrəsidir, çünki hər addımda mənim tam tərəfdaşım olmusan.

Bu kitab həm də Məsih üçün yaşamaq istəyən və bunun üçün istənilən qiyməti ödəməyə hazır olan hər kəsə həsr olunur. Ümid edirəm, əziz oxucu, Məsih uğrunda təqib olunanlar siyahısına daxil olmaq istərdiniz. Axı Rəbbimiz buna layiqdir!

UÇUŞ GÜNÜ



# UÇUŞDAN ƏVVƏL NƏZARƏT YOXLAMA

"Bunların hamısı imanlı olaraq öldü. Vəd edilən şeylərə nail olmadılar, amma bunları uzaqdan görüb salamladılar və özlərinin yer üzündə yad və qərib olduqlarını iqrar etdilər. Axı belə sözləri deyənlər bir vətən axtardıqlarını göstərirlər. Əgər onlar çıxdıqları ölkə barəsində düşünsəydilər, qayıtmağa imkanları olardı. Amma əslində onlar daha yaxşı bir ölkəni, yəni səmavi vətəni arzu edirdilər. Buna görə Allah Özünü onların Allahı adlandırmaqdan utanmır, çünki O onlar üçün şəhər hazırlamışdır."

**İBRANİLƏRƏ 11:13-16**

.................................................

"Biz iyirmi beş dəqiqədən sonra hava limanına yollanacağıq. Ümid edirəm ki, hazırsınız!"

Evdə ora-bura qaçıram, çamadanımı bağlamağa çalışıram və orada mənə hansı əşyaların lazım olmayacağını düşünürəm. Artıq neçə dəfədir ki, hava proqnozunu yoxlamaq üçün telefonuma baxıram. İsti gödəkçə çamadanda çox yer tutur. Görəsən, kilsəyə

getmək üçün bu ayaqqabılar lazım olacaq? İbadətə gedəndə qalstuk taxmaq lazımdır?

Hər bir əlavə geyimi özümlə götürməzdən əvvəl götür-qoy edirəm. Bəli, əgər oteldə fitnes mərkəzi olarsa, onda idman ayaqqabılarımı götürməyim yaxşı olar. Ancaq onlar çox yer tutur. Mən Müqəddəs Kitabı götürmək istərdim, lakin bu səyahətim üçün İncil kitabım daha az yer tutur və yüngüldür. Üstəlik, ehtiyacım olsa, telefonumda Müqəddəs Kitabı oxuya bilərəm. Bundan əlavə, geri dönəndə çamadanımda çox yer olmayacaq, çünki mən evə qayıdanda həmişə həyat yoldaşım üçün kiçik bir suvenir, oğullarım və gəlinlərim üçün hədiyyələr gətirirəm (uşaqlıqda oğullarımın sevimli hədiyyələri qılınc, bıçaq və müxtəlif başqa silahlar idi).

Mən çox səyahət edən müjdəçilərin ailəsində böyümüşəm. Çamadanların yığılması qaydaları həmişə sadə idi — daşıya bilməyəcəyimiz yükü özümüzlə götürmək lazım deyil. Papua-Yeni Qvineyaya əl yükümüzlə on iki nəfərlik gümüş mətbəx dəstini aparanda da biz həmişə bu qaydaya əməl etmişik! Mən hələ də bu qaydaya əməl edirəm. Ona görə də baqaja gedən bir orta ölçülü çamadan və əlimdə aparmaq üçün kiçik çanta götürmüşəm. Əl çantama kameramı, qulaqcıqlarımı, elektron kitabımı, müxtəlif şnurları, adapterləri, bir az qəlyanaltı və əlavə bir köynək yerləşdirmişəm. Çünki baqaj çamadanının vaxtında gələcəyini heç vaxt bilmək olmur.

“On dəqiqədən sonra biz hava limanına yola düşəcəyik. Siz əlinizi bura qoya bilərsiniz ki, mən çamadanın ağzını bağlayım?”

“Şəhidlərin səsi” təşkilatında ilk dəfə xidmət etməyə başlayarkən təqib olunan məsihçiləri ziyarət edəndə fikirlərim indikindən tamamilə fərqli idi. Çinə ilk səfərimdə komandamız əvvəlki üç ayda dəfələrlə həbs edilmiş bir pastorla görüşəcəkdi. O, çərşənbə axşamları toplaşan, qeydiyyatdan keçməmiş böyük bir kilsəyə rəhbərlik edirdi. Polis və Dini İşlər üzrə səlahiyyətli şəxslər pastor toplantıya rəhbərlik etməsin deyə onu hər çərşənbə axşamı səhər

həbs edirdilər. Onu bütün günü, hətta gecə də saxlayır, ertəsi gün azad edirdilər.

Onunla görüşməyə gedəndə təsəvvürümdə kasıb, incimiş bir pastor canlandı. Düşündüm ki, dərin ümidsizlik içində olan bir pastor üçün əcnəbilərin onu ruhlandırması necə xeyir-dua ola bilər? Əslində isə mən həqiqətdən çox uzaq idim!

Biz mənzilə daxil olanda üzündə gülüş, qəlbində sevinc dolu bir insanla görüşdük. O, yaşadığı ərazidə insanların İsaya iman etməsinə və yığıncağında məsihçilərin artmasına görə sevinirdi. Bu bəhrəli xidmət bir neçə dəfə həbs olunmaq və kamerada gecələmək bahasına başa gəlsə də, onu yolundan daşındırmırdı. Çünki insanların həyatının dəyişməsinin və Allahın Padşahlığının qurulmasının şahidi olmağa dəyərdi.

Pastorun kilsəyə həmişə özü ilə apardığı çantanı bizə göstərdiyini yaxşı xatırlayıram. Onun içində ədyal və dəyişmək üçün bir dəst paltar var idi. Bu onun həbsxanaya getməyə həmişə hazır olduğunu göstərirdi, çantası da həmişə yanında olurdu.

Çay içərkən pastorun yanında oturan həyat yoldaşından ərinə işarə edərək soruşdum:

"Onun üçün qorxmursunuzmu?"

"Mən niyə qorxmalıyam ki?! Axı, Allah Özü onun qayğısına qalır!" — deyə o, tərcüməçi vasitəsilə cavab verdi.

Allah onun qayğısına qalır. O həm də bizim qayğımıza qalır.

Həmin səfərdən sonra səyahətlərimizin məqsədi ilə bağlı fikrim dəyişdi. Təqib olunan məsihçilər digər imanlılarla ünsiyyət qurmağı sevsələr də, onları ruhlandırmağıma ehtiyacları yox idi. Əslində, çox vaxt mən özüm də onların üzlərindəki təbəssümü və həyatlarında əks olunan sevinci görməyə ehtiyac duyuram. Mən şəhadətlərini dinləmək üçün onlarla görüşürəm və bu görüşə bir tələbə kimi gedirəm, onların imanı və "daha yaxşı" bir vətənə, yəni səmavi vətənə gedən yol haqqında daha çox öyrənmək istəyirəm. Mən yer üzündəki evimə qayıtdıqda, onların heyrətamiz imanları haqqında mümkün qədər dəqiq danışmağa can atıram.

"Pəncərədən baxın, görün bizi aparmaq üçün gəlməyiblər?"

Bu kitabı oxuyanada siz mənimlə sanki bir səyahətə çıxacaqsınız. Biz birlikdə Müjdənin bölüşməsi qadağan olan ölkələri gəzəcəyik, cəsur Çin pastoru və onun həyat yoldaşı kimi təqib olunan məsihçiləri ziyarət edərək qırx gün sərf edəcəyik. Mən şadam ki, son iyirmi üç il ərzində tanış olduğum Məsih uğrunda təqib olunan bəzi bacı-qardaşların şəhadətlərini dinləmək üçün mənimlə səyahətə çıxırsınız.

Əgər siz məsihçisinizsə, bu kitabı oxumazdan əvvəl şübhəsiz ki, buna oxşar səyahətdə olmusunuz. Müqəddəs Kitabın bəzi ayələrində, məsələn, bu gün qeyd etdiyimiz hissədə Məsihin davamçıları yad və qəriblər, sürgün edilmişlər və vətən axtaranlar kimi qeyd olunurlar. Bu yer üzündə biz öz evimizdə deyilik, çünki bu dünyadan deyilik. Biz əsl evimizə - cənnətə gedən zəvvarlarıq!

Beləliklə, təqib olunan məsihçilərlə görüşmək üçün birlikdə bu səyahətə gedərkən (ümid edirəm) bizə kömək edəcək həqiqətlər barədə, başqa və daha vacib bir səyahət - bizi cənnətə aparan səyahət barədə öyrənəcəyik.

Biz hava limanına yollanırıq, ona görə də birinci qayda odur ki, yüngül çanta ilə səyahət etməliyik.

Bir çox məsihçilər öz həyatlarında lazımından artıq yük daşıyaraq səyahət edirlər. Baqaja gedən bir böyük çamadan və bir əl çantası ilə səyahət etmək əvəzinə, onlar baqaja gedən altı iri çamadan və üç böyük əl çantası ilə yola çıxırlar. Hava limanında öz çantalarını arabaya elə yükləyirlər ki, sonra qarşılarındakı yolu belə, görə bilmirlər! Onlar son təyinat yerlərindən daha çox indi harada olduqlarını düşünürlər və ona görə də çox yük daşıyırlar. Aviaşirkətlər sərnişindən "artıq çəkili çamadanlar" üçün pul tələb etdiyi kimi, saleh imanlılar da çox yük daşıdıqlarına görə qiymət ödəyirlər.

Bəlkə də daşıdığınız əlavə çantanız bağışlamamazlıqdır: siz daxilinizdəki kini gizlədərək o qədər ağırlaşdırmısınız ki, indi onu

qaldırmaq belə mümkün deyil. Bəlkə də bu, etiraf edilməmiş bir günahdır. Ola bilsin ki, sizin çoxlu var-dövlətiniz var və bu sizə səmadakı həqiqi eviniz haqqında düşünməyə mane olur. Bu yük sizin narahatlığınız, gərgin iş cədvəliniz ola bilər və sizin ətrafınıza baxmağa belə vaxtınız yoxdur.

"Budur, hava limanına getmək üçün maşın gəldi."

Bu səyahətdə mənimlə hava limanına gedərkən Allahdan həyatınızda özünüzlə ağır yük daşıdığınızı sizə göstərməsini istəyəcəksinizmi? Ümid edirəm ki, bizim məsihçi ailəmizin təqib olunan üzvlərinin şəhadətləri sizin üçün xeyir-dua olacaq və sizi qorxmadan Məsihin ardınca getməyə həvəsləndirəcək. Ümid edirəm ki, onlar həm də həqiqi eviniz və sizi ora aparan yol haqqında daha dərindən düşündürəcək.

"Beynəlxalq pasportunuzu götürmüsünüz?"

"Bəli!"

"Bəs uçuş cədvəlinizi necə?"

"Onu da götürmüşəm!"

"Pul götürmüsünüz?"

"Bəli, götürmüşəm!"

İndi biz səyahətə hazırıq.

Yola düşməzdən əvvəl itimi sığallamalı, arvadımı və uşaqlarımı öpməliyəm.

Getmək vaxtıdır!

## DÜŞÜNMƏK ÜÇÜN

Bu yer üzündə siz "qərib və gəlmələr" olduğunuzu və son məqsədinizin "daha yaxşı vətən" olduğunu nə qədər xatırlayırsınız? Bunu dərk etməyiniz bugünkü həyatınıza necə təsir edəcək? Siz bu həyat işığında səyahət edirsinizmi? Yoxsa siz özünüzlə əlavə yer tutan və çantalarınızı ağırlaşdıran lazımsız əşyaları daşıyırsınız?

Bu suallar üzərində düşünərkən cavablarınızı (aşağıda) gündəliyinizdə qeyd edin. Bütün bu lazımsız əşyalardan imtina etməyə sizi nə vadar edə bilər?

## Yola düşməzdən əvvəl dua

"Ya Rəbb, Səndən bu yolda bizimlə getməyini istəyirəm. Xahiş edirəm baş çəkəcəyimiz insanlarla görüşmək üçün ürəyimi hazırlayasan. Sənin həqiqətlərini mənə daha çox açmaq üçün onlardan istifadə et. Mənə «daha yaxşı vətən», səmavi evim barədə tez-tez xatırlat və təyin olunan yerə çatana qədər yol boyu məni müşayiət et. Əgər özümlə lazımsız yük daşıyıramsa, zəhmət olmasa mənə göstər və onları geridə qoymağa mənə kömək et. Amin".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

19 oktyabr 1998-ci il ("Şəhidlərin səsi" təşkilatının komandası ilə Sudana ilk dəfə səfər etməzdən bir az əvvəl).

"Bir həftədən sonra mən Bartlesvilldəki gözəl, təhlükəsiz həyatımı tərk edib rahat evimdən təxminən on altı min kilometr uzaqda — Sudanda on gün ərzində camaata ərzaq və Müqəddəs Kitab paylayacağam.

Bu səfərdə nə baş verə biləcəyi barədə fikirləşdim. İlk növbədə geri qayıtmamaq ehtimalını düşünməli idim. Sudan

təhlükəli yerdir və hökumət əsgərləri ağbəniz amerikalıya güllə atmaqdan çəkinməzdilər.

Düşünəndə ki, bəlkə geriyə dönməyəcəyəm, bu fikir mənim buradakı günlərimə xüsusi üstünlük verir. Mən hər dəqiqəmi arvadım Şarlotta və övladlarımla keçirib nümunəvi ər və ata olmaq istəyirəm. Mən qayğıkeş və şəfqətli olmaq istəyirəm. Televizoru söndürüb onlarla danışmağa və onlara qulaq asmağa daha çox vaxt sərf etmək istəyirəm. Mən ailə üzvlərimi qucaqlamaq və gündə təxminən iyirmi beş dəfə onları sevdiyimi söyləmək istəyirəm.

Bununla belə, bu məni günahkarlıq hissini yaşamağa vadar edir. Niyə mən həmişə belə yaşamıram? Niyə Sudana səyahət məni qorxudur və ilin 365 günü yaxşı kişi olmağa məcbur edir? Niyə müharibədən əziyyət çəkən Afrikada özümü zəif, amma Amerikada özümü sarsılmaz hiss edirəm? Guya bilmirəm ki, sərxoş sürücü, təsadüfi zorakılıq və ya avtomobil qəzası sabah Amerikada həyatıma son qoya bilər? Niyə mən hər günümü ölümə hazırlaşacaq tərzdə yaşamıram və bunu ancaq xaricə səfərə gedəndə yaşayıram?

Bəlkə də hələ baş tutmamış bu səfərdən öyrəndiyim əsas dərs budur ki, sabahı adi gün kimi deyil, amma hər günü Yer kürəsindən əbədiyyətə köçməyə hazır kimi yaşamaq lazımdır.



## 1-Cİ GÜN



# BİZİM NƏZARƏTİMİZDƏN KƏNAR

"İnsan ürəyində özü üçün yol qurar, amma Rəbbin verdiyi istiqamətlə addımlar."

**SÜLEYMANIN MƏSƏLLƏRİ 16:9**

............................................................

*Yei, Sudan, 1998*

Xarici ölkədə səfərin ilk günündə gecə saat 2:30 və ya 3-ə qədər oyaq qalmaq adi bir haldır. Mən *cetləqin* (uçuşdan sonra yuxusuzluq) aradan qaldırılması ilə bağlı çoxlu nəzəriyyələr eşitmişəm, amma heç biri işə yaramır. Mən hal-hazırda *cetləqdən* əziyyət çəkirəm. Gün ərzində günəşdə mümkün qədər çox vaxt keçirməyə çalışıram. Əks halda, sadəcə bunun öhdəsindən gəlmək lazımdır.

Sudanda olarkən komandamız birbaşa Yeiyə getməyi planlaşdırmışdı. Ancaq səyahətin ilk dərsi odur ki, bəzən işlər plana uyğun getmir. Məqsədimiz əslində Turaleyə getmək idi.

Turaleyin yaxınlığındakı Ayen kəndində pastor İbrahim Yac Denq dörd yüz sudanlı məsihçidən ibarət kilsəyə rəhbərlik edirdi və onların yalnız bir dənə qırmızı kiçik Müqəddəs Kitabı var idi. "Şəhidlərin səsi" təşkilatının əvvəlki komandası Turaleyə Müqəddəs Kitablarla dolu qutular gətirəndə İbrahim çox həyəcanlanmışdı. Onun kilsəsindəki hər ailənin öz Müqəddəs Kitabının olması fikri çox heyrətamiz idi.

"Şəhidlərin səsi" komandasının üzvü İbrahimdən Müqəddəs Kitabdan ən çox sevdiyi ayəni soruşdu. O, Romalılara məktubun 6:23-cü ayəsindən sitat gətirdi: "Çünki günahın əvəzi ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır".

İbrahimlə görüşümüzdən və həmin Müqəddəs Kitabların çatdırılmasından dörd gün sonra radikal İslam mücahidləri Ayen kəndinə hücum etdilər. Yenicə gətirilmiş Müqəddəs Kitablar yandırıldı, iyirmidən çox adam kənddən qaçırıldı və pastor İbrahim başından güllələndi.

Komandamız bir müddət sonra o amansız hücumda yandırılmış Müqəddəs Kitabları əvəz etməyi planlaşdırırdı. Lakin Turaleydə yağan güclü yağışlar hər iki tərəfdən hava zolağının su altında qalmasına səbəb oldu. Yardım çatdırılması üçün iki mühərrikli "Antonov" rus təyyarəsi icarəyə götürmuşdük. Pilotlar enmək və qalxmaq üçün quru hissənin kifayət qədər uzun olduğuna əmin deyildilər.

Beləliklə, komanda rəhbərimiz səfərimizin siyahısını dəyişmək qərarına gəldi. Biz əvvəlcə Yeiyə getməli olduq. Ümid edirik ki, bir neçə günə Turaleyə çata biləcəyik. İndi biz Yeidəyik, amma getmək üçün maşın tapa bilmirik. Döyüş xəttinə daha yaxın olan SXAO (Sudan Xalq Azadlıq Ordusu) əsgərlərinə çatdırmaq üçün Müqəddəs Kitablarımız var, lakin icarəyə götürmək istədiyimiz yük maşını məşğuldur. Başqa bir avtomobil də var, amma onun üçün

yanacaq çatdırılmasını gözləyirik. Bizə çox qayğı göstərən mehriban müjdəçilərin yanındayıq, amma qarşıya qoyduğumuz məqsədə nail ola bilmirik.

Nəhayət, öyrəndik ki, digər missiya əməkdaşları bizə lazım olan istiqamətdə hərəkət edirlər. Sonra onlar da bizə qoşuldular. Amma səyahətə çıxandan iki saat sonra xəritədə qeyd olunmayan, körpüsü zədələnmiş çayın yanında idik. Öndə gedən yük maşınımız çayı keçmək üçün suya girdi. Şiddətli axan çay yük maşınını axına doğru sürükləməzdən əvvəl yolun yarısını keçdi. Komanda yoldaşlarımız maşının pəncərəsindən damına çıxdılar. Biz onlara kəndir ataraq yük maşınının sürüşməsini dayandıra bildik. Yoldaşlarımız islansalar da, sahilə çıxmaqda onlara kömək etdik.

Beləliklə, ön cəbhədəki əsgərlərə Müqəddəs Kitabları paylamaq əvəzinə, burada ilişib qalmışdıq. Çayın səviyyəsinin aşağı düşməsini gözləyirdik ki, yük maşınını çıxara bilək.

*Mən belə dua etdim. "Nə edirsən, ya Rəbb? Bax, biz burada Sənə xidmət edirik! Biz düşmən tərəfindən məhv edilmiş Müqəddəs Kitabların əvəzinə yenilərini çatdırmaq istəyirik. Yağışı dayandıra bilməzdin ki, uçuş zolağı qurusun? Heç olmasa, ehtiyacımız olan yük maşınını çıxarmaqda bizə kömək edə bilməzdinmi? Çayın əks tərəfinə keçməyimiz üçün suyun səviyyəsini aşağı sala bilməzdinmi?*

Əlbəttə, Allah istədiyi hər şeyi edə bilər. O, yağışı yağdıra və ya dayandıra bilər. O, çayı tamamilə quruda və ya suyunu artırıb sahilindən çıxara bilər. Ancaq Sudana səfərim zamanı belə bir şey olmadı və planımız uğursuz oldu. Niyə?

Kaş ki, bu suala cavab verə biləydim. Kaş ki, səfərimizin hansısa əlamətdar nəticəsini göstərib "Bax, buna görə Allah yağışları yağdırdı" deyə bilərdim. Kaş ki, təsadüfən rastlaşdığımız və Müqəddəs Kitab verdiyimiz əsgər barədə sizə danışa biləydim. Sonralar o əsgər Sudanın Billi Qreminə çevrildi. Bəzi Müqəddəs Kitablar islanmış olsa da, onları camaata çatdırmağa müvəffəq olduq. Onları oxumazdan əvvəl günəş altında qurutmaq lazım idi. Bundan əlavə

biz ərzaq və yüksək protein qarışığını zəif qidalanmış uşaqların qayğısına qalan "xəstəxana"ya (biz yəqin ki, bunu klinika adlandırardıq) çatdırdıq. Bizi orada qəbul edən müjdəçilərlə ünsiyyətdə olduq və onlara xeyir-dua verib ruhlandırdıq.

Lakin bizdən asılı olmayan şəraitə görə qarşıya qoyduğumuz məqsədlərə nail ola bilmədik.

*Bizim nəzarətimizdən kənar.* Əslində bu sözləri xoşlamıram. Mən hər şeyi öz nəzarətimdə saxlamaq və öz qərarlarımı verib onları yerinə yetirmək istəyirəm. Plan qurub onun həyata keçməsi üçün başqaları ilə işləmək istəyirəm. Axırda alınacaq nəticəni görmək istəyirəm. Mən vəziyyəti ələ almaq istəyirəm!

Səhər yeməyində qarğıdalı lopaları və ya qızardılmış çörək seçə bilsək də, günün qalan hissəsini biz nə qədər öz nəzarətimizdə saxlamağı bacarırıq? Məgər məsihçi həyatındakı nəzarəti ən yüksək rifahımız üçün çalışan, həyatımızı Özü planlaşdıran, sevgi dolu, müqəddəs və hər şeyə qadir olan Ata Allahın əlinə verməli deyilmi? Süleymanın dediyi kimi, "İnsan ürəyində özü üçün yol qurar, amma Rəbbin verdiyi istiqamətlə addımlar" (Süleymanın Məsəlləri 16:9). Siz buna inanırsınızmı? Mən buna inanırammı?

Biz nəzarəti əlimizdə saxlaya bilmədiyimiz şeylərə — su basmış uçuş zolağına, vaxtında çatmayan təyyarəyə və yük maşını üçün benzin olmadığına görə çox asanlıqla əsəbləşirik.

Yaxud da, evə daha yaxın olan vəziyyətlərə nəzər salaq. Məsələn, işdə plandan kənar yaranmış vəziyyət, həkimin əlavə müayinədən keçməyinizi təklif etməsi və Allahdan olmayan əyri yol seçən övlad barədə danışmaq olar.

Həyatımız və ölüm bizim əlimizdə deyil. Beləliklə, biz vəziyyətə uyğunlaşmalıyıq. Biz istiqaməti sevinclə dəyişməyə hazır olmalıyıq. Biz icazə verməliyik ki, Onun niyyətləri bizim planlarımızdan üstün olsun. *O hər şeyi bilir.* Bütün bu vəziyyətləri dəyişmək bizim əlimizdə deyil.

# DÜŞÜNMƏK ÜÇÜN

Həyatınızda nəzarəti əlinizdə saxlamağa çalışdığınız elə sahələr varmı? Lakin siz nəzarəti əlinizdə saxlaya bilməyəcəyinizi anlayırsınızmı? Həmin sahələr hansılardır? Həyatınızda hər şeyi Rəbbin nəzarətində saxlamaq üçün nə etməlisiniz?

Gündəliyinizdə bu sahələrdən biri barədə yazın. Bu həftə həyatınızda nəzarəti və idarəçiliyi sizi sevən Ata Allaha verin. Həyatınızda nə dəyişəcəyini qeyd edin.

## DUA

"Ata Allah, etiraf edirəm ki, həyatımda hər şeyi öz nəzarətimdə saxlamaq istəyirəm. Mən öz planlarımın həyata keçməsi üçün Sənin xeyir-dua verməyini arzulayıram. Həyatımda hər şeyi Sənə etibar etməkdə mənə kömək et, çünki Sən mənim görmədiyimi görürsən. Nəzarəti tamamilə Sənə təslim etməkdə mənə kömək et. Qoy həyatımda bütün nəzarəti Sənə verim və Sənin niyyətlərinin mənim xeyrimə olduğuna inanım. Hər gün Səni axtarmağa və Sənin iradəni bilməyə mənə kömək et. Mənim və ətrafımdakıların həyatında Öz xeyirxah məqsədlərini yerinə yetirmək üçün məndən istifadə et. Amin".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

31 oktyabr 1998-ci il, Yei, Sudan (arvadım Şarlottaya yazdığım məktubdan)

"...Amma sənin üçün dua edirəm. Allahdan xahiş etdim ki, evimizi dövrəyə alıb qoruması üçün Öz mələklərini göndərsin. Ailəmizi düşmənin hücumundan və ya qəm-qüssə gətirən şər qüvvələrdən qorusun".

Hekayənin davamı: Mən Sudanda səfərdə olarkən həyat yoldaşım xəstələnmişdi və bir gecə o, yuxudan oyandı. Birdən o, yataq otağımızın iki pəncərəsini örtən nazik jalüzlərdə kişi kölgəsi gördü.

Həyat yoldaşım ayağa qalxıb hər iki pəncərədən bayıra baxdı, ancaq çöldə heç kimi görmədi. O qorxu əvəzinə tam rahatlıq hiss etdi, dərhal yatağına qayıdıb yenidən dərin, sakit yuxuya getdi. Mən də həyat yoldaşım da mələklərin varlığına inanırıq...



## 2-Cİ GÜN



# “ƏVVƏLLƏR MƏN ONU DÖYƏRDİM”

“Mənə qüvvət verən Rəbbimiz Məsih İsaya şükür edirəm ki, məni sadiq sayıb Öz xidmətinə təyin etdi. Əvvəllər Ona küfr edən, təqibçi və söyüşkən olduğum halda mənə mərhəmət edildi. Çünki nə etdimsə, cahillik və imansızlıq üzündən etdim. Amma Rəbbimizin lütfü Məsih İsada olan iman və məhəbbətlə birlikdə mənə bol-bol ehsan edildi. Məsih İsa günahkarları xilas etmək üçün dünyaya gəldi, bu söz etibarlı və tamamilə qəbul olunmağa layiq sözdür. O günahkarlardan ən betəri mənəm.”

**1 TİMOTEYƏ 1:12-15**

.................................................................

### Allava yaxınlığında, Efiopiya, oktyabr 2005-ci il

Müsəlman dünyasında “hacı” titulu İslamın beş sütunundan biri olan Məkkəyə həcc ziyarətini başa vuranlara verilən hörmət

terminidir. "Hacı" titulu adın əvvəlində qoyulur. Ümumiyyətlə bu sözün "pastor" adı ilə heç bir uyğunluğu yoxdur!

Biz Efiopiyanın cənub hissəsində, radikal İslamın məsihçi kilsələrinin və məsihçilərin təhdid edildiyi bir ərazidə "pastor Hacı" ilə damı quru otdan olan evində görüşdük. Evin bayır divarında yanıq izləri var idi. Bir həftə əvvəl radikal müsəlmanlar Hacının evini yandırmağa çalışmışdılar. Yaxşı ki, yanğın söndürənlər vaxtında gəlib çıxmışdılar.

Biz oturub Hacının təklif etdiyi qazlı portağal içkiləri içərkən yuxarıda quru otla sıx örtülmüş damın dəliklərindən günəş işığı süzülürdü. Damdakı o dəliklər məhəllədə yaşayan müsəlmanların daşlar atması nəticəsində yaranmışdı. Onlar Hacını və ailəsini ərazini tərk etməyə və ya İslama qayıtmağa məcbur edirdilər. Şükürlər olsun ki, Hacının ailə üzvlərindən heç biri atılan daşlardan xəsarət almamışdı.

Hacı radikal müsəlmanların nifrətini çox yaxşı anlayırdı, çünki özü də bir vaxtlar onlardan biri olmuşdu! O bir vaxtlar qatı islamçı idi və hətta xüsusi təlim almaq üçün Səudiyyə Ərəbistanına göndərilmişdi.

Daxmanın kənarında dayanarkən Hacı bizi onunla görüşdürən müjdəçini qucaqladı və heç vaxt unutmayacağım sözləri dedi: "Bir vaxtlar mən onu döyürdüm".

"Necə?" — deyə təəccüblə soruşdum.

"Mən əvvəllər onu döyürdüm" — deyə Hacı cavab verdi. Daha sonra bizə dedi ki, bir vaxtlar o, radikal islamçı gənclər qrupunun rəhbəri olub. İslamçıların müqəddəs borcları məsihçilərə hücum edib onları təqib etmək idi. Radikal islamçıların hücum etdikləri şəxslərdən biri də həmin bu müjdəçi olmuşdu. İndi müjdəçi onu qucaqlayan Hacının qolları arasından baxıb gülümsəyirdi.

Müjdəçi döyülsə də, ona hücum edənlərə qarşı ürəyində nifrət bəsləmirdi, əksinə, onlara məhəbbət göstərərək Müjdəni bölüşürdü. Hacı müjdəçinin ona olan bu münasibətini anlaya bilmirdi. Döydü-

yünüz insan sizə necə məhəbbət göstərə bilərdi? Necə ola bilər ki, döyülən şəxs qəzəblənib sizə müqavimət göstərməsin?

Nəhayət, Rəbbin Müjdəsi və hücum etdiyi müjdəçinin məhəbbəti Hacının ürəyini yumşaltdı. O, ağlından üstün olan Rəbbin sülhünü əldə etmək üçün İslamın amansızlığı və zorakılığını tərk etdi.

Hacının bu qərarı onun İslamçı dostlarını çox qəzəbləndirdi. Onlar məsihçilərə göstərdikləri düşmənçiliyi Hacıya da tətbiq etdilər və nəticədə o bir il həbsxanada yatdı. Hacının damına da daşlar atıldı, evinin də divarları çöldən yandırıldı. Lakin Hacı İsa Məsihə olan imanından dönməyi ağlına belə gətirmədi.

Təqib olunan məsihçi bacı-qardaşlarımızın sevincinə bir daha heyran oldum. Hacı xoşbəxt bir insandır və o tez-tez gülümsəyir. Bu onu göstərir ki, Hacıya qarşı təhdidlər daimi və real olsa da, o, qorxu içində yaşamır. O, sevinclə böyük Padşahımız Rəbbə xidmət edir.

Hacı Allahın səltənətini böyük səylə genişləndirir. Vaxtilə müsəlman olub həcc ziyarətini başa vuran, Səudiyyə Ərəbistanına xüsusi təlim keçmək üçün göndərilən Hacıdan başqa indi müsəlmanlara İsa haqqında kim daha yaxşı danışa bilər? Cənnətə düşmək üçün yaxşı və pis əməllərimizi ölçüb-biçən bir tanrı ilə müqayisədə yaxşı əməllərimizi bilən Tanrı arasındakı fərqi kim daha yaxşı izah edə bilər? Yaxşı əməllərimiz günahlarımızı heç vaxt silmədiyinə görə Tanrı Öz Oğlunu pis əməllərimizin əvəzini ödəmək və Onun qanı ilə cənnətə daxil ola bilməyimiz üçün göndərdi.

Hacının hekayəsi nadir bir hekayə deyil. Kilsənin ilk böyük müjdəçilərindən biri olan Paul da vaxtilə öz dininə böyük həvəs göstərən bir adam idi. O, yəhudilərin qanunlarına əməl etməyən kişi və qadınları təqib etmək tapşırığını dini rəhbərlərdən istəmişdi. Sonra o, təqib etdiyi Şəxslə görüşəndə həmişəlik həyatı dəyişdi.

Kolumbiyadakı "Şəhidlərin səsi" təşkilatının işçilərindən biri belə deyib: "Yarış atı istənilən istiqamətdə eyni sürətlə qaça bilər".

Günahın kökünü kəsməkdə canfəşanlıq edənlər çox vaxt Məsihin sadiq xidmətçiləri ola bilər. Vaxtilə məsihçiləri döyən şəxs, indi Öz Padşahına — Rəbbə xidmət etmək üçün döyülməyi məmnuniyyətlə qəbul edə bilər.

Bir insana yuxarıdan aşağı baxmaq, özümüzü ondan daha "müqəddəs" saymaq bizim üçün asandır. Bir vaxtlar Hacı o qədər daşürəkli idi ki, onun qəlbinə yol tapmaq mümkün deyildi. O, günaha elə qərq olmuşdu ki, ondan heç vaxt çıxa bilməyəcəkdi. Lakin pastor Hacının şəhadəti, həvari Paulun şəhadəti kimi bundan ibarətdir — heç birimiz Allahın lütf və mərhəmətinə layiq deyildik. Çox şeylərdən azad olan insanlar adətən Məsih üçün ən sürətli, uzağa qaçan və çox insanı Rəbbə gətirən yarış atları olurlar.

Təbəssümlə "mən onu döymüşəm" deyən bir şəxs əvvələr radikal müsəlman idi. İndi isə o pastor, təqib olunan məsihçi və Allahın Padşahlığının xidmətçisidir.

## DÜŞÜNMƏK ÜÇÜN

Həyatınızda elə adamlar varmı ki, onların Məsihə iman etməyəcəklərini düşünərək siyahıdan silmisiniz? Bəlkə düşünürsünüz ki, siz layiq görmədiyiniz insanları Allah da xilas etməyə layiq görməyəcək? Ətrafınızda İsaya "küfr edən, müqavimət göstərən və xor baxan"şəxs kimdir? Allah sizdən məhz o adamı sevməyinizi və onu Rəbb üçün imana gətirməyinizi istəyir. Bəlkə də, Allahın planı budur ki, o şəxs əvvəlcə Paul və ya Hacı kimi Allaha əks getsin və sonra Allahın Padşahlığı üçün səmərəli fəaliyyət göstərsin. Məsihin məhəbbətinin sizdə görünməsi üçün nə edə bilərsiniz?

Həmin adamın adını və bu həftə Müjdəni ona çatdırmaq üçün atacağınız addımları qeyd edin.

## DUA

"Ey göylərdə olan Atamız, mən öz gücümlə o insanı sevə bilmərəm. Bəzən onunla eyni otaqda olmağa belə dözə bilmirəm! Xahiş edirəm, qəlbimdə ona qarşı məhəbbət yarat. Qoy mən ona Sənin gözünlə baxım. Onun ürəyini yumşaltmaq üçün Müqəddəs Ruhu göndər. Amin."

## *Sizin gündəliyiniz üçün*

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

## *Mənim gündəliyimdən*

Biz vaxtilə müsəlman olan on iki məsihçi ilə tanış olduq, valideynləri onları evlərindən qovmuşdu. İndi bu imanlılar onları qəbul etmiş məsihçi ailələri ilə yaşayır və təhsillərini davam etdirirlər. Onları mənzil və yeməklə təmin etmək üçün ayda cəmi 4-5 dollar lazımdır!

Valideynlərinizin sizi evdən qovduğunu təsəvvür edə bilərsinizmi? Bu gün on üç yaşlı qızın ailəsində belə bir hadisə baş verdi və sözün əsl mənasında o, küçəyə atıldı!

Biz İsaya imanlarına görə arvadları tərəfindən tərk edilən bir neçə cavan imanlı ilə də tanış olduq.

## TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

Yenicə İsanı qəbul etmiş məsihçilərin (efiopiyalı dostumuz Hacı kimi) qarşılaşdıqları ən vacib məsələ öz ailə üzvlərinə daha müsəlman deyil, əl Məsihin — İsa Məsihin davamçıları olduqlarını söyləməkdir.

Bu söhbət hətta Məsihdəki bacı-qardaşlarımızın öldürülməsinə səbəb ola bilər.

Amma bu söhbət həm də, Müjdəni bölüşmək üçün qapı aça bilər.

**BU GÜN DUA EDİN** qoy Allah bütün İslam dünyasında yeni imana gəlmiş məsihçilərə hikmət versin ki, bu mühüm söhbəti nə vaxt və kiminlə aparacaqlarını bilsinlər.



# 3-CÜ GÜN



# “BİZİM HEÇ NƏYƏ EHTİYACIMIZ YOXDUR”

“Ehtiyaca düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam. Mən məzlumluğun da, bolluğun da nə olduğunu bilirəm. İstər tox, istər ac, istər bolluq, istər ehtiyac içində olum, hər şəraitdə, hər vəziyyətdə razı qalmağın sirrini öyrənmişəm. Mənə qüvvət verən Məsihin köməyi ilə hər işə gücüm çatır... Sizin hər ehtiyacınızı isə Allahım Məsih İsada olan Öz izzətli zənginliyinə görə ödəyəcək.”

**FİLİPİLİLƏRƏ 4:11-13, 19**

.............................................

## Yanvar 2016-cı il, şimali İraq, Ərbilin yaxınlığında

Biz şimali İraqda köçkünlər üçün təşkil olunmuş düşərgədəki bir çadırda oturmuşuq. (“Köçkünlər” öz evlərini tərk etməyə məcbur olmuş, lakin ölkə daxilində yaşayan insanlardır. “Qaçqın-

lar" isə öz evlərini tərk etmiş və hazırda ölkələrindən kənarda yaşayan insanlardır.)

İŞİD Nineva düzənliyini ələ keçirdikcə, on minlərlə insan — məsihçilər, yezidilər, şiə müsəlmanları və hətta İŞİD-in sünni yoldaşları da oradan qaçdılar. Şimali İraqa səfərimiz zamanı camaatın əksəriyyəti düşərgələrdəki çadırlarda yaşayırdı. Düşərgələr sünnilər, şiələr və məsihçilər olan bölmələrə ayrılmışdı. İçərisində oturduğumuz bu çadır sünni bölməsinə aiddir və ətrafda mindən çox sünni ailəsi var.

İçərisində olduğumuz çadırın ev sahibi Məhəmməd adlı bir kişidir. Mən Məhəmməd adlı məsihçiləri sevirəm! İndi yanvar ayıdır və çöldə soyuqdur. Bir neçə gün əvvəl qar yağmışdı və indi düşərgədəki palçıq ayaqqabılarımıza yapışır. Hər tərəfdə dəhşətli soyuq külək əsir. Kerosin sobası çadırın içindəki şaxtanı bir qədər sındırsa da, orada olduğumuz müddətdə heç vaxt paltomu çıxarmadım.

Məhəmməd və onun həyat yoldaşı o vaxt İŞİD-in ələ keçirdiyi şimali İraqın ən böyük şəhəri olan Mosuldandır. Bizim görüşümüzdən təxminən on il əvvəl yuxusunda İsa Məsihi görüb onunla danışanda Məhəmməd sünni müsəlmanı idi. Yuxudan oyananda Məhəmməd onunla şəxsən danışan Məsihin ardınca getməyə qərar verdi.

Məhəmmədin arvadı əvvəllər qatı dindar idi və sünni müsəlmanı olan ərinin kafir olmağına görə çox narahat oldu. O, həqiqi imandan necə üz döndərə bilərdi? Amma təxminən üç ay sonra özü də Məhəmmədin dediyi kimi belə bir yuxu gördü. O da yuxuda İsanı gördü və onunla şəxsən söhbət etdi. Yuxudan oyananda arvadı da əri kimi eyni qərarı verdi, İsanın ardınca getdi.

Məhəmmədin şəhadətliyini eşidəndə onun həyat yoldaşından soruşdum ki, həmin yuxudan sonra ərində hansı dəyişikliyi görüb. Arvadı tərcüməçimiz vasitəsilə dedi: "Yaxşı, o məni daha döymür". Mən düşündüm ki, bir insanın iman yolunda bu ilk xeyirxah əməlidir!

Məsih tərəfindən xilas olmuş Məhəmməd Mosulda öz imanı barədə başqalarına danışmağa başladı. İndi o, təkcə müsəlman imanında dönük deyil. O həm də digər müsəlmanları kafir olmağa təşviq edir. Buna görə onların evini yandırdılar. Polis "araşdırma" aparacağını vəd etdi, lakin təəccüblü deyil ki, heç bir şübhəli adam tapılmadı. Məhəmməd ailəsi ilə birlikdə yeni evə köçdü və oradakı qonşulara İsa haqqında danışmağa başladı.

2014-cü ildə İŞİD şəhəri almağa hazırlaşarkən, Məhəmməd ailəsini Mosuldan çıxarmalı idi. İŞİD təkcə onların evini yandırmayacaqdı, həm də Məhəmmədə İslama qayıtmaq üçün bir şans verəcəkdi. Əgər bunu etməsəydi, onu yerindəcə öldürəcəkdilər. Ailə Mosuldan qaçaraq Ərbil yaxınlığındakı bu düşərgədə məskunlaşdı. Məhəmmədin şəxsiyyət vəsiqəsində hələ də "sünni müsəlman" yazıldığı üçün ailəsi ilə birlikdə sünni düşərgəsindəki bu çadıra göndərilmişdi.

Bu düşərgədə yaşayanlar artıq yüz faiz sünni deyildi. Bura gəldikləri vaxtdan bəri Məhəmməd və ailəsinin köməyi ilə başqa iki ailə də Məsihə iman etdi. Hətta düşərgədə də onlar öz imanları barədə bölüşürdülər. BMT tərəfindən verilmiş kiçik beton plitələrdən qurulmuş iki çadırdan birində Məhəmməd ailəsi (arvadı və beş uşağı ilə birgə) ilə yaşayırdı, digərində isə dua və Müqəddəs Kitab dərsləri keçirilirdi. Onlar düşərgədəki insanlara təsir göstərirdilər və bu təsir diqqətdən kənarda qalmadı. Məhəmməd bizə bildirdi ki, çadırlarda ya o, ya da arvadı həmişə qalmalıdır. Çünki başqalarının imana gəlməsindən qəzəblənən sünnilər onların çadırlarını dağıda bilərlər.

Xarici olduğumuza görə biz başqalarının diqqətini cəlb edirik, ona görə də burada çox qala bilmərik. Məhəmmədin ifadəsini eşidəndən sonra ondan soruşdum: "Sən nə üçün dua edirsən? Allahdan nə istəyirsən?"

O, tərcüməçi vasitəsilə dedi: "Allahdan heç nə istəməməliyik. Bizə lazım olan hər şey var və biz xoşbəxtik!"

Fikrimdə mən əvvəlcə Məhəmmədlə mübahisə edib belə demək istədim: "Mənə qulaq as, Məhəmməd. Sən beş uşaqla çadırda ya-

şayırsan! Qonşularınızdan da bəziləri sizi öldürmək istəyir! Necə ola bilər ki, sizin heç nəyə ehtiyacınız yoxdur deyirsiniz?!"

O anda Müqəddəs Ruh mənə belə dedi: "Yaxşı qulaq as. Az danış".

Məhəmmədin dediklərində böyük həqiqət var: "Əslində bizə lazım olan hər şey var. Başımızın üstündə damımız, bu gün üçün yeməyimiz və bizim hər istiqamətdə xidmət sahəmiz var. Daha nə istəyə bilərik?"

Məhəmməd və ailəsi hər gün Allaha güvənərək yaşayırlar. "Bu gün bu duanı onlar həvari Paulun yazdığı "hər vəziyyətdə razı qalmağın sirrini öyrənmişəm" sözlərini öz həyatlarında yaşayırlar.

Mənim üçün hər gün Allaha güvənərək yaşamaq əsl sınaqdır. Düşünürəm ki, iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələrdə yaşayanlar üçün bunu dərk etmək çətindir. Çünki qərbdə yaşayan bizlərin fikrincə, çox çalışan insan çox şey əldə edə bilər. Bu mənim də xoşuma gəlir.

Bəs onda hər gün Allaha güvənərək yaşamaq nə deməkdir? "Mən hər şeyi öz səyim və iradəmlə edə bilərəm" əvəzinə, "məni gücləndirən Məsih vasitəsilə hər şeyə gücüm çatar" anlayışı ilə yaşaya bilərəmmi? Gündəlik hər şeyə görə şükür edib həyatımdan razı halda yaşaya bilərəmmi?

## DÜŞÜNMƏK ÜÇÜN

Siz gündəlik nəyə güvənərək yaşayırsınız? Bu güvən yeriniz sizin maaşınız, işiniz, ağlınız və ailənizdir, yoxsa Allahdır? Başınızın üstündəki damdan tutmuş hər söhbətdə deyəcək düzgün sözlərə qədər bütün ehtiyaclarınız üçün Rəbbə güvənirsinizmi?

Həyatınızda ən çox güvəndiyiniz insanın və ya şeyin adını yazın. Sonra hər gün, hər an Allaha güvənərək necə yaşayacağınızı qeyd edin.

## DUA

“Ya Rəbb İsa, mən çox vaxt Səndən daha çox ________________ ________________ güvəndiyimi başa düşürəm. Məni bağışla! Mənə təkcə həyatım boyu və əbədiyyətdə deyil, həm də hər gün, hər dəqiqə özüm və ailəm üçün Sənin niyyətinə və Sənə güvənməkdə mənə kömək et. Bu gün hansı addımları atmalı olduğumu mənə göstər. Ya Rəbb, minnətdaram ki, ehtiyacım olan hər şey Səndə var! Amin.”

## *Sizin gündəliyiniz üçün*

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

## *Mənim gündəliyimdən*

Mən Məhəmməddən soruşdum: “Sən nə üçün dua edirsən? Allahdan nə istəyirsən?” O belə cavab verdi: “Allahdan heç nə istəmirik. Çünki bizə lazım olan hər şeyimiz var və biz xoşbəxtik!”

Mən özümü onunla müqayisə edib sual verirəm: “Görəsən məndə imana aid hər hansı bir xüsusiyyət varmı?”

Əgər mənə nə vaxtsa sual versəniz ki, mən niyə bu xidməti görmək üçün dünyanı gəzirəm? Mən cavab verəcəyəm ki, bütün bunlar Məhəmməd və onun ailəsi kimi İsanın davamçıları ilə çadırlarda oturmaq imkanı üçündür. Tez evə qayıdıb bu iman şəhadətini hər kəslə bölüşmək üçün tələsirəm!



## 4-CÜ GÜN

# “MƏN HƏTTA DUŞ QƏBUL EDƏNDƏ BELƏ SUDA BOĞULA BİLƏRƏM”

“Amma küləyin güclü əsdiyini görəndə qorxdu və batmağa başladı. «Ya Rəbb, məni xilas et!» deyə qışqırdı. İsa o anda əlini uzadıb onu tutdu və dedi: «Ey imanı az olan adam, nə üçün şübhə etdin?»”

**MATTA 14:30-31**

.........................................................

Hüseyn, I-ci hissə
Ölkənin adı bildirilmir, 2009-cu il

Hüseyn əslində bu adamın əsl adı deyil. O, İranda yaşayır. Amma biz onunla həm iranlılara, həm də amerikalılara viza verən başqa bir ölkədə görüşdük.

Hüseyn İslam qaydalarına ciddi riayət edən bir ailədə böyüyüb. Anası Quran oxuyan və gündə beş dəfə namaz qılan fədakar müsəlman idi. Atası anası kimi dindar deyildi və əgər kimsə ona mömin müsəlman olmadığını desəydi, o, çox qəzəblənərdi. Hüseynin atası anasını tez-tez döyürdü. Onların ailəsi dağılmaq üzrə idi.

Hüseyn hərbi xidmətini başa vurduqdan sonra öz vətəninə qayıtdı. İş tapmaq çətin idi və o, köhnə dostunun "biznesinə" qoşulmaq qərarına gəldi. Bu iş İranın sərt qanunlarına əsasən ölümlə cəzalandırılan bir cinayət olan saxta pul hazırlamaqdan ibarət idi. Amma nə Hüseyn, nə də dostu gördükləri işə görə həbs olunmadı və bu cavan oğlanın gəliri hər gün artırdı. O, tüfeyli bir həyat sürürdü. Bu, qadınlar, narkotik maddələr və çılğın əyləncələrdən ibarət bir həyat idi. Lakin bütün bunlar onun daxilindəki ağrını yalnız qısa müddətə azaldırdı və qəlbindəki boşluğu doldurmurdu.

Bir müddət sonra Hüseynlə dostu arasında fikir ayrılığı yarandı o, işsiz qaldı. Birdən-birə onun gəliri sıfıra endi. Hüseynin gəliri olmasa da, narkotik aludəçiliyinə son qoymadı.

Hüseyn çox bədbəxt bir adam idi. O, intihar etmək barədə düşünməyə başladı. Mənə dedi: "Mən özümü öldürmək fikrində idim, amma istəyirdim ki, bu ağrısız olsun". Buna görə də o, yüksək dozada narkotik qəbul etmək və sonra hündür mərtəbəli binanın damından özünü atmaq qərarına gəlmişdi. Hüseyn yüksəklikdən özünü atmaq üçün bir bina və hətta onun damına çıxmaq üçün yol da tapmışdı. İndi ona lazım olan yalnız narkotik maddə idi.

Elə bu vaxt Hüseynə bir əsgərlik dostu zəng vurdu. O, Hüseynin yaşadığı şəhərə gələcəyini planlaşdırırdı. Dostu onunla görüşmək istədiyini dedi. Onlar görüşüb qəhvə içərkən dostu Hüseynə yeni bir şey tapdığını söylədi.

Hüseyn o andaca canlandı. Düşündü ki, dostu yeni bir narkotik maddə tapıb. Axı Hüseyn həmişə narkotik axtarırdı. Amma əvəzində dostu ona Məsihi tapdığını söylədi.

Dostu Hüseynə İncil kitabını göndərdi və o, Mattanın Müjdəsini oxudu. Amma bu kitabı oxumaq onda heç bir təəssürat yaratmadı. Növbəti səfərində Hüseynin dostu onunla görüşə başqa imanlıları da gətirdi. Onlar gözəl günəşli bir gündə yaxınlıqdakı parkda görüşdülər. Onlardan biri, Padina adlı qadın da əvvəllər narkotik asılılığı və depressiya ilə mübarizə aparmışdı. O da intihar etməyi düşünmüşdü. Məsihçi dostlar Hüseyni dinləyir və onun halına acıyırdılar.

Padina Hüseynin gözlərinə baxaraq ona ağrılarını İsaya verməyi təklif etdi.

Hüseyn bilirdi ki, itirəcək bir şey yoxdur. O qərara gəldi ki, əgər İsa ona kömək etməsə, onda intihar edə bilər. Niyə də dua etməyək? Bunun nə zərəri ola bilər? Hüseyn İsaya dua edib Ondan həyatını idarə etməsini və ağrısını götürməsini istəyəndə heyrətamiz bir şey baş verdi. O anda Hüseyn özünü tamamilə fərqli hiss etdi. O dedi ki, duadan sonra qəlbini "sözlərlə ifadə edə bilmədiyi bir xoşbəxtlik" hissi bürüdü.

Hüseynin həyatı dəyişməyə başladı. O, narkotik maddələrə aludəçilikdən azad oldu, spirtli içki və siqareti tərgitdi. Onun həyatındakı bu böyük dəyişikliyi görəndən sonra qardaşı və bacısı da Məsihi qəbul etdilər. Kilsə rəhbərləri Hüseynin İsaya imanı barədə danışdıqlarını dinlədikdən sonra onu rəhbərlik xidmətinə dəvət etdilər. Hüseyn o zaman artıq Allahın çağırışını hiss edirdi, lakin buna müqavimət göstərməyə çalışırdı.

Allahın köməkliyi ilə Hüseyn pis vərdişlərə qalib gəldi və şərəfli bir həyat sürməyə başladı. Onun qanuni yaxşı işi, maşını və evi var idi. O, Rəbbə xidmət etməyə hazır idi, lakin heç nə itirmək də istəmirdi. Məgər Allaha xidmət edib, eyni zamanda da rahat, sabit və gəlirli işin olması mümkün deyilmi? Onun evi kilsə qruplarının görüş yeri ola bilərdi!

On səkkiz ay sonra Hüseyn bir qrup imanlı ilə dənizə getdi.

Dəniz Hüseynin sevimli yeri deyildi. O, zarafatca yaxşı üzgüçü olmadığını bildirərək dedi: "Mən duş qəbul edərkən belə, suda bata bilərəm!"

Bir gün Hüseyn isti qumlu sahildə dayanmışdı. Su sakit görünürdü və heç bir təhlükə yox idi. Əvvəlcə bir addım atdı. Sonra bir az da irəli getdi... Birdən sel kimi gələn böyük bir dalğa Hüseyni öz ağuşuna aldı. O, suyun altında dəhşət içində həyat ilə mübarizə aparmağa başladı. O, suda vurnuxaraq səssizcə Allaha fəryad edib ölmək istəmədiyini etiraf etdi, çünki özünü Allahın xidmətinə həsr etmək çağırışına heç vaxt cavab verməmişdi. Bir vaxtlar hündür binadan özünü atmaq istəyən insan indi Allaha canını xilas etməsi üçün yalvarırdı!

Rəbb Hüseynin duasına cavab verdi. Hansısa gözəgörünməz əllərin onu suyun üzərinə qaldırdığını və başını sudan çıxardığını hiss etdi.

Hüseynin suda çapaladığını görən üç xilasedici tez köməyə gələrək onu sahilə çıxardı. Bir qədər sonra o, çimərlikdə örtüyün altında titrəyib uzanarkən xilasedicilər ona dedilər: “Başını sudan çıxaranda biz bildik ki, sən güclü üzgüçüsən. Əgər yaxşı üzgüçü olmasaydın, sənin arxanca gəlməzdik, çünki sən bizi də aşağı çəkə bilərdin”.

Hüseyn xilasedicilərə köməklərinə görə minnətdarlığını bildirdi, amma əslində nə baş verdiyini çox yaxşı başa düşürdü. Onu ölümdən xilas edən Rəbb idi.

Hüseyn özünü tamamilə xidmətə həsr etmək üçün Allahın çağırışına cavab verdi. O bunu kilsə rəhbərlərinə dedikdə, onlar hələ də baş verənlərlə bağlı Hüseynin həddən artıq həyacan keçirdiyini söylədilər. Ona seçim etməzdən əvvəl bir neçə həftə gözləməyi və bu barədə dua etməyi tövsiyə etdilər. Hüseyn Rəbbə xidmət etmək üçün hər şeydən əl çəkməyə hazır olduğunu təkid edirdi. Müdiri ona maaşını qaldırmasını təklif etməsinə baxmayaraq, o, işini tərk etdi. Maşınını satıb bütün borclarını ödədi və özünü tamamilə yeni həyata həsr etdi. Kilsə rəhbərliyi Hüseynin qətiyyətini görüb, onu öyrətməyə başladı. Otuz gün ərzində o, pastor və arvadı ilə vaxt keçirdi. Hüseyn onların necə xidmət etdiklərini müşahidə etdi.

Allah Hüseynin çağırışını dərhal təsdiqləməyə başladı. O, digər iki xidmətçi ilə birlikdə bir evə gələndə ailənin qızı ağlamağa başladı. Sakitləşərək onlara dedi ki, bir gecə əvvəl Məsihi yuxuda görüb. Yuxuda İsa onu üç nəfərin oturduğu bir masaya tərəf aparıb. İndi isə həmin insanlar onun evində idilər! Beləcə, qız Müjdənin doğru olduğunu anladı. Hüseyn də Allahın onu xidmətə çağırdığına və ona xeyir-dua verəcəyinə dair Rəbdən təsdiq aldı.

## DÜŞÜNMƏK ÜÇÜN

Siz heç həyatda Allahla mübahisə etmisinizmi? Ola bilsin ki, Onun sizi nəyisə etməyə çağırdığını hiss etmisiniz, lakin Onun çağırışına cavab verməyinizin həyatınızı çətinləşdirəcəyindən narahat olmusunuz. Bəlkə, indi də siz Allahla mübahisə edirsiniz.

Gündəliyinizdə nəyin sizə mane olduğunu yazın. Bunlar itirmək istəmədiyiniz ünsiyyət, əmlak və ya həyat tərziniz ola bilər. Siz dalğaların başınızın üstünü örtməsini gözləməyin. Allahın planı həmişə sizin xeyrinizədir. Onun çağırışına elə indi razılıqla cavab verin.

### DUA

"Ya Rəbb İsa, məni bağışla ki, Sənin çağırışından daha çox bu həyatın rahatlığını seçmişəm. Sənin çağırışına razılıqla cavab verməkdə mənə kömək et. Qoy Sənin Padşahlığın mənim üçün şəxsi rahatlıqdan daha önəmli olsun. Sənə mənim üçün olan planlarına «bəli» deməyə kömək et. Amin."

### *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Padina və onun əri. Onlar İrandan gəliblər. Padina 2004-cü ildə müsahibə aldığım qadındır (təhlükəsizlik səbəbindən ölkənin adını çəkmirəm) və onun haqqında "Allaha çox möhtacam" adlı hekayəni yazmışdım. Padinanın anası mənimlə tanış olduğuna görə çox şad idi və qızı barədə yazdığıma görə mənə öz minnətdarlığını bildirdi!

O dedi ki, mənim yazdıqlarım yalnız "birinci fəsil"dir və indi bu hekayənin davamı var.



# 5-Cİ GÜN

# "BUNLARDAN HANSI DAHA YAXŞIDIR?"

"Çünki bilirəm ki, bunun nəticəsi dualarınızla və İsa Məsihin Ruhunun köməyi ilə mənim xilasım olacaq. Böyük həvəslə gözləyir və ümidvaram ki, heç bir vəziyyətdə utandırılmayacağam, yaşasam da, ölsəm də, həmişəki kimi indi də bədənimdə Məsihin ucalması üçün tam cəsarət göstərə biləcəyəm. Çünki mənim üçün yaşamaq Məsihdir, ölməksə qazancdır."

**FİLİPİLİLƏRƏ 1:19-21**

.................................................

Hüseyn, 2-ci hissə
Ölkənin adı bildirilmir, 2009-cu il

İranda Məsihə xidmət etmək asan deyil. Hüseynin özünü Rəbbin xidmətinə həsr etdiyi vaxtdan cəmi bir neçə ay keçmişdi. Bir gün o, öz mənzilində Müqəddəs Kitab dərsi keçən zaman polis içəri girdi. Otaqların birində Hüseyn və imanlıların təzəcə aldıqları beş yüz İncil kitabı olan üç böyük qutu var idi. Polislər mənzildə axtarış aparırdı və tapdıqlarını qonaq otağında yerə atırdılar. Onlar

hətta divardan şəkilləri çıxartdılar. Hüseyn deyirdi ki, polislərdən biri hətta iki döşəmə taxtasının arasındakı iynəni də götürdü. Lakin Rəbbin möcüzəsi idi ki, onlar yataq otağının ortasındakı İncil kitabları olan üç böyük qutuya fikir vermədilər!

Polis Hüseyni və onun xidmətində iştirak edən iki qadını həbs etdi. Əvvəlcə Hüseyni böyük həbsxanaya, sonra gözlərini bağlayıb maşına mindirdilər və başqa bir yerə apardılar. Hüseyn suallara necə cavab verəcəyi və yaxşı işindən, rahat həyatından niyə imtina etdiyi barədə fikirləşdi.

Onu eni və uzunluğu iki-üç metr olan birnəfərlik kameraya saldılar. Nəhəng işıq lampası otağı gündə iyirmi dörd saat işıqlandırırdı. Hüseyn işığı söndürmək istəyəndə nəzarətçi ona dedi: "Bura sənin üçün mehmanxanadır?"

Hüseynin fikrində suallar tüğyan edirdi. Görəsən birgə tutulan yoldaşları nəyi etiraf etdilər? Polisə nə deməlidir? Nə qədər müddətə o saxlanılacaq? Valideynləri onun həbs olunmasını necə qəbul edəcəklər?

Birnəfərlik kameranın soyuq döşəməsində oturan Hüseyn İsa Məsihlə görüşdü. Daha sonra o mənə dedi ki, kranı açanda axan suyun səsini eşitdiyimiz kimi Tanrının da səsini elə eşidib. O dedi: "Mən hiss etdim ki, İsa hər şeyi, bütün dünyanı kənara qoyub yanıma gəlib ki, mənimlə danışsın". Hüseyn dua etməyə başladı. Birdən onun bütün ümidsizliyi və sualları aradan qalxdı. Bütün otaq, eləcə də, onun qəlbi Allahın sülhü ilə doldu.

Hüseyn hiss etdi ki, Məsih ondan soruşur: "Nə deyəcəyin barədə niyə narahatsan? Nə deyəcəyin barədə fikirləşmə, çünki sənin dilinlə Mən Özüm danışacağam!"

Hüseynin qorxusu o anda yox oldu.

Dindirilmələr başladı. Hüseyn dua etdi ki, yalan danışmasın və Allah elə təşkil etsin ki, bütün suallara doğru cavab verə bilsin. Onu hər gün sorğu-sual edirdilər, lakin müstəntiqlərdən heç biri onun məsihçi olmağı və ya Məsihin ardınca getmək üçün İslamı tərk etməyi barədə heç nə soruşmadı. Hüseyndən Müqəddəs Kitabla

bağlı sorğu-sual edildikdə, polisin onun mənzilinin yataq otağındakı qutuları tapdığını güman etdi. O, suallara mümkün qədər ehtiyatla cavab verirdi və mümkün qədər az danışmağa çalışırdı. Hüseyn sonradan öyrəndi ki, müstəntiqlər onun çantasından tapdıqları iki Müqəddəs Kitabdan danışırdılar.

Bir neçə gün sonra o, məhkəmə qarşısına çıxarıldı. Hakim qarşısına çıxdı, lakin müstəntiqlər kimi, hakim də onun məsihçi olub-olmadığını soruşmadı. Hüseyni təcridxanaya qaytardılar və cəmi on gün orada qaldı. Orada çarpayı yox idi, gecələr kameranın döşəməsinə su buraxırdılar ki, Hüseyn uzanıb yata bilməsin.

Bir həftə sonra Hüseyn adi həbsxanaya köçürüldü və 11-ci səviyyəyə göndərildi. Ona xəbər vermişdilər ki, 11-ci səviyyə ölümə məhkum edilmiş məhbuslar üçün nəzərdə tutulub. Hüseyni gətirəndə oradakı mühafizəçi təəccüblə soruşdu: "Bu məhbus niyə buradadır. Burada onu tez öldürəcəklər!" Amma sənədlərdə 11-ci səviyyə qeyd olunmuşdu. Nəzarətçi dəmir darvazanı açıb Hüseyni içəri itələdi və arxasınca qapını çırpdı. Beləliklə, Hüseyn ölümə məhkum edilmiş 250 məhbus arasına düşdü. Hüseyn tezliklə öyrəndi ki, ölümə məhkum olunmuş məhbusların kameralarının bütün ərazisi bir banda tərəfindən idarə olunur.

Hüseyn dua edib nə etmək lazım olduğunu fikirləşirdi. Həmin gecə banda başçıları onu yanlarına çağırdılar. Başına gələcək dəhşətləri düşünərək o qorxurdu. Ancaq Allah onun qayğısına qaldı. Oradakı banda başçıları öyrəndilər ki, Hüseynin ABŞ ilə əlaqələri var. Onlar Hüseynin həbsxana şəraitinin necə dəhşətli olduğunu xarici dünyaya xəbər verməsini istəyirdilər. Söhbətin sonunda başçılar Hüseyni öz qruplarına qəbul etdilər. Beləliklə, o, ölümə məhkum olunmuş 250 məhbusa rəhbərlik edən səkkiz rəhbərdən biri oldu! Burada olduğu ilk gecədə ona üst çarpayını verdilər, amma beş il orada olan məhbuslar hələ də yerdə yatırdılar! Hüseyn şəxsi duş qəbul edə bilirdi. Hər gün o, təzə meyvə və tərəvəz yeyirdi. O, suyu paylamaq işinə baxırdı, ona görə də bütün məhbuslar ona hörmətlə yanaşırdılar, çünki öz

paylarını almaq istəyirdilər! Allah Hüseyni nəinki qorudu, hətta ona səlahiyyət də verdi!

(Bəlkə bu hekayəni oxumağı burada dayandırıb Yaradılış Kitabından Yusif haqqında olan hekayəni oxuyasınız.)

Hüseyn danışırdı ki, ölümə məhkum olanların kamerası onun üçün sanki otel otağı kimi idi. Buraya gəlişindən iki gün sonra rəhbərlik onu həbsxananın "daha təhlükəsiz" hissəsinə köçürməyi təklif etdi. Lakin Hüseyn orada qalmağa üstünlük verdiyini deyərək bundan imtina etdi!

Hüseyn girov müqabilində azadlığa buraxılmazdan əvvəl on gün ölümə məhkum olanların kamerasında qaldı. O, məhkəmə iclası üçün şəhərə qayıtmalı oldu və qayıdanda aydın oldu ki, Allah orada da iş görür. Hüseyn məhkəmə zalına daxil olanda müsəlman din xadimi olan uzun saqqallı, qəzəbli hakimi gördü. Hakim Hüseynin işini qaldıranda onun siması dəyişdi. Hüseyn apellyasiya sənədini ona verdi, hakim dedi: "Xeyr, bu səhv yazılıb. İndi hər şeyi düzəldəcəyəm". O özü Hüseynin müraciət sənədini yenidən yazıb doldurdu! Hakim də səbirlə apellyasiya şikayətinin necə verilməsini, sənədləri hara təqdim etməsini və hara aparılmasını izah etdi. Həmçinin bildirdi ki, Hüseynin problemi yaranarsa, ona zəng etsin. Məsələnin irəliləməsinə özü şəxsən kömək edəcək.

Hakim daha sonra Hüseynə dedi ki, onun heç bir məhkəmə iclasına gəlməsinə ehtiyac yoxdur, çünki özü hər şeyi həll edəcək.

Möcüzə, möcüzə, möcüzə, möcüzə! Hüseyn hər mərhələdə Allahın bir möcüzəsini görürdü.

Hüseyndən soruşdum ki, Allahın bu cür möcüzələri ilə əhatə olunarkən qorxu hissi keçirirdimi? O mənə belə cavab verdi: "Xeyr, çünki mən Allahın artıq necə hərəkət etdiyini dəfələrlə görmüşdüm! Nədən qorxmalıydım ki?!"

Hüseyn bü gün də İranda xidmətini davam etdirir və yaxşı bilir ki, onu polislə yeni və çoxsaylı görüşlər gözləyir. Ondan soruşdum ki, bunlar onu qorxudurmu.

"Məncə, iki şeydən biri olacaq. Ya məni öldürəcəklər, ya da möcüzə baş verəcək" — deyə Hüseyn təmkinlə cavab verdi.

Sonra o gülümsəyərək məndən soruşdu: "Bunlardan hansı daha yaxşıdır?"

## DÜŞÜNMƏK ÜÇÜN

Hüseynin yalnız iki yolu var idi, ya yer üzündə yaşamağa davam edib Allahın onun vasitəsilə möcüzəvi şəkildə fəaliyyətini görmək, ya da göylərə getmək. "Bunlardan hansı daha yaxşıdır?"

Bəzən diqqətimizi bizi gözləyən daha yaxşı vətənə — səmavi evimizə yönəltməliyik. Paul Kolossedəki kilsəyə göstəriş verdi: "... dünyəvi şeyləri deyil, ucalardakı şeyləri düşünün" (Kolosselilərə 3:2). Diqqətinizi yer üzündə artıq "qəriblər və sürgünlər" olmayacağınız göylərə, Məsihin hüzurundakı əbədiyyətə və izzətə yönəltməyiniz üçün bu gün sizə nə kömək edə bilər?

Öz diqqətinizi bu günə, bu həftəyə və bu ilə yönəltmək çox asandır. Ancaq əsas əbədiyyətdir! Yer üzündə İsa ilə ünsiyyətdə olmaq gözəldir, lakin bu, Rəbbin bizim üçün hazırladığı Atanın evində əbədiyyətlə heç cür müqayisə oluna bilməz.

İndi sizin diqqətinizi Məsihlə əbədiyyətə baxışınıza nələrin mane olduğunu qeyd edin. Diqqətinizi və fikrinizi "səmavi şeylərə" necə yönəldə bilərsiniz?

### DUA

"Ya Rəbb İsa, diqqətimi yer üzündəki həyatıma deyil, Sənin hüzuruna yönəltməkdə və göylərdə alacağım izzəti daha dərindən anlamaqda mənə kömək et ki, mən də Hüseyn və Həvari Paulla birlikdə belə deyə bilim: «Çünki mənim üçün yaşamaq Məsihdir, ölməksə qazancdır» (Filipililərə 1:21). Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Hüseynin şəhadətini yekunlaşdırmaq üçün onunla yenidən görüşdüm. Onun hekayəsi heyrətamizdir! Doğrudan da, Misirdəki Yusif kimi Hüseynin də həyatında möcüzələr olub! O, ölümə məhkum edilmiş qatı cinayətkarlarla birgə həbsxanaya salındı. Hətta çox məhbuslar görmüş nəzarətçi də etiraz edərək Hüseyn barədə belə demişdi: "Niyə o buradadır, onu dərhal öldürəcəklər!"

Ertəsi gün səhər Hüseyn quldur başçıları tərəfindən öz dairələrinə qəbul olundu və məhbuslara su paylamaq işinə baxmaq üçün təyin edildi. Onun şəxsi duş qəbul etmək imkanı vardı və oteldəki kimi ona təzə meyvələr verilirdi!

Hüseyn söhbət edərkən bildirdi ki, Allah ona belə deyib: "Mən söz vermişəm və sənin qayğına qalacağam!"

Hüseyn deyir ki, onun sevimli Müqəddəs Kitab personajı Şamueldir, çünki o, Allahın səsini aydın eşidib.

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"İncil kitabını bir daha oxuyun və siz görəcəksiniz ki, ılıq məsihçi olmaq İsanın təklif etdiyi gözəl həyat deyil. Təbii ki, bizim ruhani inkişaf etməməyimiz, zəif ruhani vəziyyətimiz Allahı izzətləndirmir.

Müqəddəs Kitabın bizə nə dediyini hamımız bilirik: «Biz Məsihdə tam ruhani yetkinliyə çatdıqda Allahı izzətləndiririk!»

Bəs niyə biz müqəddəslərin cismani ehtiyaclarını ödəyən və azacıq sevinc gətirən hisslərlə kifayətlənirik?

Çünki biz çarmıxı götürmək çağırışını eşitdik, amma dağa çıxmaq əvəzinə, küçə alverçiləri kimi Rəblə sövdələşdik! Biz özümüzü Məsihə həsr etmək istəyini hiss etdik, lakin bunu etmək əvəzinə suallar verməyə başladıq. Biz Allahın ruhani yetkinlik standartları barədə mübahisə etməyə və sövdələşməyə başladıq.

Bu sadə həqiqət, imansız «liberal» insanlar haqqında deyil. Bu, yenidən doğulan və «Ya Rəbb, bu mənə nəyə başa gələcək?» deyə soruşmağa cəsarət edən imanlılar haqqındadır."

**A.U. Ţozer**[1]

"Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana sanki başınıza gələn qəribə bir iş kimi təəccüb etməyin. Əksinə, Məsihin əzablarına nə qədər şərik olursunuzsa, o qədər sevinin ki, Onun izzətli zühurunda hədsiz sevinəsiniz. Məsihin adına görə təhqir olunsanız, siz nə bəxtiyarsınız! Çünki Allahın izzətli Ruhu üzərinizdə qalır. Lakin heç biriniz qatil, oğru ya başqa cür cinayətkar kimi yaxud başqalarının işinə qarışan şəxs kimi əzab çəkməsin. Amma bir insan məsihçi kimi əzab çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin."

**1 Peter 4:12-16**

---

1 A. W. Tozer, "Mediocre Christianity," in Mornings with Tozer: Daily Devotional Readings, comp. Gerald B. Smith (Chicago: Moody Publishers, 2008), April 15.

## 6-CI GÜN



# "ONA OLAN ÜMİD MƏNƏ GÜC VERİRDİ!"

"Sən qayğı yükünü Rəbbə ver, qoy sənə dayaq olsun. O heç vaxt salehə sarsıntı verməz."

**MƏZMUR 55:22**

...................................................

### Nepal, 2012-ci il

Danmaya ilə görüşməkdən ötrü "Şəhidlərin səsi" komandası günün qızmar vaxtında Nepalın cənubunda yerləşən dəmir damı olan evə getmək üçün uzaq bir yol qət etməli oldu. Taksinin kondisioneri bu istiyə tab gətirmirdi, ona görə də bizim sürücü gah onu tam işə salaraq heç olmasa bir qədər havanı sərinlətməyə çalışırdı, gah da biz pəncərələri açırdıq ki, qızmar külək bizim tərləmiş üzümüzə vursun. Nəhayət ki, təyin olunmuş yerə gəlib çatdıq və Danmayanın yaşadığı kərpicdən olan kiçik bir daxmaya daxil olduq. Burada taksidən də betər isti idi. Elə bil ki, biz pizza bişirilən sobanın içində idik, sadəcə burada plastik stullar var idi.

Bu bir otaqlı daxma yalnız Danmayaya məxsus deyildi. O sadəcə burada yaşayırdı. Əslində, bu ev kilsənin pastoruna məxsus idi və o öz ailəsi ilə birlikdə burada yaşayırdı.

Pastor bizi salamladı və plastik stulda oturmağı təklif etdi. Özü otaqdakı yeganə çarpayıda, həyat yoldaşı isə yerdə oturdu. Pastor qısaca olaraq bizə öz hekayəsini danışdı, sonra isə söhbəti Danmayaya yönəltdi.

Danmaya ilə görüşümüzdən altı il öncə məsihçi dostum ona Müjdə barədə danışanda, İsanın ardınca getməyin necə baha başa gələcəyi barədə qadının heç bir anlayışı yox idi. Danmaya həvəslə İsanı qəbul etdi və öz həyatını sevinclə Rəbbə həsr etdi. O, milyonlarla hindu tanrılarını razı salmaqdan bezmişdi. Danmaya İsanı qəbul etdikdə öz ürəyində Məsih vasitəsilə ona verilən Allahın məhəbbətini hiss edirdi.

Danmaya bu haqda ərinə danışanda, o düşündü ki, arvadının imana olan "həvəsi" çox çəkməyəcək. Əri əmr etdi ki, arvadı öz inanclarını özündə saxlasın və yüksək kastaya məxsus hindu ailəsini rüsvay etməsin. Ancaq Danmayanın imanı əvvəlki kimi qala bilməzdi. Onun imanı sürətlə inkişaf edirdi. Bu imanı onların evində gizlətmək mümkün deyildi. Müjdəni qəbul edəndən təqribən bir il sonra Danmaya pastordan xahiş etdi ki, onu vəftiz etsin. Beləliklə, əri anladı ki, arvadının imanı heç də boş bir maraq və məşğuliyyət deyil. İndi o öz imanını gizlətmək və artıq hindu olmadığı barədə susmaq istəmirdi. Tezliklə hamı onun həqiqətən də məsihçi olması haqqında biləcəkdi.

Əri Danmayanı fikrindən döndərməyə çalışaraq dedi: "Bu iman bizim ənənəmizə uyğun deyil. Ondan imtina et. Əks təqdirdə səni tərk edəcəyəm. Mənə məsihçi həyat yoldaşı lazım deyil, axı mən brahmanam (yüksək bir kastaya məxsus — hindu)". Beləliklə, əri Danmayaya məxsus əşyaları küçəyə atdı və artıq onu evə buraxmırdılar. Tezliklə əri özünə yeni arvad aldı.

Nepal mədəniyyətində boşanmış qadın, adətən, valideynlərinin yanına qayıdır və ya böyük qardaşının evində yaşayır. Əgər Dan-

maya Məsihə olan imanından imtina etməzsə, valideynləri onu qəbul etməyəcəkdi. Bəs belə olan halda o hara getsin?

İsa Öz davamçılarına xəbərdarlıq edirdi ki, insanın düşməni öz ev əhli olacaq (Matta 10:36). Beləcə, Danmaya Rəbbin dediyi sözlərin həqiqi olduğunu öz həyatında yaşadı. Danmayanın Məsihə sarsılmaz imanı olsa da, bu ona dünyada ən əziz olan ailə münasibətlərinin itirilməsi hesabına başa gəldi. Lakin o, Məsihdən dönmədi. Bütün itkilərə, gələcəkdə harada qalmaq və kim tərəfindən təmin olunacaq qorxusuna baxmayaraq Allah Danmayaya rahatlıq hissini və Öz hüzurunu bəxş etdi.

Bu qadından yer üzündəki ailəsi imtina edəndə, onun ruhani ailəsi öz kiçik kərpic daxmalarının qapısını onun üçün taybatay açdı. Biz də burada istidən tərləyib yorularaq oturduq.

Danmayanı görməzdən əvvəl onun hekayəsini eşidəndə belə fikirləşdim ki, evsiz, övladsız, yoldaşı tərəfindən atılan kədər içində məyus bir qadınla rastlaşacağam. Amma onu görəndə o, Rəbbin sevinci ilə işıq saçırdı. O, bu balaca boğanaq daxmada olan həyatını təsəlliverici bir mükafat kimi deyil, böyük bir sevinc kimi hesab edirdi (Yaqub 1:2).

Danmaya bu cür sınaqlardan keçərək, möhkəm imanını necə qoruyub saxladı?

Qadın bizim komandamıza belə söylədi: "Nə cür təqiblərə məruz qalsam da, ölümlə qarşılaşsam da, əsas mən göylərdə Məsihlə yaşayacağam. Bu ümid mənə həyatda irəliləməyə güc verir".

Ərini bağışlamaq Danmaya üçün o qədər də tez və asan başa gəlmədi. O belə dedi: "Əvvəllər ürəyimdə ərimə qarşı acı kök var idi, amma sonra bildim ki, əgər onu bağışlamasam, Allahla yol gedə bilməyəcəyəm. Ona görə də ərimi bağışladım".

Bu gün artıq Danmaya keçmiş əri və hətta onun indiki həyat yoldaşı üçün dua edir ki, onları da Rəbb Özünə cəlb etsin.

Biz Danmayadan soruşduq ki, Müqəddəs Kəlamdan hansı ayə ona güc verir. O, bizə dedi ki, 55-ci Məzmur 22-ci ayə ona qüvvət

verir: "Sən qayğı yükünü Rəbbə ver, qoy sənə dayaq olsun. O heç vaxt salehə sarsıntı verməz".

## DÜŞÜNMƏK ÜÇÜN

Mən tez-tez sarsıntı keçirirəm, çünki məsihçiliyə qarşı ədavətlə yanaşan ölkələrdə yaşayan bacı-qardaşlarımız İsa Məsihin ardınca getmək üçün yüksək qiymət ödəyirlər. Amma azad ölkələrdə yaşayan mən və mənim kimi bir çox məsihçilər çox az qiymət ödəyirik. Ən çox ona təəccüblənirəm ki, onlar bu dəyəri həvəssiz və məyus halda deyil, əksinə təmiz ürəklə və böyük sevinclə ödəyirlər.

Yəqin ki, həmin qardaş və bacılar bizim də yadda saxlamağımız üçün vacib olan həqiqəti dərk etdilər. Məsihin ardınca getməyin üstünlüyü, günahların bağışlanması və göylərdə yaşamaq vədi bütün bunlara dəyər. Tarlada olan dəfinə məsəlini xatırlayın. Orada deyilir: "Səmavi Padşahlıq tarlada gizlədilən bir dəfinəyə bənzəyir. Tapan adam onu gizlətdi, sevinclə gedib bütün varını satdı və o tarlanı satın aldı". O bunu tərəddüd etmədən "sevinclə" etdi (Matta 13:44).

Sizin də həyatınızda belə bir sevinc varmı? Yoxsa həyatınız qayğı və kədərlə doludur? Onları sadalaya bilərsinizmi? Siz onları Rəbbə "verməyə" hazırsınızmı?

### DUA

"Rəbb İsa, mənə xilas verdiyin üçün, Sənin ailənin üzvü olduğum üçün Sənə minnətdaram! Səndən xahiş edirəm, bu qiymətli ənamının yer üzündə hər şeydən, hətta ailəmdən də dəyərli olduğunu yadda saxlamaqda mənə kömək et. Qoy yoluma çıxan bütün sınaq və çətinliklərə baxmayaraq Danmaya kimi sevinclə Sənə xidmət edim. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Danmaya hər şeydən imtina etdi, amma onun üzündəki gözəl gülüşü işıq saçırdı. Çünki onun qəlbində Rəbbin sülhü və sevinci var idi.

Bura səfərimiz çox maraqlı keçdi! Arxamızda Everest dağı görünürdü. Biz heyrətlə əzəmətli, ən uca Himalay dağlarını seyr edirdik. Onlar o qədər yüksəkdir ki, hətta təyyarənin pəncərəsindən baxanda da başımızı yuxarı qaldırırdıq!



## 7-Cİ GÜN



# DAHA YAXŞI OLMAQ ÜÇÜN ÇALIŞMAQ – 1-Cİ HİSSƏ

"Deməli, kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi."

**2 KORİNFLİLƏRƏ 5:17**

........................................................

Türkiyə, 2010-cu il

Bəzi insanlar o qədər rəqabətli ruha sahibdirlər ki, bu onların həyatlarında hər şeyi idarə edir. Mənim yeni iranlı dostum İman da belə xasiyyətli insanlardandır. Amma o, həyat hekayəsini danışmazdan əvvəl başını aşağı əyib dua etdi.

O, Məsihə iman etməzdən əvvəl gördüyü əməllər haqqında düşünmək istəmirdi, çünki bu yolla şeytana qapı aça bilərdi. Buna görə də İman dua etdi ki, yalnız bizimlə bölüşmək istədiyi xatirələri

Allah onun yadına salsın. İsaya ürəyini verməzdən əvvəl şeytanın onu idarə etdiyi məqamları Rəbb yadına salmasın.

İman qardaş hekayəsinə bütün həyatı boyu onu idarə edən rəqabət ruhu barədə danışaraq başladı. O, İran-İraq müharibəsində əsgər kimi vuruşarkən komandirindən xahiş etdi ki, onu iyirmi dörd saat ərzində vətəni üçün şəhid olacaq ən şiddətli döyüş bölgəsinə göndərsin.

O, oğru olanda, digər oğruların cəhd etdiyi və ələ keçirə bilmədiyi şeyləri oğurlayaraq "ən yaxşı" oğru olmağa çalışırdı.

İman narkotik maddələrə aludə olanda isə ən yaxşı narkoman olmaq istəyirdi. O, mövcud olan bütün narkotik dərmanlardan istifadə etmək istəyirdi. İman çalışırdı ki, başqalarına nisbətən narkotik maddələrdən daha çox istifadə etsin.

İman istənilən işdə ən yaxşısı olmağa çalışırdı.

O, gənc yaşlarında dəhşətli avtomobil qəzasına düşmüşdü. Maşın tamamilə əzilmişdi, lakin onun bədənində heç bir cızıq da yox idi. Qəzanı görənlər ona maneənin ətrafında avtomobili necə heyrətamiz şəkildə idarə etməsini söylədi. Amma İman o anda sükanı idarə etmədiyini bildirdi. O, qəzadan sağ-salamat çıxdığına görə müharibədə şəhid olmuş qardaşının ruhuna, ya da anasının onun üçün Allaha etdiyi dualara görə minnətdarlığını bildirdi. Yalnız illər sonra İman həmin gün onu xilas edənin kim olacağını biləcəkdi.

Narkomaniya öz çirkin, zəhərli dişlərini İmanın ətinə batırandan sonra o, heç nəyə əhəmiyyət vermədi. O nə ailəsinin, nə də qidalanmasının qayğısına qalmadı. Onun fikrində yalnız növbəti narkotik maddənin haradan gələcəyini düşünmək idi. O, ümidini itirmiş və rahatlıq əldə etmək üçün narkotik dərmandan iynəyə keçən iranlıların uzun cərgəsində olanlardan biri idi.

Bir gecə İman narkotik maddədən istifadə edəndən sonra televiziya kanallarını axtararkən bir məsihçi kanalına rast gəldi. Cəmi bir neçə saniyə baxandan sonra eşitdiyi sözlər nədənsə onun beynində ilişib qaldı: "Mən ürəyimi İsaya verəndə..."

İman öz-özünə düşündü: "Məsihçilər, həqiqətən, çox qəribə insanlardır, ürəklərini kiməsə verirlər. İndiki zamanda insanlar bir-birinə

heç qələm də vermirlər (tərcüməçim izah edir ki, farsca ürək və qələm sözləri oxşar səslənir). Məsihçilərsə ürəklərini verirlər! Bu ağılsızlıqdı!

On gündən sonra İman sərxoş halda yenə də televiziya kanallarını axtarırdı. Sonra yenə də eyni məsihçi televiziya kanalına çevirdi. Bir neçə saniyə ərzində məsihçi kanalına baxanda yadında qalan bir qadının dediyi bu sözlər oldu: "Mən ürəyimi İsaya verəndə..." İman yenə kanalı dəyişdi, yenə də fikirləşdi ki, ürəklərini kiməsə verən məsihçilər necə də ağılsızdı.

İmanın ailəsi şəhərdən kənarda əyləncəli səyahət etməyi planlaşdırırdı. Lakin İmanın narkotik asılılığı çox güclü idi və o qədər pis görünürdü ki, ailəsi onu səyahətə dəvət etmədi. Cavan İman buna görə çox sarsıntı keçirdi, hətta öz ailəsi belə ona görə xəcalət çəkirdi.

Həmin gecə onun evinin damından tüstü çıxırdı. Narkotik dərmanlar demək olar ki, bitmişdi və İman həyatındakı problemlərin ağırlığını hiss edirdi. O, narkotik maddələrdən asılı olduğunu başa düşdü və buna qarşı aciz idi. "Bir gün narkotiksiz necə yaşayacağımı təsəvvür edə bilmirəm. Çünki əvvəllər narkotikdən azad olmaq üçün cəhd etmişdim, amma buna nail ola bilməmişdim."

İman çarəsiz halda səmaya baxıb dedi: "Allahım, məni xilas et. Məni bu aludəçilikdən azad et".

Həmin an onun yadına on beş il əvvəl baş vermiş avtomobil qəzası düşdü. Birdən o, avtomobili idarə edənin kim olduğunu anladı. O, Allah idi.

İman diz çökdü və əllərini qaldıraraq dua etdi, neçə il əvvəl onu xilas etdiyi üçün Allaha şükür etdi. Onu qəzadan xilas etdiyi möcüzəyə görə Allaha hörmət etmədiyinə görə tövbə etdi və narkotikdən azad olmaq üçün Ona yalvardı.

Mən bir səs eşidəcəyimi və ya bir işıq görəcəyimi gözləyirdim. Lakin bunları görüb eşitmədiyimə görə, həqiqətən, məyus oldum. Yatağıma qayıtdım, amma yatmazdan əvvəl dedim: "Allahım, məni əliboş buraxmaq sənin xasiyyətinə uyğun deyil. Ya Sən, həqiqətən, mövcud deyilsən, ya da mən elə pis günahkaram ki, Sən mənim üçün heç nə etmək istəmirsən".

İman yatağına uzandı və televizoru yandırdı, yenidən kanalları axtarmağa başladı. Bu dəfə məsihçi kanalını tapanda onu çevirmədi.

O yenə də həmin cümləni eşitdi: "Mən ürəyimi İsaya verəndə..." Amma bu dəfə İman cümlənin davamını eşitmək istədi: "...Məni xilas etdi!"

İki saat əvvəl İman damda dua etmişdi ki, Allah onu xilas etsin. İndi o, Allahın bunu necə edəcəyini eşitdi: "Ürəyini İsaya verəndə".

İman gördü ki, televizordakı bu kanala baxmaqdan əl çəkmir və ekranda bu ifadəni deyən kişi də vaxtilə narkoman və ümidsiz bir insan olmuşdu. Amma indi o insan qətiyyən narkotik maddəyə aludə olan adama oxşamırdı. O, tamamilə narkotikdən azad olmuş və şən bir insan kimi görünürdü! Sonra pastor ekrana yaxınlaşıb baxan hər kəsə dedi: "Siz də eyni sevinci, eyni şəfanı, eyni qələbəni yaşaya bilərsiniz".

İman yenidən dua etdi, keçmişdə etdiyi hər bir günaha görə ürəkdən tövbə edərək, bütün qəlbini İsaya verdi.

"Mən dua etmək üçün gözlərimi yumanda 100 faiz İsanın yanımda olduğunu hiss etdim. Mən hiss edirdim ki, o anda gözlərimi açsaydım, Onu görəcəkdim. Gözlərimi açmaq istəmirdim, çünki özümdən və günahlarımdan utanırdım. Mən bir günahkar kimi Onu görməyə layiq deyildim, amma hisslərim mənə "Allah buradadır!" deyirdi".

Gözlərini açanda İman hiss etdi ki, qəlbindəki bir qüvvə ona bunu deyir: "Artıq köhnə həyatın bitdi". İman indi yeni yaradılış idi.

İman bir vaxtlar ən yaxşı əsgər olmaq, hətta vətəni uğrunda şəhid olmaq istəyirdi. Sonra o, ən yaxşı oğru, daha sonra isə ən yaxşı narkotik maddə aludəçisi olmaq istəyirdi. İndi o, Məsihi tapmışdı və bu rəqabət başqa istiqamətə çevrilmişdi. Bu onun əla olmaq istəyidir! İndi o, Məsihin ən yaxşı şahidi, ən şən və sevən şagirdi olmaq istəyir!

Əgər o, İsanın ardınca getsə, ən yaxşı şagird də olacaq!

# DÜŞÜNMƏK ÜÇÜN

Bəlkə də, siz İsa ilə tanış olmazdan əvvəl oğru və ya narkoman olmamısınız. Lakin buna baxmayaraq, Rəbbin sizi xilas etməsi bir möcüzədir. İsanın bizi xilas etməzdən əvvəl nə cür insan olduğumuz və sonumuzun nə ilə bitəcəyi barədə düşünmək yaxşıdır. Bunu şeytana yer vermək üçün etmirik. Bu, köhnə həyatımızdan üz döndərib yeni bir yaradılışa çevriləndə keçirdiyimiz sevinc və minnətdarlıq hissini xatırlamaq üçündür. Siz də öz “yeni yaradılış” hekayənizi yazın və Allahdan xahiş edin ki, bu həftə sizə bunu kimsə ilə bölüşmək üçün imkan yaratsın.

## DUA

“Ya Rəbb İsa, məni xilas etdiyin üçün Sənə təşəkkür edirəm! Mən buna layiq deyildim və mən bunu heç vaxt qazana bilməzdim, amma Sən məni günahdan və cəhənnəmdən xilas etdin. Bunlara görə Sənə minnətdaram! Mənə olan məhəbbətə və mənim üçün etdiyin hər şeyə görə təşəkkür edirəm. Sənə sevinclə xidmət etməyim üçün mənə kömək et.”

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Həqiqətən Rəbb və Onun işi üçün canlarından keçən insanların ətrafında olmaq çox gözəldir.



# 8-Cİ GÜN



## DAHA YAXŞI OLMAQ ÜÇÜN ÇALIŞMAQ – 2-Cİ HİSSƏ

# “HƏYATIMIN ƏN GÖZƏL VAXTI”

“İsa bütün şəhər və kəndləri gəzib-dolaşaraq onların sinaqoqlarında təlim öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi. Lakin izdihamı görəndə İsanın onlara rəhmi gəldi, çünki çobansız qoyunlar kimi taqətsiz və çarəsiz idilər.”

**MATTA 9:35-36**

........................................................

Türkiyə, 2010

İman qardaş həyatını İsanın ardınca getməyə həsr etdiyi gündən bəri müjdəçi oldu. O, İsa haqqında yalnız bazar günləri və ya müjdəçilik toplantılarında deyil, həm də görüşdüyü hər kəsə danışmağı Allahın yaratdığı bir fürsət kimi görür. İman qardaş ən

yaxşı oğru və ən yaxşı narkoman olmaq istədiyi kimi, indi də ən yaxşı müjdəçi olmaq arzusundadır.

İman belə dedi: "Mən insanların dəyərini dünyəvi dəyərlərlə qiymətləndirmirəm. Hər bir insan İsa üçün qiymətli olduğu kimi mənimçün də dəyərlidir. Mən hər bir vəziyyətdə Müqəddəs Ruhdan soruşuram: «Nə etməyimi istəyirsən?» Mən Müjdəni paylaşmağa hazıram".

Onun Rəbb üçün hazır olması heyrətamiz nəticələr verdi. Mən İman qardaşla ilk dəfə görüşəndə o, dörd il idi ki, İsanın davamçısı idi və bu müddət ərzində mindən çox insanla birlikdə diz çöküb dua etmişdi. Nəticədə, onlar günahlarından əl çəkib ürəklərini və həyatlarını Məsihə həsr etmişdi. Beləcə, mindən çox adam İsanın davamçısı olmuşdu!

O, İrandakı məsihçi rəhbərlər şəbəkəsinin bir üzvü oldu və şəbəkənin rəhbərliyində olan məsihçilərdən təlim aldı. Şəbəkədəki digərləri kimi, o, hər ay gördüyü işlər haqqında hesabat verirdi. İman Məsih haqqında neçə nəfərlə danışdığını və neçə nəfərin İsanı qəbul etməsini qeyd edirdi.

Əlbəttə, İman məsihçilik məhdud olan bir ölkədə, İran İslam Respublikasında yaşayır. Beləliklə, insanlara İsa haqqında danışanda bu digərlərinin də diqqətini cəlb edəcək. Bu, onun həbs edilməsi, dindirilməsi və hətta həbsxanaya göndərilməsi ilə nəticələnəcək. Amma İman belə düşünür: "Əgər həbs olunsam, demək həbsxanada kimsə İsa haqqında eşitməlidir".

"Məni heç bir səbəb olmadan həbs edəndə bilirdim ki, Allah məni İsa haqqında danışmaq üçün həbsxanaya göndərir. Ona görə də mən həbs olunanda mübahisə etmədim. Mən həbsxanada ağır cinayətlər törətmiş iki nəfərlə görüşdüm. O adamlara dedim: "Allah məni sizi xilas etmək üçün bura göndərib".

Mən inanıram ki, Allah məni ətrafımda olanlara Müjdəni paylaşmaq üçün göndərib. Beləliklə, mən Müjdəni çox qısa şəkildə, təxminən on beş dəqiqə ərzində onlarla bölüşdüm və onlar tövbə edərək Məsihi qəbul etmək üçün diz çöküb dua etdilər.

Mənim İsa haqqında danışmağımdan cəmi on beş dəqiqə sonra mühafizəçi gəlib dedi: "Səndə bir təqsir tapılmadı və burada olmalı deyilsən. Sən bizimlə çox mehriban danışırsan, səni azad etmək istəyirik". Qapını açıb dedilər ki, çıxıb gedə bilərəm.

Onlar məni azad etmək üçün qapını açanda o iki cinayətkarı qucaqladım və onlar da ağlayaraq məni bərk qucaqladılar. Polis nəzarətçilərindən biri belə dedi: "Siz bu adamları cəmi on beş dəqiqə olar ki, tanıyırsınız. Onlar sizinlə ailə üzvü kimi davranırlar!"

İsa vasitəsilə xilası əldə etmək xəbərini günahkarlara çatdırmaq üçün İmanın böyük həvəsi onunla birlikdə dua etdiyi insanlara da təsir etdi. İmanın Məsih barədə danışdığı bir nəfər təhlükəsizlik polisi işləyən atasına öz xilası barədə danışanda atası böyük maraq göstərərək demişdi: "Bu, çox maraqlıdır. Bunu sənə danışan dostunla mən də görüşmək istərdim".

Həmin şəxs İman qardaşı öz şəhərinə atası ilə görüşməyə dəvət etdi. Amma İman görüşə gələndə artıq onu polislər gözləyirdi. Onun gözlərini bağlayıb maşına mindirdilər və həbs etdilər. İman polis bölməsində on saatdan artıq sorğu-sual edildikdən sonra hakim qarşısına çıxarıldı.

Hakim qarşısında dayanan İman Məsihin köməyi ilə narkotikdən azad olması barədə danışdı. O, hakimə dedi ki, o gündən etibarən hər dəfə narkoman gördükdə, həmin şəxsə ümid və azadlıq barədə danışmaq istəyir. O, siyasi hərəkat qurmaq və ya kilsə tikmək arzusunda deyil. O, sadəcə olaraq, Allahın onu narkotik asılılığından azad etdiyinə görə şükür edərək başqalarının da asılılıqdan xilas olmasını istəyir.

İclasın sonunda hakim onu yenidən dindirmək üçün geri göndərdi. Həbsdə olarkən ilk gecə İman böyük qorxu hiss etdi. O əmin idi ki, mühafizəçilər ona cinsi təcavüz etməyi planlaşdırır. Bunda görə İman Allaha yalvardı. O, diqqətini İsanın hüzuruna yönəltməyi öyrənmişdi.

O zaman İman Rəbbə dedi: "Nə olursa olsun, Rəbb, Səndən dönməyəcəyəm. Hətta mənə təcavüz etsələr də, Səndən əl çəkməyəcəyəm!"

Əvvəlcə İman kamerada dua edəndə mühafizəçilər ona duanı dayandırmağı əmr etdilər. O isə belə cavab verdi: "Bütün günü sizin suallarınıza cavab vermişəm. Amma indi siz mənə dua etməyi qadağan edə bilməzsiniz".

Sonralar İman bunları yada salıb deyirdi: "O kamerada etdiyim dualar mənim üçün çox xoş idi. Hər dəfə dua edəndə, sadəcə ağlayırdım. Həbsxanada dualarım çox gözəl idi, çünki bilirdim ki, səhv hərəkətimə görə buraya düşməmişəm. Mən bilirdim ki, burada olmağım Allahın iradəsidir, məhz ona görə də dualarım çox təsirli idi".

İman onun üçün az yemək gətirən gözətçilər üçün dua etdi. Onların həyatlarına və ailələrinə Allahdan bərəkət dilədi. Tezliklə mühafizəçilər onun üçün əlavə yemək gətirdilər.

İman iyirmi bir gün təkadamlıq kamerada qaldı. Sonra mühafizəçilər onu dörd yüz məhbusla birlikdə daha böyük bir həbsxanaya köçürdülər. İmanı ən pis kameralardan birinə, qatillərlə, narkomanlarla, ruhi xəstələrlə dolu bir otağa göndərdilər. Həbsxanada nüfuzu olan bir dostu ona otağını dəyişməyi təklif etdi. Lakin o imtina edib dedi: "Əgər Allah məni bu otağa göndəribsə, onda başqa yerdə olmaq istəmirəm".

Onun kamerasında altmış beş məhbus var idi. Yeddi metrlik kameraya yatmaq üçün qırx beş çarpayı yerləşdirilmişdi, onlardan on beşi üçmərtəbəli idi.

Bir məhbus İmanın həbsxanaya yenicə gəldiyini soruşdu. Amma İman cavab verib dedi: "Xeyr, mən iyirmi bir gün təkadamlıq kamerada qalmışam!"

Məhbus təəccüblə soruşdu: "Bəs sən tək orada necə sağ qaldın? Mən orada altı gün tək-tənha qaldım və az qala dəli olacaqdım!"

İman belə cavab verdi: "Ah, mən orada tək deyildim. Tanrı mənimlə idi".

"Mən sizinlə danışmaq istəyirəm" — deyə digər məhbus maraqlandı. Beləliklə, İmanın həbsxana xidməti başladı. Elə həmin gün o, narkotik aludəçisi olan məhbusun üzərinə əllərini qoyub

İsanın adı ilə onun üçün dua etdi. O adam asılılıq əlamətlərindən azad oldu.

Həbsxana otağında onları izləyən üç kamera var idi, ona görə də İman məhbuslarla gizlində danışmalı idi. O, çarpayıların altına girib kameralardan yayınaraq digər məhbuslara İsadan danışırdı.

"O mənim həyatımın ən şirin anları idi" — deyə İman o günləri xatırladı. O, həmin həbsxana kamerasında səkkiz gün ərzində iyirmi dörd məhbus yoldaşına Məsih barədə danışdı və onlar iman etdilər. Onlardan ikisi edam olunmağını gözləyən qatillər idi. Həbs olunduqdan beş gün sonra İmana dedilər ki, girov pul qoyub azadlığa çıxa bilər. Mühafizəçilər onun niyə getmədiyindən şübhələnənə qədər o, həbsxanada xidmətini davam etdirmək üçün girov pulunun ödənişini üç gün gecikdirdi.

İman mənə dedi: "İnanıram ki, Allah bizi harasa göndərəndə, o yer üçün bizi hazırlayır və təchiz edir. Mən o həbsxanada qalarkən bir missiyam olduğunu bilirdim".

Həbsdən azad edilib ailəsinə qayıtdıqdan sonra İman öz rəhbərlərinə aylıq xidmət hesabatını təqdim etdi. O, həbsdən, iyirmi bir gün təkadamlıq kamerada qalması və ya həbsxanadakı xidməti barədə deyil, başqalarına Müjdə bölüşməsi haqda danışdı: "Son bir ayda mən yüz adamla Müjdəni paylaşa bildim. Onlardan iyirmi dördü günahlarının bağışlanması üçün dua edib həyatlarını İsa Məsihə həsr etdilər".

Yalnız bir neçə həftə sonra məsihçi şəbəkə rəhbərləri başa düşdülər ki, İman həbsxanada xidmət aparır.

İman mənə dedi: "Həbsdən çıxan gün xidmətimə davam etdim. Mən son nəfəsimə qədər İsaya borcluyam. Nə etmişəmsə, bunları qəlbimdəki Müqəddəs Ruhun vasitəsilə etmişəm. İndi kim olduğumu bilirəm. Mən əvvəllər çox zəif idim, ona görə də bütün izzəti İsaya verirəm. Əslində mən heç kiməm, İsa isə hər şeydir. Əgər İsa olmasaydı, mən hələ də əvvəlki kimi günahkar və narkotikə aludə bir insan olardım".

# DÜŞÜNMƏK ÜÇÜN

Allah sizi bu gün hansı xidmət üçün hazırlayıb və təchiz edib? O sizi hara göndərir? O sizin yolunuza kimləri çıxarır? Siz hər bir söhbəti və qarşılaşdığınız hər bir insanı Allahın sevgisi və lütfü barədə danışmaq üçün bir fürsət kimi görürsünüzmü? Siz insanlara İsanın gözləri ilə baxsanız, ətrafınızdakılara qarşı münasibətinizi necə dəyişəcək?

## DUA

"Ya Rəbb, qoy mən ətrafımdakılara insani gözlərimlə deyil, Sənin mərhəmət dolu gözlərinlə baxım. Bu gün mənim üçün imkan yarat ki, yoluma çıxardığın hər bir insana Sənin məhəbbətindən danışım. Mən Sənin xidmətçin olmağa hazıram. İndi məni Sənin barəndə eşitməyə ehtiyacı olan şəxsə tərəf yönəlt".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Mən bir müjdəçidən heyrətamiz müsahibə aldım. O, təxminən bir ay həbsxanada, o cümlədən, iyirmi bir gün təkadamlıq kamerada qalmışdı. Həbsdə olarkən onun vasitəsilə iyirmi dörd nəfər Məsihə iman etmişdi!

Hətta İmanın azad edilməsi üçün pul təklif olunsa da o, əlavə üç gün həbsxanada qaldı. Həbsxana rəhbərliyi onun niyə getmədiyini

soruşana qədər o, məhbuslara İsa barədə danışdı. İman çox maraqlı bir fikir söylədi: “Əgər siz məsihçisinizsə və təqiblərə məruz qalmamısınızsa, demək xeyir-duanızı itirmisiniz!”

## TƏQİB OLUNAN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

Məsih uğrunda əzab çəkən keçmiş məhbus Bob Fu ilə söhbətimi heç vaxt unutmayacağam. Mən bir dəfə Bobdan soruşdum ki, kommunist dövründə Çində o, xidmətinə görə həbs olunmazdan əvvəl həbsdə olan məsihçilər üçün necə dua edib? O bildirdi ki, özü həbsxanaya düşməzdən əvvəl həbsdə olan məsihçilərin tezliklə azadlığa buraxılması və ailələrinə qayıtması üçün dua edirdi.

Mən soruşdum ki, həbsdə olduqdan sonra onun duası dəyişdimi?

“Bəli!” — deyə o cavab verdi. İndi dua edir ki, həbsdə olan məsihçilərin başqalarına İsa barədə danışmaq fürsəti olsun və Allah onlara kömək etsin.

**BU GÜN DUA EDİN.** Həbsdə olan məsihçilər üçün, onların qorunması və sağlamlığı üçün bu gün dua edin. Qoy bu gün onlar üçün İsa barədə kiməsə danışmaq fürsəti olsun. Onların danışacağı adamlar məhbuslar, həbsxana zabiti və yaxud da hakim ola bilər. Dua edin ki, Allah onlara bu fürsətdən istifadə etmək üçün şans, cəsarət və lütf versin.

## 9-CU GÜN



# TƏQİBLƏR TƏSADÜF DEYİL, BİR GÖZLƏNTİDİR

"Əgər dünya sizə nifrət edərsə, onda yada salın ki, sizdən əvvəl Mənə nifrət edib. Əgər dünyadan olsaydınız, dünya özündən olan sizləri sevərdi. Amma siz dünyadan deyilsiniz, Mən sizi dünyadan seçdim, buna görə dünya sizə nifrət edir. Mənim sizə söylədiyim sözü yadınıza salın: «Qul ağasından üstün deyil». Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər. Lakin bunların hamısını sizə Mənim adıma görə edəcəklər, çünki Məni Göndərəni tanımırlar."

**YƏHYA 15:18-21**

.................................................

*Hindistan, 2010*

Banqalor şəhəri bəzən "Hindistanın İT paytaxtı" adlanır və dünyanın əksər tanınmış texnologiya şirkətlərinin yerləşdiyi mərkə-

zidir. Bu, Hindistanda indiyə qədər eşitdiyim "ən yeni" təqib hekayələrindən biri idi. Təqib olunan pastordan həbsdən çıxdıqdan on iki saat sonra müsahibə aldım.

Peter Paul iki həvarinin adını daşıyır. Həvari Peter və Paul dirilmiş İsa haqqında təbliğ etdiyi kimi, Peter Paul da harada olursa olsun, Müjdə barədə danışır.

Peter Paul kiçik pastor maaşını artırmaq üçün müəllim kimi çalışırdı. Hindistan əsasən hindu ölkəsi olsa da, Peter Paulun yaşadığı və işlədiyi daxmalardan ibarət olan məhəllədə əsasən müsəlmanlar yaşayırdı və onun şagirdlərinin əksəriyyəti müsəlman ailələrindən olan uşaqlar idi.

Peter Paul uşaqlara dərslərində kömək etmək, həm də onlara İsa barədə danışmaq üçün dərsdən sonra məşğələlər proqramını təşkil etdi. O, bir çox şagirdlərinə "İsa" filminin nüsxələrini payladı və onlar diskləri sevinclə evlərinə aparıb ailələri ilə bölüşdülər.

Onun bu müjdəçilik fəaliyyəti gizli qaldı, lakin təxminən iyirmi gənc şagirdə İncil kitabı verməsi nəzərdən qaçmadı.

Kasıb şagirdlərin evlərində kitablarla dolu rəfləri yox idi və onlara verilən təzə kitablara görə sevinirdilər. Amma İncil kitablarını təlim aldıqları İslam mədrəsəsinə aparanda, onların rəhbərləri hiddətləndi. Niyə müsəlman uşaqlarına məsihçi kitabları verilirdi? Onlar uşaqlara kitabları kimin verdiyini öyrənməyi tələb etdilər.

Mədrəsənin rəhbərləri üç yerli məsciddən qəzəbli müsəlmanları cəlb edərək, təxminən 150 nəfərlik izdiham topladılar. Onlar Peter Paulun evinə getdilər. Bu zaman o, səhər duasını yenicə bitirmişdi.

Onu çölə çıxaran camaat Peter Paulu sillə və təpiklə vurdular və onlar kafiri öldürmək istədiklərini söylədilər.

Peter Paulun həyat yoldaşı Nirmala həyətdəki izdihamla danışmağa çalışdı. O, söz verdi ki, ərindən əl çəksələr, ailəsi bu ərazini tərk edəcək. Peter Paul həyat yoldaşına narahat olmamasını söylədi.

O, həyat yoldaşına belə dedi: "Nə olacaqsa, qoy olsun. Əsas Rəbbin iradəsi həyatımda yerinə yetsin".

Peter mənə dedi ki, o qorxmurdu və bilirdi ki, Allah onu təqibçilərinin əlindən qurtara bilər.

Kütlənin üzvləri ailənin evini qarət edərək içəridəki hər şeyi dağıtdılar. Sonra Peter Paulu onun dərs dediyi məktəbə sürüklədilər və “cinayət” etdiyinə — uşaqlara İsa haqqında danışdığına görə yerli polisi və medianı çağırdılar.

Polis gələndə bir adamı döyən və onun bütün əşyalarını dağıdan izdihamın üzvlərini həbs etmədi. Əvəzində onlar müsəlman uşaqlarına məsihçi kitabları verməklə “ictimai harmoniyanı pozduğuna” görə Peter Paulu həbs edib həbsxanaya apardılar.

Pastor Peter Paul mənə dedi ki, həbsdə olarkən Allahın övladlarının həbsxanaya salınması haqqında olan Müqəddəs Kitab hekayələri barədə düşünürdü. O, Filipidəki həbsxanada mahnı oxuyan Paul və Sila haqqında düşündü. Bir mələk onu həbsxanadan çıxaranda iki Roma əsgəri arasında zəncirlənmiş Peteri yada saldı.

Peter Paul dua etməyə başladı. Lakin onun duası xilas və ya azad olmaq üçün deyildi.

O, Rəbbə dedi: “Sən necə istəyirsənsə, qoy həyatımda elə də olsun”.

Peter Paul həbsxana rəhbərindən digər məhbuslarla danışmaq imkanının ola biləcəyini soruşdu. Ona icazə veriləndə ayağa qalxdı və həyatında Allahın gördüyü işlər haqqında başqalarına danışmağa başladı. O, hər vəziyyətdə Allahı izzətləndirməyi təbliğ edirdi.

O, məhbus yoldaşlarına dedi: “Biz harada olmağımızdan asılı olmadan, həmişə Allaha həmd etməliyik. İstər sınaqlarda olduğumuz vaxt, istərsə də, bütün işlərimiz yaxşı gedən zaman, hər vəziyyətdə Allaha həmd etməliyik”. Bu sözlərindən sonra bir neçə məhbus onunla birlikdə dua etməyi xahiş etdi.

“Şəhidlərin səsi” təşkilatının əməkdaşları Peter Paul üçün vəkil təşkil etdilər və həbsdən azad olunması üçün vəsait ayırdılar. Beləliklə, həbsindən bir həftə sonra şənbə gecəsi onu azad etdilər. Bazar günü səhər Peter Paul və arvadı Nirmala ilə çay içmək üçün masa arxasında oturduq. Onların iki gözəl övladı hələ də yatırdı.

Onların getməyə yerləri yox idi. Peter Paul həbsdə olarkən ev sahibi onların çox problem yaratdığına görə, izdihamın evi yenidən qarət edəcəyinə və hətta yandıracağına görə qorxaraq ailəni evdən qovdu.

Peter Paul zaminə buraxılmışdı, lakin ona qarşı irəli sürülən ittihamlar hələ də davam edirdi. Onun yenidən həbsxanaya düşmək şansı var idi. Biz Peter Paul və arvadı Nirmala ilə birgə oturub çay içirdik. İndi onların yeganə sahib olduqları əşyalar geyindikləri paltarlar idi. Onların geri dönməyə evləri yox idi. Həmin gecə harada yatacaqlarını bilmirdilər.

Bununla belə, biz Peter Pauldan onlar üçün necə dua edəcəyimizi soruşduqda, özü üçün deyil, valideynləri üçün dua etməyimizi xahiş etdi. Peter Paulun həbs olunmasına görə valideynlərinin imanı çox sarsılmışdı. Dua edin ki, Allah onlara təsəlli versin və imanları güclənsin.

Onun digər dua xahişi isə xidməti ilə bağlı idi. O, bizdən müjdəçi kimi xidmət etməsi üçün dua etməyimizi xahiş etdi. Bir həftə həbsdə qalmasına, evinin və sahib olduğu hər şeyin dağıdılmasına baxmayaraq o yenə də xidmət etmək istəyirdi.

Peter Paul hekayəsini yekunlaşdıraraq dedi: "Təqib təsadüfi yaranmış bir vəziyyət deyil. Bu, Rəbbi sevən və Ona xidmət etmək istəyənlər üçün bir gözləntidir!"

## DÜŞÜNMƏK ÜÇÜN

Hindistanda hələ də təqiblərin olması gözlənilir. Orada kimsə müsəlmanlara Məsih barədə açıq danışan zaman ola bilsin ki, təqiblərlə üzləşsinlər. Bəs dünyada rahat yaşayan biz məsihçilər üçün necə, təqib olunmaq gözləntisi varmı? Yoxsa Allahın bizə yalnız təsəlli, dünyəvi uğur verəcəyini gözləyirik? İsa dedi: "Məni təqib etdilərsə, sizi də təqib edəcəklər". Paul Timoteyə yazırdı: "Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin

hamısı təqibə məruz qalacaq" (2 Timoteyə 3:12). Mən burada heç bir millətin istisna olmasını görmürəm.

Əgər məsihçi üçün təqiblər təsadüf deyil, gözləntidirsə, onda imana və Məsihə xidmətinizə qarşı münasibətinizin necə dəyişəcəyi barədə gündəliyinizdə qeyd edin.

## DUA

"Ya Rəbb İsa, mənə kömək et ki, Peter Paulun həbsxanada etdiyi duanı mən də edə bilim. Həyatımda nə olursa olsun, əsas Sənin iradəni yerinə yetirim. İstər rahatlıq və ya əzab, istər sülh və ya ürək ağrısı, istərsə də sağlamlıq və ya xəstəlik olsun, hər vəziyyətdə Sənin iradən həyatımda yerinə yetsin. Ya Rəbb, həyatımı Sən idarə et. Səni axtarmağa və hər zaman Sənin hüzurunu hiss etməyə mənə kömək et."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bazar günü: Biz bu səhər dünən həbsdən çıxan bir pastordan müsahibə aldıq. Onun həyat yoldaşı və iki övladı ilə də tanış olduq. O, heyrətamiz dərəcədə şən və sadiq bir insan idi!

Bazar ertəsi: Dünən görüşdüyümüz pastor üçün dua etdim. Allaha şükür edirəm ki, mənə Onun müxtəlif ölkələrdə etdiyi işlərə şahid olmaq imkanı verib. Mənim üçün təqib olan məsihçilərlə görüşmək, hekayələrini eşitmək və imanlarını görmək, həqiqətən də böyük bir şərəfdir.

# 10-CU GÜN




## "BİZ UZUN MÜDDƏT DUA ETDİK..."

"Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir."

**YƏHYA 12:24**

.................................................

*Tacikistan, 2004*

Pəncərədə hələ də güllə dəlikləri var idi.

Əlbətdə ki, onları yapışqanlı lentlə örtmək olardı. Amma pəncərədəki dəlikləri görməmək və hansı səbəbdan yaranmasını unutmaq mümkün deyil.

Tacikistanın İsfərə şəhərində bir evin ön otağında oturduq. Bu otaq həm də 126 məscidi olan şəhərin yeganə kilsəsi idi və məsihçilərin görüş yeri kimi xidmət edirdi. Bura həm də ziyarətimizdən

cəmi dörd ay əvvəl kilsənin pastoru Sergey Bessarabın pəncərədən güllələndiyi və öldürüldüyü otaq idi.

Sergeyin dul arvadı Tamara bizimlə oturub söhbət etdi. Qış başa çatmaq üzrə olsa da, soyuq idi. O, bizə kilsənin pastoru olan əri haqqında danışdı. Onun kədəri və itkisi hələ də təzə idi.

Ölümündən əvvəl Sergey Bessarab qırx üç ilinin on səkkizini beş dəfə həbsdə olmuşdu. Lakin o, məsihçi xidmətinə görə həbs olunmamışdı. Sergey cinayətkar idi, Tacikistanın mütəşəkkil cinayətkarlar aləmində aparıcı bir insan idi. Onun həbsxanada uzun müddət qalmasına səbəb də məhz bu idi.

Amma onun son həbsi zamanı hər şey dəyişdi. Sergey baptist kilsələrinin həbsxana xidməti vasitəsilə Məsihə iman etmiş bir məsihçi məhbusla tanış oldu. O, Sergey Bessarab üçün dua etdi ki, İsa Məsihin Xilaskar olduğunu dərk etsin. Onun dostunun adı da Sergey idi.

Bessarab dostuna onun üçün dua etməməsini söylədi: "Başqası üçün dua et. Mənim üçün dua etməklə vaxtını itirmə".

Buna baxmayaraq, Sergey duasını davam etdirdi. O, həbsxana kilsəsinə görə cavabdeh idi və üç il ərzində hər gün dostunun Məsihi tanıması üçün dua etdi. Nəhayət, 2000-ci ilin avqustunda dualarına cavab gəldi. Sergey Bessarab diz çöküb günahları üçün tövbə edərək İsanı Xilaskar və Rəbb kimi qəbul etdi.

Onun cinayətkar lideri olması üçün sərf etdiyi enerji və həvəs indi yeni istiqamətə yönəlmişdi. Bessarab imana gəldikdən altı ay sonra həbsxanada Müqəddəs Kitabı öyrətməyə başladı. 2001-ci ildə azadlığa çıxandan sonra vəftiz olundu. Həbsdən çıxandan sonra da o, məhbusları ziyarət etmək, onlara xidmət etmək və şagirdlik üçün dəfələrlə həbsxanaya gəldi. Həmin həbsxanalarda İsanı tanımağa ehtiyacı olan və onun şəxsən tanıdığı bir çox məhbuslar var idi.

Sergey Bessarab İsfərə şəhərində Allahın kilsə tikmək çağırışını hiss etdi. Bu, ölkənin şimal-qərb hissəsində, heç bir məsihçi olmayan, lakin radikal İslamın güclü axını olan bir şəhər idi. O,

bazar günləri Tamara ilə İsfərəyə gedib insanlara xidmət etməyə başladı. 2003-cü ilin əvvəlində onlar İsfərə şəhərinə köçdülər. Kilsə böyüməyə başladı və hər bazar günü evlərinin böyük ön otağı adamlarla dolmağa başladı. Sergeyin danışığındakı həvəs insanları özünə cəlb edirdi. Həyatının on səkkiz ilini həbsdə keçirən bir insan kimi o bilirdi ki, heç kəs Allahın lütfündən kənar deyil.

Bessarabın xidmətində ona böyük həvəs verən mənbə daima Tanrı ilə şəxsi ünsiyyəti idi. Hər səhər iki saat və hər axşam daha iki saat Sergey kilsənin toplaşdığı ön otaqda oturur və sadəcə olaraq Allahla vaxt keçirirdi. O, Müqəddəs Kitabı oxuyar, dua edər, gitara çalardı, onu qaranlıqdan və əsarətdən xilas edən Ataya həmd mahnıları oxuyardı.

Hər səhər və hər axşam iki saat İsa ilə vaxt keçirmək onun üçün kifayət etmirdi. Tamara bizə dedi ki, 2003-cü ilin sonunda Sergey Rəbb ilə daha çox vaxt keçirməsi üçün dua etdi. O, Tanrıdan günorta vaxtı səcdə və dua etmək üçün daha iki saat əlavə vaxt istəyirdi.

Tanrı Sergey Bessarabın duasına cavab verdi. Amma onun gözlədiyi kimi deyil.

Onların kiçik kilsəsi heç bir kilsənin olmadığı bir şəhərdə diqqəti cəlb edirdi. 2004-cü il yanvarın əvvəlində yerli qəzet böyüyən məsihçi kilsəsi və onların müsəlmanları kafirlərə çevirən işləri haqqında məqalə dərc etdi. Hekayənin bir sətri diqqəti cəlb etdi: “Bəs Sergey Bessarabın başına nə gələcək?”

Təbii ki, Sergey məqaləni oxudu. Amma Allah onu İsfərədə xidmət etməyə çağırmışdı və oradan çıxıb getməyi yerli qəzetdən deyil, Tanrıdan gözləyirdi. Yanvarın 12-də o, əlində gitara, ön otaqda oturmuşdu. Birdən atəş səsi eşidildi. İlk güllə Sergeyin əlinə dəydi və qan gitaraya sıçradı. İkinci güllə onun ayağına dəydi. Ərinin fəryadını eşidən Tamara evin arxa otağından ərinə tərəf qaçdı.

Son güllə isə Sergeyin sinəsinə dəydi. Tamara heç nə edə bilmədi və ancaq ərinin əbədiyyətə qovuşmasını gördü. Silahlı şəxs

hələ də atəş açaraq çöldə, evin ətrafında gəzirdi. O, həm də Bessarabın maşınına güllə ataraq onu yararsız hala saldı. Sonra o, bir dalana doğru qaçaraq qaranlıq gecədə gözdən itdi.

Ərinin ölümündən dörd ay sonra Tamara ilə birlikdə qəbiristanlığa getdik. Sergeyin məzarını əhatə edən dəmir hasara söykənəndə qadının göz yaşları üzündən süzüldü. O, ərinin qətlindən çox sarsılmışdı.

Tamara öz kədərini belə ifadə etdi: "İyirmi gün ərzində Müqəddəs Kitabı əlimə ala bilmədim. Sonra Allah mənə Öz xeyirxahlığını göstərməyə başladı".

Yanaqlarından axan göz yaşlarını silərək o, bir müddət hərəkətsiz dayandı. Sonra davam etdi: "İlk dəfə soruşdum ki, ya Rəbb, axı niyə? Sonralar anlamağa başladım ki, bu, Allahın planıdır. Bunun vasitəsilə Allaha necə şükür etməyi öyrənməyə başladım və indi də Allaha şükür edirəm".

Onun ərinin baş daşında Filipililərə 1:21-ci ayədəki sözlər yazılıb: "Çünki mənim üçün yaşamaq Məsihdir, ölmək isə qazancdır". Sergey Allahdan hər gün daha iki saat əlavə vaxt istəyirdi ki, Onun hüzurunda keçirsin. İndi o, gündə iki saat yox, əbədi olaraq Rəbbin hüzurundadır!

Yanvar gecəsi üç güllə Bessarabın şəhadətini dayandıra bilmədi. Ərinin həyat və ölümünün bəhrəsini görmək Tamara üçün Allahdan gələn rahatlığın bir hissəsi idi. Hətta dəfn zamanı Tamara Məsihdən qaçan on səkkiz yaşlı oğlunun ögey atasının cəsədinin torpağa tapşırmasını seyr edərkən ürəyini Rəbbə verdiyini gördü.

Tamara cəmi dörd ay ərzində Tacikistanın səkkiz müxtəlif həbsxanasından ərinin həyatı və xidmətinin təsir etdiyi məhbuslardan məktublar almışdı.

Lakin ərinin xidmətinin təsiri təkcə Tacikistan sərhədləri ilə məhdudlaşmadı.

Bessarabın Məsihə gəlməsi üçün dua edən dostu Sergey dedi: "Bir çox insanlar ruhani yuxudan oyandılar. Bu təkcə Tacikistanda deyil, Qırğızıstan və Qazaxıstanda da baş verdi. Bir çox məhbuslar

Sergeyin hekayəsini eşidib Məsihi daha yaxından tanıdılar və həyatlarını İsaya həsr etmək istədilər". Bessarab İsa ilə dörd ildən az müddət yaşadı, lakin onun həyatının bəhrəsi bütün dünyaya yayıldı.

Tamara da ərinin ölümündə Allahın onları çağırdığı İsfərə şəhəri üçün xeyir-dua olduğunu gördü. "Biz uzun müddət dua edirdik ki, Allah İsfərəyə diqqət yetirsin, elə də oldu. Allahın öz planı var idi və indi bütün dünyada bir çox insanların diqqətini İsfərəyə yönəltdi. Allah bura üçün xüsusi bir xeyir-dua hazırlayır. Allahdan yalnız bir şey diləyirik, biz indi Sergeyin öldürüldüyü yerdə xidmətimizi davam etdirmək istəyirik".

Onlar bu şəhərdə, xüsusilə, bir nəfərə İsa haqqında danışmaq istəyirdilər. Bessarabı qətlə yetirən yerli məscidin rəhbərinin Oğluna. Bu hadisəyə görə onu həbs etmişdilər. Dostunu öldürən gənclə görüşmək üçün Sergeyin bir planı var idi. Bir dəfə o, həbsxanaya gəldi.

"Bir gün biz Sergeyi öldürən şəxslə görüşəcəyik, çünki bütün Tacikistanda bizim həbsxana xidmətimiz var. Biz ona da İsa haqqında danışmağa hazırıq."

## DÜŞÜNMƏK ÜÇÜN

Sergey Bessarabın hekayəsində bizim diqqətimizi cəlb edən bir çox cəhətlər var, lakin bu gün onlardan ikisinə diqqət yetirəcəyik. Əvvəlcə Allahla keçirdiyiniz şəxsi vaxtınız haqqında düşünün. Sergey gündə dörd saatını Müqəddəs Yazılara, dualara və ibadətlərə sərf edirdi və düşünürdü ki, bu kifayət deyil! O, səmavi Atası ilə daha çox vaxt keçirmək istəyirdi. Bəs siz Allahla vaxtınızı necə keçirirsiniz? Onun hüzurunda daha çox olmaq istərdinizmi? Sizin üçün növbəti addım nədir? Bəlkə, siz Allahla gündəlik vaxt keçirməyə başlamalısınız. Bəlkə də, Allahın Kəlamını əzbərləməyiniz və ya duaya daha çox vaxt ayırmağınız lazımdır. Növbəti addımınızı yazın və bu gün bunu etməyə çalışın.

İkincisi, o biri Sergeyin problemi barədə düşünün. O, üç il ərzində hər gün dostunun Məsihi tanıması üçün dua edirdi. Hətta Bessarab ona vaxtını boş yerə sərf etməməsini desə də o duasını davam etdirdi. Bir həftə ərzində hər gün bir şey üçün dua edirəmsə, deməli mən səylə dua edirəm! Amma üç il ərzində hər gün? Bəs Allah sizi duada kimin üçün döyüşməyə çağırır? Onların adını yazın və sonra telefonunuzda o adamlara görə dua etmək üçün gündəlik xatırlatmanı quraşdırın.

## DUA

"Maral axar sulara həsrət qalan kimi, ey Allah, könlüm Sənin həsrətini çəkir!" (Məzmur 42:1).

"Ya Rəbb İsa, mənə Sənin hüzurunda olmaq, Səndən öyrənmək və Sənin tərəfindən formalaşmaq istəyi ver. Mənə elə güclü bir istək ver ki, ruhani ehtiyacımı ödəmək üçün gündə dörd saat belə çox qısa bir zaman kimi görünsün. Öz vaxtımı səmərəli və hikmətlə istifadə etməkdə mənə kömək ol ki, Sənin hüzurunda dua etmək və Kəlam oxumaq üçün daha çox vaxtım olsun.

Ya Rəbb, mənə kömək et, xüsusən də, Səni hələ tanımayanlar üçün dua edəndə səbirli olum. Qoy mən o insanlara Sənin barədə danışmaqda və Səni göstərməkdə heç vaxt yorulmayım və ruhdan düşməyim. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bu gün eşitdim ki, sabah ziyarət edəcəyimiz kənddən dörd kişi hazırda Quantanamo körfəzindəki düşərgədə həbsdədir. Ora qatı müsəlmanların kəndi olmalıdır!

Sergeyin kilsəsinin üzvləri bizimlə görüşdən sonra ruhlandılar. Bizdən başqa heç bir əcnəbi onların kilsəsini ziyarət etməmişdi. Əcnəbilər yalnız yaxınlıqdakı şəhərə gəlmişdilər. Bizə nahar üçün kartof fri, göbələk, soğan, müxtəlif içliyi olan çörəklər və çay verdilər. Süfrə arxası söhbətimiz uzandı.

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

Stefanın daşqalaq edilməsinə və Peterin həbsdən qaçmasına icazə verən eyni Allahdır. Rəbb sadiqdir və Onun lütfü hər vəziyyət üçün yetər.

**Rose** Nigeriyanın şimalında şəhid olmuş bir pastorun dul qalmış arvadıdır.[1]

"Rəbbimiz İsa Məsihin Allahına — Atasına alqış olsun! O, rəhmli Ata və hər cür təsəlli verən Allahdır. Çəkdiyimiz hər bir əziyyətdə O bizə təsəlli verir ki, biz də Allahdan aldığımız təsəlli ilə hər cür əziyyət çəkənlərə təsəlli verə bilək. Çünki Məsihin əzablarını necə böyük həcmdə çəkiriksə, Məsih vasitəsilə o cür böyük təsəlli də tapırıq. Əziyyət çəkiriksə, bu sizə təsəlli və xilas gətirir. Təsəlli tapırıqsa, bu da bizim kimi çəkdiyiniz əzablara dözəsiniz deyə sizə güc verən bir təsəlli almanız üçündür. Sizinlə bağlı ümidimiz sarsılmaz. Çünki əzablarımıza şərik olduğunuz kimi təsəllimizə də şərik olduğunuzu bilirik.

Ey qardaşlar, Asiya vilayətində çəkdiyimiz əziyyətlərdən bixəbər olmağınızı istəmirəm. Gücümüzdən daha artıq bir yük altında qaldıq. Hətta yaşamaqdan belə, ümidimizi kəsmişdik. Daxilən hiss etdik ki, ölümə məhkum olmuşuq. Amma bu özümüzə deyil, ölüləri diriləndən Allaha güvənməyimiz üçün başımıza gəldi. Allah bizi belə bir böyük ölüm təhlükəsindən qurtardı və qurtarmaqda davam edəcək. Ümidimizi Ona bağlamışıq və siz də dualarınızla bizə kömək etdikcə bizi yenə qurtaracaq. Belə ki, bir çox insanın etdiyi dua nəticəsində bizə verdiyi ənamdan ötrü qoy çoxları bizim üçün Allaha şükür etsin."

**2 Korinflilərə 1:3-11**

1 The Voice of the Martyrs magazine, June, 2001.



## 11-Cİ GÜN

# ERİTREYADA QORXU

“Amma Mən onu dilə tutub səhraya aparacağam, onun ürəyincə olan sözlər deyəcəyəm.”

**HUŞƏ 2:14**

.............................................

### Əsmərə, Eritreya, 2004

“Şəhidlərin səsi” təşkilatı üçün beynəlxalq səyahətlərimdə iki dəfə, həqiqətən, qorxduğum vaxt olub. Onlardan biri bazar ertəsi gecə Eritreyadan uçmağı planlaşdırdığım vaxt idi.

Ev sahiblərimiz — Əsmərada qadağan olunmuş yevangelist kilsələrinin pastorları — həmin gün mənə və həmkarlarıma dedilər ki, polis bizim haqqımızda maraqlanır. “Bu əcnəbilər kimdir? Niyə buraya gəliblər?” Ölkədə son günümüz idi və o gecə evə uçmaq üçün hazırlaşırdıq.

Eritreyada olduğumuz müddətdə hökumətin yevangelist kilsə rəhbərlərini çağırıb onlara kilsələrinin artıq ictimai xidmət göstərə

bilməyəcəyini söylədikdən sonra oradakı kilsənin üzləşdiyi təqiblər barədə eşitdik. Konteynerlərdə və isti səhra düşərgələrində həbs edilmiş məsihçilərdən müsahibə aldıq. Bir imanlı qardaş həbsdə olarkən bükülmüş vəziyyətdə qaldığını göstərmək üçün yerə uzandı.

Le Tay adlı bir imanlı qadını heç vaxt unutmayacağam. Hərbi xidmət zamanı başqa bir məsihçi vasitəsilə o, Məsihə iman etmişdi. İmanı onu yeni ruhani ailəyə gətirdi və ailə üzvləri bir-birinə kömək etdilər. Yetmiş məsihçi həbs edildikdə, Le Tay başqa bir məsihçi ilə birgə məhbuslara gizli yol ilə yemək və ərzaq aparırdı. O dedi: "Qardaşlarım əziyyət çəkəndə mən necə sakit qala bilərəm?"

Onların yaxşı əməlləri üzə çıxanda buna görə cəzalandılar. Mən bu kitabı yazarkən prezident İsaias Afverkinin hakimiyyəti dövrü idi və Le Tayın imanını qırmaq üçün onu isti səhrada yerləşən həbsxanaya göndərdilər. Orada çox az yemək və böyük narahatçılıq var idi.

Lakin imanını sındıracağını düşündükləri şey əksinə, onu daha da gücləndirdi.

Le Tay belə dedi: "Mən həyatımı Məsihə verdim, ona görə də heç nədən qorxmalı deyildim".

O, Huşə 2:14-cü ayədən sitat gətirdi: "Amma Mən onu dilə tutub səhraya aparacağam, onun ürəyincə olan sözlər deyəcəyəm". Le Tay aylarla həbsdə olduğu müddətdə ilk dəfə İsrailin dikbaş övladlarına verilən bu vədin onun üçün necə gerçəkləşdiyindən danışdı. O, səhrada idi, bəli. Amma Allah da orada idi. Rəbb onun ürəyinə və ruhuna nəzakətlə danışır, onu hər gün ruhlandırır və gücləndirirdi.

"Yaxşı vaxt idi" — deyə Le Tay altı ay həbsxanada qalması barədə xatırladı. O, günlərin sürətlə keçdiyini söylədi, çünki orada məsihçilərlə birlikdə ibadət edərək vaxt keçirmişdi.

Mən Eritreyada keçirdiyimiz vaxtda bu cür hekayələri eşitmişdim. Ancaq mən qorxdum, çünki Eritreya həbsxanasında yaşamaq istəmirdim. Əgər polis artıq bizim haqqımızda soruşubsa, onda çox

güman ki, həmin gecə uçuşumuz olduğunu da öyrənə bilərdi. Əgər onlar bizi saxlamaq istəsələr, onda bunu təyyarəyə minməzdən əvvəl etməlidirlər.

Hava limanına gedəndə yolda çox həyəcanlı idim. Yoxlama məntəqəsində pasportumu qadına verəndə də gərgin idim. İmmiqrasiya nəzarətindən keçəndə çox narahat oldum. Pilləkənlərlə təyyarəyə qalxanda belə rahatlamadım. Yalnız təyyarənin qapıları bağlanandan sonra rahatlanmağa başladım. Təkərlər yerdən ayrılanda rahat nəfəs aldım. Səfərimi planıma uyğun həyata keçirdim.

Cəmi bir neçə ay sonra o gecə rahatlıq hisslərimə görə utandım. Eritreyada görüşdüyümüz bir neçə kilsə rəhbəri həbs olunmuşdu. Dostlarımız indi həbsdə idilər. Qucağımda saxladığım körpələr indi həbsxanada olan atalarından ayrılmışdı.

Əsməra hava limanındakı o gecədən on beş ildən çox vaxt keçmişdi. Bu sözləri yazarkən bəzi qardaşlarım hələ də həbsdədir. Mən onlar haqqında tez-tez düşünürəm və dua edirəm ki, onlar da Le Tay kimi Müqəddəs Ruhu eyni cür hiss etsinlər. Onlar da bir gün mənə həbsxanada qalmağın "yaxşı vaxt" olduğunu və orada günlərin tez keçdiyini söyləyəcəklər.

Əgər siz Məsihin davamçısısınızsa, onda Eritreyadakı bu məsihçi ailələri bizim də ailəmizdir. Ümid edirəm, siz də Le Tay kimi deyəcəksiniz: "Qardaşlarımız İsa uğrunda əzab çəkərkən biz necə sakit qala bilərik?"

Eritreyada hələ də həbsdə olan görüşdüyümüz insanlar üçün dua edin. Dua edin ki, onlar Allahın varlığını duysunlar. Dua edin ki, onların fiziki ehtiyacları ödənilsin, sağlamlıqları qorunsun. Dua edin ki, onlar başqalarına öz imanları barədə danışsınlar və həbsxanada qaldıqları müddətdə Allahın səltənəti üçün bəhrə gətirə bilsinlər.

Həmin gecə hava limanına gedəndə çox qorxurdum. Amma iyirmi saat sonra mən evimə çatdım, ailə üzvlərimi qucaqladım və sağ-salamat gəlib çatdığım üçün Rəbbə təşəkkür etdim. Mə-

nimlə dua edin ki, Eritreyada həbsdə olan qardaşlarımız tezliklə yenidən ailələrinə qovuşsunlar. Onlar iyirmi ildir ki, ailə üzvləri ilə görüşməyiblər.

## DÜŞÜNMƏK ÜÇÜN

Siz nədən qorxursunuz? Sizi narahat edən və ya gecələr oyaq saxlayan nədir? Həbs olunduğu gün pastor Riçard Vurmbrand ("Şəhidlərin səsi" təşkilatının yaradıcısı) yazırdı ki, Müqəddəs Kitabda "Qorxma" əmri 366 dəfə təkrar olunub. Deməli, bu söz ilin hər günü üçün bir dəfə deyilir. Bu hətta ən qısa olan fevral ayına da aid idi. Pastor Vurmbrand üçün bu, xüsusilə, əhəmiyyətli idi, çünki fevralın 29-u həbs olunmuşdu.

Bu gün hansı tarix olmasından asılı olmayaraq, bəlkə sizin də 366 dəfə deyilən "qorxma" sözünə ehtiyacınız var. Müqəddəs Kitabdan "qorxma" deyilən ayələrdən birini tapın və gündəliyinizdə qeyd edin. Bu həftə bitməzdən əvvəl o ayəni yadınızda saxlayın. Növbəti dəfə qorxanda bu ayəni ucadan söyləyin.

Sizə yol göstərən Allaha etibar etmək lazımdır. O, hər vəziyyətdə, hətta Eritreya səhrasında konteynerdə kilidlənmiş vəziyyətdə belə məsihçilərə xeyir-dua verməyə qadirdir. Rəbbimizin bu qədər etibarlı və güclü olduğuna görə heç nədən qorxmalı deyilik.

### DUA

"Əziz Rəbbim, qoy qorxu məni heç vaxt Sənin iradəni yerinə yetirməkdən çəkindirməsin. Mənə həmişə qarşımda qoyduğun yolu getməyə kömək et. Ya Rəbb, Eritreyadakı qardaş və bacılarıma xeyir-dua ver. Həbsxanada olanlara diqqət yetir. Onları qoru, onlara qayğı göstər. Qoy onlar heyrətamiz varlığından xəbərdar olsunlar. Xahiş edirəm, indi onlara fövqəltəbii olaraq, Ruhun vasitəsilə bildir ki, onlar üçün dua edirik."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Biz bu səhər 2002-ci ildə, təxminən bir il əvvəl həbs olunub döyülən və beş gün saxlanılan bir pastordan müsahibə götürdük. Onun başına gələnlər Allahın sədaqətinin heyrətamiz hekayəsi idi. Ondakı məhəbbət və təvazökarlıq ruhu bizim üçün bir xeyir-dua idi. Pastor danışarkən qeyd etdi ki, başqalarına nisbətən onunla o qədər də pis rəftar edilməmişdi, çünki digərləri ondan daha çox əziyyət çəkmişdi.



# 12-Cİ GÜN

# “ƏGƏR ALLAH BİZDƏN İSTİFADƏ EDƏ BİLSƏ...”

“Sonra Xudavəndin səsini eşitdim: «Kimi göndərim? Bizim üçün kim gedəcək?» Mən dedim: «Mən buradayam. Məni göndər»”.

**YEŞAYA 6:8**

## Cənub-şərqi Asiya, 2014

Biz cənub-şərqi Asiyanın paytaxtında, səs-küylü küçədə, bir qəhvəxanada görüşdük. “Stiv” və “Mai” içəri girəndə fantastika yazıçısının sözləri ilə desək onlar “qeyri-adi” insanlar kimi görünürdülər. Mənsə onları adi insanlar adlandırardım. Lakin onlar öz iradələrini Allahın iradəsinə təslim edən insanlardır. Rəbb onların itaətkarlığını qəbul etdi, heyrətamiz və geniş xidmət göstərmələri üçün imkan yaratdı.

Stiv və Mai başlarına gələnləri danışarkən, bizi onlarla tanış edən ev sahibimin onları təvazökar insanlar adlandırmasının səbəbini anladım.

Stiv ABŞ-da böyümüşdü, Mai isə cənub-şərqi Asiyada anadan olmuşdu, lakin onun ailəsi Vyetnam Müharibəsi zamanı (Vyetnam xalqı bunu "Amerika Müharibəsi" adlandırır) bölgədən qaçıb getmişdi. İki il qaçqın düşərgəsində qaldıqdan sonra, nəhayət, Mai ailəsi ilə birgə Amerikaya köçmək üçün təyyarəyə minəndə özünə söz verərək demişdi: "Mən heç vaxt cənub-şərqi Asiyaya qayıtmayacağam!" Mai bunu deyəndə gələcəyi indiki kimi aydın görən Allah baxıb gülümsəmişdi! Biz nəyisə heç vaxt etməyəcəyimizi deyib söz verəndə Tanrının bizə baxıb gülümsədiyini təsəvvür edirəm.

Mainin ailəsi Stivin böyüdüyü şəhərdə məskunlaşdı. Stiv və Mai orta məktəbdən bir-birini sevib evləndilər. Onlar zəhmətkeş, adi insanlar idi. Stivin maşınları yedəkləmə biznesi var idi. Onlar ailələrini və həyatlarını məsihçi dəyərləri üzərində qurdular.

Övladları böyüyüb evdən ayrıldıqdan sonra Stiv və Mai hiss etdi ki, Allah onları xidmətə çağırır. Tanrının onları bu xidmətə çağırmasına cütlük tam əmin idi, lakin bunun necə baş verəcəyini bilmirdilər. Onlar evlərini və yedəkləmə biznesini satdılar, çantalarını yığıb uşaqları, nəvələri ilə vidalaşdılar və imanla yola çıxdılar. Heç vaxt cənub-şərqi Asiyaya qayıtmayacağına söz verən Mai indi əri ilə birlikdə oraya yollanırdı!

Onların niyyəti insan alverinin dəhşətli bəlası nəticəsində zərər çəkən qızlara kömək edən bir xidmətə başlamaq idi. Buna görə onlar cənub-şərqi Asiyaya gəldilər və bu işə görə addımlar atmağa başladılar. Ancaq onlar hər addımda maneələrlə qarşılaşdılar. Stiv və Mai bu xidmətə başlamaq üçün azacıq da olsa, qapını aça bilmədilər!

Onları məyusluq və şübhə hissləri bürüdü. Bəlkə Allahın çağırışını səhv eşitmişdilər? Bəlkə onların Asiyaya gəlmələrinə heç ehtiyac yox idi? Əgər Allah onları bu iş üçün çağırmışdısa, bəs niyə indi onlara kömək etmirdi? Görəsən, problem nə idi?

Yavaş-yavaş Allah onları yeni yola yönəltdi. Mainin ailəsi bütün cənub-şərqi Asiyada, o cümlədən, Vyetnam, Laos və Çinin qapalı

dövlətləri daxilində yayılmış bir etnik qrupdan idi. Allah Stiv və Mainin gözlərini açaraq göstərdi ki, o etnik qrupun məsihçi təliminə və musiqisinə ehtiyacı var.

Stiv qaldıqları evdə kiçik səsyazma studiyası yaratmaq qərarına gəldi. O, YouTube-da səsyazma avadanlığı və montaj proqramları haqqında videolara baxdı. Sonra eBay-dan bəzi işlənmiş studiya avadanlığı aldı və kiçik bir studiya qurdu. Mai səsyazama üçün öz etnik qrupundan olan bəzi dostlarını evlərinə dəvət etdi və onlar səs yazmağa başladılar. Qəbilə dilini bilməyən Stiv çətinliklərlə üzləşdikdə YouTube və ya digər onlayn saytlarına baxaraq audio yazıları montaj edirdi.

Tezliklə səsyazmalar internetdə yerləşdirildi və onların səs yazıları Uzaq Şərq Yayım Şirkəti — FEBC tərəfindən yayımlandı.

Əvvəlcə onlar Müqəddəs Kitab təlimləri hazırladılar. Sonra Mainin öz ana dilində məsihçi mahnıları bəstələməyə başladılar və ilk dəfə həmin etnik qrupun adamları öz doğma dillərində məsihçi ilahiləri, himnləri dinlədilər!

Çox keçmədi Stiv və Mai Asiyanın hər yerindən, hətta dünyanın müxtəlif bölgələrindən onların səsyazmalarını dinləyən və ürəklərinə toxunan bu etnik qrupun adamlarından elektron məktublar aldılar. Bu səsyazmalar vasitəsilə bir çoxları İsaya iman etdi. Digərləri isə bu səsyazmaları dinlədikdə təqiblərlə üzləşdi. Başqalarınınsa ailələrində təzyiqlərə dözməsi üçün imanları gücləndi.

Radio mütəxəssisləri Stiv və Maini ziyarət etməyə gələndə çox təəccüblə onların studiyasına baxırdılar. Onlardan biri dedi ki, səsyazma zamanı mikrofonla kompüterin bir otaqda olması düzgün deyil, çünki həssas mikrafon kompüterin səsini tutur.

Bununla belə, onlar montaj edilmiş hazır səsyazmalarını dinləyərkən səs keyfiyyətinin təmiz olduğunu gördülər. Onların səsyazmaları sanki Neşvil və ya Nyu-Yorkda milyon dollarlıq bahalı bir studiyada yazılmışdı.

Səsyazmada peşəkar olanlardan biri onların evində qurulmuş sadə studiyaya işarə edərək soruşdu: "Siz bunu necə etdiniz?"

Stiv ona dedi: “Bilmirəm. Mən sadəcə evakuator sürücüsüyəm!”

Biz qəhvəxanada oturub Stiv və Mainin hekayələrini dinləyərkən, başa düşdüm ki, bu sadəcə bir möcüzədir. Onların heç ağlına da gəlməzdi ki, Allah evakuator sürücüsünü və evdar qadını dünyada insanlara xeyir-dua vermək üçün belə istifadə edə bilər.

Stiv görüşümüzün sonunda belə dedi: “Qulaq asın. Əgər Allah bizdən istifadə edə bilirsə, demək Onun edəcəyi işlər üçün heç bir hədd yoxdur!”

Əgər Allah heç vaxt cənub-şərqi Asiyaya qayıtmayacağını söyləyən qadından orada xidmət üçün istifadə edə bildisə... Əgər Allah yalnız ingiliscə danışan bir evakuator sürücüsündən heç danışmadığı etnik qrupun dilində radio proqramlarını montaj etmək üçün istifadə edə bildisə... Əgər Allah evdə qurulmuş səsyazma studiyasından heç vaxt yazılmayan bir dildə ilahilərin təmiz səsyazması üçün istifadə edə bildisə...

“Əgər Allah bizdən istifadə edə bilirsə, onda Onun edəcəyi iş üçün heç bir hədd yoxdur!”

## DÜŞÜNMƏK ÜÇÜN

Mən eşitmişəm ki, “Allah Öz işi üçün bacarıqlı insanları çağırmır. O, çağırdığı insanları bacarıqlı edir”. Əgər biz həyatımızı, rahatlığımızı, planlarımızı və təhlükəsizliyimizi Rəbbə təslim etməyə hazırıqsa, Allah da Öz Padşahlığını böyütmək üçün bizdən heyrətamiz şəkildə istifadə etməyə hazırdır. Gənc çoban Davud ailəsində ən kiçik idi. Musanın nitq qüsuru var idi. Peter “sadəcə” bir balıqçı, Stiv isə evakuator sürücüsü idi.

Stiv və Mai imanla addımlamaq üçün Amerikada rahat həyatlarından imtina etdilər. Övladlarından və nəvələrindən minlərlə kilometr uzağa getdilər. Onların yolunda maneələr olanda səbr etdilər. Onlar təvazökarlıq edib Allaha xidmət etmək istədiklərinə görə indi Rəbbin işində bəhrələri görürlər.

Siz də Rəbbə tam təslim olmusunuzmu? Allah hara istəyirsə, oraya getməyə və Onun sizdən istədiyi hər şeyi etməyə tam hazırsınızmı? Əgər siz hazır deyilsinizsə, nədən imtina etməlisiniz? Allahın ardınca getmək üçün sizə həvəs verməsini istəməyə hazırsınızmı? Gündəliyinizdə Məsihin uğrunda nəyi kənara qoymağa hazır olduğunuzu qeyd edin. Onu Allaha təslim etmək üçün duanızı yazın, imzalayın və tarixi qeyd edin.

## DUA

"Mən buradayam. Məni göndər" (Yeşaya 6:8).

"Ya Rəbb, sən hara desən, mən oraya getməyə və tapşırdığını yerinə yetirməyə hazıram. Həyatımdakı hər hansı həvəssizliyi aradan qaldırmaqda mənə kömək et ki, Sənin iradəni yerinə yetirmək üçün məndən tamamilə istifadə edəsən."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bu gün onların yaşadığı ev vaxti ilə Mainin ailəsinin qaldığı qaçqın düşərgəsindən bir kilometr uzaqdadır. Mai oradan keçərkən əhatə olunan hasara görə deyə bilər ki, ora həmin düşərgənin yeridir. Hal-hazırda isə ora kənd təsərrüfatı obyektidir.

Stiv mənə dedi: "Bilirsiniz, insanları saxlamaq üçün istifadə etdiyiniz hasar, heyvanlar üçün olan hasardan fərqli olmalıdır".

Stiv və Mainin danışdıqları məni heyran etdi və ruhlandırdı.

Onlar Allahın çağırdığı adi insanlardır və Rəbb çağıranda onlar sadəcə "hə" dedilər. İndi onlar FEBC vasitəsilə bütün cənub-şərqi Asiyada və onlayn olaraq bütün dünyada yaşayan insanlara Rəbbin Müjdəsini çatdırırlar. Rəbbə izzət olsun!

## *Dinləmək*

Stiv və Mainin hekayəsini "Şəhidlərin səsi" radiosunda www.VOMRadio.net/SteveMai saytından dinləyə bilərsiniz.

# 13-CÜ GÜN



# MÜQƏDDƏSLİK NÜMUNƏSİ

"Sözün ayağıma çıraq, yoluma işıqdır".

**MƏZMUR 119:105**

Honq Konq, 2015

Con Şort, ən azından mənim üçün müjdəçi xidmətində qəhrəmandır. Allah əlli ildən çoxdur ki, Conu Çində xidmətə çağırıb. Con bir qayığa mindi və həmin dövrdə qapalı olan Çin Xalq Respublikasına keçmək üçün onun yaxınlığındakı Honq Konq şəhərinə getdi. O, Çin kilsəsini və Honq Konqdakı imanlıları məsihçi ədəbiyyatı ilə təmin etməyə çalışırdı. Çin ziyarətçilər üçün qapılarını açanda, Con tez viza almaq üçün müraciət etdi. O vaxtdan bəri Con ölkənin bütün bölgələrinə çoxlu səfərlər edib minlərlə Müqəddəs Kitabı çinli məsihçilərə çatdırdı.

Zaman keçdikcə Allah Asiyanın digər yerlərində, Birmada, Vyetnamda, hətta Şimali Koreyada Conun xidməti üçün qapılar açdı.

Con 2013-cü ildə Şimali Koreyaya səfər etdi. Onun səfəri planlaşdırdığından daha uzun çəkdi. Dövlət rəsmilərinin göstərişinə əsasən 73 yaşlı avstraliyalı Con saxlanıldı. On üç gün sonra, məcburi olaraq "mən mümkün qədər çox şimali koreyalının məsihçi olmasını istəyirəm" etirafını imzaladıqdan sonra sərbəst buraxıldı. Amin!

Azadlığa çıxandan sonra Con yalnız iki dəfə müsahibə verdi. Biri öz ölkəsinə, Avstraliyaya qayıtdıqdan sonra qəzet üçün, digəri isə "Şəhidlərin səsi" radiosu üçün mənə verdiyi müsahibə idi.

Mən Honq Konqa uçdum. Ertəsi gün "Məsihçi kitabları otağı" şirkətinə yollandım. Bu xidmətə Con onilliklər boyu rəhbərlik etmişdi. Mən bütün heyətin iştirak etdiyi gündəlik Kəlam dərsinin başlanğıcına gəlib çıxdım. Onların hər biri növbə ilə Müqəddəs Kitabdan bir parça oxudu. Müqəddəs Kitab bütün müzakirələrin mərkəzi idi. Sonra biz birgə dua etdik.

Duadan sonra nahar üçün heyətə qoşuldum və həmin gün günortadan sonra Condan müsahibə aldım. Ertəsi gün mən onun arvadı Karendən də müsahibə almaq istədim. Con həbsdə saxlanılarkən, həyat yoldaşı Honq Konqda idi. Onun hər şeylə maraqlanan jurnalistlərin və hətta Şimali Koreya casuslarının suallarına necə cavab verdiyini öyrənmək istəyirdim.

Con Şimali Koreyaya qayıdanda çamadanının diqqətlə yoxlandığını söylədi. Getdiyi hər səfərdə olduğu kimi, həmişə əşyalarının üstündə onun Müqəddəs Kitabı olurdu.

Con bunu belə izah etdi: "Mənim üçün Müqəddəs Kitab həmişə birinci yerdədir və mən öz Müqəddəs Kitabımı bütün şəxsi əşyalarımın üstündə qoyuram. Şimali Koreyaya daxil olarkən çamadanımdakı əşyaları diqqətlə yoxlayırlar. Hava limanında gömrük əməkdaşları bunun nə olduğunu soruşanda mən deyirəm: «Bu mənim şəxsi Müqəddəs Kitabımdır».

Onlar mənə deyirlər: «Siz bunu Şimali Koreyaya gətirə bilməzsiniz». Mən onlara deyirəm: «Əgər kitabımı özümlə aparmağa icazə verməsəniz, onda ölkəyə də girməyəcəyəm, çünki mən məsihçiyəm

və hər gün Müqəddəs Kitabımı oxumalıyam. Mən onsuz heç yerə gedən deyiləm».

Onlar harasa zəng edib danışdıqdan sonra mənimlə bir az mübahisə edib deyirlər: «Bunu ölkəyə gətirməyinizə icazə verə bilmərik». Mən də təkid edib deyirəm: «Bu kitab mənə lazımdır və onsuz gedə bilmərəm».

Mən hiss edirəm ki, bu söhbətlər vasitəsilə onlara Məsih haqqında şəhadətlik edirəm. Sonra onlar deyirlər: «Yazılı qeyd edin ki, siz ölkədən çıxanda bunu da özünüzlə aparacaqsınız». Mən cavab verirəm: «Bu, Müqəddəs Kitab ingiliscədir. Düşünmürəm ki, bu kitab mənə lazım olan qədər koreyalılara lazım olar. Bu mənim şəxsi Müqəddəs Kitabımdır və sizə söz verirəm ki, ölkədən çıxanda kitabımı da özümlə aparacağam»".

Con həmin vaxt Şimali Koreyaya daxil olanda bilmirdi ki, Müqəddəs Kitabın onunla olması böyük fərq yaradacaq.

Con o vaxt bir turist qrupu ilə Şimali Koreyaya gəldi və onların ziyarət etdikləri yerlərdən biri buddist məbədi idi. Lakin onlar buranı görməyə gələndə məbəd dağıdılmış bir vəziyyətdə idi. Əcnəbilərə Şimali Koreyada necə gözəl həyatın olduğunu göstərən tur bələdçiləri çox utandılar. Onlar cəld ora-bura qaçaraq vəziyyəti araşdırmağa və nəyisə tez düzəldib tura davam edə biləcəklərini öyrənməyə çalışdılar. Əks təqdirdə bu, hörmətli rəhbər üçün çox utandırıcı bir hal olacaqdı və ona görə də onlar əcnəbiləri başqa yerə aparmalı idilər. Bizim üçün bunları təsəvvür etmək çətindir. Lakin bu bələdçilərin azadlığı və bəlkə də, həyatları onların belə vəziyyətdə necə reaksiya verməsindən asılı ola bilər.

Qarışıqlıqdan istifadə edən Con gizlicə bəzi müjdəçilik kitabçalarını məbədin həyətinə, o gedəndən sonra tapılacağına ümid etdiyi bir yerə qoydu. O, kitabçaları koreya dilinə tərcümə etdirib çapdan çıxarmışdı, sonra nüsxələri çamadanın gizli yerində saxlamışdı.

Ertəsi gün səhər Con Pxenyandan Pekinə uçuş üçün çantalarını yığdı. O, hava limanına getmək üçün sifariş etdiyi maşına yaxınlaşanda ona bildirildi ki, heç yerə getməyəcək. Kitabçalar

tapılmışdı və Con bunlara aydınlıq gətirməli idi. Beləliklə, sorğu-suallar başlandı. Suallar kitabçalardan başlandı. Onları kim tərcümə edib? Harada çap olunub? Lakin tezliklə onlar Conun özü barədə suallar verməyə başladılar. Ondan həyatında baş verən hər bir hadisəni yazmağı tələb etdilər və sonra şimali koreyalılar onları bir-bir yoxladılar. Sonralar məlum oldu ki, onlar Honq Konqdakı ofisinə və hətta Avstraliyadakı böyüdüyü evə də agentlər göndəriblərmiş.

Conun həbs olunması və ya sorğu-sual edilməsi ilk dəfə deyildi. O, şübhəsiz ki, Allahın çağırışına cavab vermək üçün bədəl ödəməyə hazır idi. O, mənə cəsarətlə, Avstraliya ləhcəsi ilə təqiblərdən, tanıdığı və işlədiyi Çin kilsəsinin böyük müqəddəslərinin onun imanına necə təsir etməsindən danışdı. Onların bir çoxu həftələrlə deyil, on illərlə həbsxanada yatmışdı. Yaxşı yadımda qalan sitatlardan biri də bu idi: "Ürəyimdə qorxu və iman eyni vaxtda ola bilməz. Biz imanla yaşayanda hər an Rəbbə güvənirik və qəlbimizdə qorxuya yer yoxdur".

Sorğu-sual davam etdi. Lakin Conun Müqəddəs Kitabı hələ də özü ilə idi və o, çoxdan müəyyən etmişdi ki, bu Kitabın sözləri onun həyatının əsasıdır. Onun Karenlə birgə Kəlamı oxumaq tərzi var. Evlənəndən bəri onlar hər gün Müqəddəs Kitabı mütaliə edirdilər. Onlar əlavə olaraq, hər gün Süleymanın Məsəllərindən və Yəhyanın Müjdəsindən bir fəsil oxuyurdular. Hər ayın birinci günü həmin kitabların birinci fəslindən oxumağa başlayırlar. Ayın ikinci günü ikinci fəsil... və bu qayda ilə davam edirlər.

Conun saxlandığı müddətdə ona heç kimlə əlaqə yaratmağa icazə verilmədi. Arvadına zəng edib onunla danışa bilmədi. Amma Con azadlığa çıxdıqdan bir neçə ay sonra, həyat bir qədər sakitləşdikdə mənə dedi ki, gündəlik bu fəsilləri oxumaq və həyat yoldaşının da eyni sözləri oxuduğunu bilmək ona telefon zəngindən daha çox ruhani dəstək olurdu.

Ertəsi gün mən Karendən müsahibə aldım. Con saxlanılarkən mən Karenlə telefon danışığı aparmışdım. İndi biz onun evində bir

masa arxasında oturmuşduq. O, suallarıma avstraliya ləhcəsi ilə sakit və düşünülmüş şəkildə cavab verirdi. Conla birgə Çində xidmət etdiyi illərdə əri dəfələrlə tutulub saxlanılmışdı. Karen ərinin nə ilə qarşılaşacağını bilmirdi, ona görə də belə vəziyyətdə əri üçün dua etməyə alışmışdı.

O məndən soruşdu: "Bilirsiniz, mən Con üçün necə dua edirdim? Rəbdən xahiş edirdim ki, ərimdən Müqəddəs Kitabını almasınlar. Düşünürdüm ki, əgər Allahın Kəlamı onun yanındadırsa və Müqəddəs Yazıları oxumaq imkanı varsa, onda hər şey yaxşı olacaq. Şükürlər olsun ki, Allah bu duama cavab verdi".

Karenin Conun hansı gün hansı ayəni oxuyacağını bilməsi vacib deyildi.

"Bizim gündəlik vərdişimiz var. Ərimlə mən hər gün Kəlamdan müəyyən bir fəsil, müəyyən kitablar və üstəlik başqa ayələr oxuyuruq. Düşünürdüm ki, əgər ərimdə Müqəddəs Kitab varsa, onda mən onunla eyni hissəni oxuyacağam".

On üç gün ərzində, bir-birləri ilə heç bir telefon əlaqələri olmadan, Con və Karen Kəlamdan demək olar ki, eyni hissəni oxudular. Con arvadına zəng edib onu Pekindən aparmasını xahiş etdi. Karen ərinin sağ-salamat evə qayıtması üçün etdiyi dualara Allahın cavab verməsinə görə minnətdarlığını bildirdi. Hətta olub keçənlərə baxmayaraq o, gələcəkdə ərinin Şimali Koreyaya qayıtmasının əleyhinə deyildi.

Karen dedi ki, əgər Rəbb qapı açarsa, o da əri ilə birgə getmək istərdi!

## DÜŞÜNMƏK ÜÇÜN

Con və Karenin hekayəsi, onların Müqəddəs Yazılara belə üstünlük vermələri məni də düşündürdü. Siz də Allahın Kəlamına bu qədər dəyər verirsinizmi? Sizin də təqvimin hansısa bir günündə Kəlamdan oxuduğunuz ayələr varmı? Yaxud başqaları təqvimə

baxanda Müqəddəs Kitabdan hansısa hissəni oxuduğunuzu bilirmi? İnsanlar saata baxıb sizin barənizdə belə deyirlərmi? "Səhər saat 06:00-dır. İndi o, Kəlam oxuyur." Allahın Kəlamını oxumaq məni daxilən dəyişir və bu sizi də dəyişə bilər. Amma Con və Karen kimi, siz də gündəlik vərdiş etməlisiniz və bu, həyat tərzinizin dayaq nöqtəsi olmalıdır.

Hər gün Allahın Kəlamını oxumağa qərar verin və ona uyğun plan qurun. Bəlkə siz də Con və Karen kimi hər gün Kəlam oxumağı Yəhyanın Müjdəsindən və Süleymanın Məsəllərindən bir fəsil ilə başlaya bilərsiniz. Bəlkə də siz Kəlam oxumaq üçün Müqəddəs Kitabdan və ya telefonunuzdakı proqramdan istifadə edəcəksiniz. Gündəliyinizdə yazmaq üçün Kəlamdan İbranilərə 4:12, Məzmur 119, 2 Timoteyə 3:16-17 və Yeşaya 40:8-ci ayələri tapıb oxuyun. Sonra bu ayələri həyatda tətbiq edəcəyiniz yolları qeyd edin.

## DUA

"Ya Rəbb, Kəlamı oxumaq üçün məndə maraq oyat! Hər gün Kəlamın üçün mənə həvəs ver. Müqəddəs Yazıları oxuyanda Sənin səsini eşitməyimə kömək et. Qoy Kəlamın məni dəyişdirsin və mən günbəgün Oğlun İsaya daha çox bənzəyim. Amin."

## *Sizin gündəliyiniz üçün*

## Mənim gündəliyimdən

Mən cənab Şortla ilk dəfə 1999-cu ilin noyabr ayında görüşdüm. Biz iş yoldaşlarımızla Çinə gedirdik, lakin yolda Honq Konqdan keçməli olduq. Həmin gün bazar gününə təsadüf edirdi və biz səhər cənab Şortun kilsəsinə getdik. Yadımdadır, o bizi günorta Honq Konqdakı dəbdəbəli "Peninsula" otelinə çay içməyə dəvət etmişdi. O dedi ki, orada otağın bir gecəlik qiyməti 350 dollardır. Mən buzlu çay sifariş etmişdim (indi bilirəm ki, Asiyada buzlu çay içmirlər və içəndən sonra növbəti içkini pulsuz vermirlər). Beləliklə, söhbətimizin çox hissəsini qarşımda boş stəkanla oturdum. Kaş ki, başqa ölkələrdə də Amerikadakı kimi sonradan boş stəkanı içki ilə doldurmaq havayı olardı!

O, artıq Çində uzun müddət işləmişdi və müjdəçi xidmətində qəhrəman idi. Amma mən onun nə vaxtsa Şimali Koreyada həbs olunacağını təsəvvür edə bilməzdim.

## Dinləmək

Con və Karen Şortla müsahibələrimi www.VOMRadio.net/short saytından dinləyə bilərsiniz.

# TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA

Bəzən əziz bir insanın əzab çəkdiyini görməkdənsə, özümüzün əziyyət çəkməyimiz daha asandır.

Təqib olunan məsihçilər həbsdə olanda onların həyat yoldaşları və övladları da əziyyət çəkirlər. Ailə üzvünün həbsdə olması onların həyatlarına və dolanışıqlarına təsir edir, amma onlar bunlara dözürlər.

**BU GÜN DUA EDİN.** Həbsdə olan məsihçilərin həyat yoldaşları və uşaqları üçün bu gün də dua edin. Dua edin ki, Allah onları ruhlandırsın, fiziki və ruhani ehtiyaclarını təmin etsin.

Məcburi ayrılmağa məruz qalan ailələrin nikahları üçün dua edin ki, Allah Öz hüzuru və Kəlamı vasitəsilə ər və arvada ruhani birlik versin.

Dua edin ki, uşaqlar valideynlərinin həbs olunmasına görə Allahdan inciməsinlər və Rəbbə qarşı qəzəblənməsinlər. Amma Allahın Padşahlığı üçün əziyyət çəkməyə hazır olan valideynləri kimi uşaqlar da Rəbbə xidməti davam etdirsinlər.





## 14-CÜ GÜN

# PALTODA GÜLLƏ DƏLİYİ

“Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi. Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm.”

**DANİEL 6:22**

*Şimali İraq, 2008*

Pastor Hakim 2008-ci ildə Mosulda qalan azsaylı protestant pastorlarından biri idi. O, müharibədən əziyyət çəkən İraqda qarmaqarışıqlıq içində xidmət edirdi. Onunla görüşəndə mənə dedi ki, kilsəsində iki il əvvəl üç pastor xidmət edirdi. O pastorlardan biri sünni radikal müsəlmanlar tərəfindən öldürüldü. Digəri isə özünün və ailəsinin təhlükəsizliyi üçün Avropaya köçdü. Lakin pastor Hakim Mosulda öz kilsəsində xidmətini davam etdi.

Görüşümüzdən səkkiz gün əvvəl Hakim iş yerinə yaxın dayanacağa yaxınlaşarkən əllərində silah olan üç nəfər onun maşınının qarşısını kəsdi. Sonralar Hakim öyrəndi ki, bu adamlar onu öldür-

mək üçün göndərilmişdilər və iş yoldaşlarından onun barəsində soruşmuşdular: "O məsihçi haradadır?"

Əllərində silah olan üç nəfər Hakimə maşını saxlamağı əmr etdilər. Amma o bilirdi ki, maşını saxlamaq ölüm deməkdi. O, maşını dərhal arxaya sürdü, amma atılan üç güllə ona dəydi. Xəstəxanada müsəlman həkimlər onun kim olduğunu soruşdular və böyük təəccüblə dedilər: "Güllələr əsas orqanlardan və böyük qan damarlarından yan keçib və onları zədələməyib. Bu bir möcüzədir".

O hadisədən cəmi səkkiz gün keçmişdi. Bizimlə görüşmək üçün Hakim başqa bir şəhərə gəldi. Onun yaraları hələ də sarğılı idi. Hadisə baş verən səhər geyindiyi palto onun əynində idi. O, barmağını paltosundakı güllə deliklərinin birindən keçirdi. Güllə düz paltonun qabağındakı düymənin yanından keçmişdi. Sonra Hakim köynəyini çıxartdı ki, bizə döş qəfəsinin sol tərəfində hələ də sarğılı olan yaralarını göstərsin.

Onun paltosunda güllə dəliyinin, sinəsində iki güllə yarasının olmasına baxmayaraq Hakimin necə sağ qaldığını anlaya bilmirdim. O, sinəsində sarğıların altındakı yaraları göstərərək dedi: "Bunlar mənim medallarımdır". Düzdür, o, böyük ruhani döyüşün qalibi idi. Lakin bu cür "medallar"ı heç də hər məsihçi "qazanmaq" istəməz.

Hakim və həyat yoldaşı Nadirə öz xidmətləri barədə bizə danışdılar. Allah onları Mosuldakı kilsədə xidmət etməyə çağırmışdı. Ətrafdakı qarmaqarışıqlığa, zorakılığa və ölüm hadisələrinə baxmayaraq, onlar Rəbdən bu xidməti tərk etməyi eşitməmişdilər. Beləcə, onlar öz xidmətlərinə davam etdilər.

Onlara qarşı təzyiq güclü idi. Şəhərdəki sünni radikal müsəlmanlar yerli məsihçilərə təzyiq göstərərək İslamı qəbul etməyə və ya oradan çıxıb getməyə məcbur edirdilər. Onlar dəfələrlə Hakimə zəng edib Məsihdən üz döndərməsini və Məhəmmədin ardınca getməsini tələb etmişdilər. Əgər deyilənlərə əməl etməsə, özünün və ailəsinin başına nə gələcəyi barədə ona xəbərdarlıq etmişdilər.

Onların Avropada təhlükəsiz yerə köçmüş qohumlarına da təzyiqlər olmuşdu. Hər həftə onlara zəng edib deyirdilər: "Oranı tərk edin və bura təhlükəsiz yerə gəlin. Sizi qarşılamağa və qayğınıza qalmağa hazırıq".

Hakim və Nadirənin qızları Mosul universitetində oxuyurdular və onlar təhsillərini davam etdirərkən hər gün təhlükə ilə üzləşirdilər. Bir il əvvəl Müqəddəs Kitabı yaydığına görə bir məsihçi qadın öldürülmüşdü. İsaya iman edən hər kəs Mosulda məsihçi kimi yaşamağın risklərindən xəbərdar idi. Məsihçilərin həyatı təhlükə altında olsa da, onlar yenə də yaşadıqları yeri tərk etmirdilər. Çünki Allah onlara oradan çıxıb getmələrini söyləməmişdi.

Hakim və Nadirə hər həftə Avropadakı qohumlarına deyirdilər: "Allah bizi Mosula çağırıb və biz burada qalacağıq".

Nadirə bizə ingilis dilində öz şərq ləhcəsi ilə danışaraq bildirdi ki, ərinin güllələnməsindən bir neçə gün əvvəl Allah ona təsəlli vermişdi. O, Rəbbin hüzurunu çox yaxından duymuşdu. Nadirə hiss etmişdi ki, Rəbbin əli onu gücləndirir və ona dayaq olur, çünki ərinə hücum olunandan sonra buna ehtiyacı olacaqdı.

## DÜŞÜNMƏK ÜÇÜN

Hakim və Nadirənin hekayəsi haqqında düşünəndə ağlıma iki fikir gəlir. Birincisi, Allah hansı xidmətə çağırırsa, orada bizi qorumağa da qadirdir. Hakim üç dəfə, o cümlədən, iki dəfə sinəsindən güllə ilə vuruldu, amma səkkiz gün sonra o bizimlə bu barədə danışdı! Əgər Allah bizim hansısa bir çətinlikdən keçməyimizi istəyirsə, düşəcəyimiz vəziyyət nə qədər qorxulu və təhlükəli olsa da, O bizi sağ-salamat çıxaracaq!

İkincisi isə budur ki, Allah bu çağırışı dəyişdirənə kimi biz Onun çağırışına sadiq qalmalıyıq. Yolumuz daşlı və kələ-kötür olanda biz daha asan yol axtarırıqmı? Lakin Allah bizi başqa cür öyrədir və məhz belə çətin yollarımızda Rəbb bizə böyük xeyir-dualar hazırlayır.

Əgər bu gün çətin bir yolla gedirsinizsə, Allahın sizə nə öyrətdiyini və həyatınızda necə hərəkət etdiyini yazın. Əgər siz hal-hazırda rahat və asan bir yolla gedirsinizsə, rahatlıq və sakitliyə görə şükür duasını yazın.

## DUA

"Ya Rəbb İsa, xidmətə çağırdığın insanları heyrətamiz qüdrətinlə qoruduğuna və dəstəklədiyinə görə Sənə təşəkkür edirəm. Mənə kömək et ki, Sənin çağırışına cavab verim. Mənə yer üzündə başqa bir tapşırıq verənə və ya əbədi evimə gedənə qədər hər gün, hər an Sənin çağırışına sadiq qalmaqda kömək et."

## *Sizin gündəliyiniz üçün*

## *Həyat yoldaşım Şarlottaya yazdığım elektron məktubdan*

Ötən bazar günü üç dəfə güllələnən, Mosul şəhərindən olan bir pastordan bu gün heyranedici müsahibə aldım! O, burada bizimlə idi, mən ondan və həyat yoldaşından müsahibə götürdüm. O bizə sinəsindəki güllə yaralarını göstərdi. O, güllə dəlib keçmiş paltosunu hələ də geyinir.

O, yaralarını göstərərək dedi: "Bunlar mənim döyüşdə aldığım medallardır". Arvadı isə ərinə hücumdan əvvəlki gecə ilahilərə qulaq asdığını və Rəbbin ona təsəlli verdiyini söylədi. Qadın Allahın hüzurunu bu vaxta qədər belə yaxından hiss etməmişdi. Ertəsi gün ərinə

hücum edildi. Qadın bildirdi ki, ərini xidmətini tərk etmək üçün onu yola gətirməyə heç vaxt çalışmayacaq, çünki Allah həyat yoldaşını bu xidmətə çağırıb. O qadın mənə Sabina Vurmbrandı xatırlatdı.

Onların bütün qohumları Mosulun təhlükəli yer olduğunu və qızları barədə düşünmələrini əsas gətirərək, həmin yeri tərk etmək üçün cütlüyü yola gətirmək istəyirlər. Lakin cütlük İsanın onları Mosula çağırdığı üçün həmin şəhərdə qalacaqlarını bildirdilər. Bu adam iki milyon əhalisi olan bir şəhərdə qalmış yeganə müjdəçi pastordur!

Bu heyrətamiz bir şəhadətlikdir! Onların şəhadətini dinləmək bu uzun səyahətə dəyərdi!

## 15-Cİ GÜN



# İMAN HAQQINDA ŞƏHADƏTLİK

“Aldanmayın: Allaha istehza edilməz. Çünki insan nəyi əkərsə, onu da biçəcək. Öz cismani təbiəti üçün əkən, bu təbiətdən məhv biçəcək. Ruh üçün əkənsə Ruhdan əbədi həyat biçəcək. Yaxşılıq edərkən ruhdan düşməyək. Çünki əgər həvəsdən düşməsək, vaxtında biçərik.”

**QALATİYALILARA 6:7-9**

.................................................

### Nepal, 2012-ci il

Nepal indiyə qədər olduğum ən gözəl yerlərdən biridir. Səfər etdiyimiz şəhərlərdən birində dumansız bir gündə otel otağımın balkonundan dünyanın ən hündür on dağından dördünü görə bilərdim. Uçuş zamanı təyyarənin pəncərəsindən bayıra baxanda dağların zirvələrini görmək üçün yuxarı baxmalısan. Bu necə də heyranedicidir!

Mən Nepalda olarkən pastor Salindra ilə görüşdüm. O, toplantısının ölmüş bir üzvünə görə döyülməyə hazır olan adam idi!

Nepalın kiçik bir şəhərində şərti olaraq “Bilal” adlandırdığımız məsihçi qardaş öləndə onun dəfn olunması ailəsi üçün vacib idi. Bir çox amerikalı məsihçilər üçün nepallı ailə üzvlərimizin bu mərasimə üstünlük verdiyini anlamaq çətindir. Lakin onların mədəniyyətində dəfn və məzar daşı təkcə cəsədi harasa qoymaq üçün bir yer deyil, həm də “Even-Ezer”dir (1 Şamuel 7:12) — insanın imanını və Allaha sadiqliyini göstərən güclü bir şəhadətlikdir.

Bilalın olduğu şəhərdə otuz minə yaxın insan yaşayır, lakin o vaxtlar orada cəmi dörd-beş məsihçi ailəsi var idi. Bilal öləndə radikal hindular gəlib onun cəsədini aparmaq istədilər. Onlar hindu adətinə görə cəsədi yandırmaq istəyirdilər. Lakin onun ailəsi buna razı olmadı, çünki onlar dəfni məsihçi adəti ilə həyata keçirmək istəyirdilər.

Bilalın və onun qohumlarının kilsəsinə rəhbərlik edən gənc pastor Salindra idi. Pastor Bilalın evində qohumları ilə dəfn mərasimi barədə danışanda bayırda qışqırıq səsləri eşidildi. Orada böyük bir hindu kütləsi toplanmışdı. Onlar qışqırıb məsihçiləri hədələyir və hinduların adətlərinə əsasən yandırılmaq üçün cəsədin onlara verilməsini tələb edirdilər.

Mənə bu hadisəni danışarkən, Salindra izah etdi ki, hər hindunun həyatında üç mühüm mərhələ — doğum, evlilik və ölüm var. Hindular Bilalın cəsədini yandırmaqla onun məsihçi şəhadətliyini silməyə ümid edirdilər. Kremasiya — cəsədin yandırılması hər kəsə onun həqiqətən məsihçi olmadığını, həyatının son anlarında “yad” dini — məsihçiliyi tərk etdiyini və hinduizmə qayıtdığını bildirəcəkdi. Mərhumun qəbrinin olması, əksinə, onun məsihçi *olduğuna* dair daimi şəhadətlik edəcəkdi. Hindu adətinə görə onun cəsədini yandırmaq əvəzinə dəfn etməkdə başqa səbəb nə ola bilərdi ki?

Salindra evdən çölə çıxdı və hindulara Bilalın məsihçi olduğunu və ailənin onun məsihçi kimi dəfn olunmasını istədiklərini söylədi. Kütlə qəzəbləndi, Salindranı və digər iki məsihçini tutub çubuqlarla və yumruqlarla döydü. Üç məsihçi həyatlarını xilas etmək üçün

qaçaraq velosipedlərinə minib ərazidən çıxmağa çalışdı. Lakin izdiham onları təqib etməkdə davam etdi.

Qaçan imanlılar yaşlı məsihçi olan bir dul qadının — Bimalanın evində sığınacaq tapdılar. Qadın onların arxasınca gələn qəzəbli kütləyə baxmayaraq məsihçiləri evinə buraxdı. Bimala nə üçün məsihçilərə sığınacaq verərək evinə hücüm etməsi üçün imkan yaratdı?

O bizə dedi: “Mən Rəbbin xidmətçisiyəm, buna görə də güclü olmalıyam. Qorxmuram, çünki O, bizimlədir. İzdihamdakı o adamlardan bəzilərinin mənim üçün problem yarada biləcəyini düşündüm, amma mən güclü olmalıyam”.

Qəzəbli hindu dəstəsi geri çəkildi və məsihçilər motosikletlər ilə gəlib Salindra və digər məsihçiləri dul qadının evindən çıxarıb daha təhlükəsiz bir yerə apardılar. Orada Salindranın yaralarını müalicə etdilər. Bir müddətdən sonra onun yaraları sağaldı, lakin Salindranın ürəyində mübarizə gedirdi. Hücumdan sonra o, bir həftə yata bilmədi.

“Mən özüm üçün dua edirdim və Müqəddəs Kitabı oxuyarkən başa düşdüm ki, mənə hücum edən hinduları bağışlamalıyam, çünki Rəbb deyir ki, başqalarını bağışlamasan, bağışlanmayacaqsan. Bu sözlər ürəyimin dərinliklərindən keçdi.”

Allah Salindraya ona hücum edənləri bağışlamaq barədə danışdı. Ona İsa Məsihin qurbanı vasitəsilə verilmiş xilası xatırlatdı.

Salindra Allaha etiraf etdi: “Mən də bəzi səhvlər etmişəm. Lakin Sən məni bağışladın. Deməli, mən də bağışlamalıyam”. Rəbb isə ona dedi: “Onları bağışla. Onlar Mənim yanıma gəlməlidirlər”. Sonra Salindra Rəbbə belə söylədi: “Bəli, Ya Rəbb. Mən onlara xidmət etməliyəm ki, onlar Məsihə iman etsinlər”. Hücumdan bir ay sonra Salindra ona hücum edib yaralayanları tamamilə bağışlaya bildi.

Hücumlardan sonra onun toplantısına gələnlərin sayı yarıya qədər azalsa da, o, həmin şəhərdə xidmət etməyə davam etdi. Bir çox məsihçilər qorxudan geri çəkildi. Onlar kilsəyə gedərək və

ya digər məsihçilərlə bir araya gələrək radikal hinduların hədəfinə çevrilmək riskinə düşmək istəmirdilər. Kilsəyə gələnlər üçün Salindra bir sıra vəzlər etməyə başladı. Pastor istəyirdi ki, onlar üzləşəcəkləri təqiblərə tab gətirə bilsinlər.

O öz toplantısında belə deyir: "Bir gün hamımız bu dünyadan köçəcəyik. Burada, yer üzündə həyat çox qısadır. Məsihçi olduğumuz üçün bizə nə etsələr də, nələrdən keçsək də, hətta bizi öldürsələr də, biz hər şeyi qəbul edəcəyik, çünki Məsihlə əbədiyyətdə uzun ömür sürəcəyik".

Kilsəyə gəlməkdən çox qorxan imanlılar bəzən Salindradan evlərinə gəlib onlarla birlikdə dua etməyi xahiş edirdilər. Onlar açıq şəkildə məsihçi olduqlarını bildirmək istəmirdilər, lakin ruhlanmaq və dua üçün öz pastorları ilə görüşmək istəyirdilər. Salindra inanır ki, bir gün onların cəsarətləri artacaq və kilsəyə qayıdacaqlar. "İnanıram ki, bir gün onlar qayıdacaqlar, çünki onlar Rəbbi tanıyırlar."

O şəhərdə məsihçilərin olduğuna şəhadətlik edən bir məzar var. Bilalın ailəsi, onun gələcək nəsilləri məzarını ziyarət edəndə onun imanını xatırlaya bilər. "Baxın! Atamız məsihçi idi! Əgər o, hindu olsaydı, yandırılardı, nə məzarı, nə də həyatı barədə də bir nişanəsi olardı. Amma o, məsihçi idi!" Bilalın məzarı onun imanının sübutudur.

## DÜŞÜNMƏK ÜÇÜN

Qərb mədəniyyətində ölüm haqqında çox fərqli düşünürük. Biz Nepaldakı məsihçi ailəmiz kimi qəbir daşının şəhadətlik olması barədə düşünmürük. Amma hər birimiz bir şəhadətlik qoyub gedirik. Hər birimiz həyatımızla ailəmiz, kilsələrimiz və ətrafımızdakı imansız insanlar üçün özümüzdən sonra şəhadətliklər qoyuruq. Siz imanınıza aid hansı şəhadətlikləri qoyacaqsınız? Əbədiyyətə getdikdən sonra insanlar sizin barədə nə deyəcəklər? "Görəsən, o, əsl məsihçi idi?" — deyə düşünəcəklər. Yoxsa sizin imanınız

barədə şübhələri olacaq? Ailəniz və dostlarınız üçün qoyub getmək istədiyiniz ruhani irsi təsvir edən on söz yazın. Sonra Məsihə imanınızın əlamətlərini aydın göstərəcək bir şəkildə həyatınızı yaşayın.

## DUA

"Kainatın Yaradanı və zamanı idarə edən Rəbbim, mənə kömək et, bu günü elə yaşayım ki, həyatım əbədiyyətdə ilahi iz, ətrafımdakı insanlar üçün yer üzündə görünən bir miras qoysun. Qoy, mən elə həyat yaşayım ki, ölümümdən sonra ailəm, həmkarlarım və dostlarım tərəddüd etmədən mənim barəmdə belə desinlər: «O, doğrudan da, əsl məsihçi idi!» Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Biz həyatı Müjdə uğrunda daim təhlükə altında olan bir pastorla tanış olduq. Yaxşı oxumadığına görə səkkizinci sinfi bitirə bilmədi. Lakin indi o on dörd kiçik kilsələr yaradan bir kilsəyə rəhbərlik edirdi. O çox sadiq qardaş və zəhmətkeş bir insandır! Söhbətimiz bitəndə o bizimlə birgə küçəyə çıxmaq istəmədi. Çünki ev sahibi onu əcnəbi ilə birgə görsə, kirayə haqqını qaldıracaqdı!

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"Elizabet Elliotun qeyd etdiyi kimi, çarmıxda ölən Xilaskarın ardınca gedirsinizsə, hətta Məsih uğrunda şəhid olmaq belə qeyri-adi itaətkarlıq sayılmır. Birdən şəhid olmaq adi bir itaətkarlıq kimi görünür."

**David Platt**[1]

"Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır. Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb."

**Romalılara 5:3-5**

1 Excerpt(s) from RADICAL: TAKING BACK YOUR FAITH FROM THE AMERICAN DREAM by David Platt, copyright © 2010 by David Platt. Used by permission of WaterBrook Multnomah, an imprint of Random House, a division of Penguin Random House LLC. All rights reserved.



# 16-CI GÜN



## "O GÖZƏL VAXT İDİ!"

"O zaman padşah Navuxodonosor heyrətə gəlib tez ayağa qalxdı və öz müşavirlərinə dedi: «Biz üç nəfər əl-qolu bağlanmış adamı oda atmadıqmı?» Onlar cavabında padşaha dedi: «Doğrudur, ey padşah!» O dedi: «Budur, mən odun içində əl-qolu bağlanmamış dörd nəfərin gəzdiyini görürəm və onlara heç nə olmur. Onlardan dördüncüsü allahların oğluna bənzəyir»."

**DANİEL 3:24-25**

..............................................

*Çin, 2002*

"Şəhidlərin səsi" təşkilatı məni ikinci dəfə idi ki, Çinə göndərirdi. Bu səfərdə həyat yoldaşım da mənimlə birgə getmək imkanı əldə etdi. İlk dəfə idi ki, həyat yoldaşım xaricə səfər edirdi və o, "Şəhidlərin səsi" təşkilatı üçün etdiyim işlərlə tanış olacaqdı. Biz əvvəlcə Vyetnama getdik. Orada mikroavtobusun arxa oturacağında oturub Hmonq qəbiləsindən olan və təqib edilən məsihçilərdən

müsahibə aldıq. Çünki onların xaricdən gələn adam ilə görüşməsi üçün təhlükəsiz bir yer yox idi.

Vyetnamdan sonra biz Çinə getdik və orada Tonq bacı ilə tanış olduq. Bizim gəlişimizdən bir neçə həftə əvvəl o, həbsdən azad olmuşdu. Mən ondan müsahibə götürməli, sonra onun şəhadəti və həbsdə keçirdikləri barədə yazmalı idim.

Tonq bacı Çindəki evində qeydiyyatdan keçməmiş kilsə toplantısı keçirirdi. Oradakı kilsələrin hökumətdə qeydiyyatdan keçməsi və kommunist partiyasının "Dini işlər üzrə qurum"unun nəzarətində olması tələb edilirdi. Qeydiyyatdan keçən kilsələr yalnız rəhbərliyin icazəsi ilə görüşməli, onların nə vaxt və harada görüşməsi, bu görüşlərə kimin rəhbərlik etməsi barədə bildirilməli idi. Belə yığıncaqlarda on səkkiz yaşından kiçik uşaqlar iştirak etməməlidir. Bütün dini fəaliyyətlər yalnız hökumətin təsdiqlədiyi kimi həyata keçirilməli idi.

Bu sistemdən kənarda və hökumətin icazəsi olmadan məsihçilərin hər hansı bir yığıncağı "qanunsuz dini toplantı" hesab olunurdu. Belə görüşlərdə iştirak edənlər dindirilir və həbs edilirdi. Lakin o dövrdə, İctimai Təhlükəsizlik Bürosunun əməkdaşları toplantıda iştirak edən hər bir şəxsi həbs etməyə çalışmırdılar. Onlar əsasən toplantı keçirilən evlərin sahibinə və kilsə rəhbərlərinə nəzarət edirdilər.

Beləliklə, öz evində belə bir toplantı təşkil edən Tonq bacı həbs olundu və altı ay həbsxanada qaldı. Hökumət onu daha çox kommunist kimi düşünmək və onun "Məsihin ağlını" dəyişmək üçün "yenidən tərbiyə etməyə" çalışırdı (1 Korinflilərə 2:16).

Tonq bacı bizimlə təhlükəsiz bir yerdə görüşmək üçün uzun yol qət etdi. Çünki əcnəbilərlə görüşəndə həbs olunsa, onun üçün bu, şübhəsiz ki, daha çox problem yarada biləcəkdi. O, bəstəboy idi və kiçik çiyinləri var idi. Boyu bir metr yetmiş santimetr olan həyat yoldaşım Tonq bacının yanında sanki bir qüllə kimi görünürdü. Biz onunla salamlaşdıq, tərcüməçimiz vasitəsilə söhbətə başladıq. Sonra müsahibəyə başlamaq üçün diktafonumu çıxartdım.

Birinci sual: "Həbsxanada olduğunuz vaxtlardan bizə nə danışa bilərsiniz?"

Düşünürdüm ki, bu sualla başlamaqla söhbəti birbaşa onun keçirdiyi əzablara yönəldə biləcəyəm. Mən onun həbsxana həyatının nə qədər çətin olduğu haqqında eşidəcəyimi gözləyirdim. O isə əzablarından deyil, çarpayının sərt, yeməklərin pis və siçovulların böyük olmasından danışdı! Tərcüməçi sualımı ingilis dilindən mandarin dilinə çevirəndə mən səbirsizliklə cavab gözlədim. Diktafon səsi yazırdı, əlimdəki qələmimsə onun təsvir edəcəyi vəziyyəti yazmağa hazır idi.

Tonq bacı mənim sualımı tərcüməçidən eşidəndə onun üzündə səmavi təbəssüm adlandıra biləcəyim bir gülüş yarandı. O, tərcüməçiyə Çin dilində nəsə dedi, sonra bizə tərəf dönüb söylədi: "Bəli. O gözəl vaxt idi".

Tərcüməçiyə üz tutdum. İndi mən daha da çaşqın halda idim. Mən Tonq bacıdan həbsxana haqqında soruşdum. O, üzündə böyük təbəssümlə bizə baxıb dedi ki, onun üçün bu gözəl vaxt olub. Düşündüm ki, yəqin tərcüməçi məni başa düşməyib. Çünki mənim fikrimcə heç kim həbsxananın gözəl olduğunu deməz. Elə deyilmi?

Bəlkə kimin üçünsə həbsxanada olmaq gözəl vaxt olub?

Tərcüməçi məni əmin etdi ki, sualımı və onun cavabını dəqiq tərcümə edib. Tonq bacı dedi: "Bəli. O gözəl vaxt idi".

İndi Tonq bacıya daha çox sualım var idi. Həbsxana necə gözəl ola bilər? Bu barədə düşünəndə onun üzündə təbəssüm yaradan nə idi?

O, sualıma sevinclə cavab verməyə hazır idi.

Həbsxanada olan vaxt çox gözəl idi, çünki Allah onun yanında idi! Tonq bacı həbsxanada İsa ilə münasibətinin nə qədər yaxın, nə qədər xüsusi olduğunu bölüşdü. Sanki bu müddət ərzində Rəbb ona xüsusi diqqət yetirirdi və onun ürəyi hər gün Məsihin xüsusi hüzuru ilə isinirdi. Həbsxanada olarkən özünü kainatı Yaradana o qədər yaxın hiss edirdi ki, oradakı vaxtı yalnız gözəl adlandırmaqdan başqa söz tapa bilmirdi.

Orada Tonq bacı üçün yadda qalan yalnız Məsihin hüzuru deyildi. Rəbb, həm də ona həbsxanada heyrətamiz bir xidmət üçün imkan yaratmışdı. O, bir neçə kamera yoldaşına Məsih barədə danışmaq fürsəti tapmışdı. Kiminsə cəhənnəmdən azad olub İsa Məsihin əbədi Səltənətinə keçməsini görməkdən gözəl nə ola bilər?

“Bəli. O gözəl vaxt idi.”

Tonq bacı həbsxanadakı şəraitdən danışmağa əsla əhəmiyyət vermədi. O, daha çox ruhani vəziyyətə diqqət yetirirdi və onun üçün həbsxanada ruhani şərait çox gözəl idi!

Tonq bacı ilə söhbətim fikirlərimi dəyişdi və dünyagörüşümə çox təsir etdi.

Bu söhbətdən əvvəl, həqiqətən də, kiminsə həbsxanada olmağını gözəl bir şey hesab etmirdim. Həbsxanada olmaq əzabdır və əgər fürsət varsa, əziyyətdən qaçmaq lazımdır, elə deyilmi? Lakin Tonq bacı bu əzabdan qaçmadı və geridə qalan həbsxanadakı günlərini xatırlayanda onun üzündə heyrətamiz təbəssüm yaranırdı, sanki o, açar dəliyindən cənnətə baxırdı.

Əgər həbsxana əzab çəkmək yeri deyil, əksinə gözəl vaxt keçirmək yeridirsə, onda mən nəyi itirmiş oluram? Həbsxanaya düşmək bizi sevən Xilaskarın iradəsi ilə baş veribsə, bundan gözəl nə ola bilər? Xəstəlik gözəl ola bilərmi? İşsizlik gözəl ola bilərmi? Maliyyə itkisi gözəl ola bilərmi?

Əgər bu çətinliklər Məsihin yaxınlığını yeni və güclü şəkildə hiss etməyə səbəb olarsa, bəs onda necə? Əgər bunlar bizi İsanı daha yaxından tanımağa və özümüzü Ona daha çox həsr etməyə aparırsa, onda necə? Əgər bu çətinliklər xidmətin qapılarını yeni tərzdə açırsa və Müjdəni bölüşmək üçün bir daha görüşməyəcəyimiz insanlarla əlaqə saxlamağa imkanı verirsə, onda necə? Əgər Allah bunları Öz izzəti üçün istifadə edərsə, bu necə möcüzə olmaya bilər?

Tərcüməçi sualı və ya cavabı çaşdırmadı. Amma o gün Tonq bacı fikirlərimi, həbsxana və əzab haqqında düşüncələrimi tam dəyişdi. O, gözlərimi açaraq göstərdi ki, yer üzündəki “ən pis” yerlər belə

xeyir-dua və Allahın hüzur yeri ola bilər. O yerlər həqiqətən də, gözəl ola bilər.

## DÜŞÜNMƏK ÜÇÜN

Hal-hazırda həyatınızda ümid etdiyiniz və ya gözlədiyiniz kimi alınmayan iki və ya üç (və ya daha çox) vəziyyət varmı ki, siz onları gözəl hesab etmirsiniz? Bu vəziyyətlərdə Allah hərəkət edə bilərmi? Bu vəziyyətdə siz Onu yeni, xüsusi bir şəkildə hiss edə bilərsinizmi? Bəlkə də, O sizi elə bir yerə qoyub ki, heç vaxt görüşməyəcəyiniz bir insana İsanın ona olan məhəbbətindən danışa bilərsiniz? Heç vaxt istəmədiyiniz və ya gözləmədiyiniz o vəziyyəti görməyə hazırsınızmı? Gündəliyinizdə bu hallarda və belə vəziyyətlərdə Allahı necə gördüyünüz barədə yazın.

### DUA

"Ya Rəbb, Sənə şükürlər olsun ki, Səninlə birgə həbsxana kamerası da gözəl ola bilər. Bu yaranmış ________________________ bağlı vəziyyətimi Sənin hüzuruna gətirirəm. Kəlamın deyir ki, "Rəbdə həmişə sevinin" (Filipililərə 4:4) və buna görə də indi vəziyyətimə baxmayaraq, mən sevinməyi seçirəm. Xahiş edirəm ki, Tonq bacı kimi mən də istəmədiyim və ya planlaşdırmadığım vəziyyətdə belə, Rəbbim İsanın xüsusi yaxınlığını hiss edə bilim. Zəhmət olmasa, ətrafımdakı insanların ehtiyaclarını görmək üçün ruhani gözlərimi aç və qoy mən görüşdüyüm insanlara Sənin adın və məhəbbətin barədə danışmağa hazır olum. Amin."

### *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Dəyərli bacı-qardaşlarımızın üzləşdikləri çətinliklər barədə danışmaq onlar üçün asan deyil. Əslində onlar bu çətinliklər barədə heç düşünmürlər! Bu imanlılardan həbs olunmaqları və ya həbsxana kameraları barədə soruşmaq onlar üçün sanki diş çəkməyə bərabərdir.



# 17-Cİ GÜN

# "İNDİ O, ALLAHI DAHA ÇOX SEVİR"

"Dodaqlarımızdan gülüş tökülürdü, dilimizdən sevinc harayı yüksəlirdi. Millətlər öz aralarında belə deyirdi:«Rəbb onlar üçün böyük işlər görüb». Bunun üçün sevinirik, çünki Rəbb bizim üçün böyük işlər görüb."

**MƏZMUR 126:2-3**

.................................................

## Praqa, Çexiya, 2017-ci il

Təqiblərə tab gətirmiş məsihçi ilə görüşmək bir şeydir. Lakin ciddi təqiblərdən yenicə keçmiş yaxın tanışımla görüşmək tamam fərqlidir. Bu səfəri fərqli edən də elə budur. "Şəhidlərin səsi" təşkilatı tərəfindən təşkil olunmuş belə görüşlərə getdiyim səfərlərə nisbətən bu dəfə suallarım çox idi.

Peter Yaşek adlı bir məsihçi Sudanda 14 ay həbsdə olmuşdu. O, həbsdən çıxandan səkkiz gün sonra onunla görüşməli və müsahibə götürməli idim. Peter casus kimi mühakimə olunmuşdu və "ömürlük" həbsə məhkum edilmişdi. Sudan qanunlarına əsasən bu, 20 il və əlavə olaraq dörd il demək idi. Şükürlər olsun ki, Çexiya

hökuməti onun azadlığa çıxması üçün danışıqlar apardı. İndi o, vətəninə qayıtmışdı.

Heç ağlıma da gəlməzdi ki, bir gün mən Peterlə belə şəraitdə görüşəcəyəm. Biz on ildən çox iş yoldaşı olmuşuq və məsihçilərin təqib olunduğu ölkələrə birlikdə səyahət etmişik. O bizim evimizdə, ailəm də onun evində olub. Ancaq bütün bunlar, Peterin on dörd ay həbsdə qalmasından, onun Sudanda həbs edilmiş İŞİD döyüşçüləri ilə bir kamerada olmasından əvvəl baş vermişdi. Praqada görüşdüyümüz Peter indiki Peterdən nə qədər fərqli olacaq? Biz Peterə keçirdiyi əzab-əziyyətlərdə necə kömək etməyimiz barədə mütəxəssislərlə məsləhətləşdik. Bəs əgər o, işgəncələr keçiribsə? Bəs əgər onun ağlı və ya bədəni işgəncələrə məruz qalıbsa? Biz ona belə vəziyyətdə necə kömək edə bilərik? Həbsdə aldığı mənəvi yaralar hələ nə qədər vaxt ona əziyyət verəcəkdi?

Axşama yaxın təyyarəmiz Praqaya çatdı. Biz Peter və onun ailəsi ilə şam yeməyində görüşməli idik. Tez duş qəbul edib təyin olunmuş vaxtda otelin foyesinə endim, Peter orada məni gözləyirdi. O arıqlamışdı, amma gülümsəyirdi. Mənim üçün onu qucaqlamaq və evinə xoş gəldin demək böyük bir şərəf idi. Biz və bir çox başqaları onun azad olması üçün dua edirdik.

Peter başına gələnləri əvvəldən axıra qədər danışdı. Biz növbəti dörd günün çox hissəsini bir otaqda birlikdə keçirdik. O, söhbətə evə qayıtmaq üçün Sudan hava limanına getdiyi vaxtdan başladı. Təyyarəyə minmə talonunu aldıqdan sonra iki ölkənin təhlükəsizlik işçisi tərəfindən saxlanmışdı. Həmin gün Peter söhbətini Kober həbsxanasında çöldə oturub Məzmurlar kitabını oxuyarkən mühafizəçinin ona dediyi sözlərlə bitirdi: "Peter, səni azad edirlər".

Peterin hekayəsinin çox heyrətamiz məqamları var idi. İŞİD kamera yoldaşları az qala onu suda boğacaqdılar. Onu təkadamlıq kameraya salanda bunu bir xeyir-dua hesab etdi. Həbsxanada olsa da, mütəmadi olaraq ailəsi ilə telefonla danışa bilirdi.

Onun hekayəsinin ən maraqlı hissəsi Allahın onu olacaq hadisələr üçün hazırlaması idi. Şübhəsiz ki, Peterin bütün həyatı

onu bu vəziyyət üçün hazırlamışdı. Peter kommunist ölkəsində təqib olunan bir pastorun evində böyümüşdü. O, təqib olunan məsihçilərdən müsahibə almaqla dünyanı səyahət etmişdi. Beləliklə, Peter artıq təqiblərə uzun müddət ərzində hazırlaşmışdı. Ancaq bundan da əlavə, Allah onu özünəməxsus şəkildə — yuxular vasitəsilə hazırlamışdı.

Peterin Sudana səfərindən iki il əvvəl bir gecə yuxuda özünü həbsxana kamerasında görmüşdü. O, aydın şəkildə həbsxana qapısının bağlandığını gördü və kilidin səsini eşitdi. Hətta o, yuxusunda bu həbsxanada qısa müddət olmayacağını başa düşmüşdü. Yuxu o qədər real idi ki, ertəsi gün Peter kilsəyə gələndə çox narahat görünmüşdü. Bunu görən bir məsihçi dostu ondan soruşmuşdu: "Peter, sənə nə olub?"

İki ildən sonra Peter Sudanda həbs olunan axşam təxminən 24 saat dindirildi. Nəhayət, Milli Kəşfiyyat və Təhlükəsizlik Xidmətinin qərargahındakı kameraya aparıldı. Kamera tək bir məhbus üçün nəzərdə tutulmuşdu, lakin orada artıq altı nəfər var idi. Bir nəfər çarpayıda, qalan beş məhbus isə yerdə oturmuşdu. Yerdə oturanlar Peterə yer vermək üçün tərpəndilər.

Milli Kəşfiyyat və Təhlükəsizlik Xidmətinin mühafizəçisi Peteri kameraya gətirdi və o, arxasınca bağlanan qapıya baxanda dərhal öz yuxusunu xatırladı. Bu onun yuxuda gördüyü *həmin qapı idi*. Qapı elə yuxuda gördüyü rəngdə idi və ortasında kiçik pəncərə var idi. Qapı bağlanarkən yuxuda eşitdiyi həmin çaqqıltı səsini xatırladı. Peter anladı ki, Tanrı onu bu kameradakı həyata artıq iki il əvvəl hazırlamışdı.

Bu, Peterin hekayəsindəki bir çox heyrətamiz məqamlardan biri idi. Onun Sudanda malyariyaya yoluxmadan on dörd ay həbsdə qalmasına təəccüb edirdim. Mən Sudanda *altı gün* olmuşam və evə o dəhşətli xəstəliklə qayıtmışam!

Peter bizə həbs olunandan dörd ay sonra onun vasitəsilə bəzi məhbus yoldaşlarının Məsihə iman etməsi barədə danışdı. Bundan əvvəl o, həbsxanada olarkən məyus olmuşdu və

Allahdan həbsdə nə qədər qalacağını soruşmuşdu. Lakin həmin gündən sonra onun fikirləri tamamilə dəyişmişdi. Peter başa düşmüşdü ki, Allah həbsxanadakı insanlara onun əbədi həyat barədə danışması üçün imkan yaradıb. O artıq Rəbbə "daha nə qədər burda qalacağam?" deyə dua etmirdi, əksinə "mənim burada nə qədər qalmağımı və xidmət etməyimi istəyirsənsə, o qədər qalacağam" deyirdi.

Nəhayət, həbsxanada ona Müqəddəs Kitabı özü ilə saxlamağa icazə verəndə Allahın Kəlamı üçün necə susadığı barədə bizə danışdı. Kəlamı oxumaq üçün kifayət qədər işıqlı yer kameranın pəncərəsinin yanı idi. Buna görə də səhərdən axşam yeməyinə qədər ayaq üstə dayanıb acgözlüklə Müqəddəs Yazılardan oxuyaraq ruhani qidalanırdı. O, üç həftə ərzində bütün Müqəddəs Kitabı oxudu!

Allahın Peterə verdiyi xidmət orada inkişaf etməyə başladı. O, həbsxana kilsəsi olan başqa bir həbsxanaya köçürüldü və orada yüzlərlə məhbus yoldaşlarına vəz edə bildi. Peter bunun üçün hazır idi, çünki Allahın Kəlamına sərf etdiyi vaxt ona vəz etmək üçün bir çox mövzular vermişdi.

Praqada səfərim başa çatmaq üzrə idi. Allahın Peteri, həyat yoldaşı və uşaqlarını onun sınaqlarına necə hazırladığına, bu sınaqdan keçməkdə ona necə kömək etdiyinə və qayğı göstərdiyinə heyran oldum.

Evə çatanda həyat yoldaşım Şarlotta məndən Peter barədə soruşdu. Aylarla biz onun üçün birlikdə dua edirdik. Hər ikimiz onun hansı əzablardan keçdiyini və bunun ona necə təsir etdiyi barədə düşünürdük.

Mən həyat yoldaşıma dedim: "O lap yaxşıdır, elə həmin Peterdir. Sadəcə indi o, Allahı daha çox sevir".

# DÜŞÜNMƏK ÜÇÜN

Peter mənə dedi ki, məsihçilərin onun üçün etdikləri dualar ona çox təsir etmişdi. O, həbsxanada hər axşam doqquzda, işıqlar sönəndə uzanıb dərhal rahat yuxuya getməsinə həmişə heyran olurdu. Evə gələndə bildi ki, onun kilsə üzvləri hər axşam saat səkkizdə Peterin təhlükəsizliyi, ruhlanması və sağlamlığı üçün gündəlik dua edirlərmiş. İndi Peter rahat yuxuya getməsinin səbəbini başa düşdü. Çexiyada saat səkkiz olanda Sudanda saat doqquz olurdu. Ətrafda baş verənlərdən asılı olmayaraq onun hər gecə rahat yuxuya getməsinə səbəb elə həmin vaxt Çexiyada insanların onun üçün etdikləri dualar idi! Məsih uğrunda həbsxanada olan Peter kimi məsihçilər üçün hər gün dua etmək məsuliyyətini öz üzərinizə götürün.

Siz bu imanlıların hekayəsi barədə www.PrisonerAlert.com saytında oxuya bilərsiniz (və siz onlara məktub yaza bilərsiniz). Yadınıza salmaq üçün telefonunuzda xatırlatmanı quraşdırın və ya bu məsihçilərin şəklini Müqəddəs Kitabınızın içinə qoyun, ya da soyuducunuzun üzərinə yapışdırın. Hər gün onlar üçün dua edin. Peterin hekayəsindən gördünüz ki, sizin dualarınız nə qədər əhəmiyyətlidir.

## DUA

"Ya Rəbb, mənə kömək et ki, həyatımda və ya dua etdiyim insanların həyatında duanın gücünü həmişə dəyərləndirim. Sənə təşəkkür edirəm ki, qarşılaşdığımız hər vəziyyət üçün bizi hazırlayıb güc verəcəksən. Sənə güvənərək cəsarətlə addımlamağımızda bizə kömək et. Qoy qarşılaşdığım çətinliklər Peter kimi mənə də Səni daha çox sevməyə kömək etsin. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Peter on dörd ay həbsdən sonra azadlığa çıxdıqda onun hansı vəziyyətdə olacağı barədə dostları ilə söhbət etdim. Görəsən, bu hadisə ona necə təsir etmişdi? Ağır həbsxana şəraiti ona ruhani və fiziki necə zərər yetirmişdi? Mən çox şad idim ki, həbsxanada olması Peterə heç bir "zərər" verməmişdi və bu barədə dostlarına çatdıracaqdım. O, elə əvvəlki Peter idi, sadəcə indi Allahı həmişəkindən daha çox sevirdi! Peterlə birlikdə olmaq, həqiqətən, əlamətdar bir vaxt idi.

## *Dinləmək*

Siz mənim Praqada Peterlə söhbətimin səsyazısını www.VOM-Radio.net/Petr saytında dinləyə bilərsiniz.

## TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

Təqib olunan məsihçi bacı-qardaşlarım üçün dua etməkdə xoşladığım əsas məqam budur ki, Allah Öz Ruhu vasitəsilə onlara bildirir ki, biz onlar üçün dua edirik.

Peter Sudandan evə qayıtdıqdan sonra öyrəndi ki, hər gecə yatmağa gedəndə onun üçün imanlı bacı-qardaşları dua edirdilər.

Allahın bu cür dualara cavab verməsilə bağlı başqa bir hadisə də eşitmişəm. Mən Filippində müjdəçi Qrasiya Bornhem bacıdan soruşdum ki, vaxtilə radikal müsəlman qruplaşması tərəfindən girov götürüləndə onun və əri Martin üçün imanlıların dua etməsini bilirdimi?

O dedi ki, əsirlikdə olduqları ayların müxtəlif məqamlarında əri Martin ona baxıb deyirdi: "Hal-hazırda kimsə bizim üçün dua edir". Başqa vaxtlar da Qrasiya ərinə eyni sözləri deyirdi. Onlar imanlıların dualarını hiss edirdilər!

**BU GÜN DUA EDİN** ki, təqiblərə tab gətirən məsihçilər, hətta dua etdiyiniz anlarda belə, bilsinlər ki, onlar unudulmayıb və elə bu an onlar üçün dua edilir.

## 18-Cİ GÜN



# ALLAHIN NİYYƏTİNƏ GÖRƏ SEVİNMƏK

"Rəbbin sözü Amittay oğlu Yunusa nazil oldu: «Qalx, Ninevaya – o böyük şəhərə get və ona qarşı car çək, çünki oradakıların pisliyi gəlib Mənə qədər çatmışdır». Lakin Yunus Rəbbin hüzurundan Tarşişə qaçmaq üçün qalxdı. Yafoya enib Tarşişə gedən bir gəmi tapdı. Yol haqqını verib Rəbbin hüzurundan getmək üçün onlarla birlikdə Tarşişə gedən gəmiyə mindi."

**YUNUS 1:1-3**

### İordaniya, 2016-cı il

Pastor Aqil İordaniyada müjdəçi kilsəsinə rəhbərlik edir. Ölkə Yaxın Şərqin əksər hissəsi kimi, demək olar ki, yüz faiz müsəlmanlardan ibarətdir. Aqilin kilsəsi qeyri-qanuni olmasa da, şübhəsiz ki, həmin yerdə məşhur da deyildi. Burada müsəlman-

lar tərəfindən təhdidlər və təzyiqlər kilsə üzvlərinin gündəlik həyatının bir hissəsidir.

Qonşu Suriyada vətəndaş müharibəsi başladıqdan və ölkəni daxilindən məhv etdikdən sonra on minlərlə qaçqın Aqilin vətəni İordaniyaya axışdı. Aqil onların acınacaqlı vəziyyətlərindən xəbərdar idi və bilirdi ki, onlar öz ölkələrində hansı dəhşətləri yaşayıblar. Amma onun artıq bütün vaxtını alan öz xidməti var idi, çünki kilsəyə rəhbərlik edirdi. Eləcə də, o, müsəlmanlara xidmət etdiyinə görə təzyiq və təqiblərlə üzləşirdi.

Bir dəfə kilsəyə bir nəfər zəng edərək, Aqilə suriyalı qaçqınlara yardım etmək üçün maliyyə təklif etdi. Aqil nəzakətlə həmin şəxsə dedi: "Təşəkkür edirəm. Amma bunu edə bilməyəcəyəm". Onun gündəlik iş cədvəli olduqca gərgin idi. O, yeni xidmətə başlamaq istəmirdi və işini artırmaq üçün yeni imkanlar axtarmırdı.

Amma ürəyində çox aydın hiss edirdi ki, Allah onun qaçqınlara xidmət etməsini istəyir. Aqil bir gecə yata bilmədi və durub dua etdi. Əvvəlcə o, çox məşğul olduğunu Allaha bildirmək üçün Onunla mübahisə etmək istədi. Lakin səhər pastor Aqil düzgün qərar çıxarıb qaçqınlara maliyyə dəstəyi vermək istəyən şəxsə zəng edib dedi: "Əgər sizin təklifiniz hələ də qüvvədədirsə, mən bu humanitar işi görməyə razıyam".

Beləliklə, Aqilin qaçqınlara xidməti başladı. Aqil və onun kilsəsindən bəzi imanlılar minlərlə qaçqının müvəqqəti sığınacaqlarına, çadırlarına və ya yaşamaq üçün tapdıqları ərazilərə getməyə başladılar. Qaçqınların pul qazanmaq üçün imkanları yox idi və onların uşaqları yerli məktəblərdə xoş qarşılanmırdı.

Qaçqınlar bir çox fərqli dini məshəblərdən idilər. Bəziləri nominal məsihçi, bəziləri yezidi, bəziləri şiə, bəziləri isə sünni müsəlmanlarından idi. Onları bir şey birləşdirirdi, hamısı evlərindən uzaq düşmüşdü və yaşamaq üçün imkanları yox idi.

Aqil və onun kilsəsindən olan məsihçilər humanitar yardımı paylamaqla yanaşı dua edirdilər. Bu məsihçilər hər dəfə qaçqınlara onlar üçün İsa Məsihə dua edəcəklərini deyirdilər. Çox

nadir hallarda kimsə dua təklifindən imtina edirdi. Qaçqınların köməyə ehtiyacı var idi və İsadan kömək istəmək onlara nə zərər yetirə bilərdi ki?

Bir gün Aqil məsihçilərlə birgə uşaqları olan bir qadının evinə getdi və pastor onlar üçün dua etməyi təklif etdi. Ana ailəsi, xüsusilə də, doğulandan bəri ürək qüsuru olan kiçik oğlu üçün dua etməyi xahiş etdi. Beləliklə, pastor və digər məsihçilər İsa Məsihin adı ilə o ailə üçün dua etdilər və sonra o evdən çıxıb yardım çatdırmaq işi ilə məşğul oldular. Günün sonunda onlar öz şəhərlərinə qayıtdılar.

Bir neçə gündən sonra pastora zəng gəldi. Zəng edən yardımı alan, oğlu üçün dua etdikləri ana idi.

O, pastora dedi: "Xahiş edirəm, oğlum üçün etdiyiniz duanı mənim üçün yazasınız".

Aqil qadını başa düşmədi və ona dedi: "Yaxşı, duanı sizin üçün yaza bilərəm. Amma bu sizə nə üçün lazımdır?"

Ana cavab verdi: "Siz oğlum üçün dua etdikdən sonra ondakı anadangəlmə ürək xışıltısı itdi. Həkimlər deyirlər ki, indi onun ürəyində heç bir qüsur yoxdur! Xahiş edirəm ki, etdiyiniz duanı mənim üçün yazasınız, çünki mən o duanı digər övladlarım üçün də etmək istəyirəm".

İslamda müsəlmanlara Allaha dua edərkən dəqiq nə deyəcəkləri öyrədilir. Bu qadın İsanın adı ilə oğlunun sağaldığını görmüşdü, ona görə də indi Rəbb İsaya dua etmək istəyirdi, çünki dualara, həqiqətən, cavab gəldiyini görmüşdü. Amma o, Rəbbə deyəcəyi sözləri dəqiq bilmək istəyirdi!

Aqil gülümsədi və uşağa şəfa verən Rəbb İsaya həmd etdi. Anaya izah etdi ki, oğlunun sağalmasına səbəb heç bir xüsusi söz deyil, əsas sözlərinin kimə deyilməsidir. Onun oğlu üçün dua etdiyi şəxs Allahın Oğlu İsa idi. Onların dualarını eşidən, onlara cavab verən və balaca oğlanın ürəyinə şəfa verən də məhz Məsih idi.

Çox çəkmədi ki, o ana dualarımızı eşidən və cavab verən İsa Məsihi ürəyinə qəbul etdi.

Aqil mənə əhvalatı danışarkən narahat idi. Bir az əvvəl həftəlik cədvəlinə qaçqın xidmətini əlavə etmək üçün vaxtı olmadığını Allahla müzakirə etmişdi. Üstəlik, öz ölkəsində Allaha ehtiyacı olan insanlar çox idi. Allah suriyalılarla işləmək üçün başqasını göndərə bilməzdimi?

Aqil bu tapşırığı qəbul etdikdən sonra dəfələrlə Allahın qüdrətli yollarla hərəkət etdiyini görmüşdü. Qaçqınlar müsəlmanların onlara kömək etmədiyinə görə peşman idilər. Yenə də onlara kömək edən məsihçilər oldu. Aqil qaçqınlara xidmətdə Allahın əlini gördü. O, Allahın çox vaxt möcüzəvi şəkildə insanların ehtiyaclarını təmin etdiyini, xəstələrin sağaldığını görmüşdü. Aqil müsəlmanların, hətta İslam rəhbərlərinin də İsanın ardınca getmək üçün İslamı tərk etdiyinin şahidi olmuşdu. Belə hadisələr ildə bir dəfə deyil, demək olar ki, hər gün baş verirdi.

Qaçqınlarla işlədiyi müddət Aqilin həyatında ən sevimli vaxtı olmuşdu. Bu xidməti o, böyük məmnuniyyətlə yerinə yetirirdi. Bu işdə Allah aydın şəkildə və tez-tez möcüzələr edirdi. Bir vaxtlar qaçmaq istədiyi bu xidmətdə indi pastor Aqil böyük sevinc tapırdı.

## DÜŞÜNMƏK ÜÇÜN

Aqilə ilk dəfə suriyalı qaçqınlarla işləmək imkanı və maliyyə təklifi veriləndə o, bundan imtina edib belə demişdi: "Xeyr, təşəkkür edirəm, vaxtım yoxdur". Bu iş təklifi onun planlarına uyğun gəlmirdi. Bununla belə, Allah vəziyyəti dəyişdi və pastor Rəbbin çağırışı ilə razılaşdı. Bu onun üçün ən məhsuldar və məmnunedici bir xidmət oldu.

Şübhəsiz ki, bu cür cavab verən təkcə Aqil deyil. Yunus sözün əsl mənasında Allahın tapşırığından qaçdı (daha doğrusu, gəmi ilə uzaq səfərə getdi). Musanı Rəbb xidmətə çağıranda belə dua etmişdi: "Ya Xudavənd, yalvarıram, başqa adamı göndər" (Çıxış

4:13). Biz yolumuza çıxan hər fürsətə "bəli" deyə bilmərik. Ancaq Allah aydın şəkildə rəhbərlik etdikdə, biz Onun səsinə və çağırışına tabe olmağı seçməliyik.

Allah sizin üçün elə bir qapı açıbmı ki, siz oradan keçmək istəmirsiniz? Rəbb sizi nəsə etməyə çağırıb və siz demisinizmi: "Xeyr, təşəkkür edirəm?" Bunun səbəbini düşünmək üçün vaxt ayırın. "Bəli" deməyə nə mane olduğunu qeyd edin. O sizə Öz əlinin möcüzəli şəkildə işləməsini, sevinc və gözləntilərinizi yerinə yetirməyə aparan bir yol təklif edirmi?

## DUA

"Ata, Sənin istədiyin yolu mənə göstər və səsini eşitməkdə, iradəni dərk etməkdə mənə kömək et. Qoy Sənin çağırışına həmişə "hə" deməyə hazır olum. Xidmət etdiyim sahələrdə Sənin qüdrətini görməyə və hər vəziyyətdə ətrafımdakılara özümü Sənin nümayəndən kimi göstərməyə icazə ver".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim dua məktubumdan*

Mənim səfərimdən olan bəzi məqamlar:

- Qaçqınlar İsa barədə eşidib Onu qəbul etməyə hazırdılar. Yardım çatdıran məsihçilər İsanın adı ilə onlar üçün dua etmək istədiklərini söyləyirlər. Çox az adam duanı inkar edir.

Bir çoxlarının şəfa alması, insanların Məsihi qəbul etməsi və möcüzələr barədə eşitməsi bizə böyük sevinc gətirir.

- Qaçqınlara xidmət işinə tibbi və stomatoloji klinika, məktəb və peşə kursları da aiddir. "Şəhidlərin səsi" bu regionda xidmət edən yeganə təşkilatdır və bu xidmət sayəsində hər həftə yüzlərlə insanın həyatı xilas olur.
- İki uşağı olan suriyalı qaçqın qadının evinə baş çəkmişdik. Bu ziyarət bizi çox narahat etdi, çünki bu müsəlman qadının heç bir ümidi yox idi. Əri onu tərk etmişdi, uşaqları Suriyada gördükləri dəhşətdən sarsılmışdılar. Lakin kilsədə ona köməklik etmək istəyən imanlılarla tanış olduğuna görə çox şad oldu. Biz getməzdən əvvəl ana və uşaqları üçün dua etdik ki, Allahın məhəbbətini hiss etsinlər və bilsinlər ki, Rəbb onların qayğısına qalır.



## 19-CU GÜN



# HƏBSXANANIN MÜQƏDDƏS KİTABI

“Deməli, kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi.”

**2 KORİNFLİLƏRƏ 5:17**

.......................................................

### Türkiyə, 2016-cı il

“Atam elə bir müjdəçidir ki, əgər bu duzqabıya belə Müjdəni bölüşsəydi, xilas olardı!”

İstanbulun Avropa tərəfində, hər tərəfdən çox gözəl mənzərəsi olan, göydələn binada yerləşən restoranda masa arxasında oturduq. Başınızı bir qədər çevirsəniz, Ayasofyanı, Göy məscidi və uzaqdan Bosfor boğazında hərəkət edən gəmiləri görəcəksiniz.

Görüşdüyümüz ailə — ata, ana, böyük oğlu, onun arvadı və onların yeniyetmə qızı bir neçə ay əvvəl İrandan buraya qaçıb gəlmişdilər.

Ata — Humayun İranda narkotik aludəçisi idi. Dünyada narkomaniyanın ən geniş yayıldığı bir ölkədə o da başqaları kimi narkotikdən asılı idi. Bir gün yuxuda İsa onun yanına gəldi və

Humayun oyanandan sonra narkotikə olan asılılığından azad oldu. Bu möcüzə onu inandırdı ki, İsa peyğəmbər deyil, həqiqətən də, Allahın Oğludur. Bizimlə danışan və bizə şəfa verən Allahın Oğludur! Belə bir Allahın ardınca kim getmək istəməz ki?

Narkotik dərmanlardan gündəlik istifadə etmədiyinə görə onun səhhəti kəskin şəkildə yaxşılaşdı. Lakin ruhunda baş verən dəyişiklik daha əhəmiyyətli idi.

Siz düşünə bilərsiniz ki, Humayunun həyat yoldaşı ərinin artıq narkotik qəbul etmədiyini və indi onunla əvvəlkindən daha yaxşı davrandığını görəndə sevinəcəkdi. Əksinə, Humayunun arvadı ona qəzəbləndi. Humayun İslamı tərk edib İsanın ardınca getməklə həyat yoldaşını və bütün ailəsini rüsvay etmişdi. Axı, o, İslamı necə tərk edib İsanın ardınca gedə bilərdi?

Ailəsi onu boşanmağa təşviq etdi, lakin o, evliliyini və ərini tərk etməyə hazır deyildi. O, Humayundan bir müddət ayrı yaşadı, lakin ərinin həyatında və ürəyində olan böyük dəyişiklik yavaş-yavaş onu geri qaytardı. Nəhayət, arvadı da İsanın ardınca getməyi seçdi. Nəticədə, onların evi İranda yaşadıqları şəhərdə Müjdənin çırağına çevrildi. Humayunun, xüsusilə, narkotik aludəçisi olanlara ürəyi yanırdı və onları azad etmək üçün böyük həvəsi vardı. Tezliklə, o, belə adamlara kömək etməyə başladı və narkotikdən asılı insanların Məsihi qəbul etdiyini və narkotikdən azad olduqlarını gördü.

O, əsl müjdəçi idi. Onun hər söhbəti sanki iman barədə mövzuya toxunurdu və o inanırdı ki, İsa dualara cavab verən Allahdır. (Mən şəxsən inanmıram, o nə vaxtsa duzqabıya danışıb!)

Ofisiant yenə də çay gətirdi və stəkanlarımızı doldurdu, masanın ətrafında oturanlara qənd payladı və söhbətimiz müvəqqəti dayandı. Qonşu binanın damına ağ qağayı qonmuşdu.

Siz düşünə bilərsiniz ki, narkomanların azad olması yerli hakimiyyət orqanları tərəfindən təriflənəcək. Amma İranda insanlar İsanın adı ilə azad olubsa, onlar bunu qəbul etməyəcəklər. Polis və din xadimlərinin fikrincə, Humayun narkotikdən

asılı adamlara kömək etmirdi. O, insanları İslamdan dönməyə təşviq edirdi və bu, cinayət hesab olunurdu. Bu səbəbdən onu həbsxanaya saldılar.

Həbsxanada Humayunun Müqəddəs Kitabı yox idi, lakin burada o, başqa imanlıları tapdı və onlar tez bir zamanda Müqəddəs Kitaba olan ehtiyacı həll etdilər. Həbsdə olan məsihçilərin hər birinə boş dəftər paylandı və hər kəs həbsdən əvvəl əzbərlədiyi ayələri ora yazdı. Üç il ərzində Humayun həbsdə olanda, bu dəftər onun (və digərləri) üçün Müqəddəs Kitab oldu.

Humayun iman uğrunda əziyyət çəkən tək adam deyildi. Onun həbsindən sonra arvadı da həbs edildi, çünki o da ev toplantılarının rəhbərliyində və başqa qadınlara Məsih barədə danışmaqda iştirak etmişdi. Onların oğlu Heydər on səkkiz yaşını həbsxanada keçirdi, çünki o da iranlılara atasını narkomaniyadan tamamilə azad edən İsa haqqında danışmışdı.

Humayun həbsdən çıxandan sonra Allahın onun qarşısında qoyduğu xidmət işini davam etdirdi. Amma vəziyyət daha da çətinləşdi. Hakimiyyət onu hər yerdə izləyirdi və onun öz xidmətini davam etdirməsi digər məsihçilər üçün təhlükə yaradırdı.

Ailə ürək ağrısı ilə İranı tərk etmək qərarına gəldi. Onlar heç bir statusları olmadan Türkiyəyə gəldilər və qanuni işləməyə icazə almazdan əvvəl uzun immiqrasiya prosesindən keçməli oldular.

Lakin Humayun öz ölkəsini tərk etsə də, onun İrandakı müjdəçilik işi dayanmadı. Hər axşam o, kompüter ekranı qarşısında İrandakı məsihçilərlə söhbət edir, kilsə rəhbərlərini öyrədir və onlara göstərişlər verirdi. Eləcə də, xidmətlərini davam etdirməkdə onları həvəsləndirirdi.

O, vətənindən kənarda olsa da, müjdəçilik xidmətini dayandırmadı. Humayun tez bir zamanda türk dilində danışıq sözlərini öyrəndi və o, ərzaq mağazasında, restoranda və ya Rəbbə ehtiyacı olan insanlarla qarşılaşdığı hər yerdə İsa barədə danışmağa başladı. Məhz bunları danışarkən Heydər valideynləri üçün tərcümə edərək gülümsəyirdi və müjdəçi atası ilə öyünürdü!

“Bəs sənin gələcəyin necə olacaq?” — deyə biz soruşduq və düşünürdük ki, onlar deyəcəklər ki, Birləşmiş Millətlər Təşkilatı qaçqınlarla bağlı proses üzərində işləyir və qərbə köçmək şanslarını gözləyirlər. Amma onların cavabı bizi təəccübləndirdi, çünki yenidən İrana qayıtmağa ümid edirdilər. Bəli, onlar öz xalqının, onları həbs və təqib edən hakimiyyətin yanına qayıtmaq istəyirdilər. Onlar öz hakimiyyətlərinə nifrət etmirdi. Bu məsihçilər müsəlmanlar tərəfindən həbs edilən milyonlarla iranlının taleyinə görə narahat idilər. Çünki İranda insanları azad etmək, sağaltmaq və onlarla ünsiyyət qurmaq istəyən Xilaskar haqqında danışmaq lazım idi.

Öz vətənində hələ işinin çox olduğu halda, müjdəçi ürəyi olan bir insan necə Avropaya gedə bilərdi?!

## DÜŞÜNMƏK ÜÇÜN

İsa sizi necə dəyişdi? “Məsihdən əvvəl” sizin köhnə təbiətinizin hansı xüsusiyyətləri keçmişdə qaldı? Siz necə “yeni yaradılışa” çevrildiniz? Son on iki ayda və ya son altmış gün ərzində İsa sizi necə dəyişdi? O, hazırda həyatınızın hansı sahələri üzərində işləyir, sizi Özünə daha çox bənzətmək üçün hansı sahələri formalaşdırır? Allahın sizi necə dəyişdiyini və həyat yoldaşınızın, yaxın dostunuzun sizdə gördüyü böyük dəyişiklikləri gündəliyinizdə yazın.

Bu dəyişikliklər barədə son vaxtlar siz kiməsə danışmısınızmı? İnsanları Məsihlə tanış edəndə onlar Müqəddəs Yazıların həqiqiliyi, digər əsaslı sübutlar və iman yolunuz barədə sizinlə mübahisə edə bilərlər. Amma onlar həyatınızda baş verən dəyişikliklər barədə sizinlə mübahisə edə bilməyəcəklər. Humayun uzun illər narkoman olması və İsanı qəbul etdikdən sonra dərhal narkotik asılılıqdan azad olması barədə danışır. Bunu kim təkzib edə bilər? Kim belə İsa ilə görüşmək istəməz?

Allahdan xahiş edin ki, bu həftə həyatınızda etdiyi dəyişiklik barədə kiməsə danışmaq üçün sizə imkan yaratsın.

## DUA

"Ya Rəbb İsa, Humayun kimi cəsarətli müjdəçilərə görə Sənə təşəkkür edirəm. Zəhmət olmasa, həyatımda etdiyin heyrətamiz dəyişiklikləri görməkdə mənə kömək et və bu həftə kiməsə bu barədə danışmaq üçün imkan yarat. Sənə daha çox bənzəməyim üçün məni dəyişdir.

Xahiş edirəm, İrandakı bacı-qardaşlarımı qoru. Qoy bir çox iranlılar Sənə iman etsin. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim dua məktubumdan*

Səfərim çox gözəl keçdi! Bu dəfə mən ruhani döyüşün ön cəbhəsində vuruşan və ən çətin yerlərdə Məsihə xidmət edən bacı-qardaşlarla görüşdüm. Bundan əlavə, dünyada məşhur yerləri görmək imkanım oldu.

Bu səfərin ən maraqlı məqamlarından biri də İrandan olan bir ailə ilə görüşmək idi. Bu ailədə ata üç ildən çox, ana isə təxminən bir il həbsdə olmuşdu. Valideynləri cəzalandırmaq üçün onların oğlunu da Məsihə inandığına görə həbs etmişdilər (onların oğlu on səkkiz yaşını həbsxanada "qeyd etdi"). İsa bu ailənin atasını otuz ildən çox davam edən narkotik asılılıqdan azad etmişdi. Həbsxanada o, digər narkomanlara və hətta ölüm hökmündə olan məhbuslara xidmət etdi. Həbsxanada olan zaman dərk etdi ki, Allah onun iztirablardan istifadə edərək insana necə xeyir-dua verə bilər.



## 20-Cİ GÜN



# “BİZ HAMIMIZ BİLİRİK...”

“Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu”.

**FİLİPİLİLƏRƏ 1:29**

.....................................................

### Çin, 2010-cu il

Bir dəfə Çində Müqəddəs Kitabı ölkəyə çatdıran “Şəhidlərin səsi” təşkilatının əməkdaşlarından biri ilə görüşdüm. İndi yadımda deyil, ya o adam mənə öz adını demədi, ya da mən özüm onun adını qeydlərimdə yazmamışam ki, birdən qeydlərim müsadirə olunsa, heç kim onun adını tapa bilməsin. Mən şərti olaraq onu cənab Si adlandıracağam, amma sizi əmin edə bilərəm ki, o, Çin prezidenti deyil.

“Şəhidlərin səsi” təşkilatının bir çox ölkələrdə təqib olunan məsihçilərə xidmətindən biri də onları Kəlamı ilə təmin etməkdir. Onlar bizdən birinci dua etməyimizi, ikinci isə Müqəddəs Kitab-

lar gətirməyimizi istədilər. İbranilərə məktubda deyilir ki, Allahın Kəlamı "canlı və təsirlidir" (4:12) və Məsihin adı uğrunda əzab çəkən bacı-qardaşlarımız həmin Kəlamı əldə etmək istəyirlər. "Şəhidlərin səsi" təşkilatı bütün mövcud olan imkanlardan istifadə edərək, təqib olunan bacı-qardaşlarımızın Müqəddəs Kitabı əldə etməsi üçün Çinin bütün əyalətlərində yaşayan məsihçilərə Kəlamı çatdırmağa çalışır.

Cənab Si bizimlə görüşə gecə vaxtı gəldi. Bizim görüşümüz onun üçün çox təhlükəli idi.

O, sülhpərvər insan kimi görünürdü və sakit danışırdı. Mənim bu insan haqqında ilk təəssüratım o idi ki, bu adam heç nədən qorxmur. O, başına gələnlər barədə danışdıqca bunun səbəbini anladım. Onun ailəsində təqiblərə məruz qalan, deyəsən, təkcə özü deyildi.

Onun babası 1949-cu ildə kommunistlər hakimiyyəti ələ keçirəndən sonra ev kilsəsinin pastoru və Çinin digər bölgələrində müjdəçi olub. Sinin babası ömrünün on ildən çoxunu həbsxanada keçirib. Cənab Si babasının həbsxanada keçirdiyi vaxtın əslində qısa olduğunu vurğuladı, çünki o dövrün bir çox kilsə rəhbərləri həbsxanada iyirmi ildən çox qalmışdılar.

Cənab Sinin atası kilsədə diakon idi. O da dəfələrlə polis tərəfindən saxlanılmışdı. Yeni dostum mənə dedi ki, uşaq olanda onların yaşadıqları yerdə nadir hallarda maşın olurdu. Bir neçə dəfə onların küçəsinə avtomobil gələndə, bilirdilər ki, polislər onun atasını həbs etməyə gəliblər. Cənab Si deyirdi ki, bir avtomobilin gəldiyini gördükdə atası polis bölməsində günlərlə və ya həftələrlə həbsdə qalacağını bilərək, sakitcə arvadından özü ilə aparmaq üçün əlavə paltar qoymasını xahiş edirdi.

Belə bir evdə böyüyən cənab Sinin də Müjdə işində iştirak etməsi təəccüblü deyildi. Çində Məsihə xidmətin dəyərini başa düşdüyünə görə, cənab Si ondan bədəl ödəməsini tələb edəndə çəkinmədi. Əslində o, təqiblərdə bir fayda görürdü.

O öz fikrini belə ifadə etdi: "Təqib sanki od kimidir. Mən bu sözü nəyisə təmizləmək kimi istifadə edirəm. Əgər biz xalis qızıl əldə etmək istəyiriksə, onu oddan keçirməliyik". O bildirdi ki, Çində məsihçilik qərb dini hesab edildiyinə görə yayılmağa və məşhurlaşmağa başlayıb. Qərb mədəniyyəti ilə əlaqədar hər şey dəbdə olan bir şey sayılır.

Kilsə üçün təqiblərin olması faydalıdır, çünki kilsə çətinliklərlə üzləşdiyi zaman təmizlənir və orada yalnız Allaha sadiq imanlılar qalır. Beləliklə, təqiblər kilsədə Məsihə imanında ciddi olan məsihçiləri saxlayır. Bu cür məsihçilər imanlarında o qədər ciddidirlər ki, həbs təhlükəsi və ya fiziki ağrı onların birgə ibadət etmək üçün yığışmaqlarına və İsa haqqında danışmaqlarına mane ola bilməz. Məsihçilik dəbdə olduğuna görə kilsəyə gələnlər təqiblər zamanı oradan uzaqlaşırlar.

Yalnız saf, təmizlənmiş qızılla dolu kilsələr təqiblərə dözə bilir.

Cənab Si də o möminlərdən biridir. Ailəsinin izi ilə o, dəfələrlə polis tərəfindən saxlanılıb və bir neçə dəfə on beş sutkalıq "inzibati həbs" cəzası çəkib. Ondan ilk dəfə həbs olunması barədə soruşdum və onun ilk işlətdiyi söz "şərəf" oldu. Onun üçün Məsih uğrunda həbs olunmaq şərəf idi.

Cənab Si dedi: "Nəhayət, mən babam kimiyəm! Maraqlısı odur ki, babam beş il (təhlükəsizlik üçün adı deyilməyən) bir vilayətdə həbsdə olub və mən də elə həmin əyalətdə həbsdə olmuşam. Mənim həbsdə qaldığım yer babamın həbsxanada olduğu yerə çox yaxın idi".

"Allah ailəmə belə bir şərəf nəsib edib. Uzun illər əvvəl babam burada həbsdə olub, Rəbb üçün əziyyət çəkib və bu gün mən həmin əyalətdəyəm. Mən bunu bir şərəf hesab edirəm, atam da belə düşünür. O mənə dedi ki, çox-çox illər əvvəl babamı bu əyalətdəki həbsxanadan götürməyə gəlmişdi. İndisə o yerə çox yaxın olan əyalətdəki həbsxanadan məni götürməyə gəlmişdi. Ya Rəbb, Sənə təşəkkür edirəm."

Cənab Sinin dediklərini dərindən dərk etmək üçün mənə bir az vaxt lazım idi. Amerikalı valideynlər, o cümlədən, mən övladlarımızın həbsdə olmasına görə necə minnətdar ola bilərik? Lakin cənab Si bunu daha ətraflı izah etdi:

> "Düşünürəm ki, məsihçilik həqiqətən bir ünsiyyətdir, Allah realdır və bizim onunla xüsusi ünsiyyətimiz olmalıdır. Bu, yalnız «yaxşı, Allah, biz Sənə güvənirik» deməklə deyil. Biz Ona güvənirik və Onun bizə verdiyi Böyük Tapşırığını bilirik, ona görə də Onun xidmətçiləri olmaqdan şərəf duyuruq. Bizim xoşbəxt olmağımız üçün heç bir maneə görmürəm. Bu, həqiqətən də Rəbdən gələn böyük bir nemətdir.
>
> Biz insanları xilas edirik. Həbsxanada bir çox insanlar var ki, həqiqətən ümidsizdirlər, onlara ölüm hökmü verilmişdir və tezliklə bu dünyanı tərk edəcəklər. Bizim onlara İsa Məsih haqqında danışmaq və onları əbədi ölümdən xilas etmək şansımız var. Mən ilk dəfə bunu həbsxanada hiss etdim və bu möcüzəni görmək bir xeyir-duadır".

Həbsxanaya düşəndən bəri Sinin bu münasibəti dəyişməyib. Bu gün o, Kəlamı bölüşdüyünə görə üç il və ya daha artıq müddətə həbsxanaya düşə biləcəyindən xəbərdardır. Amma bu onu qətiyyən qorxutmur.

Cənab Si dedi: "Biz əslində təqiblər və əzablardan gizlənə bilmərik. Əgər siz həqiqi məsihçisinizsə, onda təqiblərə məruz qalacaqsınız. Fərqi yoxdur, Məsih İsada mömin həyat yaşamaq istəyənlərin hamısı təqibə məruz qalacaq (2 Timoteyə 3:12).

Əgər Rəbb üçün xidmət etməyi seçsəniz, nə vaxtsa mütləq təqiblərə məruz qalacaqsınız".

Söhbətimizi bitirdik, cənab Si ilə vidalaşdıq və o çıxıb getdi. İmanlı qardaşımız öz ailəsinə və xidmətinə qayıtdı. Yəqin ki, o daha

çox həbslərə və təqiblərə məruz qalacaqdı. Mən onun arxasınca baxarkən arzulayırdım ki, gələcəkdəki çətinliklər bu cəsarətli qardaşı narahat etmədiyi kimi məni də narahat etməsin.

## DÜŞÜNMƏK ÜÇÜN

Cənab Si, məsihçiliyə düşmənçilik edən və onun təbliğini məhdudlaşdıran ölkələrdə yaşayan məsihçi ailəmizin təqib olunan bir çox üzvləri kimi, Məsihə tabe olmağın necə baha başa gəldiyini yaxşı bilir. O deyirdi: "Biz hamımız bilirik ki, təqib qaçılmazdır". Buna görə də, təqiblər başlayanda bu, cəsur məsihçiləri təəccübləndirmir və imanlarını sarsıtmır, çünki onlar buna hazırlaşıblar və əminliklə deyirlər: "Bizim üçün Məsih uğrunda əzab çəkmək bir şəfərdir!"

Nisbi rahatlıq içində yaşayaraq, Məsihin ardınca getməyin "dəyərini" əvvəlcədən necə hesablaya bilərsiniz (Luka 14:28)? İmanınızın dəyəri nədir? O sizə nəyə başa gələcək və ya artıq sizə nəyə başa gəlib? İsanın ardınca getmək üçün könüllü və sevinclə nədən imtina etməyə hazırsınız? Gündəliyinizdə bu "dəyərlərin" siyahısını tərtib edin. Hər bir qurbanı Məsihin ardınca getməkdə böyük şərəf kimi necə qəbul edə biləcəyiniz barədə yazın.

## DUA

"Ya Rəbb İsa, mən səni hər şeydən üstün tutmaq istəyirəm. Mənə Sənin ardınca getməyin dəyərini dərk etməkdə kömək et. Qoy Səni həyatımda ailə, dostluq, pul, rahatlıq və məni Səndən yayındıra biləcək hər şeydən daha üstün tutum."

### *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Sürətli qatarlar, həqiqətən, çox rahatdır, sürətlidir və onların içində xüsusi tualetlər var! Bu, daha çox təyyarə tualetlərinə bənzəyir və oturacağı var! İndi qatar yolları bir-biri ilə kəsişmir və relslərin üstünə heç nə düşmür.

*(Müəllifin qeydi: Bəli, həqiqətən də gündəliyimdə tualetin keyfiyyəti haqqında yazıram!)*

## *Dinləmək*

Siz Si qardaş ilə söhbətimi www.VOMRadio.net/weknow saytında dinləyə bilərsiniz.

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"Məsihçilik əzab və şərin mövcud olmasını inkar etmir. Yadda saxlayın ki, dağda İsanın siması dəyişəndən sonra şagirdlərinə dedi ki, O, Yerusəlimə gedəcək, edam ediləcək və ölüm üzərində qələbə çalacaq. İsa bilirdi ki, həyatında əzablar olacaq və əziyyət çəkmək qaçılmazdır. O əmin idi ki, bizim ümidimiz ağrı və əzablardan xilas olmaq fikrinə deyil, əksinə, əzablara qalib gələcəyimizə əsaslanır.

Məsihçinin ümidi qaz kamerasının, hətta xərçəngin qarşısında da möhkəm dayanır. Pasxa bayramından öncə Yaxşı Cümə günündə Məsihin əzabları nə qədər dəhşətli görünsə də, biz qarşıda Bazar günü Pasxanın gələcəyinə əminik. Bəs biz ölsək, nə olacaq? İsa da əvvəlcə öldü, amma inanırıq ki, O indi sağdır və biz də Onun kimi yaşayacağıq."

**Brennan Menninq**[1]

"Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın."

**Yaqub 1:2-4**

1 Excerpt(s) from THE RAGAMUFFIN GOSPEL: GOOD NEWS FOR THE BEDRAGGLED, BEAT-UP, AND BURNT OUT by Brennan Manning, copyright © 1990, 2000, 2005 by Brennan Manning. Used by permission of WaterBrook Multnomah, an imprint of Random House, a division of Penguin Random House LLC. All rights reserved.



## 21-Cİ GÜN

# İKİQAT PAY – 1-Cİ HİSSƏ

"Bir-birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi siz də bağışlayın."

**KOLOSSELİLƏRƏ 3:13**

........................................................

### Malatya, Türkiyə, may 2007-ci il

Bəzi təqib hekayələri mənim üçün, eləcə də, "Şəhidlərin səsi" təşkilatında çalışan işçilər üçün şəxsidir. Həqiqətən, ürəyimə təsir edən hadisələrdən biri 2007-ci ilin aprelində Türkiyənin Malatya şəhərində məsihçi nəşriyyat ofisində üç məsihçinin şəhid olmasıdır.

Qətl hadisəsi ilə bağlı mətbuatda ilkin xəbərlər sensasiyaya səbəb oldu. İlkin məlumatlara görə qatillər məsihçilərə işgəncə verərək bədənlərini kəsmişdilər və onların ölümündən əvvəl çəkdikləri əzabları təsəvvür etmək qeyri-mümkün idi.

Mən bu hadisə barədə internetdə oxudum. Lakin Allahın mənə bu kişilərin ailələri ilə şəxsən söhbət etmək imkanı yaradacağını bilmirdim. Bu dəhşətli xəbərləri oxuduqdan sonra, həmin axşam

süfrəmizin ətrafında əyləşərək, ailəmizlə Kəlamdan Elişanın İlyasdan libasını götürməsi hekayəsini oxuduq. O hekayəni oxuyandan sonra fikrim Türkiyəyə və oradakı qardaşlarımın ağlasığmaz iztirablarına yönəldi. Süfrəmiz yığılmazdan əvvəl birdən ağlamağa başladım. Arvadım və iki oğlum mənə baxdılar, nəyə görə ağladığımı anlamadılar.

Müqəddəs Yazıları oxuduqdan sonra dua edərkən ağlıma bir fikir gəldi. Dua etdim ki, Türkiyədə bu zorakılıq nəticəsində atasız qalan beş uşaq Elişa kimi atalarının imanından ikiqat artıq pay alsınlar. Onların ataları imanlarına görə Rəbbə xidmət etmək üçün "təhlükəsiz" yerə köçmədilər, əksinə öz həyatlarını Məsih uğrunda qurban verdilər.

Bu hadisədən yeddi həftə sonra mən Malatya şəhərində "Zirvə" nəşriyyatının qapısı qarşısında dayandım. Binanın kənarında bir polis maşını dayanmışdı və qaldığım evin sahibi burada uzun müddət dayanmağın ağılsızlıq olduğunu söylədi. Qara taxta qapının arxasında, üç qardaşımın sadəcə Məsihin davamçıları olduqları üçün boğazlarının kəsilməsi barədə fikirləşdim. Onlardan ikisi türk idi və onları müasir türk kilsəsinin ilk şəhidləri adlandırırdılar. Digər məsihçi isə alman idi və o, türk xalqına xidmət etmək, Müjdənin nurunu çatdırmaq üçün Türkiyəyə köçmüşdü.

Onları öldürən adamlar özlərini Məsih barədə maraqlananlar kimi təqdim etmişdilər. Guya məsihçilərin imanı haqqında daha çox bilmək və bəlkə də Məsihin davamçıları olmaqda maraq göstərmişdilər. Onların bəziləri hətta kilsədə ibadətə gəlmişdilər. Qatillərin beşi də hadisə yerində həbs edildi. Onların ciblərində vətənlərini və öz İslam dinlərini müdafiə etdiklərinə dair kağız parçaları var idi.

Türkiyəyə səfərim tez bitdi. Orada bir dostumun dostu məni Malatyaya aparmışdı. Alman şəhid Tilmanın dul qalmış arvadı Suzanna Geske ilə görüşməyə hazırlaşırdım, amma ora çatanda gördüm ki, hansısa çətinliklər yaranıb və o mənimlə görüşə bilməyəcək.

Lakin buna baxmayaraq mən ona zəng etdim, sonra biz onun mənzilinə getdik və o bizi qarşıladı. Biz onun ərinin qətli barədə danışdıq. O, əri qətlə yetirilmiş digər dul qadınla (öldürülən üçüncü kişi nişanlı idi, lakin hələ evlənməmişdi) hadisədən cəmi bir neçə saat sonra Türkiyədə milli televiziyada ərinin qatillərini bağışladığını demişdi. Axı o bunu necə edə bilərdi? Mən ondan soruşdum: "Sizin bu adamları bağışlamağınız haqqında çox deyilib, hətta milli televiziyada da onları bağışlamısınız. Siz bunu necə bacardınız?"

Suzanna mənə dedi: "Hadisədən bir gün sonra Türkiyənin çox yerlərindən buraya adamlar gəlmişdi. Türk protestant məsihçiləri də burada idi. Dedilər ki, televiziya çəklişi üçün jurnalistlər gələcəklər. Məndən soruşdular: "Siz camaata nəsə demək istəyirsiniz?" Onda düşündüm: "Görəsən, mən nə deyim?"

"Deməli, bu, ertəsi gün, hadisədən iyirmi dörd saat sonra baş vermişdi?" — deyə mən soruşdum.

Suzanna dedi: "Hətta ondan da tez. Mənim ürəyimdə heç bir qəzəb yox idi".

Mən düşündüm: "Bu, normal deyil". Suzanna sözünə davam etdi: "Kiçik qızım qatillərin cinayətinə görə ağlayıb qışqırırdı, dərhal Almaniyaya qayıtmaq istədiyini və burada hər şeyin pis olduğunu deyirdi. O, türklərə qarşı çox qəzəbli idi. Mən isə heç bir qəzəb hiss etmirdim və bu mənim özüm üçün də maraqlı idi. Qəlbimdə o insanlara qarşı heç bir kin hissi yox idi. Sonra ağlıma belə bir fikir gəldi ki, onlar, həqiqətən, nə etdiklərini bilmirdilər, Müqəddəs Kitabda bu barədə bir ayə var. Mən öz-özümə düşündüm ki, onları bağışlaya bilərəm. Çünki Rəbb məni çox bağışlayıb, ona görə mən də onları bağışlamalıyam. Mənim onlara qarşı heç bir nifrət hissim yoxdur. Ola bilsin ki, nə vaxtsa qəm-qüssə keçirərkən qəlbimdə hirs baş qaldıracaq. Amma düşünürəm ki, hətta o vaxt mən ərimin qatillərini bağışlaya bilərəm, çünki onlar, həqiqətən, nə etdiklərini bilmirdilər. Əgər polisin və ətrafdakıların nə dediyini eşitsəniz, görərsiniz ki, həqiqətən, onlar nə etdiklərini bilməyiblər. İndi deyə bilərəm ki, mən onları bağışlayıram, çünki Rəbb məni bağışlayıb".

"Siz elə danışırsınız ki, sözün əsl mənasında bu sizin üçün bir şərəfdir" — mən dedim.

Suzanna əminliklə cavab verdi: "Bu, Rəbdən idi. Bunu siz öz gücünüzlə heç vaxt edə bilməzsiniz. Yalnız Rəbbin gücü ilə bağışlaya bilərsiniz".

## DÜŞÜNMƏK ÜÇÜN

*Siz bunu öz gücünüzlə edə bilməzsiniz.* Suzannanın hissi və reaksiyası, mənim müşahidəmə görə adi bir vəziyyət deyildi. Müsahibə aldığım, ciddi təqiblərə məruz qalmış məsihçilərin əksəriyyəti belə tez bağışlaya bilməmişdilər. Əksər hallarda bu proses çox vaxt tələb edir, çünki onlar qəlblərindəki qəzəbi və incikliyi Allaha verməyə, bağışlamağa çalışırlar. Beləliklə, Allaha yol verirlər ki, ürəklərindəki qəzəbi həmişəlik götürsün. Çox güman ki, bu kitabı oxuyanların çoxu həyatda hər hansı bir mənəvi travma yaşamış insanlardır. Kimsə sizə əzab verib, sizi təhqir edib və ya elə bir vəziyyətə gətirib ki, sizin bağışlamağa ehtiyacınız var.

Amma kimisə bağışlamaq çox çətindir! Sizə ağrı və zərər gətirən bir insanı hərəkətlərinə görə bağışlayıb onu azad etmək və "o nə etdiyini bilmir" (Luka 23:34) demək çox çətindir. Əslində, bu heç mümkün deyil. *Siz bunu öz gücünüzlə edə bilməzsiniz.* İstər bu, Suzanna kimi bir anda, istərsə də həftələr, aylar və ya illər ərzində baş vermiş olsun, bu işi görən yalnız Allahdır. Bizə bağışlamaq imkanı verən Onun lütfüdür.

Gündəliyinizdə həyatınızda Rəbbin iş görməsinə ehtiyacı olan sahələr barədə yazın. Bu ehtiyac nə vaxtdan mövcuddur?

## DUA

"Ya Rəbb İsa, günahlarımı bağışladığına görə Sənə şükürlər olsun. Sən çarmıxda ağrı və əzablara dözdün, günahımı öz üzərinə götürdün və bunun cəzasını çəkdin.

Rəbbim, Sən məni bağışladığın kimi, mən də indi məni incidən şəxsi ______________________ etdiyi hərəkətə ________________________ görə bağışlamağa qərar verirəm.

Ya Rəbb, mən o şəxsi bağışlamağa qərar verdim, amma Sənin köməyinə ehtiyacım var! Qəlbimdə hiss etdiyim qəzəbi, kini və incikliyi məndən götür. Sən Öz fövqəltəbii qüdrətinlə məni incidən insanı sevmək, mənə verdiyin şərtsiz bağışlanmağı ona göstərmək üçün mənə kömək et. İndi də, sabah da, ertəsi gün də, ondan sonrakı günlərdə də mənə kömək et ki, o keçmiş fikirlərim qayıtmasın. Sən məni səmimi qəlbdən və əbədi bağışladığın kimi qoy mən də bağışlaya bilim. Amin".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Deyəsən, hər dəfə xaricə səfərim əvvəlkindən daha çətin olur. Şarlotta güman edir ki, bu mənim səyahətlərdə çox vaxt keçirdiyimə görədir. Amma mən qətiyyən belə düşünmürəm. Əslində mən hər il həyatımın keçib getdiyini daha dərindən dərk edirəm. Səyahətlərdə olduğum üçün övladlarım Kameron və Kedrik ilə evdə daha az vaxt keçirirəm.

Səyahət etmək çətindir, çünki çox vaxt sadəcə oturmalı, düşünməli oluram və ailəm üçün darıxıram. Təyyarə enən kimi, mən evə gəlib çatan kimi və işə gedən kimi bu problem öz-özünə aradan qalxacaq, çünki diqqətimi başqa şeylər məşğul edəcək.




## 22-Cİ GÜN

# İKİQAT PAY – 2-Cİ HİSSƏ

"Öz müqəddəs məskənində olan Allah yetimlərin atası, dul qadınların müdafiəçisidir."

**MƏZMUR 68:5**

...................................................

### Malatya, Türkiyə, 2007

O gözəl, zərif və incə bir qadın kimi görünürdü.

O tamamilə qəm-qüssə içində idi.

Türkiyədə subay məsihçi olmaq çox çətindir. Yetmiş milyondan artıq əhalisi olan bir ölkədə kilsə çox kiçikdir və məsihçi olaraq əks cinsdən özünə ideal subay məsihçi tapmaq və ona aşiq olmaq şansı azdır. Buna İsaya iman edən yeni məsihçilərə qarşı açıq şəkildə düşmənçilik edən müsəlman qohumların təqiblərini də əlavə etsəniz onlar üçün nə qədər çətin olduğunu dərk edə bilərsiniz.

Lakin bu gənc qadın iman yolu ilə getdi və əsl sevgini tapdı. Onların evlənməyinə cəmi bir neçə ay qalmışdı.

Amma əlamətdar toy günü bu iki gəncə qismət olmadı, Uğur qətlə yetirildi. O, Türkiyənin Malatya şəhərində məsihçi nəşriyyat şirkətinin ofisində öldürülən üç kişidən biri idi. İndi mən Uğurun nişanlısı ilə masa arxasında qarşı-qarşıya oturmuşdum. Həmin gün günortadan sonra nişanlısının məzarını ziyarət etdim. Uğurun İslamı tərk etməsinə və vəhşicəsinə öldürülməsinə görə valideynləri hələ də çaşqın və qəzəbli idi. Mən onlarla da söhbət etdim.

Komandamızla birgə şam yeməyi zamanı o qadın duyğularını hələ də gizlədə bilmirdi. O bizə nişanlısı Uğur Yükselin telefonunda vaxtilə çəkilmiş videosunu göstərdi. O, stulda oturub məzəli hərəkətlər edirdi. Mən türkcə bilmirəm, amma videodan görünür ki, o xoşbəxt idi. Gənc qadın hələ də videoya baxarkən gülümsəyirdi. Onun gözləri sevgi ilə parlayırdı. Ağlamaqdan gözləri yaşlı idi.

Qadın qəmli şəkildə dedi: "Uğur çox mehriban insan idi". O, istiqanlı, yumoru sevən bir insan idi. Uğur Rəbbi sevirdi, ailəsi və dostları ondan üz döndərsə də o, İsadan dönmədi. Ömrünün sonuna kimi Rəbbə xidmət etmək istəyirdi və öz nişanlısından da bu xidmətə qoşulmasını təklif etmişdi.

Amma Uğuru öldürdülər. Polislər nəşriyyatın qapısından içəri girəndə Uğur hələ sağ idi. O, təcili yardım maşını ilə xəstəxanaya aparıldı. Amma onun ağır yaraları var idi və çox qan itirmişdi. Təəssüf ki, onun həyatını xilas etmək mümkün olmadı və Uğur Məsihlə birlikdə əbədi həyata qovuşdu. Lakin o, göz yaşları yanaqlarına süzülən sınıq qəlbli gənc nişanlısını qoyub getdi.

Daha sonra ev sahibim izah etdi ki, bu gənc qadın nişanlısının qətlindən sonra yeddi həftə ərzində çox əziyyət çəkirdi. Uğurun qətlindən əvvəl nişanlısının məsihçi olduğu məlum deyildi. Hətta qızın ailə üzvlərindən bəziləri bunu bilmirdi. İndi nəinki onun məsihçi olduğu aşkar oldu, həm də onun adı və ünvanı yerli qəzetlərdə dərc edildi və mediada yayıldı. Bu, onu İslama

qayıtmasına "təsir etmək" istəyənlərin və ya "kafir" nişanlısının öldürülməsinə sevinənlərin hədəfinə çevirdi.

Ancaq bu, Uğurun nişanlısının yeganə yükü deyildi. Türk mədəniyyətində mənə izah olundu ki, onun ürək ağrısını açıq şəkildə göstərməsi onun həyatına xələl gətirə bilər. Əgər o, nişanlısı ilə hələ evlənməyibsə, niyə bu qız onun üçün bu qədər ağlayıb nalə çəkməlidir?

Ona görə də Uğurun nişanlısı öz kədərini kiçik məsihçi cəmiyyətindən kənarda göstərməkdə diqqətli olmalı idi. O, ürək ağrılarını öz ailəsindən belə gizli saxlamalı idi.

Ürəyindəki kədər sağalmağa başlayanda, göz yaşları quruyanda onun başqa bir məsihçi oğlan tapmaq şansı varmı?

Qərb məsihçilərinin, eləcə də "Şəhidlərin səsi" təşkilatının işçilərinin kiməsə əziyyətlərində kömək etməsi təbii bir haldır. Mənim fikrimdə çətin vəziyyətdə olan bu gənc qadını necə "xilas etmək" üçün bir ideya yarandı. Bəlkə, o qızı daha çox məsihçilərin olduğu böyük bir şəhərə köçürək? Əgər o, amerikalı ilə ailə qurub Amerikaya, təhlükədən və onu təqib edənlərdən uzağa köçsə, necə olardı?

Ancaq o qız belə bir "xilas" yolu axtarmırdı və əslində nə mən, nə də həmkarlarım belə bir ideyanı həyata keçirə bilmərik. Ancaq biz onunla ünsiyyət yaradaraq onu dəstəkləyə bilərik. Onu nahara dəvət edib telefonunda Uğurun videolarına baxaraq birgə gülə bilərik. İslamı tərk edib İsanın "kafir" davamçısı olduğuna görə ölkəsində yaşadığı gündəlik çətinliklərdən danışarkən onu dinləyə bilərik. Bu qız tənha qaldığı zaman fikirlər ağlında dalğalar kimi tüğyan edəndə onun üçün dua edə bilərik.

On üç il əvvəl, Türkiyənin mərkəzində həmin axşam restorandan çıxandan sonra mən o gənc qadını bir daha görmədim. Onun sonradan evləndiyini eşitdim, amma bundan başqa bir şey bilmirəm. Ümid edirəm ki, o axşam gördüyüm gənc qadının ürək ağrısı ötən illər ərzində keçib gedib və böyük sevinclə əvəz olunub. Ümid edirəm ki, o, Allaha öz himayədarı kimi baxır

(Məzmur 68:5). O bilir ki, Rəbb onun qayğısına qalır və ehtiyaclarını təmin edir.

## DÜŞÜNMƏK ÜÇÜN

Biz kədər və əzab çəkən insanı "xilas etmək" istəyirik. Lakin "xilaskar" olmadığımızı qəbul etməli və əziyyət çəkən insanla ünsiyyət saxlayıb onu dəstəkləməliyik. Həyatınızda elə bir insan varmı ki, siz onu dinləmək, onunla birlikdə gülmək, ağlamaq və dua etmək əvəzinə onu "xilas etməyə" çalışırsınız? Yadda saxlayın ki, siz o insanı "xilas etmək" əvəzinə onunla ünsiyyət yaratmalısınız. Bu şəxs üçün etdiyiniz duanı burada qeyd edin və o insanı Rəbbə tapşırın. Bundan sonra həmin insanla ünsiyyət qurmağa çalışın.

## DUA

"Ya Rəbb, başqaları ilə münasibətlərimə Öz məhəbbətinin sakitləşdirici məlhəmini tök. Mənə hikmət ver ki, kimisə «xilas etmək» əvəzinə onunla nə vaxt ünsiyyət yaradacağımı bilim. Mənə başqalarını dinləməklə, onlarla birlikdə ağlayıb gülməklə onlara xidmət etməyi öyrət. Sənin himayənə, lütfünə və hikmətinə ehtiyacı olanlarla birlikdə dua etməklə onlara xidmət edim. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Nəhayət, biz nəşriyyatın yerləşdiyi ofisə yollandıq. Binanın qarşısında polis maşını dayanmışdı. Biz içəri girib ofisin qapısının şəklini və videosunu çəkmək istəyirdik, amma ofisin qapısı hələ də bağlı idi. Mən çox qəribə və son dərəcə ziddiyyətli emosiyalar yaşadım. Bir jurnalist kimi baş verən hadisəni sənədləşdirmək istəyirdim. Polis maşınının önündə dayanarkən qanımda adrenalin baş verən hadisəni yazmağa məni həvəsləndirirdi. Lakin eyni zamanda üç imanlı qardaşımı işgəncə ilə öldürən beş qatilin günahlarına görə tövbə etməsini və Məsihin ardınca getməsini düşünürdüm.

## 23-CÜ GÜN



# İKİQAT PAY – 3-CÜ HİSSƏ

"Çəkdiyiniz xəcalət yerinə ikiqat şərəf, rüsvayçılıq əvəzinə payınızı alıb sevinəcəksiniz. İndi isə torpağınızda ikiqat mülk alacaqsınız, sevinciniz əbədi olacaq."

**YEŞAYA 61:7**

..................................................

### İstanbul, Türkiyə, 2007

Malatya və mərkəzi Türkiyə səfərimdən sonra yenidən Türkiyəyə, ölkənin ən böyük şəhərinə uçdum. Məsihçi nəşriyyatında baş verən qətl hadisəsi nəticəsində ikinci dul qadın Semse Aydın İstanbul yaxınlığında qohumlarının evində yaşayırdı. Planıma görə hava limanında bir pastor dostum məni qarşılamalı idi və sonra gedib o dul qadından müsahibə almalı idim.

Dostum məni hava limanında qarşıladı və biz Semsedən müsahibə almaq üçün yola düşdük. Bir az sonra pastor dostumun telefonuna zəng gəldi. 20 saniyə sonra bildiyim beş türk sözündən anladım ki, görüşə bilməyəcəyik.

Pastor dostum ingilis dilini yaxşı bilmirdi, lakin onun telefon danışığından anladım ki, dul qadın yorğun olduğuna görə bizimlə görüşmək istəmir.

Ürəyim narahat olmağa başladı və xüdbin fikirlərlə düşündüm: "Mən bu dul qadınla görüşmək üçün on min kilometr məsafə qət edib gəlmişəm. Məgər o bizimlə görüşüb müsahibə verəndən sonra dincələ bilməzdi?"

Amma, düzünü desəm, mənim üçün belə düşünmək normal deyildi və mən tez bir zamanda minnətdarlıq etməyə başladım. Səfərimin bir hissəsi artıq uğurla keçmişdi. Mən dul qadın Suzannadan müsahibə götürmüşdüm. Uğurun nişanlısı və valideynləri ilə də tanış olmuşdum. "Şəhidlərin səsi" təşkilatının bülleteninin oxucuları, radio verilişlərimizi dinləyənlər üçün əla material əldə etmişdim. Bunları yada salaraq ruhlandım. Bu son müsahibə olmadan belə, mənim səfərim "Şəhidlərin səsi" təşkilatı baxımından uğurlu sayıla bilərdi.

Mən səssizcə dua etdim: "Təşəkkür edirəm, ya Rəbb. Mən görüşlərə görə Sənə minnətdaram. Bu gün Semseyə istirahət etməsi üçün xeyir-dua ver və ərini itirdiyinə görə ona təsəlli ver. Evə sağ-salamat qayıtmağım və bu heyrətamiz möminlərin hekayələrini yaxşı bölüşməyim üçün imkan yarat".

Cədvəlimdə bu görüş ləğv olunduğuna görə boşluq yarandı və pastor dostumla səhər yeməyi üçün yerli restorana getdik. Mənim türkcə, onunsa ingiliscə məhdud danışmasına baxmayaraq biz yaxşı söhbət edirdik. Birdən dostumun telefonuna zəng gəldi.

O türkcə nəsə danışırdı. Mənə baxdı və gülümsəyərək başını tərpətdi. Sonra o, telefonu söndürdü.

Zəng edən dul qadın idi. Dostum dedi: "Qadın müsahibə verməyə hazırdır, amma görüşün bir saatdan artıq olmasını istəmir".

Mən bəzən bir saatdan az müddətdə müsahibə götürmüşəm. "Halleluya — Rəbbə həmd olsun!" dedim. Bu söz türkcə də eynidir, çünki pastor dostum da təkrarən "Halleluya!" dedi.

Səhər yeməyini tez bitirib maşına mindik. Bir saat yarım sonra məni yoxlamaq (bunu sonra öyrəndim) və həmçinin tərcüməçim

kimi xidmət etmək üçün göndərilən bir amerikalı ilə tanış olduq. Bu sanki mənim üçün son imtahan idi. Tezliklə mən bir mənzildə Semse, iki uşağı və qohumu ilə görüşdüm. Onlar bu qohumunun evində qalırdılar. Semsenin ingilis dili məhdud idi, lakin onun qohumu səlis danışırdı.

"Bu qızım Esterdir" — deyə Semse məni balaca qızla tanış etdi. Əcnəbinin kim olduğunu bilməyən, ona etibar edəcəyinə əmin olmayan qız utancaq baxışlarla mənə baxdı. Sonra Semse oğlunu göstərərək dedi: "Bu isə Elişadır".

Bir neçə saniyə sanki nəfəsim kəsildi. Elişa! Malatyada Məsih uğrunda canlarını qurban verən üç insanın başına gələnləri ailəmlə süfrə arxasında düşünərkən biz məhz Kəlamdan Elişanın hekayəsini oxumuşduq. O axşamdan bəri dua edirdim ki, Elişanın müəllimi İlyasdan ikiqat artıq pay aldığı kimi, beş uşaq da şəhid atalarının ruhundan ikiqat güclü iman əldə etsinlər. İndi mən o uşaqlarla görüşürdüm və onlardan birinin adı Elişa idi!

Oradakılar birdən gözlərimdən yaş axdığını görəndə təəccübləndilər. Ona görə də mən onlara səbəbini izah etməli oldum. Düşünürəm ki, Allah bu hekayəni onlarla ünsiyyət yaratmaq üçün istifadə etdi, çünki söhbətimiz bir saatlıq deyil, səkkiz saat çəkdi. Semse başına gələnləri və ürəyində olanları bizə danışdı və hətta keçən yeddi həftə ərzində Allahın istifadə etdiyi Müqəddəs Yazılardan bəzi ayələri bölüşmək üçün öz Müqəddəs Kitabını da gətirdi. Bizim söhbətlərimizdə həm gülüş, həm də göz yaşları var idi. Biz birgə nahar etdik və onlarla dostluq ünsiyyətimiz yarandı. Çox keçmədi hiss etdim ki, bu zərər çəkmiş ailə sanki mənim ailəmdir.

Semse mənim üçün əri — Malatyadakı gənc kilsənin pastoru Necati haqqında danışdı. Həmin dəhşətli səhər Məsih barədə daha çox "öyrənmək" istəyən beş qatil üçün ofisin qapısını Necati açmışdı.

Necati Məsih uğrunda təkcə canını qurban verməmişdi. Əslində görüşdüyü qadın — Semse onu İsa ilə tanış etmişdi. Bundan xəbər tutan Necatinin müsəlman ailəsi oğullarına qarşı çıxmışdı. Hərbi xidməti zamanı əsgər və zabit yoldaşları ona məsihçiliyi tərk edib

öz keçmiş İslam dininə qayıtması üçün çox ciddi əziyyətlər vermişdilər. Lakin bütün çətinliklərə baxmayaraq Necatinin əzmini qıra bilməmişdilər. Hərbi xidmətdən qayıtdıqdan sonra o, məsihçi kitabları paylayarkən həbs olunmuşdu.

Necatini öldürməyi planlaşdıran qatillərindən bəziləri onun kilsəsini ziyarət etmişdi. Onlar guya Müjdəyə maraq göstərir, çoxlu suallar verir və şəxsi görüşlər təşkil etməyə çalışırdılar. Necati onların həqiqətən Məsih haqqında öyrənmək istədiklərini dəqiq bilmirdi və onlara tam etibar etmirdi. Lakin pastor Necati o səhər onlarla görüşmək, suallarını cavablandırmaq üçün ofisə getdi. O, qatillərə "Yol, Həqiqət və Həyat" olan Məsihi qəbul etməyi təklif etmək istəyirdi.

Həmin səhər Necati yorğun idi, çünki səfərdən təzəcə qayıtmışdı və arvadı Semse ondan soruşmuşdu: "Bəs niyə gedirsən? Niyə vaxtını boş yerə sərf edirsən?"

Əri belə cavab vermişdi: "Onların məqsədləri doğru olmasa belə, heç olmasa Müjdəni eşidəcəklər".

Onların məqsədi problem yaratmaq və ya kilsəni bağlamaq olsa belə, bu, Müjdə barədə danışmaq üçün bir fürsət idi. Necati İsa barədə danışmaq üçün hər fürsətdən istifadə etməyə hazır idi.

Ölümündən əvvəl Pasxa bayramında Necati Malatyadakı imanlılar tərəfindən təşkil olunmuş Pasxa hekayəsini əks etdirən tamaşada Məsihin rolunu oynamışdı. O, çarmıxa "mıxlanmış" və əsgərlər tərəfindən qaldırılmışdı. Amma o vaxt heç kim bilmirdi ki, Necati tezliklə Məsihi yenidən təmsil edəcək, bu dəfə öz qanını tökərək canını qurban verəcək.

Həmin mənzilin qonaq otağında oturduğumuz zaman Semse, həm də ərini əlindən alan beş kişini bağışlamaqdan danışdı. O, Suzannanın hekayəsini təkrarlayaraq dedi ki, ona bunu etməyə qüvvət verən Allahdır. Şübhəsiz ki, o bunu öz gücü ilə edə bilməzdi. Bağışlamaq qabiliyyəti onun İsaya olan dərin məhəbbətindən irəli gəlirdi. Semsenin avtobusda tanış olduğu müsəlman kişini Rəbb saleh bir ərə və uşaqlarının atasına çevirdi. Semse bildirdi ki, Məsih

üçün ölmək bir şərəfdir. Allahın seçdiyi və şəhidlik bəxş etdiyi bir insanın həyat yoldaşı olmaq böyük şərəfdir.

Mən otelə qayıtmaq üçün o mənzildən çıxanda ürəyim şükür hissi ilə doldu. Malatyadakı o dəhşətli hadisədən təsirlənən hər üç qadınla görüşüb müsahibə almağım üçün Allah mənə imkan yaratmışdı. Rəbb mənə onlarla birgə həm gülmək və həm də ağlamaq, Türkiyədə Məsihin bədəninin üzvləri ilə Onun əzablarında şərik olmaq şansı vermişdi (Filipililərə 3:10).

Mən də hiss edirdim ki, Allah məni şəxsən bu səfərə göndərmişdi. Başqa heç kəsi, hətta "Şəhidlərin səsi" təşkilatının nümayəndəsini yox, O məhz məni bura göndərmişdi. Axşam ailəmlə birgə masa arxasında oturub ağladığım gündən "Bu Elişadır" sözlərini eşitdiyim günədək bu səfərdə Allahın əlinin işini görürdüm. Səyahət edən mən idim, amma mənim marşrutum Rəbbin təyin etdiyi yolla getdi.

Maşını sürərkən pastor dostuma baxıb gülümsədim və o gün öyrəndiyim türkcə bu sözü təkrarladım: "Halleluya!"

Dostum da mənə baxaraq cavab verdi: "Halleluya! Halleluya!"

Ürəyim sevinclə dolu idi və mən evə qayıtmağa hazır idim. Təyyarəyə minməzdən əvvəl mənim üçün Türkiyədə Allaha xidmət etmək imkanı yaranmışdı.

## DÜŞÜNMƏK ÜÇÜN

Həyatınızda elə bir sahə (və ya bir insan) varmı ki, Allah ona diqqət yetirməyinizi istəyir, siz isə onu "vaxt itkisi" hesab edirsiniz? Bəlkə bu adam Məsihin məhəbbəti üçün ürəyini bağlayan iş yoldaşınızdır? Bəlkə də çox sadə görünən bu xidmətin sizin üçün bir əhəmiyyəti yoxdur? Əvvəllər iyirmi beş dəfə İsa barədə danışdığınız insana, düşünürsünüz ki, iyirmi altıncı dəfə danışmaq sadəcə vaxt itkisidir? Necati Aydın üçün kiminsə Müjdəni eşitmək imkanı vardısa, o, "vaxtını itirməyə" hazır idi. O, kilsəsinə İsanı "axta-

ranlar" kimi gələn gənclərin səmimi olmadıqlarından şübhələnirdi. Bununla belə, Necati onlarla görüşməyə getdi, çünki fikirləşirdi ki, onlar sadəcə problem yaratsalar belə, yenə də Müjdəni eşidəcəklər və kiməsə İsa barədə danışmaq vaxt itkisi deyil.

Gündəliyinizdə "vaxtınızı boş yerə" sərf etdiyiniz insanların adlarını yazın. Bu gündən etibarən hər dəfə o insanları düşünəndə və ya onlarla ünsiyyət quranda Necati Aydının sadiq olmasını xatırlayıb səbirli olun!

## DUA

"Ey Ata Allah, qoy yaddan çıxarmayım ki, həyatda bütün günlərim Sənin əlindədir. Sən qarşımda yol açırsan. Qoy mənə verdiyin tapşırıqlarına və ya yoluma çıxardığın insanlara vaxt sərf etməyi vaxt itkisi hesab etməyim. Qoy buna mən həmişə Səni təmsil etmək fürsəti və hətta maraqsız görünən insana belə, Sənin məhəbbətin və Oğlunun qurbanı barədə danışmaq imkanı kimi baxım."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Semse mənə dedi ki, 2000-ci ildə o dörd aylıq hamilə olduğu vaxt əri Necatini həbs etmişdilər və onu bir ay həbsdə saxlamışdılar. Necati həbsdən çıxandan sonra Semse ilə bir yerdə oturub, həqiqətən də, Rəbbə tam xidmət etməyin və Türkiyədə müjdəçiliyin riskləri barədə danışmışdılar. Semse qeyd etdi ki, onlar

söhbət etdilər ki, adi işdə işləyib kilsəyə getsinlər və beləcə, adi məsihçi kimi həyatlarını yaşasınlar. Yəqin ki, belə yaşamaqla həbs olunmaq riskindən qaça biləcəklərini düşünürdülər.

Həmin axşam onlar birlikdə qərara gəldilər ki, tam Məsihə tabe olacaqlar və risklərə baxmayaraq Rəbbin tapşırdığı hər işi görəcəklər.

O gündən etibarən onlar özlərini tamamilə Rəbbin xidmətinə həsr etdilər.

## TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

"Şəhidlərin səsi" təşkilatı müjdəçiliyə məhdudiyyətlər olan ölkələrdə Rəbbin Xoş Xəbərini bölüşənlər haqqında hekayələr dərc edir. Mən tez-tez bu cəsur kişi və qadınlar üçün fərqli adlar istifadə edirəm. Onlar təhlükəli yerlərdə Müjdəni yayırlar və risklərdən xəbərdardırlar, amma Allahın çağırışına cavab verməyə davam edirlər. Onların əksəriyyəti üçün imanlarına və məsihçi fəaliyyətlərinə görə təqib olunmaq və cəzalanmaq təhlükəsi var.

**BU GÜN DUA EDİN.** Bu gün dünyada müjdəçiliyə məhdudiyyətlər olan ölkələrdə Rəbb üçün çalışan məsihçilərə görə dua edin. Allahdan xahiş edin ki, onları və ailələrini qorusun. Dua edin ki, xidmətlə bağlı qərar qəbul etmək və məsihçi fəaliyyətlərinə görə arzuolunmaz vəziyyətin yaranmaması üçün Rəbb onlara hikmət versin. Dua edin ki, Allah onlara Müjdəni bölüşmək üçün cəsarət versin və çəkdikləri zəhmət bol bəhrə yetirsin.





## 24-CÜ GÜN

# İKİQAT PAY – 4-CÜ HİSSƏ

"Mən əkdim, Apollo suladı, amma Allah böyütdü. Buna görə də mühüm olan əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır. Əkənlə sulayanın isə dəyəri eynidir. Hər biri öz zəhmətinə görə mükafat alacaq."

**1 KORİNFLİLƏRƏ 3:6-8**

.........................................

*İstanbul, Türkiyə, 2007*

Mən günümün çox hissəsini Semse və onun ailəsi ilə keçirdim və bu görüş mənə çox təsir etdi. Bu səfərimdə Allahın lütfünə görə heyrətləndim. Türkiyəyə etdiyim bu səfər zamanı Rəbb mənə dul qadınlarla, Uğurun nişanlısı və valideynləri ilə görüşmək imkanı verdi. Mən üç şəhiddən ikisinin məzarını ziyarət edim, imanlılarla bir yerdə nahar edib dostlaşdım və bu müqəddəslərlə birgə gülüb ağladım.

Evə qayıtmağıma bir gün qalmışdı. Mən füsünkar binaların, Göy Məscidin və Ayasofyanın yerləşdiyi dünyanın sevimli şəhər-

lərindən birində idim. Fikirləşirdim ki, günün qalan hissəsini bir turist kimi rahat keçirəcəyəm və sonra evə qayıtmağa hazırlaşacağam. Amma Türkiyəni tərk etməzdən əvvəl Allah mənə başqa bir xeyir-dua da verdi.

O vaxtlar İstanbulda yaşayan dostlarım var idi və onlara elektron məktub göndərmişdim ki, onların gözəl şəhərini ziyarət edəcəyimi bilsinlər. Onların evində ABŞ-dan olan bir qrup tələbə müsəlman ölkələrində Müjdəni bölüşmək təcrübəsi əldə etmək üçün qonaq qalırdılar.

Mənim günorta və axşam onlara qoşulmaq imkanım oldu. Bir amerikalı kimi xarici ölkədə digər amerikalılarla rastlaşmaq həmişə xoşdur. Bizi eyni dil və milliyyət birləşdirirdi və biz birgə ünsiyyətdən, dadlı türk yeməklərindən zövq aldıq!

Günün sonunda məndən xahiş etdilər ki, bir neçə dəqiqəlik səfərim, burada gördüyüm işlərim və xüsusilə də, Malatyalı dul qadınlarla görüşüm barədə paylaşım. Mən video kameramın kiçik ekranını açdım və tələbələrə Suzannanın ərinin itkisi, buna necə dözə biləcəyi və yalnız Məsihin gücü ilə ərinin qatillərini necə bağışlaması haqqında çəkdiyim bəzi kadrları göstərdim.

Türkiyədəki bacılarımın çəkdiyi əziyyətlərə görə ürəyim həm heyranlıqla, həm də kədərlə dolu idi. Mənim orada olmağıma, onlarla görüşüb hekayələrini eşitməyimə görə qəlbim Rəbbə minnətdarlıqla dolu idi. Ürəyim o qədər sevinclə dolu idi ki, hətta gözümdən yaş axmağa başladı. Bəzən məndə belə hallar olur. Uğurun sınıq qəlbli nişanlısı barədə danışanda ürəyim kədərlə doldu.

İlk dəfə tanış olduğum və sonralar heç vaxt görmədiyim amerikalı tələbələr mənə qarşı çox lütfkar idilər. O gənclər məndən Məsih uğrunda ölən üç insanın hekayəsini eşidəndə çox təsirləndilər.

İnanıram ki, mənim çağırışlarımdan biri də odur ki, Məsihin "dünyanın hər tərəfinə gedin" (Mark 16:15) çağırışı təkcə İsanın Öz şagirdlərinə deyil, həm də Məsihin xidmətə çağırdığı bütün

məsihçilərə də adi olduğunu deyib izah etməkdir. Rəbb həmişə davamçılarını Onun adı eşidilməyən yerlərə getməyə çağırır. Mənim üçün ən böyük xeyir-dua budur ki, hazırladığım işlərdən — kitabdan, radio verlişindən, "Şəhidlərin səsi" təşkilatının bülleten məqaləsindən Allah istifadə edərək kimisə Öz xidmətinə çağırdığını başa salmışdı.

Həmin gecə tələbələri tərk edib, on dəqiqəlik məsafədə öz otelimə qayıdanda hiss etdim ki, onlarla vaxt keçirməyim bu səfərdə Allahın hazırladığı xeyir-dualardan biri idi. Çünki mən bu tələbələrin qəlbində Rəbbə xidmət etmək həvəsi yaradaraq müjdəçilik toxumu səpdim və belə bir fürsəti heç vaxt əldən vermək istəmirəm!

O toxumlardan hansının bəhrə gətirəcəyini bilmirəm. Mən o tələbələrin heç birini daha görməmişəm və nə etdiklərini, harada olduqlarını da bilmirəm. Mənə onların həyatlarına təsir etmək, qəlblərinə Rəbbə xidmət etmək toxumu əkmək imkanı verildi və mən bu fürsətdən yararlanmaq üçün Allahın köməyi ilə əlimdən gələni etdim.

Ertəsi gün səhər mən təyyarədə evə qayıdırdım və hələ də daxilən sevinirdim ki, Tanrı məni Türkiyəyə bu möminlərlə görüşmək və onların hekayələrini dinləmək üçün gətirmişdi. Səfərdən sonrakı günlərdə Suzanna, Semse və Türkiyədə tanış olduğum başqaları haqqında daha çox paylaşmaq imkanım olacaqdı. Mən böyük sevinclə onların imanı haqqında radio müsahibələrində bölüşəcəkdim. "Şəhidlərin səsi" təşkilatının büllüteni üçün onlar barədə məqalə yazmağı səbirsizliklə gözləyirdim. Daha sonra mən radio verlişi üçün Semsedən müsahibə götürəcəkdim və o öz sözləri ilə hekayəsini bölüşəcəkdi.

## DÜŞÜNMƏK ÜÇÜN

Allah bizi harasa məqsədsiz göndərmir və bizə səbəbsiz təcrübə vermir. Bu səbəblər təkcə imanda addımlamağımız və ya xasiy-

yətimizin formalaşması ilə bağlı deyil. Çox vaxt bunun səbəbi öz təcrübəmizi başqaları ilə bölüşməyimizdir. Allah hər birimizə ətrafımızdakı insanların həyatına iman toxumları əkmək üçün təcrübələr verir. Rəbb çox vaxt bizə toxum verməklə kifayətlənməyəcək. O, hazırlanmış torpağa iman toxumlarını səpməyimiz üçün yolumuza konkret insanları gətirəcək.

Biz heç də həmişə hansı nəticə əldə edəcəyimizi bilmirik. Biz o toxumun suvarılmasında iştirak etməyə bilərik. Məhsul yetişəndə biz onu görməyə bilərik və ya toxumun bar verməsi barədə eşitməyə bilərik. Bizim əsas işimiz Allahın bizə verdiyi toxumları əkməkdi.

*Mən əkdim, Apollo suladı, amma Allah artırdı.*

Gündəliyinizdə Allahın sizin həyatınızda Onun lütfünü başqaları ilə bölüşmək üçün istifadə etdiyi bir hadisə haqqında yazın. Bu həftə o hadisə barədə kiminləsə bölüşə bilərsinizmi?

## DUA

"Ey göylərdə olan Ata, həyat təcrübələrimin ətrafımdakı insanların qəlbinə səpilən iman toxumlarının necə təsir etdiyini görməkdə mənə kömək et. Qoy Sənin mənə verdiyin hər fürsətdən istifadə edərək iman toxumu əkə bilim. Əkdiyim toxumlar əbədi, ruhani bəhrələr versin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Düşünürəm ki, görüşdüyüm həmin tələbələrin həyatında təqib olunan məsihçilərə xidmət etmək toxumlarını sulamaq bir fürsət idi. İndi biz Allahın hansı bəhrələr verdiyini gözləyəcəyik.

Mənə elə gəlir ki, çağırışımın bir hissəsi də odur ki, insanları Rəbbə xidmət etmək üçün ruhlandırım. Elə buna görə də yaranan hər fürsətdən istifadə etməyə çalışacağam.

25-Cİ GÜN



# İKİQAT PAY – 5-Cİ HİSSƏ

"Axırı əvvəldən, baş verməmiş hadisələri əzəldən bildirən, «niyyətim baş tutacaq, istədiyim hər şeyi edəcəyəm» deyən Mənəm."
**YEŞAYA 46:10**

........................................................

*Kolorado, Milad günü, 2017*

Biz çox vaxt Allahın əlinin işini, Onun qüdrətli planlarının yerinə yetməsini neçə illər keçdikdən sonra yalnız geriyə baxanda aydın görürük.

Milad bayramı idi. Məsihin doğum gününü ailəmiz və dostlarımızla qeyd etmək üçün həyat yoldaşım Şarlottanın valideynlərinin evinə toplandıq. Böyük Milad süfrəsinin qarşı tərəfində Semse Aydın övladları Ester və Elişa ilə oturmuşdu. Bu, on il əvvəl görüşdüyüm həmin ailə idi. İlk dəfə onlarla görüşdüyüm vaxt onların itkisi və kədəri təzə idi.

2007-ci ildə Malatyada baş verən qətl hadisəsindən bir neçə həftə sonra Türkiyədən evə qayıdanda mən aydın hiss etdim ki,

Allah şəxsən məni "Şəhidlərin səsi" təşkilatının elçisi kimi seçib. Rəbb məni şəhid olmuş üç məsihçinin dul arvadları və nişanlısı ilə görüşmək, onların hekayələrini eşitmək və sonra bu hekayələri Amerika kilsələrinə danışmaq üçün Türkiyəyə göndərib.

İndi Milad bayramında şam süfrəsi ətrafında əyləşərək, Tanrının məni bu səfərə göndərməsinin səbəbini aydın şəkildə görürəm. Allah zamanı qabaqcadan görə bilir. Rəbb on il bundan əvvəl baş verənləri bu gün kimi aydın görür.

Türkiyədə üç imanlı qardaşımın ölümündən sonrakı illərdə iki dul qadından uzaqda olsam da onlarla ünsiyyət saxlamışdım. Hər dəfə Türkiyədə olarkən, bu qadınları tanıyanlarla söhbət edib onların halını, harada olduqlarını, həyatları barədə soruşardım. Mən öyrəndim ki, Necati öldürüləndən çox keçməmiş qohumları onun uşaqlarına himayədarlıq etmək istəyiblər. Onları "kafir" atalarından fərqli olaraq yaxşı müsəlman kimi böyütmək arzusunda idilər.

Türkiyə məhkəməsində müsəlman hakimin kədərli baba və nənənin tərəfinə keçməsi heç də təəccüblü deyildi və Semse bir yaxşı ana kimi, övladlarının ondan ayrılmasına dözə bilməzdi. Buna görə də, ölkədən qaçdı və nəticədə ABŞ-a köçdü. Semse övladları ilə birgə geniş, yeni vətəndə — Kolorado ştatının Denver şəhərində məskunlaşdı.

Həyat yoldaşım Kolorado Sprinqsdə böyüyüb başa çatıb və onun valideynləri hələ də orada yaşayırlar. Beləliklə, mən arvadımla bir yay məzuniyyətimizdə Koloradoda olacaqdıq, biz orada Semseni nahara dəvət etdik, o da razılaşdı.

Denverdə planlaşdırdığımız başqa işlərimiz də var idi. Yadımda deyil, biz ya təbiət və elm muzeyinə, ya da "Denver Bronkos" təlim düşərgəsinə getməyi planlaşdırırdıq. Biz Semse, Ester və Elişanı nahara dəvət etmişdik. Bu, yəqin ki, 2011-ci il idi. Şarlottanın valideynləri indiyə qədər tanış olduğum ən səxavətli və saleh insanlar idi. Denverə gəldiyimiz səfərdə onlar bizi müşayiət edib bizimlə birgə nahar etdilər.

Semse bizimlə "Denni" adlı restoranda görüşmək istədi. Daha sonra bizə dedi ki, həmin yer onların qaldıqları mənzilə çox yaxındır və evə piyada gedə bilərlər. O, böyük şəhərdə avtomobil sürməkdə özünü rahat hiss etmirdi. Biz birlikdə nahar etdik. Uşaqlar çox danışmadılar, onlar bu amerikalıların kim olduqlarını və ya nə üçün birgə nahar etmək istədiklərini bilmirdi. Semse mənim Türkiyədə onları ziyarət etdiyim görüşü xatırladı. O vaxt Necatinin ölümündən sonrakı həftələrdə onlara çox baş çəkən olmuşdu.

Naharın sonunda Şarlottanın valideynləri Semseyə dedilər: "Biz Kolorado Sprinqsdə yolun aşağısında yaşayırıq. Hər hansı bir köməyə ehtiyacınız olsa, bizə zəng edin". Onlar telefon nömrələrini və elektron məktub üçün ünvanlarını bölüşdülər. Semseni yenidən gördüyüm üçün sevindim. Mən ümid edirdim ki, bizim görüşümüz onu ruhlandırdı. O gün mən düşünmürdüm ki, bizim görüşümüz həyat yoldaşımın valideynləri və Semse ilə ünsiyyət yaradacaq.

Növbəti dəfə Şarlottanın valideynləri Denverdə olanda Semseyə zəng etdilər. Yenə də onu nahara dəvət etdilər və sonra başqa bir dəfə də nahar üçün görüşdülər. Bir dəfə Semsenin maşınına təmir lazım idi və qayınatamın təmir edə bilməyəcəyi maşın yoxdur, baxmayaraq ki, o bunu inkar edir. Növbəti aylar, illərdə onlar yenidən nahar üçün görüşdülər, söhbət etdilər, dəfələrlə görüşüb birgə gülüb birgə ağladılar. Nəhayət, Semse mənim qayınatam və qayınanama yaxın yerə köçmək istədi. İndi onlar bir-birilərinə daha yaxın yaşayırlar.

Həmin gün Denverdəki "Denni" restoranında bir dostluq yarandı və bu günə qədər bu dostluq davam edir. Övladlarımın baba-nənəsi Necatinin uşaqları üçün də baba və nənə oldular.

Beləliklə, Milad bayramında masa ətrafında toplaşıb nahar etdiyimiz vaxt mən sakitcə oturub Türkiyədə on il əvvəl Semse ilə görüşdüyüm günü düşündüm. İlk dəfə o demişdi ki, çox yorğundur və görüşmək üçün yaxşı gün deyil. Lakin sonra o bizə demişdi ki, gəlib görüşə bilərsiniz, amma bir saatdan artıq olmasın. İndi

burada, on ildən sonra biz Türkiyədən uzaqda ailələrimizlə birgə Milad bayramında nahar edirik.

Mənim dəqiq yadımda deyil, o gün qayınatam yemək üçün, yoxsa başqa bir şey üçün Elişadan dua etməsini xahiş etdi. İndi o böyüyüb, səsi yetkinləşib və atasının cavanlığına bənzəyir. Elişa dua etməyə başladı və aydın idi ki, bu gənc Kimə dua etdiyini yaxşı bilirdi. Bu gəncin üzərində Allahın Ruhu var. O, İsanı çox sevən atasının irsini irəli aparan bir şəxsdir və atası kimi Rəbbin uğrunda canını verməyə hazırdır.

Elişa dua edərkən düşünürdüm ki, çox illər əvvəl etdiyim dualar qəbul olundumu? Görəsən, atası Məsih uğrunda şəhid olan bu gənc Elişa, həqiqətən, atasının imanından ikiqat artıq pay aldımı?

## DÜŞÜNMƏK ÜÇÜN

Öz həyatınıza və iman yolunuza nəzər salıb geriyə baxanda Allahın aydın şəkildə işlədiyi sahələri görürsünüzmü? Həyatınızda elə şey varmı ki, siz bir vaxtlar şikayətlənirdiniz və nə olacağını görmürdünüz, lakin indi bilirsiniz ki, o, Rəbbin işi barədə qabaqcadan xəbər verirdi? Yadınıza düşürmü ki, bir vaxtlar etdiyiniz dualara indi Allah cavab verdiyinə görə bəhrələrini yığırsınız? Bu gün Allahdan dualarınıza aldığınız cavabları yazmağa vaxt ayırın, Rəbbin əlinin işinə görə Ona şükür edin. Onun sizin üçün təyin etdiyi yolda aldığınız xeyir-duaları qeyd edin.

Bugünkü vəziyyətinizlə bağlı Allahın planları gördüyünüz və ya bildiyinizdən daha böyük ola bilər. Siz bu barədə vaxt ayırıb düşünün. Onun planını aydın görmək üçün illər keçsə də, Onun əlinin işini qəbul etmək üçün qərar verin. Bu vəziyyətlərlə bağlı hisslərinizi, hətta kədərinizi də qeyd edin. Gələcəkdə geriyə baxanda siz Allahın necə fəaliyyət göstərdiyini görə biləcəksiniz.

## DUA

"Ey göylərdə olan Atamız, Sənə şükürlər olsun ki, Sən sonu əvvəldən görürsən və həyatımda Öz iradəni yerinə yetirirsən. Mən Sənə uyğun şəkildə yaşamaq üçün öz iradəmi və həyatımı Sənə təqdim edirəm. Qoy Sənin hal-hazırda mənim vasitəmlə etdiyin və gələcəkdə edəcəyin işləri görüm və sevinim."

## *Sizin gündəliyiniz üçün*

## *Dinləmək*

Siz www.VOMRadio.net/Semse saytında Semse Aydınla müsahibəni dinləyə bilərsiniz.

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"İlk məsihçilərin reallığa baxışının mərkəzində Öz düşmənləri üçün ölən, onların bağışlanması üçün dua edən bir İnsan dayanır. Belə düşünmək onlardan fərqli olanlarla köklü şəkildə fərqli davranmağa səbəb ola bilər. Bu o deməkdir ki, onlar öz rəqiblərini zorakılığa və zülmə məruz qoymayacaqlar".

**Ţimoti Keller**[1]

"Bundan əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm. Onun uğrunda var-yoxumu atıb tullantı sayıram ki, Məsihi qazanıb Onda hesab olunum. Belə ki, Qanunla gələn öz salehliyimə deyil, Məsihə imandan yaranan, imanla Allahdan gələn salehliyə malik olum. Belə ki Məsihi və Onun dirilmə qüdrətini, əzablarına şərikliyi də dərk edim və Onun ölümündə Ona bənzəyim ki, nə olursa-olsun, ölülər arasından dirilməyə nail olum."

**Filipililərə 3:8-11**

1 Excerpt(s) from THE REASON FOR GOD: BELIEF IN AN AGE OF SKEP[1]TICISM by Timothy Keller, copyright © 2008 by Timothy Keller. Used by permission of Dutton, an imprint of Penguin Publishing Group, a division of Penguin Random House LLC. All rights reserved.



## 26-CI GÜN



# “ƏGƏR BÜTÜN DÜNYA İNANSAYDI...”

“Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. Allah dünyanı mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi. Ona iman edən mühakimə olunmur, iman etməyənsə artıq mühakimə olunub, çünki Allahın vahid Oğlunun adına iman etməyib.”

**YƏHYA 3:16-18**

.................................................

### Şimal-Qərbi Çin, 2003-cü il

Qışın oğlan çağı idi. Mən oteldə qızınmaq üçün əlavə paltarla yatırdım. Çöldə qar yağırdı.

Biz Çinin uzaq qərb kənarına yaxın bir yerdə, həm də döyüşün ortasında idik. Kommunist partiyasının rəhbərliyi altında olduğu kimi, Çində döyüş fiziki ərazi üçün deyil, psixoloji ərazi uğrunda gedirdi. Çin hökuməti öz xalqını nəzarətdə saxlamaq, insanların da özlərini partiyaya və dövlətə həsr etməsini istəyirdi.

Çinin bu hissəsində yaşayanlar ənənəvi olaraq müsəlmandır. Onların ilk dili partiyanın danışdığı mandarin dili deyil, türk dilinə yaxın olan uyğur dilidir. Əraziyə nəzarəti təmin etməkdən ötrü Çin hökuməti uyğurların mədəniyyətinə təsir etmək üçün minlərlə etnik çinliləri buraya yerləşdirmişdi.

Çin hökuməti uyğurları özlərinə düşmən hesab edirdi. Lakin uyğur məsihçi olmaq ondan da betər idi.

Gündüz vaxtı biz özümüzü turist kimi aparırdıq, küçələrdə gəzir, bazarlarda alış-veriş edir və hər yerdə şəkil çəkdirirdik. Yalnız hava qaralandan sonra bu şəhərdə məsihçilərlə görüşə bilirdik. Amma biz onların yanına gedə bilməzdik, çünki bu başqalarının diqqətini cəlb edə bilərdi. Ona görə də onlar bizim yanımıza gəlirdilər.

Adı şərti olaraq Əli olan bir tələbə, uyğur xalqı ilə Han çinliləri arasındakı gərginlik haqqında düşünməyə başladı. O öz xalqına Çin xalqının və hökumətinin ağır zülmündən qaçmaq üçün kömək etməyi düşündü. Şübhəsiz ki, onun ağlına gələn ilk fikir bu idi: İslamda bunun üçün çıxış yolu var.

Bu böyük suallar üzərində düşünərkən Əli bir məsihçi kişi ilə qarşılaşdı. O bizə, xüsusilə, məsihçiləri sevmədiyini söylədi. Lakin bu adamın danışdıqları Əlinin xoşuna gəlirdi. O, məsihçilik barədə öyrənməyə başladı və düşünürdü ki, bəlkə bu, xalqına sülh gətirə bilər.

Əli bizə dedi: "Mən İslamda çox pis şeyləri aşkar etdim. Bir çox fikirləri qəbul edə bilmədim. İslamda ədalət yoxdur. Beləliklə, mən Müqəddəs Kitabı oxumağa başladım".

Əlinin atası yerli məscidin rəhbəri idi. Qardaşı Əfqanıstanda Taliban dövründə İslamı öyrənmək üçün oraya getmişdi. Bu ailə üzvlərindən birinin məsihçiliyə maraq göstərməsini ailə asanlıqla qəbul etmədi. Əlinin İncil oxuduğunu biləndə kitabı yandırdılar.

Ona dedilər: "Bu kitabı bir daha oxuma. Orada yazılanlar hamısı səhvdir. Hamısı dəyişdirilib".

Növbəti gün həftəlik dua günü idi. Əlinin ailəsi məscidə getməyə hazırlaşarkən onlarla getməyəcəyini bildirdi. Həmin andan ailəsi ona qarşı çıxdı. Tezliklə ailəsi onu evdən qovdu.

Atası ona dedi: “Mən artıq sənin atan deyiləm və sən bir daha bu evə qayıtma”.

Amma ailə təkcə Əlini evsiz qoymaqla kifayətlənmədi. Atası oğlunun məktəbinə getdi və yüksək səslə işçilərin şagirdlərə nəzarət etmədiklərindən şikayətləndi, çünki onlar öz işlərini yaxşı görsəydilər, oğlu məsihçi olmazdı.

Həbs olunmaqdan qorxan Əli məktəbi yarımçıq qoyub o ərazidən uzaqlaşdı. O, qohumlarının yaşadığı bir yerə köçdü, lakin Əlinin atası qohumlarına oğlunun artıq müsəlman olmadığını söylədi. Qohumları onu evlərinə qəbul etmədilər. Keçmiş dostlar da onu xoş qarşılamadılar və ona kömək etməkdən imtina etdilər.

Küçələrdə yatan Əli tezliklə xəstələndi və xəstəxanaya düşdü. Çində adətən xəstəyə yeməyi onun ailə üzvləri gətirirlər, lakin Əlinin ailəsi onu tərk etmişdi. Xəstəxanada olarkən Allah Əlinin qayğısına qaldı. Bir tibb bacısı onun üçün yemək gətirirdi. Əli bizə dedi ki, tibb bacısı ona yemək gətirməsəydi, yəqin ki, acından öləcəkdi.

Mən Əlinin hekayəsini eşidəndə onun gənc ikən imanına dəyən zərbələri təsəvvür etdim. Bununla belə, o, hər bir hücuma tab gətirdi. O, imanda geri çəkilməkdən imtina etdi. Əli İsadan dönmədi və həyatındakı çətinliklərdə Allah onu dəstəklədi.

Əlinin xəstəxanada qalması üçün ödəniş vaxtı çatanda Allah bu məbləği ödədi. İndi məktəbdən qovulan və evi olmayan Əlinin işə ehtiyacı var idi. Məktəbi bitirməmiş, həm də məsihçi olan bir gənci kim işə götürəcəkdi? Möcüzəli şəkildə Əliyə iş təklif olundu. Hər addımda Əli Allahın əlinin onu qoruduğunu və təmin etdiyini görürdü.

Gənc Əli tələbə ikən öz uyğur xalqına nəyin sülh gətirə biləcəyini düşünürdü. İndi o, hər gün Sülh Şahzadəsi ilə gəzirdi və öz xalqına İsa barədə bölüşmək arzusunda idi.

Qarşılaşdığım təqib olunan məsihçilərə tez-tez verdiyim suallardan biri budur: "Müqəddəs Kitabdan sizin sevimli ayəniz hansıdır?"

Əlinin ayəsi, yəqin ki, hər bir məsihçinin əzbərdən bildiyi Yəhya 3:16-cı ayədir.

Əli belə dedi: "Allah deyir ki, O bütün insanları sevir və mən bu ayəni sevirəm, çünki mən də xalqımı sevirəm. Əgər bütün dünya Məsihə inansaydı, onda hər yerdə sülh olardı".

## DÜŞÜNMƏK ÜÇÜN

İsa bizi xəbərdar etdi ki, Onun həqiqəti ailələri parçalayacaq və hətta öz ailə üzvlərimiz belə bizə düşmən olacaq:

> "Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. «İnsanın düşməni öz ev əhli olacaq». Atasını ya anasını Məndən artıq sevən kəs Mənə layiq deyil. Oğlunu ya qızını Məndən artıq sevən də Mənə layiq deyil. Çarmıxını götürüb ardımca gəlməyən kəs də Mənə layiq deyil" (Matta 10:35-38).

Bəlkə Kəlamın bu hissəsində İsanın sözlərinin həqiqətini heç vaxt yaşamamısınız. Ola bilsin ki, ailənizin üzvləri iman yolunuzda sizi ruhlandırıb və hətta bu gün də sizi daha çox Məsihə bənzəməyə çağırıblar. Əgər bu sizə aid deyilsə, bu gün Rəbbin xeyir-duasına görə Ona təşəkkür duası yazmağa vaxt ayırın. Əli kimi Məsihə tabe olanlar üçün dua etməyi unutmayın.

Əgər siz ailə ilə İsa arasında seçim etmək məcburiyyətində qalmısınızsa, bilin ki, tək deyilsiniz və unudulmamısınız. İsa Əliyə eləcə də, Müjdənin yayılması qadağan edilmiş ölkələrdə yaşayan və bu seçimi edən bir çox bacı-qardaşlara qayğı göstərdiyi kimi sizə də qayğı göstərmək istəyir.

## DUA

"İsa, Səni hər şeydən, hətta öz ailəmdən də üstün tutmaqda mənə kömək et."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Mənim üçün maraqlı olan o idi ki, Çində nə soyuq, nə də qar alış-verişi ləngitmirdi. Mağazalar, hətta küçə piştaxtaları da ərzaqla dolu idi! Görünür, yerli əhali şaxtaya və qara öyrəşib.

Bütün Çin eyni vaxt qurşağında yerləşir. Beləliklə, burada qərbdə günəş demək olar ki, səhər saat 9-a qədər çıxmır.
Bu, mənə qəribə görünürdü. Amma əminəm ki, Çin kommunist partiyasının nöqteyi-nəzərindən bu, bir milyarddan çox əhalini öz nəzarətində saxlamasını, idarə olunmasını və onlara hökmranlıq etməsini xeyli asanlaşdırır.





## 27-Cİ GÜN

# DƏFN MƏRASİMİNDƏ VƏZ

"Lakin Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun."

**1 PETER 3:15**

.....................................................

*Mərkəzi Asiya, 2002*

Mən ilk dəfə idi ki, bir adamın işgəncəsini xatırlayaraq ağladığını görürdüm. Pastor Rəhimovun gözləri yaşla doldu və yanaqlarından aşağı süzüldü. İsti yay günü idi, lakin biz onun evinin həyətində oturarkən Xəzər dənizindən meh əsirdi.

O sakit, amma emosional səslə dedi: "Mən dəfələrlə döyülmüşəm".

Növbəti dəfə o nəfəsini dərib ona əziyyət verənlər üçün dua etdiyini dedi: "Mən onlar haqqında heç nə edə bilmərəm. Mən yalnız dua edirəm".

Sovet ittifaqının dağılmasından və ölkəsi müstəqillik qazandıqdan sonra on il ərzində onun yaşadığı ölkədə çox şey

dəyişsə də, bir şey dəyişməmişdi. Burada məsihçi olmaq və başqalarına İsa haqqında danışmaq təqiblə nəticələnəcəkdi. Orta Asiya xalqları nəhayət ki, kommunist ideologiyasının yetmiş illik hökmranlığından xilas oldular. Bu da ateist təriqətinə, hər hansı dinə düşmənçilik və hər hansı bir inanca istehza etməyi nəzərdə tuturdu.

Lakin ölkədə kommunizm azaldıqca, onun yerini kommunistlərdən daha çox məsihçiliyi sevməyən İslam əvəz etdi. Kommunistlər məsihçiləri fitnə-fəsad törədənlər hesab edirdilər. Radikal müsəlmanlar isə onları ölümə layiq kafirlər kimi görürdülər.

Pastor Rəhimov həmyerliləri arasında İsanın ardınca gedən ilk məsihçilərdən idi. O həm kommunist zülmünün çəkmə dabanını, həm də radikal İslamın yüksəlişini görmüşdü. Hər iki rejim ona əziyyət vermişdi.

Ancaq təqiblər və təzyiqlər onun İsa haqqında danışmasına mane ola bilmədi. Əgər o bir kəndə getmişdisə, o güman edirdi ki, Allah onun kəndlilərə Müjdəni bölüşməsini istəyir. Əgər polis onu saxlasa, o, güman edirdi ki, demək, Allah Müjdəni polislərə çatdırmaq istəyir. Əgər yoluna bir qrup radikal müsəlman çıxardısa, deməli, Allah Rəhimovu onlara Məsih barədə danışmaq üçün göndərmişdi!

Pastor Rəhimov Məsihə olan həvəsini və qızğın imanını çətin vəziyyətlərdə necə göstərdiyini söylədi.

Bir dəfə o, bir kəndə gəldi. Orada kənd rəhbərlərindən biri dəfn mərasiminə başlayırdı. Danışmaq fürsətini görən Rəhimov dəfn mərasiminə rəhbərlik edəcək iki molla ilə söhbətə başladı. O, din rəhbərlərindən mərhumun son nəfəsini aldıqdan sonra başına nə gələcəyini soruşdu.

Mollalar ona qəti bir cavab verə bilmədilər.

Rəhimov onlara dedi: "Əgər siz belə vacib sualların cavabını bilmirsənsə, niyə buradasınız?"

Mollalardan biri ona cavab verdi: "Əgər belə ağıllısansa, bəlkə dəfn mərasimində sən danışasan?"

Bu, pastor Rəhimov üçün bir fürsət idi! O irəli çıxaraq mərhumun tabutunun yanında dayandı və İsa Məsih vasitəsilə Allahın hüzurunda əbədi həyat barədə danışdı. Onu dinləyənlər diqqətlə qulaq asdılar. Orada yüz əlli nəfərə yaxın adam, iki molla və kənd polisi də var idi.

Dəfn mərasimi başa çatdıqdan sonra bir çox kənd sakini Rəhimovla danışmaq üçün ona yaxınlaşdı. Onun hər iki yanağından öpdülər, bu onların mədəniyyətlərində qəbul olunurdu və bir hörmət əlaməti idi.

Camaat müsəlman mollalarına dedilər: “Bu adam bizim eşitdiyimiz mollalardan ən yaxşısıdır. Onun kəndimizə qayıtmasını istərdik”.

Rəhimov onların xahişini məmnuniyyətlə yerinə yetirdi. O gələn dəfə kəndə gələndə özü ilə “İsa” filmini gətirdi və camaata göstərdi.

Bu onun xoş anlarından biri idi. Kənd camaatı onu hörmətlə qarşıladı və bu, Rəhimov üçün Müjdə barədə danışmaq imkanı yaratmışdı.

Amma Rəhimovun başına gələn hadisələrin hamısı xoş sonluqla bitmirdi. Söhbətimizdən cəmi bir neçə ay əvvəl, bir kənddə onu heç də yaxşı qarşılamadılar. Rəhimov o kəndə bir ailəyə baş çəkmək üçün getmişdi. O çıxıb gedəndən sonra məxfi polis həmin ailənin evinə soxulub, ailədəki hər kəsin şəxsiyyət vəsiqələrinin surətini çıxarmışdı. Rəhimov növbəti dəfə onlara gələndə dərhal polisə müraciət etmələrini bildirmişdilər. Əslində onlara deyilmişdi ki, heç bir məsihçi ilə ünsiyyət qurmasalar, əməkdaşlıq etməsələr, onlar üçün daha təhlükəsiz olar.

Amma bu, nə kənddə yaşayan o ailəni, nə də pastor Rəhimovu qorxutmadı. Biz söhbət aparan zaman pastor onu da dedi ki, həmin kəndə qayıtmağı planlaşdırır.

Pastor Rəhimov döyülmələri, ağrıları və əzabları yaxşı xatırlayırdı. Lakin o, həm də Müjdənin həqiqətini, yəni Allahın Oğlunu Orta Asiyada və bütün dünyada yaşayan insanlar üçün

kəffarə qurbanı kimi göndərdiyini anlayanda tapdığı ümidi də yaxşı xatırlayırdı.

Pastor Rəhimov Müjdəni ilk dəfə eşidən həmyerlilərinin sevincini və onların Məsihlə əbədiyyət vədini qəbul etdiyini görəndə başqa hisslər yaşayır. O bu hissləri döyülmə nəticəsində yaranan müvəqqəti ağrı və əzabdan üstün hesab edir.

## DÜŞÜNMƏK ÜÇÜN

Daxilimizdə olan ümid barəsində bizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazırıqmı (1 Peter 3:15)? Hər vəziyyəti Müjdəni bölüşmək üçün bir fürsət kimi görə bilərikmi? Məsihçiliyə məhdudiyyətlər olan ölkədə dəfn mərasimlərini Müjdəni bölüşmək fürsəti kimi görən Rəhimov tanış olduğum ilk imanlı deyil. Çində bir pastoru xatırlayıram. O, dəfn mərasimlərində Müjdə barədə danışmağı sevirdi, çünki insanlar təbii olaraq belə yerlərdə əbədiyyət haqqında düşünürlər və polislər dəfn mərasimlərinə demək olar ki, heç vaxt müdaxilə etmirlər.

Pastor Rəhimov kimi, siz də rastlaşdığınız hər bir insanla Müjdəni bölüşməyi Allahdan bir fürsət kimi görürsünüzmü? Bu cür düşünmək sizin hərəkətlərinizə və söhbətlərinizə necə təsir edir? Telefonunuzda hər gün dua etmək üçün bir xatırlatma qoyun ki, Allah o gün sizin yolunuza çıxardığı insana İsadan danışmaq imkanı yaratsın.

## DUA

"Ya Rəbb İsa! Qoy mən rastlaşdığım hər bir insanı Sənin gözünlə görə bilim. Qoy hər görüşə sevdiyin, uğrunda öldüyün insanın həyatına lütf və həqiqət gətirmək imkanı kimi baxım."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Təyyarə səfərim bir macəra idi!

Mən qəza çıxışının yanında oturmuşdum və təyyarə uçuş zolağında sürət yığmağa başlayanda yanımdakı qapıdan hava axınının gəldiyini hiss etdim! Yanımda oturan iş yoldaşım qapının yaxşı bağlandığını soruşdu və stüardessa bizi əmin etdi ki, hər şey öz qaydasındadır. Sonra təyyarə havaya qalxanda yanımdakı qapının kilidini örtən panel açıldı və məni yaman qorxutdu! Təyyarə iyirmi il idi ki, istifadə olunurdu, avokado kimi yaşıl və tünd sarı rənglə boyanmışdı, oturacaqlar solğun mavi rəngdə idi.

Hərarətli dua edə-edə təyyarəmiz havaya qalxdıqdan sonra rahatlandım və bir az mürgülədim.



## 28-ci GÜN

# “ONLARI TUALET KAĞIZI KİMİ İSTİFADƏ EDƏ BİLƏRSİNİZ!”

“Aqrippa Paula dedi: «Bu az müddətdə məni də inandıraraq məsihçi edəcəksən?» Paul dedi: «İstər az, istər çox müddət olsun, Allahdan istəyirəm ki, təkcə sən yox, bu gün mənə qulaq asan hər bir adam bu zəncirlərdən başqa mənim kimi olsun!»”

**HƏVARİLƏRİN İŞLƏRİ 26:28-29**

.............................................................

Mərkəzi Asiya, 2002

Görüşdüyüm məsihçilərin çoxunun Məsihi tanımazdan əvvəl həyatları çox maraqlı olmuşdu. Lakin Telmanın Məsihi tanıyana qədər olan həyatı barədə eşidəndə çox təsirləndim. Onunla görüşəndə o, Orta Asiya ölkəsinin təcrid olunmuş bir hissəsinə, kilsənin olmadığı yerə müjdəçi kimi göndərilmişdi.

Telman cinayətkar ailəsində böyümüşdü və özü də bir cinayətkar idi. O, cinayətlərinə görə həbsxanada cəza çəkmişdi, dediyinə görə buna layiq idi. Telmanın qardaşları da cinayətkar idilər.

Telmandan soruşdum ki, cinayətkarlar ailəsindən olan bir müsəlman necə İsa Məsihin davamçısı ola bilər?

O dedi: "Müqəddəs Ruh belə insanlara toxunmalıdır. Bunun başqa yolu yoxdur."

İsti bir gün idi. Telman mənə öz əhvalatını danışarkən bayırda oturmuşduq. Yaxınlıqda şəhər meydanında bir fəvvarə var idi. Ola bilsin ki, belə bir gözəl ətraf mühit Telmanın Məsihə necə iman etməsi barədə danışmasına mane olurdu. O, mənə cinayətkar kimi yaşadığı həyatından, hazırda gördüyü xidmətindən və bu işdə bəzi çətinlikləri haqqında danışdı. Lakin imana necə gəlməsini və imanı ilə əlaqədar yaşadığı çətinlikləri qeyd etmədi. Onun iman hekayəsinin həmin hissəsini mən Telmanın dostu olan başqa bir məsihçidən eşitdim.

Müsəlman cinayətkar Telman İsanın davamçısı olduqda, ailəsi onun "xəyanətindən" qəzəblənmişdi. Onların fikrincə, o bütün ailəni rüsvay etmişdi və kimsə onu cəzalandırmalı idi. Amma İslamı tərk etmək Telmanın təkcə öz fikri ola bilməzdi. O, yəqin ki, yolunu azmışdı və Telmanın ailəsi bu işdə onun arvadını günahlandırırdı.

Telmanın iki qardaşı onun arvadını cəzalandırmaq üçün bərk döymüşdülər.

Bir ər kimi Telmanın keçirdiyi ürək ağrısını və rüsvayçılıq hissini təsəvvür edə bilərdim. Ər arvadını qorumalı deyilmi? Əgər ailəsi ona qarşı qəzəblənibsə, arvadını döyməkdənsə, bu məsələni onun özü ilə həll etməli deyildilərmi? Hekayənin bu hissəsini niyə birbaşa Telmandan deyil, başqasından eşitdiyimi indi başa düşdüm. Bir kişi kimi bu barədə danışmaq onun üçün çətin idi.

Onların qarşılaşdıqları təqiblər nə Telmanı, nə də həyat yoldaşını çəkindirmədi. Əslində, bu, Allahın onlara göstərdiyi iman yolu ilə getmək əzmini daha da gücləndirdi. O, kilsəsi vasitəsilə Müqəddəs

Kitab təlimi kursuna başladı və sonda ölkəsinin başqa bir bölgəsinə müjdəçi təyin olundu. O, arvadı ilə birlikdə əşyalarını yığıb oraya köçdü. Əvvəlcə onlar arvadının uzaq qohumlarının yanında qaldılar, çünki onlar həmin yerdə Müjdəni bölüşmək istəyirdilər.

Amma oradakı səlahiyyətli şəxslər həmin şəhərdə kilsə olmasını istəmirdilər. Telmanı polis bölməsinə çağırıb dindirdilər və o, təzyiqlərə məruz qaldı.

Telmana dedilər ki, orada kilsə açmaq üçün onun dövlət qeydiyyatı yoxdur. Onların həmin yerdə yaşamaq üçün sənədləri də qəbul edilmədi. Nəhayət, onlara həmin şəhəri tərk etmək və əvvəllər yaşadığı yerə — paytaxt şəhərinə qayıtmaq göstərişi verildi.

Telman və arvadı Məsihin ardınca getməyi seçəndə təqiblərlə üzləşdilər, lakin onlar təslim olmadılar. O, təqiblərə görə kilsə açmaq səylərindən əl çəkmədi.

Telman paytaxtda yaşayan pastoru ilə danışdı. Paytaxtdakı kilsənin dövlət qeydiyyatı var idi. Ona görə də Telmanın pastoru onun xidmətinin sənədlərini təqdim etdi. Bu sənədlərə əsasən Telmanın kilsəsi qeydiyyatdan keçmiş kilsənin bir filialı olacaqdı.

Telman həmin şəhərə qayıtdı və orada Müjdəni bölüşmək üçün görüşlər keçirməyə davam etdi. Onu yenə də polis bölməsinə apardılar. Telman polis rəisinin qarşısında oturdu və onun xidmət etməsinə icazə verən rəsmi sənədləri göstərdi.

Polis rəisi sadəcə gülümsəyərək dedi: “O kağızları götürüb tualet kağızı üçün istifadə edə bilərsiniz. Burada qərarları mən verirəm”.

Telmanı yenidən həmin şəhərdən qovdular. O, buna baxmayaraq Allahın ona tapşırdığı xidməti davam etdirdi. Əgər ona həmin şəhərdə yaşamağa icazə verilmirdisə, onda sadəcə olaraq şəhərə tez-tez baş çəkə bilərdi.

O, hər həftə maşınla, çox hallarda isə avtobusla həmin şəhərə səfərlər edirdi. Telman Müjdəni başqaları ilə bölüşdükcə oradakı məsihçilər qrupu böyüyürdü. Onun haqqında eşidənlərin çoxu onunla danışmaq istəyirdi. O, ağlını itirmişdi? Şəhərin səlahiyyətli şəxsləri onu xoş qarşılamadığı halda, o niyə geri qayıdırdı?

Bu adam əvvəllər cinayət əməllərinə görə həbs olunmuşdu, indi isə polis onu kilsə açdığına görə narahat edirdi? Görəsən, onun təbliğ etdiyi iman hakimiyyəti niyə bu qədər qəzəbləndirirdi?

Telman bizdən xahiş etdi ki, onun xidmətini davam etdirməsi və o şəhərdə mümkün qədər çox müsəlmanın İsa Məsihi öz Xilaskarı və Rəbbi kimi qəbul etməsi üçün dua edək. O, həm də xahiş etdi ki, Allah ona orada yaşamaq üçün icazə versin. Telman arvadı ilə oraya köçüb özlərini Allahın tapşırdığı və xeyir-dua verdiyi xidmətə həsr etmək istəyirdilər.

## DÜŞÜNMƏK ÜÇÜN

Allah sizi bir xidmətə dəvət edəndə siz buna nə qədər müqavimət göstərə bilərsiniz? Xidmətə başladığınız ilk andan işlər yaxşı getməsə, tez təslim olursunuzmu?

Telmana dedilər ki, onun yeni şəhərdə fəaliyyət göstərməsi üçün icazəsi yoxdur. Beləliklə, o, lazımi sənədləri əldə etdi. Sonra ona dedilər ki, sənədlərinin heç bir faydası yoxdur. Amma Telman Rəbbin işini davam etdirdi və oraya köçdü. Sonra dedilər ki, orada yaşamasına icazə yoxdur. Amma mütəmadi səfərlər edərək o, Rəbbin tapşırdığı işi davam etdirdi. Qarşısına çıxan maneələrin heç biri onun bu şəhərə yenidən qayıtmasına mane olmadı, çünki Rəbb onu bu şəhərdə xidmət etməyə çağırmışdı.

Siz də eyni qərarı verə bilərsinizmi? Həyatınızda Allahın çağırışını yerinə yetirmək üçün dua etməyə, işləməyə, yeni planlar tərtib etməyə və yolunuza çıxan hər hansı maneələri aşmağa hazırsınızmı? Hazırda ruhani həyatınızda qarşılaşdığınız maneə haqqında gündəliyinizdə yazın. Bunun öhdəsindən gəlmək üçün üç ideyanı qeyd edin.

## DUA

“Ya Rəbb İsa, qarşıya çıxan qarşıdurmalardan, narahatlıqlardan və ya çətinliklərdən aslı olmayaraq, tələb etdiyin xidməti cəsarətlə yerinə yetirməkdə mənə kömək et. Hazırda üzləşdiyim problemin öhdəsindən gəlmək üçün mənə yaradıcı ideyalar ver”.

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

[Səyahətin ilk günü:] Londonda altı saatlıq uzun gözləmə də daxil olmaqla, buraya gəlib çıxmaq təxminən iyirmi səkkiz saat çəkdi. Dünən gecə yarısı bura gəlib çatdım və təxminən saat ikidə yatdım. Əlbəttə ki, mən çox çətinliklə yuxuya getdim. Demək olar ki, üç saata yaxın yata bildim.

Səhər saat səkkizdən bir az sonra oteldən çıxdıq və yalnız gecə saat ikinin yarısı qayıtdıq. Bu səfərə on yeddi saat yarım vaxt sərf etmişdik. Təəccüblüdür ki, bütün günü özümü çox yaxşı hiss etmişdim! Rəbbə şükür olsun!

Bu müddət ərzində biz min yüz kilometr məsafə qət etmişdik. Yerli müşayiətçim məni qəhrəman adlandırdı və dedi ki, başqa bir əcnəbi olsaydı, yüz kilometrdən sonra yorulduğunu deyərdi!

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"Kilsə dünyadan tamamilə ayrılanda həmişə çiçəklənirdi. İlk üç əsr ərzində dünya kilsəyə nifrət edirdi. Həbsxana, əzablar, vəhşi atların ayaqları altında Məsihin davamçılarına əzab vermək dünya üçün yaxşı hesab olunurdu. O vaxtlar kimsə məsihçi olduqda atası, anası, evi və torpağı, üstəlik, öz həyatından ayrılırdı. Amma o zaman iman qəhrəmanlarının dövrü idi. Dahilərin vaxtı idi. Kilsə qanla vəftiz olunduğu vaxtlardakı kimi heç vaxt çiçəklənməyib. Kilsənin gəmisinin göyərtəsi şəhidlərin qanı ilə islandığı vaxtlardakı kimi heç vaxt belə sürətlə üzməyib. Məsih üçün bu dünyaya qalib gəlmək istəyiriksə, əziyyət çəkməliyik və ölməliyik."

**Çarlz Spercen**[1]

"Sənsə, ey oğlum, Məsih İsada olan lütflə güclən. Bir çox şahidlərin önündə məndən eşitdiyin sözləri başqalarına da öyrətməyə qadir olan sadiq adamlara həvalə et. Məsih İsanın yaxşı əsgəri kimi mənimlə birgə əzaba qatlaş."

**2 Timoteyə 2:1-3**

1 Charles H. Spurgeon, "Separating the Precious from the Vile," sermon delivered March 25, 1860, in The New Park Street Pulpit, vol. 6 (Grand Rapids, MI: Zondervan, 1964), 154.




# 29-CU GÜN

# "HEÇ KİM MƏSİH BARƏDƏ DANIŞMAĞA MANE OLA BİLMƏZ!"

"Allahın və dirilərlə ölüləri mühakimə edəcək Məsih İsanın önündə Onun zühuru və Padşahlığının haqqı üçün sənə buyururam ki, Allahın kəlamını vəz edəsən, hansı vaxt olursa-olsun hazır olasan, insanlara tam səbirlə təlim öyrədərək məzəmmət, xəbərdarlıq və nəsihət verəsən."

**2 TİMOTEYƏ 4:1-2**

........................................................

## Azərbaycan, 2002

Pastor Yalov cəsarətli müjdəçi olmazdan əvvəl ciddi bir müsəlman idi və Məhəmmədin ardınca gedən xalqının əksər kişilərindən daha çox qətiyyətli idi. O, yaxşı təhsil almış və maddi cəhətdən zəngin idi, lakin heç vaxt əsl sülhü tapmırdı.

O, dindar bir müsəlman olduğuna görə qəlbində verdiyi suallara cavab tapmaq üçün Quranı oxudu. O, Məkkəyə həcc ziyarətinə getməklə İslamın vacib məsuliyyətlərindən birini də yerinə yetirdi. O, dininin ondan tələb etdiyi hər şeyi edirdi, amma yenə də ürəyində rahatlıq yox idi. Ümidsizliyə düşəndə öz həyatına qəsd etmək barədə düşünməyə başladı.

Həmkarımla Azərbaycanın paytaxtına səfərimiz zamanı Yalov bizə dedi: "Mən həyatımı şəriət qanunları ilə yaşamağa çalışdım. Amma yenə də həyatımda nəyinsə çatmadığını hiss edirdim. Quranda suallarıma cavab tapa bilmədim. Mən axmaq olduğumu və biliyimin kifayət qədər olmadığını düşünürdüm. Beləliklə, daha çox oxudum, amma oxuduqca daha çox suallarım yaranırdı".

Bir yerli pastor Yalovu altı azərbaycanlının iştirak etdiyi məsihçi yığıncağına dəvət etdi. Yalov qrupda yeddinci və Məsihin ardınca getməyən yeganə adam idi. Altı ay ərzində Yalov qrupun yığıncaqlarında iştirak etdi və Müqəddəs Kitabı oxudu. Pastor ona İsa barədə və insanın ölümündən sonra nə olacağı haqqında danışdı. Yalov Qurani-Kərimi də oxumaqda davam edərək, Məhəmmədin sözlərini İsanın sözləri ilə müqayisə etdi.

Bir gün o, Müqəddəs Kitabını açanda gözü Məzmur 91:14-cü ayəsindəki sözlərə sataşdı: "Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm, ismimi tanıdığına görə onu yüksəldəcəyəm".

Yalov dua edərək düşündü: "Allahı çağırmağa ehtiyacım var, amma onun adını bilmirəm". Allah onun duasını eşitdi. Müqəddəs Kitabı öyrənən qrupda Yalov yeganə adam idi ki, məsihçi deyildi. Nəhayət, altı aydan sonra pastorun söylədiyi sözlər Yalovun ürəyində və ağlında öz yerini tutdu və o, həyatını Məsihə verdi. İndi Müqəddəs Kitabı birlikdə oxuyan qrupda yeddi məsihçi var idi.

Yalovun həyatındakı dəyişiklik dərhal və dramatik oldu. Ərinin həyatında İsanın yaratdığı fərqi görən Yalovun həyat yoldaşı da tezliklə Məsihin ardınca getdi. Ancaq ailədə heç də hamı Yalovun seçimindən o qədər də məmnun deyildi. Yalov İslamı tərk etdiyinə

görə anasını və bütün qohumlarını rüsvay etmişdi, bu səbəbdən doğma anası onu ailə evindən qovmuşdu.

Bundan sonra iki ildən çox vaxt ərzində Yalov gecələri öz iş ofisində yatırdı. O, hər gecə iki masanı bir yerə çəkərək özünə müvəqqəti çarpayı düzəldib üstündə yatırdı. O, imanda böyümək üçün Müjdə və İsanın ardınca getmək barədə təhsil almağa çalışırdı. Yalov təkcə öz ailəsinə deyil, həm də həmvətənlərinə Məsih barədə danışmaq istəyirdi. Bir müddət sonra o, Rəbbin xidmətinə göndərildi.

Müsəlmanlar arasında belə bir xidmət baha başa gəlirdi. Tezliklə Yalov məsihçi dostu ilə birlikdə həbs olundu. On beş gün saxlanıldı, sorğu-sual edildi, İslama qayıtmaq və müjdəçilik işlərini dayandırmaq üçün onlara təzyiq olundu.

Növbəti il o, başqa bir pastorla birlikdə ibadət xidmətini apararkən yenidən həbs olundu. Onlar səkkiz gün yeraltı təkadamlıq kameralarda saxlanıldı. Kameranın hündürlüyü bir metr yarım olardı və orada yerə uzanmaq üçün kifayət qədər yer yox idi.

Mühafizəçilərin məhbusları izləməsi üçün kameranın qapısında kiçik bir pəncərə var idi. Yalov Paulun Timoteyə "hansı vaxt olursa-olsun hazır ol" tapşırığını xatırladı və düşündü ki, pəncərənin olması mühafizəçilərə Müjdə barədə danışmaq imkanı yaradır. Beləcə, Yalov və pastor olan kamera dostu növbə ilə Müjdəni bölüşdülər.

Mühafizəçilərdən biri şiddətli mədə ağrısından şikayət edəndə Yalov kamerasının qapısındakı kiçik pəncərədən İsaya dua etdi ki, onun mədəsi sağalsın. Rəbb Yalovun dualarına cavab verdi və gözətçi dərhal özünü yaxşı hiss etdi.

Yalov mənə dedi: "Mühafizəçilər bizim cinayətkar olmadığımızı bilirdilər. O və digər pastor mühafizəçilərdən "İsa" filmini gətirmək üçün icazə istədi. Mühafizəçilər nəinki filmi gətirməyə, həm də digər məhbuslara göstərməyə də icazə verdilər!

Yalov dedi: "İsa filmini elə həbsxanada nümayiş etdirdik. Mühafizəçilərin çoxu İsanı ürəyinə qəbul etdi".

Onların "kamera kilsəsi" böyüməyə başladı. On məhbus Məsihin ardınca getməyə qərar verdi. Yalov azadlığa çıxandan sonra həmin keçmiş məhbuslardan üçü də həbsdən azad olmuşdu. Onlar indi onun kilsəsinin üzvləri idilər.

Söhbətimiz sona yaxınlaşarkən mən yeni dostumdan soruşdum ki, o bir daha həbs olunacağını düşünürmü? Sualıma onun təbəssümlə cavab verməsi mənə qəribə gəldi.

"Mən çox istərdim ki, yenidən həbs olunum. Məni həbs edən şəxs Allahın Kəlamı barədə eşidəcək! Bu, Müjdəni bölüşmək üçün daha bir fürsət olacaq. Mənimlə nə baş versə də, milyonlarla insan Müjdəni bölüşməyə davam edəcək. Heç kim Məsih barədə danışmağa mane ola bilməz!" — deyə o bildirdi.

## DÜŞÜNMƏK ÜÇÜN

Həyatınızda başqalarının sizi müşahidə etdiyi "pəncərələr" varmı? Ola bilsin ki, onlar iş yerinizdə, yaşadığınız ərazidə və ya uşaqlarınızın məktəbindədir. Bu "pəncərələrin" hər birinin sizə Müjdəni və İsanın məhəbbətini başqaları ilə bölüşmək üçün necə imkan yaradacağı barədə gündəliyinizə yazın. İnsanları Məsihlə tanış etmək üçün daha çox imkanlar yaranarsa, siz çətinliklərə dözməyə hazırsınızmı?

### DUA

"Ya Rəbb İsa, «Məni kim həbs etsə, Allahın Kəlamını eşidəcək!» deyən imanlı qardaşım Yalovun cəsarəti üçün Sənə təşəkkür edirəm. Mənimlə işləyən..., övladları uşaqlarımla eyni sinifdə oxuyan..., Allahın mənim yoluma çıxardığı insanlara Rəbb haqqında danışmaq üçün mənə cəsarət ver! Amin".

## Sizin gündəliyiniz üçün

## Mənim gündəliyimdən

Yaxşı xəbər budur ki, yerli məsihçilərlə görüşməyimiz üçün yeni bir otel var.

Amma pis xəbər odur ki, biz orada qalmadıq.

Yeni otel şəhərdən kənarda yerləşirdi və həmkarım onun bizim üçün uyğun olmadığını dedi. Bir saata yaxın gözləməli olduq ki, taksi gəlib bizi aparsın.

Buna görə də biz şəhərin mərkəzində yerləşən oteldə gecələdik və bura əvvəl qaldığımız otellə müqayisədə çox dəbdəbəli görünürdü!

Bu axşam bütün planlaşdırılan görüşlərimizi keçirə bilsək, sabah yeni otelə keçmək barədə fikrim qəti idi. İndi burada daha iki gecəni keçirmək mənim üçün sadəcə dözülməz idi.

Elə indicə bizi kondisionerli dəbdəbəli otelə yerləşdirdilər.



# 30-CU GÜN



# HƏVARİLƏRİN İZİ İLƏ

"Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz."

**1 PETER 2:21**

.................................................

## Çin, 2000-ci ilin əvvəlləri

Çində məsihçilərə baş çəkdiyiniz zaman hökumətin xaricilərə göstərmək üçün çalışdığı dini azadlıq mənzərəsinin həqiqətə uyğun olmadığını görmək çox asandır. Bir səfər zamanı oteldə mənə "Pekinə baxış" jurnalının pulsuz nüsxəsini verdilər. Ön səhifədə kilsə xoru geyimində və yaxasında xaç asılan bir qadın şəkli var idi. Başlıq böyük hərflərlə belə yazılmışdı: "Zəmanətli azadlıq. Bütün dini işlər dini qruplar tərəfindən müstəqil şəkildə həyata keçirilir".

Bir gün gecə saatlarında bizimlə görüşmək üçün onu izləməsinlər deyə dolanbac yollarla gələn "Daniel" "bütün dini işlər" haqqında bizə maraqlı məlumat verdi.

Daniel qeydiyyatdan keçməmiş böyük kilsənin rəhbəridir. O, pastorun köməkçisi kimi xidmət edir və xidmətinə görə uzun illər həbsdə olmuşdu. Təbii ki, İctimai Təhlükəsizlik Bürosu Danielin kim olduğunu yaxşı bilirdi.

O dedi: "Qonşumun telefon xətti həmişə yaxşı işləyir, amma mənimki tez-tez kəsilir və xətdə səs-küy eşidirəm". Daim izlənildiyimizi və hər söhbətimizin dinlənildiyini bilmək çoxumuzu narahat edə bilər. Daniel belə bir vəziyyətə fərqli baxır. O deyir ki, əgər bizə kimsə qulaq asırsa, demək onun Məsih haqqında eşitmək imkanı var.

O deyir: "Buna göz qoyan təkcə hökumət deyil, həm də imansız həmvətənlərimizdir". Buna görə o, şüurlu şəkildə Məsihin məhəbbətini və bağışlanmasını göstərən bir həyat yaşamağa qərar vermişdi.

Danielin həyatı rahatlıq və Məsihə möhkəm iman nümayiş etdirir. O öz sözlərinə diqqət yetirir və heç birini də boş yerə işlətmir. Söhbətimizdəki fasilələr onu qətiyyən narahat etmir. Mənə elə gəlir ki, o, polisin sorğu-sual otağında belə, ürək döyüntüləri cüzi də olsa artmayan bir adamdır. Biz indicə tanış olduq, amma mən artıq bu Allah adamına qarşı həm dostluq, həm də heyranlıq hissi duyuram.

Biz Danieldən soruşduq ki, əgər sənin əcnəbi məsihçilərlə — bizim kimi insanlarla görüşdüyünü görsələr, nə olacaq?

O da cavabında dedi: "Sizi Çindən çıxaracaqlar və qara siyahıya salacaqlar ki, bir daha geri dönə bilməyəsiniz."

Mən soruşdum: "Bəs sənin aqibətin necə olacaq?"

O dedi: "Bu hələ baş verməyib, amma Paulun dediyi kimi mən Yerusəlimə getməyə və hətta ölümə də tam hazıram" (Həvarilərin İşləri 21:12-13).

İsaya iman etməyənlər üçün Onun sözləri qəribə görünə bilər, lakin Daniel buna çox fərqli yanaşır. O bizə belə dedi: "Çətinlik və təqiblər bir növ xeyir-duadır. Təqiblər və çətinliklər məsihçiləri güclü və yetkin edir. Birinci əsrdə olan ilk məsihçi cəmiyyəti

Böyük Britaniya və ya ABŞ-da olan kilsələr kimi deyildi. O dövrdəki vəziyyət Pakistan, Əfqanıstan, Çin və Şimali Koreyada olduğu kimi idi.

Biz həmişə deyirik: "Həvarilərin izi ilə gedək. Bəs onların izləri haradadır? Çətinliklərdə və təqiblərdə".

Söhbətimizdən bir il əvvəl Danielin xidmət etdiyi kilsə dörd yüz əlli yeni məsihçini vəftiz etmişdi. Bu qədər sürətlə böyüyən bir kilsəni gizli saxlamaq çətindir. Onların böyüməsinin səbəbi çox sadədir. Sadiq məsihçilər Müjdəni başqalarına həvəslə bölüşürlər. Onlar Müjdəni bölüşməyi nə pastorun, nə də kilsə rəhbərinin işi hesab etmirlər. Bu məsihçilər Rəbb İsaya iman edən hər kəsi müjdəçi hesab edirlər.

Daniellə vaxtımız sona yaxınlaşırdı. O, dolanbac yollarla evinə qayıtmazdan əvvəl küçəyə baxmalı idi. Əgər onu kimsə izləyirdisə, onda bir stəkan çay içib bir müddət gözləyəcəkdi.

Mən Danieldən Müjdəni bölüşdüyünə görə həbs olunacağı təqdirdə buna necə hazırlaşdığını soruşdum.

O da mənə belə cavab vedi. "Bunun üçün ən vacib ruhani hazırlıqdır. Ona görə də, hər gün daha çox Müqəddəs Kitab oxuyub ayə əzbərləməliyəm. Əgər Müqəddəs Kitabım olmasa, öyrəndiklərim mənə lazım olacaq".

Mən ondan soruşdum: "Siz həbs olunacağınızı gözləyirsinizmi?"

O, sakitcə cavab verdi: "Əgər bu, Allahın iradəsidirsə, mən ona tabe olacağam. Bütün səlahiyyət İsaya verilmişdir və O bizə şagird hazırlamağı əmr etmişdir. Amma düşünmürəm ki, biz tək qalmışıq və bizi tərk ediblər. Nehemyanın dediyi kimi döyüş bizim deyil, Rəbbindir (Nehemya 4:20). Mübarizəni aparan biz deyilik və özümüz üçün də mübarizəni biz aparmayacağıq. Xeyr, xeyr! Allah Özü bizim üçün döyüşəcək".

Daniel paltosunu geyindi və bizimlə sağollaşdı. O, qaranlıq, soyuq gecədə Allahın onu çağırdığı, "həvarilərin izi ilə" gedən yola çıxdı.

# DÜŞÜNMƏK ÜÇÜN

"Həvarilərin izi ilə" getmək dedikdə, yəqin ki, çoxumuz şagirdlərin İsa ilə ocaq ətrafında oturduğu, Əllinci gün bayramında minlərlə insanın Məsihə iman etdiyi, xəstələrin sağaldığı və şikəstlərin Rəbbin adı ilə yeridiyi vaxtları təsəvvür edirik. Zindanda qapalı qaldığımızı, döyüldüyümüzü, gəmi qəzasından sağ çıxdığımızı və ya başıaşağı çarmıxa çəkildiyimizi təsəvvür etdikdə biz çaşqınlığa düşürük. Lakin bütün bunlarda həvarilərin izləri görünür. Onların yolu həm iman və sevinc dağlarından, həm də zülmət, ağrı və şübhə dərələrindən keçir.

Bu gün siz həvarilərin yolu ilə gedirsinizmi? Bu gün sizin yolunuz təpədən, yoxsa dərədən keçir? Haradan keçməyinizdən asılı olmayaraq, siz Rəbbə sadiq qalaraq addımlayırsınız?

## DUA

"Ya Rəbb, mənə kömək et ki, istər rahatlıq və əmin-amanlıqda, istərsə də əzab və ağrı içində Sənə xidmət etməyə hazır olum. Həm asan, həm də çətin və əzablı hallarda belə həvarilərin izi ilə sədaqətlə getməyimə kömək et. Qoy elə yaşayım ki, həyat tərzimə nəzarət edənlər məndə Səni görsünlər! Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Daniel bizə imanına görə əzab çəkməyə hazır olduğunu söylədi və özünü buna əvvəlcədən hazırladı. Bu səfərimizdə biz bu mövzu ilə hər dayanacaqda qarşılaşdıq. Bu imanlılar əzab çəkmək üçün hazırdırlar, çünki onlar özlərini buna hazırlayırlar. Onlar bilirlər ki, belə bir gün gələcək, ona görə də buna hazırlaşırlar. Görəsən, Rəbb mənim hazırlaşmağımı istəyir?



# 31-Cİ GÜN



## “...MƏN SİZƏ RAHATLIQ VERƏRƏM...”

### ƏFRUZ, 1-Cİ HİSSƏ

“Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm.”

**MATTA 11:28**

........................................................

Türkiyə, 2003-cü il

İş yoldaşım və mən vətəni İrandan qaçqın düşmüş Əfruzla Türkiyədəki kilsədə tanış olduq. İranda Məsihə iman etdikdən sonra o, əri ilə birgə başqalarına cəsarətlə xidmət edirdi. Lakin hökumət onların qızlarını əlindən almaqla hədələyəndə onlar başqa təhlükəsiz ölkəyə sığınacaq üçün qaçdılar.

Əfruz axtarmadığı bir zamanda İsanı tapmışdı və Rəbb onun həyatını tamamilə dəyişmişdi. Vətənindən kənarda ailəsinin harada qalacağını və ya nə vaxt daimi ev tapacaqlarını bilməsə də, Əfruzun ürəyində bir sakitlik var idi. Bu mənim diqqətimi cəlb etdi. O, fırtınanın içində özünə rahatlıq tapmışdı. Ona rahatlıq verən İsa idi.

Biz qaçqınlara yardım edən mərkəzin — kilsənin arxa otağında oturduq. Ətrafımızda yemək hazırlayan və digər işlərlə məşğul olanlar var idi. Biz çay içərək Əfruzun hekayəsini dinlədik.

*"Mən kollecdə oxuyurdum, həm də işləyirdim. Mən təzyiq altında idim, anam və atam yanımda deyildi, özümü tənha hiss edirdim. Ona görə də Allaha dua etdim ki, mənə rahatlıq versin və narahatlığım keçib getsin.*

*Din yolu ilə gedən əsl müsəlman olmaq üçün hər şey etməyə çalışırdım. İslamın dini əmrlərinə tabe olurdum. Mümkün qədər əlimdən gələni edirdim ki, Allahı razı sala bilim. Amma narahatçılığım getdikcə daha da artırdı, zehni təzyiq məni rahat buraxmırdı və bütün gücümü əlimdən alırdı. İşimlə əlaqədar məni başqa şirkətə göndərdilər ki, bir ay başqa yerdə işləyim. Ona görə də dərslərimlə yanaşı daha çox problemlərim və görüləsi işlərim yarandı.*

*Bir gecə otağımda Allahla danışıb Ona şikayət etdim: «Nə qədər mən bu təzyiqə dözəcəyəm? Bu nə vaxta kimi davam edəcək! Mən nə qədər buna dözəcəyəm? Mən işləyib oxuyuram. Axı niyə Sən mənə kömək etmirsən? Niyə mənə rahatlıq vermirsən?»*

*Allahdan tələb etdim: «Əgər mənə kömək edəcəksənsə, bu gecə özünü mənə göstərməlisən. Əgər bu gecə mənə bir əlamət göstərməsən, onda mən istədiyim kimi günahkar həyat yaşayacağam». Beləliklə, duamı bitirdikdən sonra dedim ki, bütün gecəni oyaq qalacağam və Səndən bir əlamət gözləyəcəyəm. Onda biləcəyəm ki, Allah həqiqətən burada mənimlədir.*

*Mən dua edərkən Allahı görəcəyimi düşünürdüm. Bir saat Ona şikayət etdim və artıq yorulmuşdum, başımı canamaz xalçasının üstünə qoydum. Gecə yarısı idi. Birdən otağım gur işıqla doldu və mən qorxub otaqdan qaçdım. Sonra öz-özümə dedim: «Məgər mən Allahdan elə bunu istəmirdimmi?»*

*Ona görə mən qərara gəldim ki, dua etdiyim otağa dönüm və orada nə baş verdiyini görüm.*

*Otağım həqiqətən gur işıqla dolmuşdu və sanki səhər olduğunu düşündüm, amma sonradan anladım ki, gecə yarısıdır. Başımı qaldıranda mən İsa Məsihi gördüm.*

*O, ağ libas geyinmişdi. Mən heç vaxt İsa Məsihin təsvirini həyatda görməsəm də, bunun yalnız İsa olacağını anladım.*

*Mən şeir yazmağı xoşlayırdım, ona görə də mənə bədahətən gələn misraları yazmaq üçün yanımda həmişə kağız-qələm olurdu. Dərhal həmin vaxt qeydlər aparmağa başladım.*

*Mən farsca bu sözləri yazdım: «Ey bütün yorğunlar və yükü ağır olanlar, yanıma gəlin, sizə rahatlıq verərəm».*

*Əslində bir az çaşqınlığa düşdüm və hətta qəzəbləndim. Mən müsəlman kimi dua edirdim, bəs nə üçün məsihçilərin inandığı İsa Məsih yanıma gəldi?! Bu nədir?! Buna görə də mən canamazı yığıb dedim: «Daha bəsdir! Mən yatmağa gedirəm!»*

*Növbəti gecə yuxuda İsa Məsihi gördüm. O dedi: «Məgər sənə deməmişdim ki, yanıma gəlib kölgəmdə gizlənsən, təhlükəsiz yerdə olarsan?» Ona cavab verdim: «Axı sən İsa Məsihsən, bəs əsl Allah hardadır? Mən ya əsl Allahı ya da Məhəmmədi görməli idim».*

*İş yerindəki həmkarlarımdan biri narahat olduğumu görüb soruşdu: «Sənə nəsə olub?»*

*Mən dedim: «Anam Amerikadadır və onu çoxdandır görmürəm. Onu nə vaxt görəcəyimi bilmirəm. Məni narahat edən budur».*

*O məni sakitləşdirməyə başladı: «Allah həmişə səninlədir. Allah məhəbbətdir. Bütün qayğılarını Ona ver». Adətən İranda*

*eyni şirkətdə işləyənlər yanınıza gəlib «Mən məsihçiyəm» deməzlər. Amma mən orada üç həftə işlədikdən sonra həmkarım gəlib mənə dedi ki, o, İsanın davamçısıdır. O mənimlə Allahın məhəbbətindən danışanda mən şikayət edib deyirdim: «O necə Allahdır ki, mənim bu vəziyyətimi görmür və bu əziyyətlərə dözməyimə yol verir?»*"

Əfruz özü ilə gəzdirdiyi dəftəri çıxardı və Allahla danışdığı gecə otağında yazdığı sözləri yeni dostuna göstərdi: "Ey bütün yorğunlar və yükü ağır olanlar, yanıma gəlin. Mən sizə rahatlıq verərəm".

Onun iş yoldaşı kitabını çıxarıb diqqətlə vərəqləyərək axtardığı yeri tapdı. O, səhifənin müəyyən bir yerini göstərərək onu Əfruza göstərdi.

Əfruz gördü ki, iş yoldaşının kitabındakı sözlər (Matta 11:28) onun dəftərində yazdığı sözlərlə eynidir.

"Bu nə kitabdır?!" — deyə Əfruz təəccübləndi. O, əvvəllər heç vaxt Müqəddəs Kitabı görməmişdi. İş yoldaşı ona bunun nə kitab olduğunu söylədi və hətta onun üçün də həmin kitabdan almağı təklif etdi.

"Bu, imanımın başlanğıcı idi" — deyə Əfruz sakitcə fikrini bildirdi.

Bu, Əfruz üçün uzun və çox çətin bir yolda ilk addım idi.

## DÜŞÜNMƏK ÜÇÜN

Bəlkə də, siz də Əfruz kimi Allaha fəryad edib yalvararaq demisiniz: "Ey Allah, Özünü mənə göstər! Mən çətin vəziyyətdəyəm!" Belə olan halda qoy ürəyiniz cəsarətli olsun, dostum. Allah dualara cavab verir və həyatımızda Özünü bizə güclü və aydın şəkildə göstərir.

Bəlkə, siz hal-hazırda belə vəziyyətdə deyilsiniz və sizə elə gəlir ki, bu duanın sizinlə heç bir əlaqəsi yoxdur. Əgər belədirsə, deməli, siz bu hekayədə Əfruzun məsihçi dostu kimisiniz. Əgər

Allah sizə başqalarının ehtiyaclarını görməyə imkan verirsə, siz Onun Kəlamını bu ümidsiz insanlara açmağa və onların ürəyinə Rəbbin sülh və ümidini gətirməyə hazırsınızmı? Siz həmkarınızı, dostunuzu, qonşunuzu sülh və rahatlıq verən Rəbbə tərəf yönəltməyə hazırsınızmı? Hal-hazırda siz çətin vəziyyətdə ruhani axtarışdasınız, yoxsa bu axtarışda olan birinə kömək edə biləcək məsihçisiniz? Bu barədə öz gündəliyinizdə qeyd edin. Sizin üçün çətin olsa da, İsanın sizə “rahatlıq” təklif etməyini necə başa düşürsünüz?

## DUA

“Ya Rəbb İsa, bu həftə mən istəyirəm ki, Sən mənim həyatımda iş görəsən. Mənə yorğunluq və mübarizə əvəzinə yenidən sülh və rahatlıq ver. Qoy ehtiyacı olanlara Sənin sülhünü bölüşə bilim. Amin”.

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Əfruz yazdığı sözləri iş yoldaşına göstərəndə, həmkarı Müqəddəs Kitabdan həmin ayəni tapıb göstərdi. Tezliklə, Əfruz xilas oldu!

Bu bir möcüzə deyilmi?! Müjdəçilərin gedə bilmədiyi və Müqəddəs Kitabın əldə edilməsi çətin olan ölkələrdə Allah Özünü insanlara yuxu və görüntülərdə göstərir!

## TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

Əfruzun İsa ilə şəxsi görüşü kimi hadisələr müsəlman dünyasında adi bir haldır. Müjdəçilər tez-tez mənə deyirlər ki, hər hansı bir müsəlmanla ilk dəfə görüşəndə belə soruşurlar: "Son vaxtlar qeyri-adi yuxular görürsünüzmü?"

Müsəlmanlar tək Allahın varlığına inanırlar. Onlar inanırlar ki, Allaha itaət etmək lazımdır. Beləliklə, Rəbb İsa Özünün Allah olduğunu müsəlmanlara açanda, onlar Məsihin ardınca getməyə hazırdırlar.

**BU GÜN DUA EDİN** ki, Müqəddəs Ruh İslamın hökm sürdüyü ölkələrdə və bütün dünyada güclü şəkildə hərəkət etsin. Dua edin ki, müsəlmanlar, hindular, ateistlər, buddistlər və başqaları İsa Məsihlə fövqəltəbii surətdə görüşsünlər. Eləcə də Onun qüdrətini hiss etsinlər, Allahın Kəlamına və Xilaskara ehtiyacları olduğunu anlasınlar.



## 32-Cİ GÜN



# “SÜBUT EDİN Kİ, SİZ MƏSİHÇİSİNİZ!”

## ƏFRUZ, 2-Cİ HİSSƏ

“Buna görə də qoy Allahın birləşdirdiyini insan ayırmasın.”
**MARK 10:9**

Türkiyə, 2003

Əfruzun imanı bir gecə saatlarında İranda öz evində İsanın ona görünməsi və ona “yorğun və yükü ağır olanlara” rahatlıq verməsi vədi ilə başladı. Əfruz Xilaskarda ruhani rahatlıq tapdı. Lakin İslamı tərk edib İsanın ardınca getdikdən sonra əslində onun İran İslam Respublikasındakı həyatı çox çətinləşdi.

Yeni iş tapmaq istəyəndə Əfruz başa düşdü ki, onun artıq müsəlman deyil, məsihçi olduğu məlum olduqdan sonra heç kim onu işə

götürməyəcək. O bildirdi ki, İran hökuməti "kafirləri" işə götürən şirkətlər üçün problem yaradacaqdı və ona görə də ona təklif olunan işlər adətən aşağı maaşlı olacaqdı. Amma iş tapmaq cəhdi Əfruz üçün yalnız təqiblərin başlanğıcı idi.

O, kilsəsi vasitəsilə bir məsihçi oğlanla tanış oldu. Sonra onlar evlənmək qərarına gəldilər. Toy mərasimlərini kilsədə keçirdilər, lakin bu qərar gizli polisin qəzəbinə səbəb oldu.

Polis onların toy gecəsi otel otağına girərək Əfruzu və ərini həbs etdi. Onlardan soruşdu: "Sizin evli olduğunuzu biz necə bilərik?" Çünki yerli məsciddən onların nikahlarını qeyd edən sənəd yox idi.

"Mənim ağ paltarım gəlin olduğumu və ərimin geyimi də bəy olduğunu sübut edir!" — deyə Əfruz cavab verdi. Amma bu, polisi qane etmədi. Toyun harada keçirildiyini, onlara rəhbərlik edən adamların adlarını tələb etdilər. Əfruzun pastorunun kim olduğunu biləndə onu da həbslə hədələdilər.

Nəhayət, cütlük azad edildi və kafir kimi tanınmasınlar deyə onlar İranın başqa bir bölgəsinə köçmək qərarına gəldilər. Onlara qarşı təzyiqin azalacağını düşünürdülər. Lakin bu "təhlükəsiz" yerdə belə, İslamı tərk edib Məsihin ardınca getdiklərinə görə radikal müsəlmanlar onları hədələdilər.

Qızları dünyaya gəldikdən sonra Əfruz və əri təhlükə və təhdidlərlə daha çox üzləşdilər. Onlar qızlarına məsihçi adı — Emmanuel qoydular. Lakin onun doğum şəhadətnaməsi üçün qeydiyyatdan keçəndə səlahiyyətli şəxslər onlardan bu adın məsihçi adı olduğuna dair "sübut" tələb etdilər. Bundan əlavə dedilər: "Bizə sizin məsihçi olduğunuzu sübut edən sənədlər lazımdır".

İranda İslamdan üz döndərmək ölüm cəzası ilə nəticələnə bilər. Əfruz və ərinin İslamı tərk etdiklərini "sübut edən" sənədlər eyni vaxtda onlara "cinayət" etdiklərinə görə ölüm hökmü verilməsi üçün bir "sübut" olacaqdı. Hətta onlardan belə sənədlər tələb etsələr də, hansı məscid bunları verəcəkdi? Kiminsə bir dindən İslama keçdiyinə dair sənədləri əldə etmək asandır. Lakin kiminsə İslamı

tərk etdiyini təsdiq edən hər hansı sənədi əldə etmək demək olar ki, qeyri-mümkündür.

Əfruz və əri bu vəziyyətdən çıxış yolu üçün Tanrıya dua etdilər və kilsələrində xidmətlərini davam etdilər. Əfruz kilsədə qadınlar arasında rəhbər oldu və xidmət etmək üçün hətta İranın digər bölgələrinə də getdi. Lakin hökumət onların İslamı tərk etdiklərini unutmamışdı.

Emmanueli uşaq bağçasına göndərmək vaxtı gələndə onu qəbul etmədilər. İbtidai sinifə qəbul vaxtı gələndə onun sənədlərini təqdim etdikdə imtina etdilər. Əfruz nə baş verəcəyini bilirdi. Hakimiyyət Əfruzu və ərini qızlarına yetərincə baxmadıqlarına və təhsil almasına imkan vermədiklərinə görə ittiham edəcəkdi. Sonra da onları valideynlik hüququndan məhrum edib Emmanueli onlardan alacaqdı.

Əfruz və əri bilirdilər ki, İranda Məsihin ardınca getmələri həbslə nəticələnə bilər. Amma qızlarını itirmək, onların əllərindən alınaraq müsəlman kimi böyüdülməsi fikri onlar üçün dözülməz idi.

Çoxlu dualardan və çıxış yolları axtarandan sonra cütlük yekdilliklə qərara gəldi ki, Emmanueli itirmək riskinə getməyəcəklər. Ona görə də ailə ölkədən qaçaraq əvvəlcə Türkiyəyə (orada Əfruzla görüşdüm, ondan müsahibə götürdüm), sonra isə qərb ölkələrindən birinə getdi.

Əfruzla Türkiyədə görüşdükdən bir neçə il sonra ondan elektron məktub aldım. O mənim radio müsahibəmi indi yaşadığı şəhərdə bir məsihçi verilişindən eşitmişdi. Allahın onun və ailəsinin həyatında necə iş gördüyünü və onların təhlükəsiz yerdə olduğunu eşitmək çox xoş idi.

Əfruz öz hekayəsini qadın qruplarında bölüşür. O, imanlıları özlərini Məsihə həsr etməyə ruhlandırır və yeni ölkədə Məsihə xidmətini davam edir.

# DÜŞÜNMƏK ÜÇÜN

Bəzən Allah bizi təqiblər, çətinliklər və ya əzablar qarşısında, hətta ölüm təhlükəsi altında olsaq belə, Rəbbin adını iqrar etməyə çağırır. Digər hallarda O bizə təzyiqin azalması və təhlükədən xilas olmağımız üçün yaşadığımız yerdən çıxmağı söyləyir. Həvari Paul Qeysərə müraciət etdi və ən ali hakimiyyət qarşısında imanını müdafiə etmək hüququnu tələb etdi. Həmin Paul Dəməşqdən qaçıb canını almaq istəyənlərin əlindən xilas olmaq üçün səbətdə şəhər divarından endirildi. Allah onu həyatının və xidmətinin müxtəlif mərhələlərində fərqli yollarla idarə etmişdi.

Bəs siz necə? Müqavimətə cəsarətlə qarşı durursunuz, yoxsa qarşıdurmadan qaçmaq üçün bir yol axtarırsınız? Allah sizə Müjdəyə əks gedən və ya sizi təqib edənlər qarşısında cəsarətlə imanınızı müdafiə etməyi tapşırıbmı? Elə olubmu ki, Rəbb sizə geri çəkilməyi, susmağı və qarşıdurmadan qaçmağı söyləyib? Geriyə baxanda Onun rəhbərliyinin hikmətini görmüsünüz? Allaha itaət etməyinizin hansı nəticələri oldu? Bu barədə gündəliyinizə yazın.

## DUA

"Ya Rəbb İsa, səsini aydın eşitməkdə və məqsədini görməkdə mənə kömək et. İmanda möhkəm qalmağımı istədiyin vaxtlarda mənə cəsarət ver. Çıxıb getməyimi və ya geri çəkilməyimi dediyin vaxtlarda mənə hikmət və lütf ver. Qoy bu vəziyyətlərdə mən ətrafdakılar üçün xeyir-dua olum. Sənin adınla dua edirəm. Amin".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bundan sonra biz iranlı məsihçi ilə görüşdük və ona fars dilində on ədəd Müqəddəs Kitab göndərdik. O, otelimizə gələndə bir neçə dəqiqə söhbət etdik, sonra onu çıxıb getməyə tələsdirdik, çünki otel işçilərinə etibarımız azalmışdı. Belə ki, onlar gediş-gəlişimizlə, həm də bizim otağa kimin gəlməsi ilə çox maraqlanırdılar...

Otel işçiləri, xüsusən də, tanış olduğumuz məsihçiləri otağımıza dəvət edəndə bizə çox qəribə baxırdılar. Onların bizim barədə nə düşündüklərini bilmirəm, amma hər hərəkətimizi diqqətlə izləyirdilər. Maraqlıdır, görəsən, telefon danışıqlarıma da qulaq asıblar? Oteldə onların dinləmələrinin qarşısını almaq üçün peyk siqnalı yox idi.



# 33-CÜ GÜN

# “HƏTTA QURANDA DA YAZILIB Kİ, İSA GƏLƏCƏK!”

“İsanın Məsih olduğuna inanan hər kəs Allahdan doğulub. Doğanı sevən ondan doğulanı da sevir. Biz Allahın övladlarını sevdiyimizi bundan anlayırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik. Çünki Allah məhəbbəti Onun əmrlərinə riayət etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil.”

**1 YƏHYA 5:1-3**

.........................................................

*Banqladeş, 2005*

Mən Hasem Şarkərlə tanış olanda onun qırx beş yaşı var idi və cəmi altı ay idi ki, İsanın davamçısı idi. Bir neçə ay ərzində imanı ona evi və işi bahasına başa gəlmişdi. Lakin o, imanından üz döndərmək fikrində deyildi.

Şarkər yaşadığı kənddə fəhlə işləyən savadsız bir adamdır. O, müsəlman ailəsində anadan olmuşdu və bütün həyatı boyu öz kəndində valideynlərinin və başqalarının təlimlərinə əməl etmişdi.

Bir dəfə Şarkərin kəndinə bir müjdəçi gəldi və onlara "İsa" filmini göstərdi. Şarkər filmə çox diqqətlə baxırdı. O, İslam təlimlərinə əsasən İsanı peyğəmbər kimi qəbul edirdi, lakin ekranda gördüyü İsa sadəcə Allahdan gələn bir elçidən daha böyük idi. Şarkərin müjdəçiyə çoxlu sualları var idi. O, filmdə gördüklərini düşünəndə İsanın Allahın Oğlu olduğuna əmin oldu və İslamda suallarına tapa bilmədiyi cavabları İsa Məsihdə tapdı.

Şarkər dedi: "Mən Rəbbi sevirəm, çünki İsa yeganə Xilaskardır. Mən bunu başa düşdüm və İsanı qəlbimə qəbul etdim. Mən Allahın bu hədiyyəsini sevirəm!"

Gündəlik fəhlə kimi Şarkər hər gün kəndin mərkəzinə gəlirdi, çünki torpaq sahibləri və ya iş adamları günəmuzd işçilər seçmək üçün oraya gəlirdilər. Lakin Şarkərin artıq müsəlman deyil, kafir olmaq xəbəri yayılanda ona iş təklif olunmadı. Onun gəliri daha yox idi.

Bununla belə, təzyiq və ya təqiblər qarşında Şarkər imanında sarsılmadı. Əslində, o, İsa haqqında susa bilməzdi. İsaya iman etdikdən bir neçə həftə sonra Şarkər öz kəndindən bir neçə gənci onunla birlikdə yaxın kənddə məsihçi xidmətinə getməyə dəvət etdi. Gənclər Şarkərlə getdilər və onlar da İsaya iman etdilər.

İndi Şarkər sadəcə öz dinindən dönməmişdi, o həm də digər müsəlmanları imanlarından uzaqlaşdıran bir müjdəçi idi. Ondan təkcə çəkinmək kifayət deyildi, indi onu cəzalandırmaq lazım idi.

Hirsli kəndlilər Şarkəri əhatə etdilər və onların qəzəbli qışqırıqları tezliklə yumruqlarla əvəz olundu. Şarkər döyüldükdən sonra onun bütün üzü şişib göyərmişdi.

Oxumağı bacarmayan Şarkər bu təqibləri Allahdan gələn sınaq kimi gördü və belə dedi: "Mən həyatımı İsaya verdim, ona görə də mənim həqiqi imanlı olduğumu yoxlamaq üçün bu bir növ sınaqdır".

Şarkər bu sınaqdan uğurla keçdi. İsanın ardınca getdiyi altı ay ərzində otuz müsəlman onun vasitəsilə Məsihə iman etdi. Onun müsəlmanlara əsas danışdığı uşaqlıqda İslam təlimlərindən öyrəndiyi sözlər idi və o həyəcanla belə deyirdi: "Hətta Quranda da İsanın gələcəyi və Onun son cümə duasını edəcəyi barədə qeyd edilib. Bunu hamı bilir! Bu, İslamın təlimidir!"

Mən onunla görüşəndə o, Banqladeşdə ailələri və kəndliləri tərəfindən qovulmuş məsihçilər üçün "Şəhidlərin səsi" təşkilatının təkşil etdiyi təhlükəsiz sığınacaqda yaşayırdı. Orada səhər saat 5:30-da ibadət başlayırdı və Şarkər şagirdlik və müjdəçilik təlimini həvəslə öyrənirdi. Oxumaq qabiliyyəti olmayan Şarkər Müqəddəs Kitabı audio vasitəsilə öyrənirdi. Onun kasetlərində dörd İncil var idi və Müqəddəs Yazılara qulaq asmaq üçün hər dəfə pleyerdəki kaseti əl ilə çevirməli olurdu.

Banqladeşdən evə qayıtdıqdan sonra müjdəçi Osvald Çambersin yazdığı əsərdən bir parça ilə qarşılaşdım və bu mənə Şarkəri xatırlatdı:

> "Biz düşünürük ki, insan təbii qabiliyyətə malik olduğu üçün yaxşı bir məsihçi olacaq. Əsas məsələ bizim qabiliyyətimizdən deyil, əksinə bacarıqsızlığımızdan aslıdır. Bu özümüzlə gətirdiklərimizdən deyil, Allahın daxilimizə qoyduğundan aslıdır. Əsas Allahın çağırışına cavab verib Onun dostu olmaqdır. Allahın dostu olanlar öz yoxsulluğundan xəbərdar olan insanlarladır. Biz məsihçilər heç də öz məqsədimiz üçün deyil, Allahın məqsədi üçün yaşayırıq".[1]

Bu sitatı oxuyanda və Banqladeşdə tanış olduğum insanlar haqqında düşünəndə, Şarkərin hekayəsi qəlbimə xüsusilə təsir etdi. Əgər istedadlı insanların siyahısını tərtib etsək, yəqin ki, Şarkər si-

1 Taken from My Utmost for His Highest by Oswald Chambers, edited by James Reimann, © 1992 by Oswald Chambers Publications Assn., Ltd., and used by permission of Discovery House Publishers, Grand Rapids MI 49501. All rights reserved.

yahının ilk yarısına belə düşməyəcəkdi. O oxuya bilmir və cəmi altı aydır ki, məsihçidir. Ancaq "Allahın məqsədini" yerinə yetirməyə gəldikdə, Rəbb Şarkəri ilk cərgədə görür! İsaya iman etdiyi altı ay ərzində o, artıq çətinliklə üzləşib, döyülüb! Amma o, insanlara İsa haqqında danışmağı dayandırmayıb! Şarkərin vasitəsilə artıq otuz müsəlman Məsihə iman edib!

Özümə və tənbəlliyimə haqq qazandırmağım Şarkər kimi güclü imanlının Məsih üçün cəsarəti, qeyrəti və şəhadətinin işığında çox zəif görünür!

## DÜŞÜNMƏK ÜÇÜN

Şarkərin hekayəsi sizi nə barədə düşünməyə vadar edir? Siz Məsihə xidmət etmək üçün öz "qabiliyyətinizə", yoxsa Rəbbin məqsədini yerinə yetirmək və Onun istədiyi yerə göndərmək üçün sizi gücləndirməsinə güvənirsiniz? Allahdan xahiş edin ki, Onun sizə verdiyi qabiliyyəti Rəbbin deyil, öz qabiliyyətiniz hesab etdiyiniz sahələri sizə göstərsin. Məsihə daha çox və özünüzə daha az etibar etməyin yolları barədə gündəliyinizdə yazın, məsihçi dostunuzla müzakirə edin.

## DUA

"Ya Rəbb İsa, qardaşım Şarkərin imanda nümunəsinə görə Sənə təşəkkür edirəm. Mənə verdiyin hər cür istedad, bacarıq və həvəslə Sənə xidmət etməkdə və başqalarına Sənin haqqında danışmaqda kömək et. Qoy özümü öz məqsədlərimə deyil, Sənin böyük məqsədlərinə çatmağa həsr edim. Amin".

### *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Mən yatağımda, ağcaqanad torunun altında uzanıb yuxuya getməyə çalışıram.

Biz bu gün Dəkkədən beş saat yol getdik, o cümlədən bərə ilə geniş çaydan keçə bildik. Yaxşı ki, yağış mövsümü deyildi! Sonra maşını saxladıq, qayıqla başqa bir çayı keçdik. Lazım olan yerə çatmaq üçün təxminən bir kilometrə yaxın yol getdik.

Bütün bunlar mənim yaşadığım Oklahomadan nə qədər uzaqdır — mən təkcə məsafəni deyil, həm də mədəniyyət və texnologiyanı nəzərdə tuturam!

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"Bu onurğasız din əsrində çox şey olmasa da, Müqəddəs Kitabda Rəbbə xidmətdə mənəvi əzmkarlığın yeri haqqında çox şey yazılıb. Əhdi-Ətiqdə deyilir ki, «Yaqub and içdi», Daniel isə «ürəyində qərar verdi». Paul "aranızda İsa Məsihdən və çarmıxa çəkilmiş Rəbdən başqa heç nə bilməməyi" demişdi. Hər şeydən əvvəl, bizim üçün Rəbb İsanın "üzünü çaxmaq daşı kimi etməsi» və çarmıxa doğru getmək nümunəsi var. Bunlar və bir çoxları bizə Allahın iradəsini yerinə yetirmək üçün güclü iradədən doğan mənəvi əzmkarlıq nümunəsi qoydular! Onlar bulud üzərində cənnətə getməyə çalışmadılar, əksinə, «ürəklərində qəti bir məqsədlə Rəbbə bağlı olduqlarını» sevinclə qəbul etdilər. Biz də Rəbbə təslim olmalıyıq və o anda düşünə bilərik ki, iradəmiz həmişəlik məhv oldu, əslində belə deyil. Allah həyatımıza gəldikdə bizim iradəmizi heç vaxt məhv etmir, amma onu formalaşdırır və Öz iradəsi ilə birləşdirir!"

**E. U. Ţozer**[2]

"Həvariləri içəri çağırıb qamçılatdılar və əmr etdilər ki, İsanın adını çəkərək heç nə danışmasınlar. Sonra onları azad etdilər. Həvarilər bu ad uğrunda təhqirə layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar."

**Həvarilərin İşləri 5:40-41**

2 A. W. Tozer, "Moral Determination," SermonIndex.net, accessed October 27, 2020, http://www.sermonindex.net/modules/articles/index.php?view=article&aid=4693.

# 34-CÜ GÜN



# İŞGƏNCƏYƏ MƏRUZ QALMIŞ ƏLLƏR – 1-Cİ HİSSƏ

"Bəs onlar iman etmədikləri Şəxsi necə çağıracaqlar? Barəsində eşitmədikləri Şəxsə necə iman edəcəklər? Vəz edən olmasa, necə eşidəcəklər? Göndərilməsələr, necə vəz edəcəklər? Necə ki, yazılıb: «Xoş xəbəri müjdələyənin qədəmləri necə də gözəldir!»"

**ROMALILARA 10:14-15**

............................................................

Seul, Koreya, 2008

Mən xanım Çoyun əllərini və göz yaşlarını heç vaxt unutmayacağam.

Çoy Yonq Çin ilə biz Cənubi Koreyanın Seul şəhərində tanış olduq. Lakin o, Koreya Xalq Demokratik Respublikasının şimalında, dünyadan tamamilə qapalı olan Hermit Krallığında böyümüşdü.

Şimali Koreyada məsihçilərin təqibini başa düşmək üçün bu ölkənin rejiminin qondarma ideologiyası və hər bir Şimali Koreya vətəndaşından tələb olunan dini *juşe* haqqında bir az anlayışınız olmalıdır. Juşe ("özünə güvənmə") öyrədir ki, ölkəyə hökmranlıq edən Kimin ailə üzvləri əslində ilahi varlıqlardır.

Uşaqlara yeməkdən əvvəl "minnətdarlıq duası" etməyi öyrədirlər: "Yeməyimiz üçün Kim İr Sen Ata, Sənə təşəkkür edirik". Hər bir Şimali Koreya vətəndaşına Kimin özünü və ailəsini tərifləyən altı yüz mahnıdan ibarət milli "himnlər" toplusundan öyrədilir.

Beləliklə, kimsə İsanın ardınca getdikdə, bu yalnız başqa bir dinə və ya "qərb" fikrinə tabe olmaqdan ibarət deyil. İsanın Rəbb olduğuna inanmaq Kim İr Senin Allah olmadığına inanmaqdır və bu, ölkədə xəyanət hesab olunur. Şimali Koreya hökuməti xəyanətkarları, xüsusən də öz vətəndaşları arasında bu cür fikirləri yaymaqda "cəsarət"ə malik olanları izləməkdə və amansızlıqla təqib etməkdə sayıqdır.

Xanım Çoy Şimali Koreyada qüdrətli kommunist məmuru ilə evli idi. Onun əri bir sözü ilə kimisə həbsdən azad edə bilən səlahiyyəti bir şəxs idi. O, ailəsinin dostuna zəmanət verərək bir məhbusu həbsdən azad etdi. Həmin dost minnətdarlığını bildirmək üçün onların evinə əlində bir hədiyyə ilə gəlmişdi. Bu gizlədilərək torpağa basdırılmış nəm, kiflənmiş kitab idi.

Həmin adam cənab və xanım Çoya dedi: "Bu kitabda yoxsullara kömək etmək üçün göydən gələn İnsan haqqında yazılıb. Onu oxumaq istərdinizmi?"

Cənab Çoy heç vaxt İncil və ya İsa haqqında eşitməmişdi, lakin hekayə ona maraqlı gəldi, ona görə də hədiyyəni qəbul etdi. Xanım Çoy hər gecə heç kim içəri baxmasın deyə evlərinin pəncərələrini yaxşıca örtürdü. Şimali Koreyada qonşulara casusluq etmək və onların evlərində hər hansı qəribə hadisə barədə xəbər vermək təşviq edilir. Xanım Çoy qonşularının onlar barədə xəbər vermədiyinə əmin olmaq istəyirdi.

Daha sonra o, evin küncündə başının üstünə yorğan çəkərək oxumaq üçün gizli bir yer təşkil etdi. O, yorğanını yandırmamağa diqqət edərək, şam yandırıb kiflənmiş köhnə kitabı oxumağa başladı.

Onlara kitabı verən dostları kitabın hamısını oxumazdan əvvəl onun beş hissəsini oxumağı tövsiyyə etdi. "Yaradılış" adlanan birinci bölməni və sonra Yəhya tərəfindən yazılmış dörd digər bölməni oxumağı tapşırmışdı. Başqa bölmələri oxumazdan əvvəl onlara üç dəfə bu hissələri oxumağı söylədi.

Çoy hər gecə şamı söndürməzdən və yorğanın altından çıxıb kitabı gizli yerə qoymazdan əvvəl saatlarla onu oxuyurdu. O, mütaliə etdikdən sonra burnu şamın tüstüsü və beyni suallarla dolu olurdu. O, Yəhyanın Müjdəsində təsvir olunan İsa barədə oxuyanda heyran olurdu. O, Yəhya 1:4-cü ayədə bu sözləri oxudu: "Həyat Onda idi". Yəhya 1:29-cu ayədə deyirdi ki, O, günahı Öz üzərinə götürən Allahın Quzusu idi. Yəhya 7:7-ci ayədə dünyanın Ona nifrət etdiyini, 1 Yəhya 3:13-cü ayədə isə dünyanın Onun ardınca gedənlərə də nifrət edəcəyini söylədi.

Amma kitabda yaxşı vədlər — qələbə və xeyir-dua vədləri də var idi. 1 Yəhya 5:4-cü ayədə deyilir: "Bizə dünya üzərində zəfər qazandıran öz imanımızdır".

Hekayə çox maraqlı idi və xanım Çoyun çoxlu sualları var idi. Amma cavab verən yox idi. Bir neçə ay sonra o, bəzi cavablar almaq imkanı əldə etdi. Bir gün Şimali Koreyanı tərk edən və hazırda Çində yaşayan əmisi onları ziyarət etməyə gəldi. Ailə şam yeməyinə oturduqda Çoy əmisinin yeməkdən əvvəl bir anlıq başını aşağı saldığını gördü. Əmisinin dua etdiyini müşahidə edərkən, Müqəddəs Ruh Çoyun ürəyinə toxundu və oxuduğu hekayələr aydın şəkildə yadına düşdü. Onun iman barədə olan sualları azaldı, imanı artdı.

Ertəsi gün səhər əmisi ona bir mahnı öyrətdi: "Allahım, məni bəlaların uçurumundan xilas etdin. Mən ölmüşdüm və möcüzə nəticəsində dirildim, kor idim və indi isə nuru görürəm!" Daha

sonra Çoy Çindəki əmisinə baş çəkmək üçün dövlətdən icazə aldı və orada olarkən ilk dəfə imanlıların toplantısına getdi. Şimali Koreyaya qayıtmazdan əvvəl toplantının pastoru onunla birlikdə dua etdi.

Hər kəsin casusluq etdiyi bir ölkədə xanım Çoyun İsaya imanı sirr qalmadı. Tezliklə o, "dini casusluq" və "antikommunist ideyaları yaymaq" ittihamı ilə həbs olundu.

Xanım Çoy hekayəsini davam etdikcə otaqdakı ab-hava dəyişdi. Allahın Müjdə vasitəsilə onun ürəyinə toxunduğunu və ona qurtuluş verdiyini eşidəndə hər birimiz Rəbbə şükür etdik. Məsihə imanının ona nəyə başa gəldiyini eşidəndə ürəyimiz sıxıldı və gözlərimiz yaşla doldu.

Xanım Çoy davam etdi: "Məni polisə apardılar, vəhşicəsinə işgəncələrə məruz qaldım. Məni stulun üstündə dizi üstə qalmağa məcbur etdilər. Onlar dizlərimə, üzümə vurdular və bütün bədənimi döydülər. Üzüm göyərmişdi. Onlar məndən casusluq fəaliyyətimi etiraf etməyi və Müqəddəs Kitabı bizə gətirən adamın adını çəkməyimi tələb etdilər. Mən təkrarladım ki, casus deyiləm və Şimali Koreya hökumətinə qarşı heç bir casusluq fəaliyyəti həyata keçirməmişəm. Mən heç kimin adını demədim və təkid etdim ki, Müqəddəs Kitabı ancaq özüm oxumuşam.

İşgəncələr onların istədiyi nəticəni vermədikdə polis taktikanı dəyişdi".

## DÜŞÜNMƏK ÜÇÜN

Xanım Çoy və əri əvvəllər heç vaxt Müqəddəs Kitab görməmişdilər və İsanın kim olduğuna dair heç bir təsəvvürləri yox idi. Siz düşünə bilərsiniz ki, Şimali Koreyada İsa haqqında heç bir anlayışı olmayan insanlar var, lakin qərbdə belə deyil. Amma burada da belələrinə rast gəlmək olur. Siz İsa haqqında heç bir anlayışı olmayan və ya heç vaxt İncil görməyən insan tanıyırsınızmı? Bəlkə, o

adam başqa ölkədən sizin şəhərinizə köçmüşdür. Yaxud o, bütün həyatı boyu orada yaşamış, lakin heç vaxt məsihçilərin ətrafında olmamışdı. Onlarla İsa barədə söhbətə necə başlayacağınız barədə öz fikirlərinizi yazın.

## DUA

"Ya Rəbb İsa, lütfən mənə kömək et ki, ətrafımdakı insanların Sənin və Kəlamın haqqında bildiklərini birmənalı qəbul etməyim. Sənin həqiqətin barədə heç vaxt eşitməyənlərə danışmaq üçün mövcud imkanları görməkdə mənə kömək et. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bu gün çox utandırıcı bir hiss yaşadım! Görünür, adi koreyalının çəkisi mənim çəkimdən çox yüngüldür, çünki bu gün görüşdüyümüz şimali koreyalıdan müsahibə aldığımız zaman oturduğum plastik stul birdən sındı və mən yerə yıxıldım!

Mən stulda arxaya söykənib yellənmirdim, sakitcə oturduğum halda birdən stul sındı! Çox üzrxahlıq etdilər və tez mənə yeni stul gətirdilər, amma mən çox utandım.

Düşünürəm ki, pəhrizə başlamağın vaxtıdır.



## 35-Cİ GÜN

# İŞGƏNCƏYƏ MƏRUZ QALMIŞ ƏLLƏR – 2-Cİ HİSSƏ

"Çünki Allahdan doğulan hər kəs dünyaya qalib gəlir. Bizə dünya üzərində zəfər qazandıran öz imanımızdır."

**1 YƏHYA 5:4**

.................................................

Seul, Koreya, 2008

Xanım Çoya işgəncə verərkən ona Müqəddəs Kitabı çatdıran adamın adını demədikdə Şimali Koreya polisi öz taktikasını dəyişdi. Onlar bu qadına mənəvi işgəncə vermək qərarına gəldilər.

Polis Çoyun evinə gəlib ərinə dedi ki, əgər o, həyat yoldaşına qarşı ifadə versə, arvadının Müqəddəs Kitaba sahib olması və onu oxuması kimi "cinayətlərini" etiraf etsə, onda arvadını tezliklə azad edəcəklər.

Sonra onlar həbsxanaya xanım Çoyun yanına gəlib dedilər: "Əriniz sizə qarşı ifadə verdi. İndi siz hər şeyi etiraf edə bilərsiniz".

Hətta illər keçsə də, ərinin xəyanətini xatırlayaraq xanım Çoy dərindən nəfəs alıb göz yaşlarını tez-tez silərək başına gələnləri danışırdı.

"Bundan sonra ayaqlarımı bağladılar və məni başıaşağı asıb döydülər. Həbsxanada məni hər gün döyürdülər.

Xanım Çoy sözünü davam etdi: "Polislər məni ayağa qaldırıb əllərimi qapıdakı kiçik pəncərədən çıxarmağa məcbur etdilər və barmaqlarıma, əllərimə dəmir boru ilə vurdular. Hər tərəfimdən qan axırdı. Əllərim elə yaralanmışdı ki, iyirmi gün ərzində onları tərpədə bilmədim".

O, hekayəni danışarkən əllərini qaldırıb bizə göstərdi. İşgəncələrin izləri hələ də aydın görünürdü, çünki bir neçə barmağı əyilmişdi. İnsanın barmaqlarını dəmir boru ilə döyməyin ağrısını təsəvvür etmək dəhşətdir.

Xanım Çoyun məhkəmə vaxtı gələndə əri polisin ona yalan danışdığını anlatdı. Arvadının əleyhinə ifadə vermək əvəzinə, onun müdafiəsi üçün cəsarətli sözlər söylədi. Təəccüblüdür ki, beş saatlıq məhkəmə prosesinin sonunda o, "günahsız" hesab olundu.

Lakin hökümət Çoyun "günahsız" hesab olunmasını məqbul hesab etmədi və hakimin qərarı ləğv edildi, yeni məhkəmə təyin edildi. Onun ikinci məhkəməsi cəmi bir saat çəkdi və xanım Çoy özünü müdafiə etmək üçün danışa bilmədi. Çünki çox döyüldüyünə görə üzü şişmişdi və o danışa bilmədi. Bu dəfə o, günahkar hesab olunaraq on beş il müddətinə azadlıqdan məhrum edildi.

O dedi: "Həbsxanada həmişə, hətta mühafizəçilər tərəfindən döyüləndə belə dua edirdim".

O, Müqəddəs Kitabın kiflənmiş səhifələrində oxuduğu bəzi ayələri də xatırladı. İsanın sözlərini bizə təkrarladı: "Sənin sağ yanağına vurana sol yanağını da çevir".

Çoy 1 Yəyhayada oxuduğu vədlərə sadiq qaldı. Onun imanı dünyaya, hətta diktator Kimin rejiminin yaratdığı dünyaya da qalib gələcəyinə inanırdı.

Bir il həbs ərzində xanım Çoy o qədər arıqladı ki, çəkisi otuz kiloqram idi. Əri ilə görüşməyə icazə verildikdə, həyat yoldaşına onu həbsxanadan çıxartması üçün yalvardı. Çoyun əri evlərini satdı və maddi yardım etmək istəyən hər dost və ailə üzvündən pul topladı. O, topladığı bütün pulları və televizorunu həbsxana mühafizəçilərinə verdi və beləliklə, xanım Çoy azadlığa buraxıldı.

O bizə dedi: "Həbs olunmazdan əvvəl, inanırdım ki, mənim ölkəm dünyanın ən yaxşı ölkəsidir! Amma mən həbsxanada olarkən Şimali Koreyanın necə olduğunu anladım. Ərimə dedim ki, əgər sağlamlığımı bərpa edə bilsəm, bu torpaqda yaşamaq istəmirəm, çünki indi bu ölkənin necə olduğunu anlayıram!"

Nəhayət, o, qaçaraq Çinə və oradan da Cənubi Koreyaya keçdi.

Çox vaxt biz təqib olunan məsihçilərlə rastlaşanda görürük ki, onların yaraları sağalıb və onlar öz təqibçilərini tamamilə bağışlayıblar. Bu, təkcə xanım Çoyun başına gəlməyib. O, Kim Çen İrin (Şimali Koreyanın o vaxtkı rəhbəri) həmvətənlərinə etdiyi dəhşətli işgəncələr barədə bizə bir qədər ətraflı məlumat verdi. Onun göz yaşlarını və əyilmiş barmaqlarını görəndə, əlbəttə ki, əzablarını anladıq.

Biz onunla görüşəndə xanım Çoy vətənini əsarət altına alan şər rejimə qarşı mübarizə aparırdı. Lakin o, mübarizəni tüfəng və ya bomba kimi silahla deyil, ruhani silahla aparırdı. O, Seulda məsihçi radio xidmətinin komanda üzvü kimi işləyirdi. Onlar Müqəddəs Yazıları və digər məsihçi proqramlarını Şimali Koreyaya yayımlayırdı. Bu radio stansiyanın xidmətlərindən biri xanım Çoy kimi şimali koreyalı qaçqınların öz hekayələrini bölüşməsi idi. Onlar şimali koreyalılara "Əziz rəhbərləri" haqqında həqiqəti, eləcə də öz dostlarına və ailələrinə Cənubi Koreyaya sağ-salamat çatdıqlarını bildirirdilər.

Çoyun barmaqları dəmir boru ilə döyüldüyünə görə şikəst olmuşdu. O, əvvəlki çevikliyini və gücünü heç vaxt bərpa etməyəcəkdi. Lakin onun səsi güclüdür, çünki o, Allahı izzətləndirir və imanı dünyaya, hətta indi Kim Çen İnin amansızcasına idarə etdiyi dünyaya da qalib gəlir.

## DÜŞÜNMƏK ÜÇÜN

1 Yəhya 5:4-cü ayədə tərcümə olunan "qalib gəlir" yunan sözünün mənası əslində "qalib çıxmaq" deməkdir. Biz məsihçilər imanımızda möhkəm dayanıb sınağa və təqiblərə, hətta ölümə də qalib gələndə əslində "qalib çıxırıq".

Xanım Çoy ilə söhbətim mənə təhqir edənləri bağışlamağın nə qədər çətin olduğunu xatırlatdı. İstərdik ki, "qalib gəlmək" və ya "qalib çıxmaq" ifadələrinin mənası belə olsun: İsa həyatımızda başqalarının günahlarının nəticəsini fövqəltəbii şəkildə aradan qaldırsın. Həm də dərhal Rəbb onlara qarşı acı, qəzəb və kin hissini qəlbimizdən ləğv etsin. Bəzi insanların həyatında bu belə də baş verir, xanım Çoy da ona bu qədər ağrı verənləri bağışlamağa çalışır. Ola bilsin ki, siz də belə bir vəziyyətdəsiniz. Əgər belədirsə, özünüzlə və Allahla səmimi olun. Rəbdən xahiş edin ki, ürəyinizi yumşaltsın. Ondan diləyin ki, siz tamamilə bağışlamaq və ağrılardan, qəzəbdən və kin-küdurətdən azad olmaq üçün Öz ilahi qüdrəti ilə sizə kömək etsin.

### DUA

"Ya Rəbb İsa, günahlarımı bağışladığın üçün Sənə təşəkkür edirəm. Etdiyim günahların əvəzini ödəməkdən ötrü çarmıxda öldüyün üçün Sənə minnətdaram. Ürəyimi yumşalt və mənə «dünyaya qalib gəlmək» üçün güc ver. Məni bağışladığın kimi qoy mən də Sənin gücünlə məni incidənləri bağışlaya bilim. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Çantalarımız Seul hava limanındakı baqaj konveyer kəməri ilə bizə yaxınlaşdı. Onların ətrafına polad kabellər bağlanmış və yan tərəfində yanıb-sönən lampası olan kiçik bir qutu ilə bir-birinə birləşdirilmişdi. Əvvəlki dayanacağımızda oğlanlarımızı sevindirəcək hədiyyə olaraq bıçaqlar almışdıq, lakin Seulda rentgen aparatından keçərkən çatanda bıçaqlar görünmüşdü. Bıçaqların tiyəsi Cənubi Koreyaya gətirilməsinə icazə verilən normadan on beş santimetr uzun idi. Yanıb-sönən işıq gömrük işçilərinə çantalarımızda təhlükəli bir şeyin olduğunu bildirmək üçün idi. Bu bizi çox narahat etdi!

Bıçaqları hava limanındakı gömrük məntəqəsində saxlamalı, sonra evə — ABŞ-a uçmaq üçün hava limanına qayıdanda onları götürməli olduq. Ancaq geri qayıdarkən bu proses bizim üçün bir sınaq idi. Gömrük işçisi iki bıçağı plastik torbaya büküb təyyarənin giriş qapısına qədər bizimlə getdi, sonra bıçaqları təyyarəyə qəbul etmək üçün ekipajdan icazə aldı. Təyyarə kapitanının icazəsindən sonra nəhayət, bıçaqları yoxlanılmış baqaj kimi etiketlədilər və baqaj bölməsinə yerləşdirdilər.

Asiyadan evə iyirmi dollardan ucuz başa gələn iki bıçağı alıb gətirmək necə də çətin idi!

*(Müəllifin qeydi: Bu, oğlanlar üçün hədiyyə bıçaq gətirdiyim son səfər idi!)*



## 36-CI GÜN

# LAOSDA BİR VƏZ

"Bu kəlamın icraçısı olun, yalnız eşidənlər olub özünüzü aldatmayın. Çünki kəlamı eşidən, amma icraçısı olmayan şəxs güzgüdə öz üzünün cizgilərinə baxan adama bənzəyir: O öz-özünə baxır, kənara çəkilir və dərhal necə olduğunu unudur. Lakin kamil qanuna, azadlıq qanununa diqqətlə baxıb ona bağlı qalan şəxs unutqan eşidən deyil, əməldə icraçıdır; belə adam öz işində nə bəxtiyardır!"

**YAQUB 1:22-25**

.........................................................

Laos, 2011

Biz Laosun şimalında kiçik bir kilsə binasında görüşdük. Kilsə çılpaq beton döşəmə üzərində tikilmiş sadə quruluşlu bir bina idi. İstifadə etdikləri plastik stullar bir divar boyunca yığılmışdı, lakin ev sahiblərimiz söhbətimiz üçün onlardan dörd-beşini kilsənin qarşısında dairə kimi düzdü. Biz orada oturub söhbətə başladıq, hava isti idi. Kilsədə işləyən sərinkeş isti havanı yalnız ətrafa yayırdı və qətiyyən sərinlik vermirdi.

Həmin gün biz bir neçə laoslu məsihçidən müsahibə aldıq. Amma mənim həmişə yadımda qalan "Fan qardaş" və onun eşitdiyi ilk vəzin hekayəsi oldu.

Fan Şimali Laosun ucqar hissəsində yerləşən kiçik bir kənddə anadan olmuşdu. Böyüyəndən sonra o, dünyanı görmək istəyirdi, amma kiçik kənddə bu imkan yox idi. Beləliklə, bir gənc olaraq, o, Laosun paytaxtı Vyentyana yola düşdü.

Kiçik bir kənddən gələn Fan üçün Vyentyan böyük görünürdü. Siqnal səsləri, minlərlə motorlu skuterlər, izdiham və gur işıqlar onu həm qorxudur, həm də həyəcanlandırırdı. Lakin şəhər əhalisi onun ümid etdiyi kimi qonaqpərvər deyildi və o burada özünə heç bir iş tapa bilmədi. Beləliklə, Fan küçədə qalmalı oldu və yeməyə heç nəyi yox idi.

Fan eşitmişdi ki, şəhərlərdə pulsuz düyü verilən bir yer var. Bunun yalan və ya doğru olduğunu bilmirdi, amma o qədər ac idi ki, bunun doğru olduğunu öyrənmək üçün həmin yerə getdi. Doğma kəndində ona demişdilər ki, üstündə xaç olan binada pulsuz düyü verilir. Fan əvvəllər xaçın necə göründüyünü təsvir etmirdi, amma ona izah edildikdən sonra, xaçın necə göründüyünü təsvir etdi.

Fanın bir qab düyüyə ehtiyacı var idi.

O, bir kilsə tapdı və içəri girdi. Mənə öz hekayəsini danışarkən, Fan kilsədə pulsuz düyü haqqında danışmadı. Onu heyrətə gətirən kilsədə eşitdikləri idi. Orada bizi çox sevdiyinə görə çarmıxda ölməklə günahımızın cəzasını ödəmək üçün Öz Oğlunu göndərən Allahın hekayəsi barədə danışılırdı.

Fan hekayədən valeh oldu və dərhal günahkar olduğunu və cəzasını ödəmək üçün Rəbbə ehtiyac duyduğunu anladı. O, həmin kilsənin pastoru ilə danışdı, tövbə duasını etdi və həyatını onun üçün ölmüş İsaya həsr etdi.

Həmin pastorun o gün Fana yemək verib-vermədiyini bilmirəm. Fan danışarkən bunu qeyd etmədi. Onun əsas qeyd etdiyi Rəbbin çağırışına cavab verməsi idi.

Fan bilirdi ki, onun doğma kəndində heç kim İsa haqqında bu heyrətamiz xəbəri eşitməyib və onun tapdığı rahatlıq və sevinci onların əldə etmək imkanı yoxdur, çünki onların kəndində heç bir kilsə yox idi. Sonra Fan öz kəndinə qayıdıb orada yaşayanlara İsa barədə danışmaq qərarına gəldi.

Beləliklə, Fan şəhərdə geniş iqtisadi imkanlar olmasına baxmayaraq avtobusa minib Vyentyanı tərk etdi. O, saatlarla şimala, öz kiçik kəndinə qayıtdı, insanları bir yerə topladı və Vyentyanda eşitdiklərini onlara danışdı.

Kəndə qayıtdıqdan sonra Fanın başladığı xidmət vasitəsilə on altı ailə Buddizmi və əcdadlara ibadəti tərk edib Məsihin davamçısı oldu. Fan yalnız bir vəz eşitdikdən sonra onun vasitəsilə yüzdən çox insan Məsihə iman etdi!

O, imanında böyüməkdə davam etdi və öyrəndiklərini öz kəndində yeni imanlılara da öyrətdi.

Lakin onun imanı və xidməti həm ona, həm də kəndindəki digər yeni imanlılara baha başa gəldi.

"Yad dindən" imtina edib əvvəlki yollarına qayıdanlar Fanı digər iman edənlərlə birlikdə kənddən qovdular. Onlara deyildi: "Siz ya məsihçi olmağı, ya da bizim kənddə yaşamağı seçməlisiniz. Amma ikisini də seçə bilməzsiniz". Fan və digər imanlılar Məsihi seçdilər.

Hökumət rəsmiləri polis və yük maşınları göndərdi. Məsihçi olan hər kəsin kəndi tərk etməsi elan edildi. İsaya iman edənlər əllərinə düşəni götürdülər. Onları yük maşınlarına mindirib kənddən uzaqlaşdırdılar və onlara dedilər ki, geri qayıtmasınlar.

Nəhayət, Fan və onun imanlı dostları yaşamaq üçün yeni bir kənd tapdılar, lakin mən onunla görüşəndə o və digər məsihçilər də yeni kəndlərindən qovulmaqla hədələnirdilər. Amma Fan bu təhdidlərdən xəbərsiz deyildi. O, artıq bir kənddən qovulduqdan sonra Tanrının onların ehtiyaclarını təmin etdiyini görmüşdü. Əgər belə bir hadisə təkrarlansa, Allah onları tək qoyacaqdımı?

Biz Fanla görüşəndə o, artıq həm kilsədə, həm də xalqına Müjdəni yayan radioda çoxlu vəzlər eşitmişdi. Amma Fanın eşitdiyi

ilk vəz vasitəsilə Allahın onun həyatında nə qədər iş gördüyünü heç vaxt unutmayacağam. Bir vəz onun və kəndlilərinin həyatında necə belə bəhrə verə bilərdi? Bu vəz sözün əsl mənasında yüzdən çox insanın həyatını dəyişdirdi!

Fan ilə görüşdükdən bir neçə il sonra Cənubi Asiyadan olan həmkarımla yollarımız kəsişdi və onun gələcək taleyi ilə maraqlandım. Həmkarım da Fanı və onun hekayəsini xatırladı. O mənə Fanın qəfil öldüyünü bildirdi. İndi dostumuz eşitdiyi həmin ilk vəzin pulsuz bir kasa düyüdən daha böyük əbədi mükafatlarını alır.

## DÜŞÜNMƏK ÜÇÜN

Mən bir pastorun, müjdəçinin oğluyam və o isti Laos kilsəsində oturub tər tökəndə dərhal Fan qardaşın hekayəsini xatırladım. Çox vəzlər eşitmişəm, əslində son əlli il ərzində minlərlə vəz eşitmişəm.

Bəs dəfələrlə kilsəmdən, kollec ibadətgahından çıxanda və ya pastoru dinləyəndən sonra həyatımı əvvəlki kimi yaşamağa davam edirəmmi? Sanki mənim və həftə ərzində görüşəcəyim insanlar üçün əbədi əhəmiyyət kəsb edən xəbəri eşitməmişəm? Belə hallar çox tez-tez olur.

Fan qardaş bir vəz eşitdikdən sonra kilsədən çıxdı, avtobusda saatlarla yol gedib öz kəndinə qayıtdı. Sonra onun vasitəsilə on altı ailə İsaya iman etdi. Bu, bir vəzin dəyərindən maksimum yararlanmaqdır!

Bəs siz? Sonuncu dəfə nə vaxt kilsədən çıxıb Allahın xəbərini eşitməyə ehtiyacı olan birini axtarmısınız? Bir çoxumuz üçün bu, tez-tez baş vermir.

Bu həftə sonu kilsənizdən çıxanda Fan qardaşı xatırlayın. Gündəliyinizdə ruhani həqiqəti, Müqəddəs Yazılardan bir parçanı və ya sizə təsir edən bir şəhadətliyi qeyd edin. Bu həftə həmin qeydi paylaşacağınız şəxsin adını yazın.

## DUA

"Ya Rəbb, bizim malik olduğumuz şeylər çoxdur. Bizə maddi xeyir-dualarını, Kəlamını və Həqiqətini eşitmək imkanı vermisən. Azadlığımızdan düzgün istifadə etməkdə bizə kömək et! Qoy biz Kəlamın həyatımız üçün açar olduğunu və bunu könüllü, sərbəst, müntəzəm olaraq ətrafımızdakılara danışmağı unutmayaq."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Mən bu "Bangkok Airways" təyyarəsinin ön cərgəsində olan təcili çıxışın yanında oturmuşam. Stüardessa təcili çıxış qapısını necə və nə vaxt açmağı (kapitan "Evakuasiya edin!" elanı verəndə) mənə göstərdi.

Sonra təbəssümlə izahatını tamamlayıb dedi: "Amma lütfən, bunu məşq etməyin".

# TƏQİB EDİLƏN MƏSİHÇİLƏR ÜÇÜN DUA EDİN

Təqib olunan məsihçilərin bizdən ilk xahişi budur: "Bizim üçün dua edin".

Onların ikinci xahişi isə budur: "Bizim üçün daha çox Müqəddəs Kitab göndərin".

Təqib olunan bacı-qardaşlarımız Allahın Kəlamının qüdrətini — insanları İsaya cəlb etməyin gücünü yaxşı başa düşürlər. Çünki bu, imanlıları təqiblərə hazırlayan və onlara qalib gəlməyə kömək edən gücdür.

**BU GÜN DUA EDİN.** Müqəddəs Kitabın bütün dünyada, xüsusilə də, həqiqətə düşmənçilik mövqeyində olan məhdudiyyətli ölkələrdə yayılması üçün bu gün dua edin. Dua edin ki, belə ərazilərdə yaşayan hər bir imanlı Allahın Kəlamına sahib olsun.

## 37-Cİ GÜN



# “BİZ ONUN ÜÇÜN ÇOX DARIXIRIQ!”

“Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir. Siz də Məsihin bədənisiniz, ayrı-ayrılıqda isə bu bədənin üzvlərisiniz.”

**1 KORİNFLİLƏRƏ 12:26-27**

.....................................................

Cənubşərqi Asiya, 2019-cu il

Onun əri iki ildən artıq idi ki, itkin düşmüşdü. Onu 2017-ci ildə Malayziyada qırx saniyədən az vaxt aparan hərbi tipli əməliyyat zamanı küçədən qaçırmışdılar. Bu əməliyyatda yeddi maşın və on beş kişi iştirak etmişdi. O gündən bəri pastor Raymond Kohu heç kim görməyib və onun maşını heç vaxt tapılmadı. Ailə üzvləri

onun qaçırılmasının təhlükəsizlik kamerası ilə çəkilən görüntülərini tapmasaydı, sanki Raymond yoxa çıxmış kimi görünəcəkdi.

Mən Raymondun ağlayan arvadı Suzannanın qarşısında rəqəmsal səs diktofonunu işlək vəziyyətdə tutmuşam.

Söhbətimizin audio yazısında da onun ağladığı hiss olunurdu. Suzanna dedi: "Biz onun üçün çox darıxırıq. Ən çətin olan onun harada olduğunu, başına nə gəldiyini və hazırda necə olduğunu bilməməkdir." O, ərinin axtarışı üçün uşaqları ilə birgə öz hökumətlərindən cavab almaqda və onlarla mübarizə aparmaqda nə qədər əziyyət çəkdiyindən danışdı. İki ildir ki, bu ailə Malayziya rəhbərliyinə "Raymondun yoxa çıxmasında" təqsirkar insanları məsuliyyətə cəlb etmək üçün yalvarır, onlardan tələb edir və ya onları dilə gətirməyə çalışır.

Suzanna bir anlıq fikirlərini toplamaq üçün dayandı və göz yaşlarını sildi. Mən ondan bu növbəti sözləri gözləmirdim: "Lakin biz Allaha şükür edirik".

O, dualar, açıqcalar, məktublar və e-poçtlarda ifadə olunan dünyadakı məsihçilərin məhəbbətinə görə Allaha şükür etdi. Bunlar onu və uşaqlarını uzun gecələr və qaranlıq günlərdə ruhlandırmaqda kömək etmişdi. Onun ailəsinin yanında olan təkcə Allahın ailəsi deyildi; bu, Allahın Özü — «rəhmli Ata və hər cür təsəlli verən Allah» idi (2 Korinflilərə 1:3).

Suzanna dedi: "Allah bizim üçün çox real və şəxsi olub. Mən ilk üç həftəni xatırlayıram, özümü çox itirmişdim və hətta panik atak keçirmişdim. Lakin biz səssiz bir guşəyə çəkilməyə qərar verdik və bu, həqiqətən də, diqqətimi İsaya yönəltməkdə mənə kömək etdi.

"Xoşuma gələn Məzmur 46:10-cu ayədir: «Dayanın, bilin ki, Mən Allaham». Mənim mübarizə aparıb səy göstərməyimə lüzum yoxdur. Mən əmin ola bilərəm ki, Rəbb mənimlədir, O məni heç vaxt atmayacaq və tərk etməyəcək. Hər şey Onu sevənlərin və Onun məqsədinə uyğun çağırılanların xeyrinə işləyir. Vəziyyət çətin olsa da, Onun lütfünün kifayət qədər olduğunu görürəm."

Suzanna, həm də mənə dedi ki, Allah Raymondu keçirdiyi sınaq üçün öncədən hazırlamışdı. O qaçırılmazdan bir neçə ay əvvəl demişdi ki, Allahla son vaxtlar daha yaxın ünsiyyətlər qurur. Duaya həmişəkindən daha çox vaxt sərf edir və Müqəddəs Yazıları əzbərləyirdi.

Suzanna dedi: "O, səhər tezdən üç saata yaxın dua gəzintisinə gedirdi. Eləcə də Müqəddəs Kitabdan müəyyən ayələri və fəsilləri əzbərləyib mənə deyirdi: «Mən indicə 1 Korinflilərə 15-ci fəsli əzbərlədim». Düşünürdüm ki, Raymond bir məsihçi kimi əla nümunə idi və o çox intizamlı idi".

Suzannna deyirdi ki, əri hansısa pis hadisənin baş verəcəyini hiss etmirdi. Lakin arvadına aydın idi ki, Allah Raymondun oğurlanmasından bir neçə ay əvvəl ərinin imanını gücləndirirdi.

O, Raymondu əsirlikdə qalmaq üçün özünəməxsus tərzdə təmin edən nemətlərə görə Allaha şükür etdi. Suzanna dedi ki, əri çox sadə adam idi, qarderobunda yalnız üç şalvarı və üç köynəyi olması ilə kifayətlənirdi. O sağlam idi, hətta ondan çox kiçik olan yeniyetmələrlə bir futbol liqasında futbol oynamışdı. Raymondu əsir götürənlər ona heç bir dərman verməyəcəkdi, çünki onun buna ehtiyacı yox idi. Buna görə də Suzanna Rəbbə minnətdar idi.

Raymond qaçırıldığı gündən çox əvvəl təhlükdə olduğunu bilirdi. Oğurlanmasından bir neçə il əvvəl o, poçt vasitəsilə kiçik bir qutu almışdı. Onu açanda qutuda iki güllə var idi. Suzanna da poçtla arzuolunmaz məktublar almışdı. Zərfdə ağ toz var idi, bu zəhər ola bilərdi. Bunun mənası o idi ki, Rəbbə xidməti dayandırın, yoxsa...

Raymond və Suzanna Rəbbə xidməti dayandırmadılar. Onlar İsanın adını şərəfləndirmək üçün yoxsullara kömək edən xidmətlərini davam etdilər. Bu xidmətin risklərindən xəbərdar idilər, amma Rəbbə xidmət etməkdən geri çəkilmədilər.

"Bəli, o, bəzi qorxu və təlaşları ilə Rəbbə xidmətini davam etdirdi. Raymond hiss edirdi ki, Rəbb onu Böyük Tapşırığı yerinə

yetirməyə çağırıb və bu tapşırıq hər qəbilə, millət və dil üçün nəzərdə tutulub. Allah insanlar arasında ayrı-seçkilik qoymur, ona görə də biz Rəbbin köməyi ilə kasıblarla, imkansızlarla işimizi davam etdirdik. Demək olar ki, beş-altı il idi ki, heç bir təhdidimiz yox idi, ona görə də hər şeyin qaydasında olduğunu düşünürdük."

Hər şey qaydasında idi. Amma bir gün Suzannanın əri evə qayıtmadı.

Suzanna itkin düşmüş əri barədə ərizə vermək üçün polis bölməsinə gedəndə, o gün Raymondun harada olduğunu, kiminlə görüşdüyünü və ya hansı maşın sürdüyünü soruşmaq əvəzinə polis Suzannanı Rəbbə xidməti ilə bağlı sorğu-sual etdi. Amma polis əri barədə heç nə soruşmadı. Onlar Raymondun tapılmasında demək olar ki, heç bir maraq göstərmədilər. Onların əsas məqsədi bu idi ki, müsəlman malay xalqı məsihçiliyi qəbul etməsin. Nəhayət, Suzanna ayağa qalxıb küçəyə çıxdı. Raymondun oğurlanmasının video görüntülərini polis deyil, onun öz ailəsi tapdı.

Mən 2017-ci ildə pastor Raymondun oğurlandığı gün Suzannanın kişilərə qarşı nə hisslər keçirdiyini soruşdum. Onun cavabı heyrətamiz ruhani yetkinliyini, həm də bunu qazanmaq üçün mübarizə apardığını göstərdi.

O dedi: "Əvvəldən mən onları bağışlamaq qərarına gəldim, çünki onlar nə etdiklərini bilmirlər və mən Rəbbimiz İsadan nümunə götürürəm. Ona görə də ürəyimdə qaranlıq heç nə yoxdur, çünki Allahın mənim vasitəmlə işləməsini istəyirəm.

Ancaq bu heç də asan olmadı. İki il ərzində İnsan Hüquqları Komissiyasının ictimai təhqiqatında dindirilən polislərlə rastlaşanda bəzən yalan danışdıqları üçün onları boğmaq istəmişəm. Sadəcə onlar əməkdaşlıq etmək istəmirdilər. Yadımdadır, bir dəfə avtomobildə gedərkən polisə qarşı pis münasibətimə görə Rəbb məni ifşa etdi. Mən Onun qarşısında göz yaşları ilə tövbə etməli oldum və sonra polis üçün dua etdim. Bütün sistem korrupsiyalar, qalmaqallar və şərlə doludur və mən düşünürəm ki, bunlara başqa mövqedən bax-

malıyam. Tanrı Malayziyada təmizləmə işləri aparır və O, bütün qaranlıq və şəri üzə çıxarmalıdır ki, Rəbbin nuru parlasın. Biz məsihçilər dünyanın duzu və nuruyuq. Biz dua etməli və Malayziyada Allahın iradəsinin yerinə yetməsini görməliyik.

Allah mənim onları bağışlamağım və onlara görə dua etməyim üçün əvvəlcə qəlbimdə iş görməli idi, çünki onlar Rəbbi tanımalıdırlar. Malayziyada oyanışın olması üçün birinci növbədə insanların həyatında oyanış olmalıdır".

## DÜŞÜNMƏK ÜÇÜN

Suzanna Kohun ərinin qaçırılmasından sonrakı illərdə məsihçilərin duaları və məhəbbəti ona dayaq oldu. İmanlı bacı-qardaşların çətinliklər zamanı sizi necə ruhlandırması barədə gündəliyinizdə yazın. Hal-hazırda elə bir məsihçi qardaş və ya bacı varmı ki, siz Məsihin bədəni olaraq ona güc, dəstək və ümid verə bilərsiniz?

## DUA

"Ya Rəbb İsa, Suzannanın qəlbində işlədiyin kimi mənim də ürəyimdə işlə. Başqalarını bağışlamaqda mənə kömək et. Ətrafımdakıları, hətta mənə zərər verən və ya incidənləri sevmək, eləcə də, onları Sənin Padşahlığına gətirmək üçün mənə güc ver. Amin."

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Suzanna deyir ki, onlar Raymondun itməsini ictimaiyyətin diqqətində saxlamaq üçün mübarizə aparırlar, həmçinin baş verənləri izah etmək üçün hökumətə təzyiq göstərməyə davam edirlər. Ona görə də Suzanna ərinin başına gələnləri doqquz yüzdən çox radio stansiya vasitəsilə yayımlanmasına razılaşdı.

## *Dinləmək*

Suzanna Koh ilə həmin gün yazılan müsahibəni www.VOMRadio.net/Koh saytında dinləyə bilərsiniz.

# 38-Cİ GÜN



# QƏBİRSTANLIQDA YATAN KİŞİ

"Sən qayğı yükünü Rəbbə ver, qoy sənə dayaq olsun. O heç vaxt salehə sarsıntı verməz."

**MƏZMUR 55:22**

## Süleymaniyyə, İraq, 2008

O, qəbiristanlığın ortasında, daşlarla əhatə olunmuş bir qəbrin yanında uzandı. Bizə dedi: "Mən əsən soyuq küləkdən daldalanmaq üçün daşlara yaxın uzanırdım. Çünki gecələr bura çox soyuq olurdu".

Biz xüsusi olaraq bu qəbiristanlığa gəldik ki, Zarquos bizə İslamı tərk edib Məsihə ürəyini verdikdən sonra evsiz qaldığı altı ay ərzində harada yatdığını və necə sağ qaldığını göstərsin.

Zarquos ilk dəfə İsanı yuxuda görmüşdü. O, dəqiq tarixi xatırlayırdı, çünki bu, anasının ölümündən bir gün əvvəl olmuşdu. Yuxusunda İsa inanılmaz dərəcədə parlaq bir işıq kimi ona göründü. Bu

nur o qədər parlayırdı ki, Zarquos gözlərini yummalı olmuşdu. İsa ona məhəbbətlə demişdi: "Qorxma. Mənim yanıma gəl".

Yuxudan sonra Zarquos ənənəvi bir kilsəyə getdi. Lakin orada keşiş ona dedi: "Müsəlmanlara bura gəlməyə icazə verilmir". Sonra o, bir radio alıb, məsihçi proqramlarına qulaq asmağa başladı. Radioda bir ünvan səsləndirildi, Zarquos həmin ünvana bir məktub yazaraq İsanı yuxuda gördüyünü və Onun təlimləri haqqında daha çox öyrənmək istədiyini bildirdi. Onun məktubuna cavab olaraq yaxınlıqdakı məsihçilərin adları və telefon nömrələri göndərildi. Bundan sonra Zarquosla görüş təyin olundu və o, digər imanlılarla birlikdə tövbə edərək həyatını Məsihə verdi.

Mən Zarquosla onun kirayə götürdüyü evin qonaq otağında oturmuşduq və o mənə dedi: "İnandığım andan həyatımda təqiblər başladı". O, imanı haqqında birinci öz arvadı Çiminə danışdı. Ona qəzəblənən ilk insan da elə öz həyat yoldaşı oldu. Arvadının atası və qardaşı imam idi. Həyat yoldaşı təsəvvür belə etməzdi ki, əri kafir olacaq. Cütlük valideynlərinə nə deyəcəkdilər?

Arvadının ailəsi Zarquosun İslama qayıtması üçün sakit yolla onu dilə gətirməyə çalışdı. Lakin sakit yalvarışlar işə yaramayanda vəziyyət gərginləşdi. Onlar əvvəlcə qışqırıqlar, hədə-qorxular və sonra isə silahlı hücumla onu İslama qaytarmağa cəhd etdilər. Zarquos qayınatası ilə sülh danışıqları aparmaq üçün özü ilə dostlarını apardı və atılan güllələr iki dostuna dəydi. Onlardan üçü isə qaçdı.

Çiminin ailəsi Zarquosa arvadını və iki qızını evə aparmağa icazə vermədilər. Çiminin atası qışqıraraq dedi ki, qızının məsihçi ilə evlənməsi İslam qanunlarına ziddir. Zarquos Məsihi qəbul edibsə, onda qızını və nəvələrini onunla getməyə qoymayacaq.

Zarquos evə tək qayıtdı. İki həftə sonra o, qonaq otağında oturmuşdu. Birdən kimsə ön pəncərədən içəri bir qumbara atdı. Qumbara partladı, lakin möcüzəli şəkildə Zarquos sağ qaldı. Arvadı və uşaqları onun əlindən alınmışdı və indi onun həyatı təhlükə altında idi. O öz evindən qaçdı və altı ay küçələrdə yaşadı. Ac

qalmamaq üçün dostundan bir neçə dinar borc götürdü. Zarquos özünə azca yemək alırdı və gecələr isə şəhər qəbiristanlığına çəkilib orada yatırdı.

Zarquosun həyat yoldaşından və qızlarından ayrı qalıb qəbiristanlıqda yatdığı vaxtlarda Müqəddəs Yazılardan hansı ayələri xatırladığını soruşdum. O dərhal Məzmur 55:22-ci ayədən sitat gətirdi: "Sən qayğı yükünü Rəbbə ver, qoy sənə dayaq olsun. O heç vaxt salehə sarsıntı verməz".

Mən təəccübləndim və soruşdum: "Zarquos, siz ailənizdən ayrı qalıb qəbiristanlıqda yatarkən həqiqətən Tanrının qayğınıza qaldığını hiss edirdiniz?"

O dedi: "Mən hər zaman hiss edirdim ki, Allah mənimlədir. Dua və ruhani vaxt üçün bu gözəl məqam idi. Bu mənim üçün Allahla ən yaxşı vaxt idi".

Zarquos mənə bu hekayəni danışarkən Çimin ərinin yanında divanda oturmuşdu. Ailəsi onu altı ay ərindən uzaqlaşdırdı, lakin bundan sonra o, boşanmaqdansa, məsihçi ilə birlikdə yaşamağı üstün saydı.

Arvadı evə qayıdanda hələ də Zarquosa qarşı çox qəzəbli idi. Axı əri niyə bu yolu seçdi? Çimin ərinin yanına qayıtdı, amma o, ərinin yeni inamından heç də razı deyildi.

Lakin sonrakı iki il ərzində Çimin gördü ki, əri ona görə çəkdiyi böyük əziyyətlərə baxmayaraq, İsaya uyğun iman həyatı yaşayır. Zarquos işini itirdi, amma imanını saxladı. Ailəsi ilə münasibətlərini itirdi, amma imanını qorudu. Çimin əri ilə pis rəftar etdi, ona qarşı qəzəbləndi, amma o, arvadına xeyir-dua və məhəbbətlə cavab verdi. Nəhayət, arvadı başa düşdü ki, ərinə qarşı mübarizə apara bilmir.

Mən Çimindən soruşdum: "İsanın həqiqət olduğunu anlamaqda fikrinizi nə dəyişdi?"

Çimin cavab verdi: "Zarquosun imanı çox güclü idi və ona görə mən də İsanın ardınca getməyə qərar verdim. Həyat yoldaşımın imanına görə Allaha şükür edirəm, çünki onun imanı güclü idi və

mən onun imanına qarşı dayana bilmədim. Ona görə də onunla imanda birgə olmaq qərarına gəldim".

Çimin bilirdi ki, ərinin imanını qəbul etsə, ailəsi onunla ünsiyyətini tamamilə kəsəcək. O bilirdi ki, bu ona baha başa gələcək. Ərinin davranışı ona o qədər təsir etdi ki, ərinin imanını əldə etmək üçün hər şeyə hazır idi.

Mən onlardan soruşdum ki, imanda və xidmətdə birlikdə olmaq nə deməkdir. "Bu, daha yaxşıdır" — deyə Çimin cavab verdi. O, ailəsinin Məsihə iman etməsinin mümkün olmadığını bilsə də, hələ də onlar üçün dua edir və deyir: "Amma, Allah üçün hər şey mümkündür".

Söhbətimizi bitirəndə mən insanların onlar üçün necə dua edə biləcəyini soruşdum. Onlar xahiş etdilər ki, Rəbbin onlara ev verməsi üçün dua edək, çünki kirayə qalmaq məsihçi cütlük üçün çətin idi. Övladlarından birinin ehtiyacı üçün də dua etməyimizi xahiş etdilər.

Zarquos mənə baxaraq dedi: "Amerikadakı kilsələrə bir sözümüz var. Qoy onlar Müqəddəs Kitabdan möhkəm yapışsınlar. Bizim təcrübəmiz göstərdi ki, Müqəddəs Kitabın sayəsində biz hələ də bir yerdəyik!"

"Hal-hazırda Amerika üçün bu, yaxşı bir sözdür" — deyə mən fikrimi bildirdim.

Silahlı adamların dayandığı yoxlama məntəqələrindən keçərək otelimizə qədər iki saatlıq yol qət etdik. Mən yolda Məsihə olan imanını inkar etməkdənsə, ailəsindən ayrı qəbiristanlıqda yatmağı üstün tutan insanı düşündüm. Bu insan sonra həmin vaxtları *həyatında Allahla keçirdiyi ən gözəl vaxtlar adlandırdı.*

## DÜŞÜNMƏK ÜÇÜN

Zarquosa qarşı hirsləndiyi və onunla pis rəftar etdiyi vaxtlarda ərinin öz imanına uyğun yaşadığını görən Çimin onun imanını

“qəbul etməyə bilməzdi”. O, ərində olan imanı əldə etmək istəyirdi! Ətrafınızda kimdəsə belə bir iman görmüsünüz? Bu insanın imanı sizə nə zaman daha çox təsir etdi: o, bolluq və rahatlıq içində yaşayanda, yoxsa çətinlik və uğursuzluqla qarşılaşanda? Sizə göstərdiyi nümunəyə görə həmin şəxsə təşəkkür etdinizmi?

Ən əsası, yaşadığınız iman həyatını ətrafınızdakılar görəndə onlar da imanınız haqqında eşitmək istəyirlərmi? Gündəliyinizdə bu iman həyatını təsvir edin.

## DUA

“Ya Rəbb, Sənə şükürlər olsun ki, «salehlərin sarsılmasına heç vaxt imkan verməyəcəksən». Sənə şükürlər olsun ki, başqalarının həqiqəti tanıması üçün hətta ağrılarımızda və çətinliklərimizdə belə, bizdən istifadə edirsən. Qoy mən elə iman həyatı yaşayım ki, onu görən insanlar Məsihi tanımaq istəsinlər. Amin”.

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bizə kömək edən bəzi iraqlı məsihçilərlə birgə furqonlu maşında səyahət edirdik. Kərkükə gedərkən çöllük bir yerdə keçid məntəqəsində bizi saxladılar. Orada AK-47 avtomatlarla kamuflyaj geyimli iki nəfər var idi və onlardan biri şəxsiyyət vəsiqələrini tələb edirdi. O, iki ABŞ pasportunu görəndə sanki gözləri işıqlandı. Mənə və iş yoldaşıma mikroavtobusdan düşüb onun ardınca getməyi söylədi.

Amerikalıların mikroavtobusdakı digər sərnişinlərdən ayrılması heç də yaxşı görünmürdü və əli silahlı adam bizi yoldan uzaq bir təpənin arxasına apararkən ürəyim çox sürətlə döyünməyə başladı. Biz mikroavtobusu daha görmürdük. Mən oğurlanacağımıza əmin idim.

O bizi dəmir damlı kiçik bir binaya apardı. Orada onun komandiri bizi şəxsən salamlamaq, Amerikanı nə qədər sevdiyini və Kürdüstanda necə xoş qarşılandığımızı söyləmək istədi! Yenidən rahat nəfəs almağa başlayanda ona demək istədim ki, o, mikroavtobusun yanına gəlib bunu söyləsəydi, nə qədər gözəl olardı!

Məlum oldu ki, onlar kürd peşmərgə qoşunlarındandır və həqiqətən də Amerikanı sevirlər!



## 39-CU GÜN



# İŞGƏNCƏ VERƏNLƏR ÜÇÜN DUA

"Ey arvadlar, siz də eyni tərzdə öz ərlərinizə tabe olun. Əgər onlardan bəzisi Allahın kəlamına itaət etməzsə, siz arvadların isməti, ehtiramlı həyat tərzinizi müşahidə etsinlər; beləcə onları dinməz-söyləməz qazana bilərsiniz."

**1 PETER 3:1-2**

........................................................

Efiopiya, 2005

"Neqasi" onun müjdəçi ilə ailə qurması barədə haqlı idi, lakin onlardan kimin daha uğurlu müjdəçi olacağı barədə səhv edirdi!

Mən Neqasi ilə Efiopiyanın cənubunda, əhalinin əksəriyyətinin müsəlman olduğu bir bölgədə yerləşən kilsədə tanış

oldum. Kilsədə ibtidai məktəb (dördüncü sinfə qədər) də var idi və biz təqib olunan məsihçilərdən müsahibə alarkən uşaqların səsini eşidirdik. Onların futbol və digər oyunlar oynadığını pəncərədən görürdük.

Neqasi kilsədə təlim seminarına qoşulan pastorlardan biri idi və o həm də ziyarətə gələn xaricilərlə görüşmək istəyirdi.

Mən Neqasidən əvvəllər müsəlman olub-olmadığını soruşdum və o, İsaya iman etməzdən əvvəl müsəlman olduğunu dedi.

Mən ondan soruşdum: “Niyə İsanın davamçısı olmaq üçün İslamı tərk etdiniz?”

O belə cavab verdi: “Seçimi edən mən deyiləm. İsa məni seçdi!”

Sonra o, mənə ailə qurması barədə öz hekayəsini danışdı.

Neqasi şərti olaraq İfe adlandıracağımız gənc qıza vurulmuşdu. Bir dəfə Neqasi onunla zarafat edəndə qız “İsanın adı ilə” ifadəsini işlətdi.

Neqasi İfenin müsəlman ailəsindən olduğunu bilirdi və güman edirdi ki, İfe də müsəlmandır. Amma İfenin sözlərinin nə demək olduğunu Neqasi yaxşı bilirdi. Bu o demək idi ki, qız məsihçidir. Qızın İsanın davamçısı olduğunu bilən Neqasi onu evinə apardı və zorla onunla evlənməyə məcbur etdi. “İfe onunla zor gücünə evləndi” — deyə tərcüməçim tərcümə etdi. Düzünü desəm, çox sual vermək istəmədim, çünki bu qəribə səslənirdi. Bir qadınla məcburi evlənən kişi necə pastor ola bilərdi? Bu cür başlanğıcdan necə evlilik yarana bilərdi?

İfe əri üçün dua etməkdə sadiq idi. Əri nə etsə də, onun üçün dua etməyi davam etdirdi. Neqasinin məqsədi həyat yoldaşını yenidən İslama qaytarmaq idi. O hər cəhdlə arvadını İslama qaytarmağa çalışdı.

Neqasi həyat yoldaşı haqqında belə dedi: “Üç il ərzində mən arvadımı döydüm və işgəncə verdim, lakin o, imanında güclü idi və heç vaxt geri çəkilmədi”. İllər keçsə də, arvadını imanından döndərə bilmədi.

Evliliklərinin üç əzablı ilindən sonra İfenin dualarına cavab gəldi.

Bir gecə Neqasi öz otağında İslam qaydalarına uyğun tək dua edirdi. Gecə yarısı qapılar bağlı idi, birdən otaq işıqla doldu və İsa onun qarşısında peyda oldu. O, İsanın yaralı əllərini gördü.

İsa ondan soruşdu: "Kimə dua edirsən?" Sonra Neqasiyə bildirdi ki, O, Məhəmməddən daha üstündür və onu ana bətnində olandan bəri tanıyır. Bu vaxta kimi onun qayğısına qalan da Odur.

Günəş çıxanda Neqasi çayı keçərək yaxınlıqdakı kilsəyə getdi. Bazar günü idi və kilsə üzvləri ibadət üçün toplaşmışdılar. Lakin onlar öz həyat yoldaşını və məsihçiləri təqib edən qatı müsəlman Neqasini görməkdən çox da məmnun olmadılar.

Kilsədə ondan soruşdular: "Siz İsaya nifrət edirsiniz. Buraya niyə gəlmisiniz?"

"Məni bura gətirən elə İsadır" — deyə Neqasi cavab verdi. Bir müjdəçi onu çox sorğu-sual etdi və Neqasinin həqiqətən Məsihin ardınca getmək istədiyini gördü. Onlar Neqasi ilə dua etməzdən əvvəl İslamı tərk edib İsanın ardınca getməyin nə olduğunu ona izah etdilər: "Məsihçi olduğunuz üçün təqiblərə məruz qalacaqsınız. Sizi incidə bilərlər, onda siz necə cavab verəcəksiniz?"

Neqasinin cavabı sadə idi: "Məni bura gətirən İsa hər şeyin öhdəsindən gələcək. O məni tərk etməyəcək".

Kilsədən evə qayıdanda namaz vaxtı idi. Öz əvvəlki adətinə görə Neqasi dua etmək üçün diz çökdü. Amma indi o, İslam qaydalarına uyğun dua etmədi. İsadan zehnini, dilini açmasını və Rəbbi daha yaxından tanıması üçün ürəyini dəyişməsini istədi.

Neqasi arvadına İsanın ona göründüyünü söylədi. İfe "Halleluya! Halleluya!" deyərək elə yüksək səslə qışqırdı ki, hətta qonşular da bunu eşitdilər.

Kilsə üzvləri Neqasiyə təqiblər barədə bildirmişdilər və onların dedikləri tezliklə yerinə yetdi. Bir neçə gün sonra bir qrup yerli müsəlman Neqasi ilə qarşılaşdı və ondan müsəlman duasını deməsini tələb etdi. Ərəb dilini öyrəndiyi üçün özünü Quranda ya-

zılanlarla müdafiə etməyə çalışdı: "Quranda deyilir ki, İsa Allahın Oğludur, Məhəmməd isə sadəcə bir peyğəmbərdir". Müsəlman kişilər buna inanmadılar və Neqasiyə bir həftə vaxt verdilər ki, fikrini dəyişsin və İslama qayıtsın. Əgər bunu etməsə, ona qarşı cihad edəcəklərinə söz verdilər.

Bir həftə sonra onlar geri qayıtdılar və müsəlmanlardan biri Neqasinin boynuna qılıncı dirədi. Arvadını üç il döyən bu imanlı üç həftədən az müddətdə cəsarətli bir müjdəçi oldu. "Əgər mən ölsəm, oğlum müjdəçi olacaq. Əgər kimsə bədənimi kəssə, mənə toxunan hər kəs məsihçi olacaq. Öldüyüm yerdə isə kilsə tikiləcək". Möcüzə nəticəsində camaat onu tərk edib getdi.

Amma təhdidlər davam edirdi. Bir dəfə radikal müsəlmanlar Neqasinin evinə gəldilər, lakin o, evdə deyildi. Onlar İfe və oğlunun əl-qolunu bağlayıb, sonra evi yandırdılar. Üç il döyülməyə dözən və ərinin xilası üçün yorulmadan dua edən qadının imanı yanan evinin alovu kimi idi. Evi alovlar bürüdükcə o bərkdən qışqırırdı: "Şadrakın, Meşakın və Aved-Neqonun Allahı mənim də Allahımdır!" O, oğlu ilə birlikdə yanan evdən sağ-salamat çıxdı.

Mən onunla görüşəndə Neqasi dedi ki, o və İfe müjdəçidir. O, kişilərə, arvadı isə qadınlara Müjdəni bölüşür. Onlar öz kəndlərini tərk etməli olsalar da, getdikləri yerdə hər kəsə İsa barədə danışmaqda davam edirlər. Onların nikahı həqiqətən də iki müjdəçinin ittifaqı idi və bu, Neqasinin əvvəllər düşündüyü kimi deyildi.

## DÜŞÜNMƏK ÜÇÜN

Mən heç bir qadına İfenin olduğu zorakı vəziyyətdə qalmağı məsləhət görməzdim. Bununla belə, Allah İfenin pisliyə yaxşılıqla cavab vermək istəyindən və duada əzmkarlığından istifadə etdi. Rəbb onun ərinin ürəyini dəyişdi və onlar heyrətamiz bir xidmətə

başladılar. Həyatınızda daha səylə dua etməli olduğunuz bir sahə varmı? Öz səyinizi kənara atmaq istəsəniz belə, əzmkarlıq göstərməli olduğunuz sahə barədə gündəliyinizdə yazın və ya bir məsihçi dostunuzla müzakirə edin.

## DUA

"Ya Rəbb İsa, Sənə şükürlər olsun ki, ən pis insan belə Sənin lütfündən kənarda deyil. Mənə kömək et ki, yoluma çıxardığın hələ səni tanımayan insanlar, mənə qarşı qəzəbli və ya kobud olsalar belə, onlar üçün dua etməyi dayandırmayım".

## *Sizin gündəliyiniz üçün*

## *Mənim gündəliyimdən*

Bu gün söhbət etdiyimiz şəxs məsihçi bir qızla zorla evlənən müsəlman idi. Üç il ərzində o, arvadını döydü. İsa ona "Ardımca gəl" deyənə qədər həyat yoldaşını İslama qaytarmağa çalışdı. Ərini Məsihə gətirmək üçün illərlə döyülməyə dözməyin nə olduğunu təsəvvür edə bilərsinizmi? O, Məsihin ardınca getdiyi üçün döyüldü və ölümlə üzləşdi, lakin bunlara baxmayaraq imanda möhkəm qaldı.

## DÜŞÜNMƏK ÜÇÜN SİTATLAR

"Ölüm həyatımızın ən xoşbəxt günüdür. Biz buna görə hər şeydən çox sevinməliyik, çünki bu, bizim əsl vətənimizə köçməyimizdir."

**Moris Ţornay** (1910-1949)[1]

1 John Foxe and The Voice of the Martyrs, Foxe: Voices of the Martyrs (Washington, DC: Salem Books, 2019).



## 40-CI GÜN

# RUHANİ İRS

"Ağası ona dedi: «Afərin, yaxşı və sadiq qulum! Sən xırda işlərdə sadiq oldun, səni böyük işlər üzərinə qoyacağam. Ağanın sevincinə şərik ol!»"

**MATTA 25:21**

.............................................

### Halmahera, İndoneziya, 2003

Son iyirmi üç il ərzində işlə bağlı səfərlərimin əksəriyyətində ən yaxşı hissə sonluqdur. Həyat yoldaşımın və övladlarımın yanına qayıtmağı çox sevirəm! Evə qayıdarkən uçuşlar elə uzun görünür ki, sanki heç vaxt bitməyəcək. Həyat yoldaşımı qucaqlamaq, öz çarpayımda yatmaq, çamadanımı açmaq və səyahətdən əldə etdiyim hekayələr barədə danışmaq üçün tələsirəm.

Əziz oxucu, bizim birgə qırx günlük səfərimiz demək olar ki, başa çatır. Ümid edirəm ki, siz paylaşdığımız hekayələri və ən əsası, dünyanın hər yerində təqib olunan məsihçilərin nümunələri vasitəsilə Allahın sizə öyrətdikləri barədə ətraflı düşünəcəksiniz.

Son bir hekayə əvəzinə sizə bir şəkil göstərmək istəyirəm.



Hər dəfə bu fotoşəkilə baxanda mənə təsir edir. Mən bu şəkli 2003-cü ildə İndoneziyada çəkmişəm. Bu bir boş qəbirdir.

Mən və həmkarlarım İndoneziyanın şərqində, səfərimizdən bir neçə il əvvəl məsihçilərə qarşı şiddətli təqiblərin olduğu Maluku adlanan bölgədə yerləşən Halmahera adasında olduq. Məsihçiliyi adaya gətirən ilk insanlar 1860-cı illərdə Halmaheraya gələn hollandiyalı müjdəçi ər-arvad olub.

Mən bu ailə haqqında demək olar ki, heç nə bilmirəm, ancaq onlar Müjdəni o adaya çatdırmaq üçün gəldilər, burada öldülər. Onları tikdikləri evin yanında, gözəl bir gölün yaxınlığındakı təpədə basdırdılar. Onların hansı məzhəbə mənsub olduqlarını, neçə uşaqlarının olduğunu və ya əbədiyyətə qovuşmazdan əvvəl orada nə qədər yaşadıqlarını bilmirəm. Görəsən, onlar o adada yaşayan bir

çoxlarının Məsihə iman etdiyini görüblərmi? Onlar uzun illər yalnız bir və ya iki indoneziyalının İsaya iman etməsi üçün zəhmət çəkiblər? Bəlkə, onlar heç vaxt bir insanın belə, Məsihə iman etdiyini görməmişdilər. Bu barədə heç nə deyə bilmirəm.

Bircə onu bilirəm ki, bu cütlük o adada yaşayıb, xidmət edib, ölüb və onlar bu qəbirdə dəfn olunublar.

Fotoşəkilə baxıb bu haqda nəsə demək çətindir, lakin onların məzarı indi boşdur. Bu müjdəçilərin dəfn olunduğu məzarda heç bir sümük yoxdur.

Mən oraya gəlməzdən bir neçə il əvvəl radikal müsəlmanlar Halmaherada qəzəblənmişdilər. Komandamız onların yandırdıqları bəzi kilsələri gördü. Eləcə də, biz onların hücum etdikləri, yaraladıqları və ailə üzvlərinin gözləri önündə vəhşicəsinə öldürüldüyü məsihçilərlə görüşdük. Lakin radikal müsəlmanlar təkcə kilsə binalarına, məsihçilərin evlərinə deyil, onların özlərinə də hücum etmişdilər. Onların qəzəb və nifrəti təkcə kilsələrə hücum etməklə kifayətlənmədi.

Qəzəblə dolu izdiham yüz ildən çox yaşı olan bu məzarın olmasına o qədər qəzəblənmişdi ki, hollandiyalı müjdəçi cütlüyün sümüklərini çıxarıb yandırmışdılar. Onlar müjdəçilərin sümüklərini yandırmaq və "müsəlman" adalarından məsihçiliyi silmək, hətta adada mövcud olan ilk məsihçiliyin şahidi olan "mənbəyi" yox etmək üçün tonqal yandırdılar.

Bu ailə haqqında mən demək olar ki, heç nə bilmirəm. Amma onu bilirəm ki, hollandiyalı müjdəçi cütlük orada heyrətamiz ruhani miras qoyub.

Həmin müjdəçi cütlüyün ruhani irsi o qədər böyük idi ki, ölümlərindən bir əsrdən çox vaxt keçməsinə baxmayaraq, düşmən onlara qarşı hələ də qəzəbli idi. Düşmən ona görə qəzəbli idi ki, kimsə "onun" ərazisinə Müjdə bayrağı sancmışdı. O, hələ də itirilən hər metr torpaq üçün, əbədiyyəti cənnətdə keçirəcək hər itirilmiş cana görə qəzəblidir. Hollandiyalı cütlüyün ölümündən yüz ildən çox vaxt keçsə də, insanlar onların sümüklərinin basdırıldığı yeri göstərərək "onlar məsihçi idi" deyirdilər.

Hörmətli oxucu, əgər siz öləndən yüz il sonra şeytan həyat tərzinizə və Məsih üçün şəhadətlik etdiyinizə görə hələ də qəzəblənəcəksə, deməli bu, yüksək şərəf və heyrətamiz ruhani mirasdır! Keçən qırx gündə səyahət zamanı biz elə insanlarla görüşdük ki, şeytan uzun müddət onlara qəzəblənəcək.

Rəbbin bizə verdiyi ömür boyu belə insanlar olmağa və Onun üçün bu cür həyat yaşamağa qərar verməliyik.

## DÜŞÜNMƏK ÜÇÜN

Siz ruhani irsinizin nə olmasını istəyirsiniz? Siz istəyirsiniz ki, əbədiyyətdə Rəbbə qovuşandan sonra şeytan hələ də qəzəblənsin? Gündəliyinizdə qoyacağınız miras haqqında yazın. Bu gün qoyub getmək istədiyiniz ruhani mirası artırmaq üçün nə edəcəksiniz?

## DUA

"Ya Rəbb İsa, imanda cəsarətlə yaşamağım üçün mənə güc ver. Qoy bütün həyatım, eləcə də mənim vasitəmlə toxunduğun insanların həyatı əbədiyyətdə əhəmiyyətli iz buraxsın. Ətrafımda olan hər kəsə Səni və məhəbbətini göstərməkdə mənə kömək et. Qoy mən səbir və mətanətlə özümdən sonra ruhani irs qoyum. Amin".

### *Sizin gündəliyiniz üçün*

## Mənim gündəliyimdən

"Laskar Cihad" döyüşçüləri həm dənizdən, həm də cəngəllikdən hücum etdilər. Buna görə də kəndlilər başqa yerə qaça bilmədilər. Bu qruplaşma İndoneziya dilindən tərcümədə "cihad döyüşçüləri" deməkdir. Cəfər Ömər Talib tərəfindən qurulmuş bu qruplaşma məsihçilərin əleyhinə olan islamçı bir qruplaşmadır. Çəkdiyimiz şəkillərin birində iyirmiyə yaxın adam bir yerə toplaşıb. Onların yaxınları bu hücum nəticəsində həlak olub.

Bu gün Romalılara məktubdan bu ayəni oxuyuram:

"Hər şeydən əvvəl, hamınız üçün İsa Məsihin vasitəsilə Allahıma şükür edirəm ki, imanınız bütün dünyada elan olunur" (Romalılara 1:8).

Düşünürəm ki, bu, "Şəhidlərin səsi" təşkilatı üçün yaxşı bir ayədir və biz bütün dünyada təqib olunan məsihçilərin imanını elan edirik.

# MİNNƏTDARLIQ

Əlinizdə tutduğunuz bu kitab mənim uzun illər olan arzularımın gerçəkləşməsidir. Arzularımız başqalarının köməyi olmadan gerçəkləşmir!

Öncə mən son iyirmi üç il ərzində tanış olduğum və müsahibə aldığım təqib olunan məsihçilərə öz minnətdarlığımı bildirirəm. Müsahibə zamanı verdiyim suallar onların həyatlarının ən ağrılı və çətin anları barədə idi. Bununla belə, onlar başlarına gələnləri həvəslə danışdılar, suallar verməyimə və həyatlarında baş verən hadisələri diktafona yazmağa icazə verdilər. Bu söhbətlər mənim üçün müqəddəs bir şərəfdir. Çox sağ olun, bacı və qardaşlarım. Ümid edirəm həyatınızda baş verən hadisələri insanlara layiqincə çatdıra bilmişəm.

Həyat yoldaşım Şarlotta fədakarlıqla məni Rəbbə əmanət edərək dünyada ən təhlükəli yerlərə səfərlərə göndərdi. Bəzən o da mənimlə birgə "Şəhidlərin səsi" təşkilatının xidmət etdiyi iman qəhrəmanları ilə görüşmək üçün səyahətə çıxdı. O mənim həyatımda, xidmətimdə tərəfdaşım və ən yaxşı dostumdur. Həmişə arzu etmişəm ki, həyat yoldaşımla səyahət edib birgə evə qayıdaq. Onun qədər mənə yaxın başqa adam tanımıram.

Oğullarımız Kameron və Kedrik mənim üçün dua etdilər, analarının qayğısına qaldılar və hər səfərdən sonra danışdığım hekayələri dinlədilər. İndi onların öz həyat yoldaşları, işləri və məsuliyyətləri var. Həyatlarında İsanı sevdiklərinə görə onlara minnətdaram!

Daniella və Laura ikisi də son illərdə ailəmizə qoşulublar, uzun illər oğlanlardan sonra indi iki qızımız da var. Oğullarımız çox yaxşı seçim etdilər və biz gəlinlərimizi öz övladlarımız kimi sevirik!

Valideynlərim Fil və Lusil Netleton mənə Məsihə necə xidmət etməyi nümayiş etdirdilər. "Şəhidlərin səsi" təşkilatında işləmək üçün ilk addımı 1982-ci ildə atmışam. Bu, ailəmizin müjdəçilik xidməti üçün Amerikanı tərk edib Papua Yeni Qvineyaya yola düşdüyü gündür. O vaxtdan bəri valideynlərim müxtəlif yerlərdə xidmət etdilər və təyyarə ilə bir çox səhayətlərdə oldular! Onların həm Allaha, həm də insanlara xidmət etmək üçün sadiq ürəkləri hələ də mənim ilham mənbəyimdir.

Mən bu kitabı illərlə yazmaq istəyirdim, lakin heç vaxt kitabı yazmaq üçün kifayət qədər intizamlı olmamışdım. Bu vəziyyət kitabı yazmaq üçün dostum və keçmiş iş yoldaşım Dr. Sid Uebbdən kömək istədikdən sonra dəyişdi. O, bu işi görməkdə məni həvəsləndirdi. Onun köməyi olmasaydı, siz bu kitabı əlinizdə tutmayacaqdınız. Minəttdaram, Dr. Sid!

"Şəhidlərin səsi" təşkilatından olan dostlarımın və həmkarlarımın sevgisinə və dəstəyinə görə onlara minnətdaram.

Hal-hazırda "Şəhidlərin səsi" təşkilatının prezidenti, direktorum Kol Riçardsın rəhbərliyinə görə minnətdaram. Kol bu kitab, "Şəhidlərin səsi" təşkilatının radiosu və şəxsən mənim üçün müdafiəçi olmuşdur.

"Şəhidlərin səsi" təşkilatının radiosunun işə başlamasına görə "Şəhidlərin səsi" təşkilatının keçmiş prezidenti Cim Dauya da dərin minnətdarlığımı bildirirəm. İlk proqramlardan Cim mənim işimə inandı, proqramlarımı və məni dəstəklədi. O mənə həm sözlə, həm də maliyyə dəstəyi ilə kömək etdi. Təşəkkür edirəm, Cim.

Kris Robinett bu kitabın nəşri üçün "Moody Publishers" ilə əlaqə yaratmaqda və nəşr barədə olan bütün təfərrüatları işləyib hazırlamaqda mənə kömək etdi ki, mən diqqətimi bütünlüklə hekayələr üzərində toplayım.

Şeril Odden illər əvvəl məni "Şəhidlərin səsi" təşkilatında işə götürdü və məni təqib olunan məsihçilərə xidmətə dəvət edərək həyatımın gedişatını dəyişdirdi. O və David Robbins bu kitabdakı Müqəddəs Yazılardan olan sitatları və tətbiq məzmununu güclən-

dirməkdə böyük köməklik göstərdilər. Mən onların verdiyi töhfəyə görə çox minnətdaram.

"Şəhidlərin səsi" təşkilatının beynəlxalq xidmətinin işçiləri (adlarını yazmağımı istəməzdilər) —xidmətdə gözəl tərəfdaşlar və təqib olunan ailə üzvlərimizin heyrətamiz xidmətçiləridir. Burada oxuduğunuz hər səfərdə beynəlxalq xidmətin işçiləri demək olar ki, mənimlə birgə səyahət ediblər. Onlar təfərrüatları işləyib hazırlayıblar, məni ən yaxşı hekayələr olan səmtə yönəldiblər, tərcüməçilər təşkil ediblər, məni məlumatlandırıblar. Eləcə də məni (demək olar ki, həmişə) problemlərdən qoruyublar və hər zaman işimi asanlaşdırmağa kömək ediblər. Mən onlarla səyahət etmək, həmkar, bacı-qardaş və dost kimi tanış olmaq üçün yaranan hər fürsətə görə çox şadam.

Tim, Oliv və Hyu "Şəhidlərin səsi" təşkilatının radiosunun fəaliyyət göstərməsində əsas rol oynayırlar. Ceremi Berton məni və bu kitabı çox dəstəklədi. Con Uilke mənim publisistim kimi xidmət edib, müxtəlif media işçiləri vasitəsilə on minlərlə insanla ünsiyyət qurmaqda qapılar açıb. Rocer Kemp və onun RK Mediadakı komandası (mən onları "«Şəhidlərin səsi» təşkilatının radiosunun qərb sahil ofisi" adlandırıram) "Şəhidlərin səsi" təşkilatının radiosunun əhatə dairəsini artırıblar. Onlar təqib olunan ailə üzvlərimizin şəhadətliklərini bir çoxlarına çatdırıblar.

"Şəhidlərin səsi" təşkilatındakı ailəmin hər bir üzvünə görə minnətdaram və istərdim ki, hər birinin adını qeyd edim. Onlar hər həftənin radio proqramı üçün sənət əsərlərini təqdim edir, yazı, fotoqrafiya və dizayn vasitəsilə "Şəhidlərin səsi" təşkilatının aylıq jurnalında təqib olunan məsihçilərin hekayələrini paylaşır, sosial media vasitəsilə və "VOM Advance" konfranslarında bölüşürlər. Onlar həmçinin bütün dünyaya yardım göndərir, təyyarə biletlərini təşkil edir, ianələr toplayır, kompüterlərimizin təhlükəsiz işləməsini təmin edir, xərcləri ödəyir və iş yerimizin səliqəli görünməsini təşkil edirlər. İsanı sevən və Onun kilsəsinə sədaqətlə xidmət edən bu qardaş və bacılarla birgə xidmət etmək mənim üçün bir şərəfdir.

“Moody Publishers” komandası ilə işləmək mənim üçün heyrətamiz bir xeyir-dua oldu. Emi Simpson bu kitabla bağlı fikirlərimi cəld başa düşdü və o, kompüterimdə yazılanları kitab kimi ərsəyə çıxardı. Dr. Kevin Emmert əlyazmanı redaktə etdi və hər bir hekayənin daha parlaq və aydın görünməsində mənə kömək etdi. “Moody” şirkətinin dizayn komandası isə səyahət motivini çox gözəl əks etdirən bir kitab üzlüyünü və içərisindəki səhifələri yaratdı. “Moody” şirkətindəki komandanın hər bir üzvünə təşəkkür edirəm!

Nəhayət, əziz oxucu, mən sizə təşəkkür edirəm! Ümid edirəm ki, qırx gün təqib olunan ailə üzvlərimizlə görüşdükdən sonra 41-ci gündə imanınız fərqli olacaq. İman uğrunda nəyi qurban versək də, İsa buna layiqdir!

# MÜNDƏRİCAT

UÇUŞ GÜNÜ: Uçuşdan əvvəl nəzarət yoxlama ........................ 9
1-Cİ GÜN: Bizim nəzarətimizdən kənar................................ 17
2-Cİ GÜN: "Əvvəllər mən onu döyərdim"............................... 23
3-CÜ GÜN: "Bizim heç nəyə ehtiyacımız yoxdur"........................ 29
4-CÜ GÜN: "Mən hətta duş qəbul edəndə belə suda boğula bilərəm" .. 35
5-Cİ GÜN: "Bunlardan hansı daha yaxşıdır?" ............................ 41
6-CI GÜN: "Ona olan ümid mənə güc verirdi!"............................ 49
7-Cİ GÜN: Daha yaxşı olmaq üçün çalışmaq — 1-ci hissə............... 55
8-Cİ GÜN: "Həyatımın ən gözəl vaxtı" ................................. 61
9-CU GÜN: Təqiblər təsadüf deyil, bir gözləntidir ..................... 69
10-CU GÜN: "Biz uzun müddət dua etdik…"............................. 75
11-Cİ GÜN: Eritreyada qorxu............................................ 83
12-Cİ GÜN: "Əgər Allah bizdən istifadə edə bilsə…"................... 89
13-CÜ GÜN: Müqəddəslik nümunəsi ...................................... 95
14-CÜ GÜN: Paltoda güllə dəliyi ........................................ 103
15-Cİ GÜN: İman haqqında şəhadətlik.................................... 109
16-CI GÜN: "O gözəl vaxt idi!"........................................... 115
17-Cİ GÜN: "İndi o, Allahı daha çox sevir" ............................... 121
18-Cİ GÜN: Allahın niyyətinə görə sevinmək............................ 129
19-CU GÜN: Həbsxananın Müqəddəs Kitabı ............................. 135
20-Cİ GÜN: "Biz hamımız bilirik…"...................................... 141
21-Cİ GÜN: İkiqat pay — 1-ci hissə ....................................... 149
22-Cİ GÜN: İkiqat pay — 2-ci hissə....................................... 155
23-CÜ GÜN: İkiqat pay — 3-cü hissə...................................... 161
24-CÜ GÜN: İkiqat pay — 4-cü hissə...................................... 169
25-Cİ GÜN: İkiqat pay — 5-ci hissə....................................... 175

26-CI GÜN: "Əgər bütün dünya inansaydı…" ........................... 181
27-Cİ GÜN: Dəfn mərasimində vəz........................................ 187
28-Cİ GÜN: "Onları tualet kağızı kimi istifadə edə bilərsiniz!" ........... 193
29-CU GÜN: "Heç kim Məsih barədə danışmağa mane ola bilməz!" .... 199
30-CU GÜN: Həvarilərin izi ilə........................................... 205
31-Cİ GÜN: "…Mən sizə rahatlıq verərəm…" .......................... 211
32-Cİ GÜN: "Sübut edin ki, siz məsihçisiniz!" ............................ 217
33-CÜ GÜN: "Hətta Quranda da yazılıb ki, İsa gələcək!"................. 223
34-CÜ GÜN: İşgəncəyə məruz qalmış əllər — 1-ci hissə ................ 229
35-Cİ GÜN: İşgəncəyə məruz qalmış əllər — 2-ci hissə ................. 235
36-CI GÜN: Laosda bir vəz............................................... 241
37-Cİ GÜN: "Biz onun üçün çox darıxırıq!"................................. 247
38-Cİ GÜN: Qəbirstanlıqda yatan kişi ...................................... 253
39-CU GÜN: İşgəncə verənlər üçün dua.................................... 259
40-CI GÜN: Ruhani irs ..................................................... 265
MİNNƏTDARLIQ.................................................................. 271

## Təqib olunan məsihçilərlə görüşmək üçün səyahət

Tod Nettlton ("Şəhidlərin səsi" radiosunun aparıcısı, VOMradio.net) 20 ildən artıqdır ki, dünyanı səyahət edir. O, Məsih uğrunda təqib olunan yüzlərlə məsihçilərdən müsahibə alır. İndi Tod Məsihə imanınızı artırmaq və ruhlandırmaq üçün sizi cəsarətli imanlılarla görüşməyə dəvət edir.

Bu məsihçilərə iman həyatı baha başa gəlsə də, öz Xilaskarlarından dönmədilər. Onların hekayələri imanda möhkəm qalmağımızda bizə kömək edə bilər.

AZ

ISBN: 978-617-503-251-0